CAVADXAN QASIMOV









# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFI REGİONAL DÖVLƏT PROQRAMLARININ İCRASI MÜSTƏVİSİNDƏ

(2004-2018-Cİ İLLƏR)

DƏRS VƏSAİTİ

**CAVADXAN YUSİF oğlu QASIMOV**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFI REGİONAL DÖVLƏT PROQRAMLARININ İCRASI MÜSTƏVİSİNDƏ (2004-2018-Cİ İLLƏR)

***Dərs vəsaiti***

***Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 30 noyabr 2020-ci il tarixli (pr.№04) qərarı ilə çapa məsləhət görülmüşdür.***

**NAXÇIVAN – 2020**

**Elmi Məsləhətçi** i. ü. f. d. dos.M.S.Bağırov
**Elmi Redaktor**: i. ü. f. d., dos. C.İ.Mahmudov
**Rəyçilər:** i.ü.f.d., dos H.Ə.Məmmədov
i.ü.f.d., dos. Ə.U.Ələkbərov
i. ü. f. d. H.Q.Bağırsoylu

Dərs vəsaitində 2004-cü ildən uğurla icra olunan Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları dövründə Naxçıvan Muxtar Respublikasında əldə olunan çoxşaxəli perspektivlərdən söz açılmış, geniş tədqiqat obyektinə cəlb olunmuşdur. Muxtar respublikanın milli iqtisadi quruculuq proseslərində çevik iştirakı, o cümlədən, genişmiqyaslı infrastruktur quruculuğu, yeni istehsal sahələrinin yaradılması, məşğulluq imkanlarının genişlənməsi, həmçinin, sosiallaşma prosesləri ilə makroiqtisadi proseslərin tənzimlənməsinə verdiyi töhfələr yer almışdır.

Əsərin tamamlanmasında statistik göstəricilər əsasında təhlillər aparılmış, elmi cəhətdən əsaslandırılmaqla, müəllif tərəfindən şəkillər, sxemlər və cədvəllər tərtib olunmuş, modern milli iqtisadiyyat üçün aktual olan anlayışların izahı təqdim olunmuşdur.

Dərs vəsaiti tələbələr, aspirant, dissertant, doktorantlardan ibarət gənc tədqiqatçılar və digər maraqlananlar tərəfindən istifadə oluna bilər.

**Qasımov C.Y. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı regional Dövlət proqramlarının icrası müstəvisində (2004-2018-ci illər). Dərs vəsaiti. Naxçıvan: Əcəmi, 2020, 320 s.**

**DOI https://doi.org/10.36719/2020/320**

4700000000
053-2020

**© "Əcəmi" 2020**

*Naxçıvanın böyük və zəngin tarixi var. Bu tarixin dünya mədəniyyətinə, bəşər mədəniyyətinə böyük töhfələri olmuşdur. Naxçıvan həmişə böyük şəxsiyyətlərlə fərqlənmiş və bu şəxsiyyətlər alimlər, münəccimlər, şairlər, memarlar, dövlət xadimləri, siyasi xadimlər olmuşlar. Naxçıvan həmişə Azərbaycanın yüksək ziyalı yetişdirən bir diyarı olmuşdur.*

**Heydər Əliyev**
**Azərbaycan xalqının ümummilli lideri**

*Demək olar ki, hər il Naxçıvana gəlirəm, burada gedən inkişafla tanış oluram və çox sevinirəm. Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır. Naxçıvanda görülən işlərlə tanış olarkən gördüm ki, nəqədər böyük işlər görülür, nə qədər böyük sevgi ilə, diqqətlə Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün səylər göstərir.*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

# GİRİŞ

Azərbaycan Respublikasında əsasları xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən uzaqgörənliklə müəyyən olunan davamlı və uzunmüddətli inkişaf strategiyası müasir müstəqillik illərinin sosial-iqtisadi inkişafının hərəkətverici qüvvəsinə çevrilmişdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan Muxtar Respublikasından uğurla başlanan iqtisadi islahatlar sonralar ulu öndərin rəhbərliyi altında ölkəmiz miqyasında şaxələndirilmiş şəkildə olmaqla davam etdirilmiş və yetkin, dolğun və müstəqil regional iqtisadiyyat üçün güclü dayaqlar yaratmışdır. Nəticədə, ölkənin bütün iqtisadi rayonları üzrə istehsal münasibətlərinin inkişafına mütərəqqi stimul özünü göstərmişdir. Təbii ki, bu isə, özündə regional aspektdə olmaqla:

- səmərəli məskunlaşma;
- demoqrafik tarazlıq;
- artan məşğulluq dinamikası;
- çoxnövlü təsərrüfatçılıq;
- mülkiyyətə münasibət (və ya mülkiyyət münasibətləri);
- infrastruktur quruculuğu;
- kommunal təminat və s. sahələr üzrə mütərəqqi mexanzimlərin və potensialın sarsılmaz dayaqlarının yaradılmasında şəraitə çevrilmiş oldu.

Əlbəttə ki, bütün bunlar ölkədə milli iqtisadiyyat sahəsində təşkilatlanmanın ilkin addımları olmaqla, özündə qarşıdakı dövrləri əhatə etməklə, uzunmüddətli perspektivlərin artmasına münbit zəminlər açmaqda idi. Məhz bu mərhələdən sonra regionların inkişafı üzrə hüquqi əsaslar yaradıldı və beşillik Dövlət Proqramlarının təsdiq və icrasına təkan verəcək tənzimləmə tədbirləri həyata keçirilməyə başlandı.

Ölkə başçısı cənab İlham Əliyevin məqsədyönlü və düşünülmüş siyasəti nəticəsində artıq 17 ildir ki, ölkəmizdə möhkəm baza üzərində olmaqla, regionların sosial – iqtisadi

inkişafına dair Dövlət Proqramları təsdiq və icra olunmaqdadır. Birinci mərhələdə 2004-2008, ikinci mərhələdə 2009-2013, üçüncü mərhələdə isə 2014-2018-ci illəri əhatə edən həmin Dövlət Proqramlarının hazırda dördüncü – 2019-2023-cü illər üzrə mərhələsi icra olunmaqdadır.

Həmin hüquqi mexanizmlər ölkənin bütün regionları üzrə müqavimətlilik, dayanıqlılıq və perspektivlilik gətirdi. Hazırda regional inkişaf proqramlarının ölkənin milli iqtisadiyyatına qazandırdığı uğurlara diqqət etdikdə belə bir qənaətə gəlirik ki, ölkənin iqtisadi islahatlarının olduğu kimi, regional inkişafının da beşiyi Naxçıvan Muxtar Respublikasıdır. Çünki, həm iqtisadi islahatların başlanmasında, həm regional inkişafın güclü dayaqlarının yaradılmasında, həm də nəticə etibarı ilə milli iqtisadiyyat üçün əlverişli potensialın təşəkkülündə Naxçıvan Muxtar Respublikasının yeri, rolu və çəkisi çoxdur və bu, sosial-iqtisadi, həmçinin məntiqi aktuallığını qorumaqla, daha da artmaqdadır.

Dərs vəsaitinin hazırlanmasında əsas məqsədimiz də təsdiq olunan I, II və III Dövlət Proqramlarının səmərəli icrası fonunda Naxçıvan Muxtar Respublikasının ölkənin milli iqtisadi quruculuq proseslərindəki məhsuldar rolunun təhlil olunmasından, əsaslandırılmasından və bu əsasda uzunmüddətli perspektivlərinin reallaşmasına doğru güclü bazanın ortaya çıxarılmasından ibarətdir.

Hazırlanan bu dərs vəsaitində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, ona şərait yaradan, mahiyyət verən, onu şərtləndirən amillərdən söz açılmışdır. Bu sahədə dövlətin uğurlu iqtisadi siyasətindən, hüquqi-iqtisadi tənzimləmə vasitələrindən və digər stimullaşdırıcı mexanzimlərin çevik təsirindən söz açılmışdır.

Dərs vəsaitində yer alan mövzular ali təhsil müəssisələrində ixtisas üzrə təhsil alan tələbələrin

iqtisadiyyatın sahə strukturuna uyğun bölmələr baxımından səmərəli olacaqdır. Xüsusilə, Naxçıvan Dövlət Universitetinin "iqtisadiyyat və idarəetmə" fakültəsi üzrə İPF-B03 "Makroiqtisadiyyat", İPF-B08 "Azərbaycan iqtisadiyyatı", İPF-B15 "Menecment", İPF-B17 "İnsan resurslarının idarə edilməsi", İPF-B21 "Ətraf mühitin iqtisadiyyatı", İPF-B22 "Sosial sahələrin iqtisadiyyatı", İPF-B23 "Firmanın iqtisadiyyatı", İPF-B24 "Aqrar iqtisadiyyat", İPF-B27 "İqtisadiyyatın tənzimənməsi", İPFS-B01 "Məhsuldar qüvvələrin iqtisadiyyatı", İPFS-B02 "Dövlətin iqtisadi siyasəti", İPFS-B06 "Regional iqtisadi və sosial inkişafın tənzimlənməsi", İPFS-B08 "İnvestisiya proseslərinin tənzimlənməsi" fənlərinin tədrisində istifadə oluna bilər.

Kitabla bağlı tövsiyyə xarakterli fikirləri, təklifləri olan oxucularımız cavadxan.yusifoglu@mail.ru ünvanından istifadə edə bilərlər.

*Müəllifdən*

# I FƏSİL

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFI VƏ MİLLİ İQTİSADİ QURUCULUQ PROSESLƏRİ

## 1.1. Naxçıvan Muxtar Respublikasının ölkənin milli iqtisadi quruculuq proseslərində səmərəli iştirakı elmi araşdırmalarda

Hər qarış torpağında tarixi və qüdrətli Azərbaycan dövlətinə mənsubluğu ilə mövcud olan Naxçıvan Muxtar Respublikası bütün düvrlərdə bu həqiqəti məğrurluqla və mərdliklə qoruyub saxlamışdır. Tarixi faktlara müraciət etdikdə, iqtisadi və sosial mahiyyətli üstünlükləri ilə də kiçik torpağın çox böyük əhəmiyyətə malik olduğunu görməkdəyik.

Ölkəmiz artıq siyasi müstəqilliyinin 29-cu ilini yaşayır. Keçən müddət ərzində məhz müstəqil dövlətə məxsus olan iqtisadiyyatın qurulması, yeni iqtisadi münasibətlərin təşəkkülü, iqtisadi formasiyaların biri – birini əvəz etməsilə yeni iqtisadi şərait üçün sağlam mühitin etibarlı təsisatlarının yaradılması öz aktuallığı ilə seçildi. Başladılan genişmiqyaslı və qətiyyətli islahatlar ölkənin və onun regionlarının, xüsusilə də, Naxçıvan Muxtar Respublikasının müasir iqtisadi şəraitdə təminatqabiliyyətli iqtisadiyyat quruculuğundakı rolunu daha da artırmış oldu. Muxtar respublikamız iqtisadi islahatların beşiyinə çevrilməklə, müasir iqtisadi şəraitin möhkəm hüquqi və iqtisadi bazasını yaratmış oldu. Ulu öndər böyük Heydər Əliyevin hələ Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsində işləyərkən başlatdığı yeni iqtisadi siyasət sadalanan amillərin hər biri üçün qətiyyətli bazaya çevrildi. Həmin dövrlərdə, xüsusilə də, 6 aprel 1992-ci il tarixdə qəbul etdiyi "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların

ləğv olunması və onların əsasında şəxsi təsərrüfatların yaradılması haqqında" qərar və rentabelsiz işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsini nəzərdə tutan təkliflər bütövlükdə Azərbaycan dövlətinin yeni iqtisadi siyasətinin müəyyənləşdirilməsinə əhəmiyyətli şərait yaradan mühüm addımlar idi.

Beləliklə də, yeni iqtisadi şərait üçün zəruri olan tədbirlərin həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasından başlanan islahatlar:

- ölkənin sosial – iqtisadi dayaqlarının gücləndirilməsinə güclü təminat verdi;
- özündə **istehsal** və məşğulluq anlayışlarının güclü nəzəri və təcrübi əsaslarını əks etdirmiş oldu və eyni zamanda onların davamlılığına stimul verdi;
- bütün tərəfləri ilə birlikdə regional iqtisadi inkişafa hərəkətverici zəmin yarandı ki, bu da öz-özlüyündə milli iqtisadi inkişaf üçün bazaya çevrilmiş oldu.

**İstehsal** – maddi nemət və xidmətlərin hazırlanması prosesidir (64, s. 279).

Həmçinin, hazırda ölkəmizdə qətiyyətlə davam etdirilən qeyri-neft sektorunun inkişafı, özəl sektorun perspektivliliyi, məşğulluq və özünüməşğulluq sahəsindəki hədəflər də daxil olmaqla strateji və çoxşaxəli iqtisadi siyasəti özündə əks etdirən güclü və dinamik proseslərin əsasları məhz həmin qərar və təkliflər idi və onun altında ulu öndərimizin imzası var.

Azərbaycan Respublikasının müasir bazar iqtisadiyyatı şəraitində və ona xas olan münasibətlər çərçivəsində inkişaf proseslərinə diqqət edərkən aydın olur ki, ölkəmiz istər yerli, istər regional, istərsə də milli mahiyyəti yüksək və artan perspektivliliyə malik olan sosial-iqtisadi potensialla gələcəyə doğru qətiyyətlə addımlayır. Təbii ki, bu sahədə Naxçıvan Muxtar Respublikasının da özünəməxsus yeri və rolu olmuşdur. İstər siyasi sahədəki üstünlüklərinə, istər sosial-

iqtisadi inkişafına, istərsə də coğrafi əlverişliliyinə görə müasir müstəqillik illərinin və tarixinin qürurverici səhifələrini təşkil edən muxtar respublikanın çoxsahəli üstünlükləri bir çox elm fədailəri tərəfindən araşdırılmış, öyrənilmiş və çoxşaxəli yönləri ilə əsaslandırılmışdır.

Bu sahədə tarix elmləri namizədi, dosent mərhum Abutalıb Qasımovun araşdırmalarında Naxçıvan Muxtar Respublikasının tarixi, onun ölkəmizin ictimai-siyasi həyatındakı yeri və rolu, eyni zamanda, müasir müstəqillik illərində dövlət quruculuğu proseslərindəki böyük mövqeyinə bir daha işıq salınmışdır. Görkəmli tarixçi alim Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasının muxtar ərazi taleyi haqqında elmi cəhətdən dolğun şəkildə və tutarlı faktlarla əsaslandırılmış çoxsaylı araşdırmaları ilə yadda qalmışdır. Bunlarla yanaşı, qeyd olunanlar muxtar respublikanın sosial-iqtisadi inkişafının stimullaşdırıcı amilləri olaraq əsaslandırılmışdır. Böyük alimin araşdırmalarında Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olaraq mövcudluğunu təsdiq edən tarixi müqavilələrin strateji mahiyyətindən söz açılmış və onların hər biri muxtar respublikanın təhlükəsizliyində və davamlı inkişafında güclü önəmliliyi ilə əsaslandırılmışdır.

A.A.Qasımov 1996-cı ildə çap olunan "XX əsrdə Naxçıvanda erməni-Azərbaycan ziddiyyətləri" adlı məqaləsində yazırdı: "Tarixi Naxçıvan məsələsi 1918-ci ildə bir neçə dəfə Zaqafqaziya seymində, 1918-1920-ci illərdə dəfələrlə Azərbaycan Demokratik Respublikasının parlamentində və Milli Şurasında, erməni Milli Şurasında və Ermənistan hökumətinin, Türkiyə dövlətinin parlamentlərində, Təbriz Bələdiyyə İdarəsində, Maku xanlığında, 1919-cu ildə Parisdə Versal sülh konfransında, 1919-1920-ci illərdə Ermənistan və Naxçıvanda olan ABŞ nümayəndəliyində,

1920-1921-ci illərdə Azərbaycan və Ermənistan Sovet Respublikalarının inqilab komitələrində, 1921-ci il martın 16-da RK (b) P-nın Siyasi Bürosunda, 1920-1921-ci illərdə RSFSR Xalq Komissarları Sovetində müzakirə olunsa da, Naxçıvanın əsil mənada tarixi taleyini - yəni onun Azərbaycanın tərkibində Muxtar Respublika kimi qalmaq imkanlarını 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələri reallaşdırdı” (51, s. 67-68).

Tanınmış tarixçi alimin tədqiqatları müasir müstəqillik illərində də olmaqla, bütün dövrlər üzrə muxtar respublikanın:

- müstəqil Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olaraq tarixi nailiyyətlərindən;
- Naxçıvan tarixinin müxtəlif səhifələrinin öyrənilməsindən, onun böyük, bütöv Azərbaycan tarixinin bir möhtəşəm parçası olmasından;
- Naxçıvan haqqında erməni iddialarının əsassızlığından və iflasa uğramasından;
- sosial-iqtisadi inkişafından, səmərəli məskunlaşma siyasətindən;
- ictimai-siyasi sabitliyinin möhkəmləndirilməsindən və s. -dən ibarət dolğun, bitkin, yetkin və əsaslandırılmış mənbədir.

Bunlarla yanaşı, tarixçi alimin tədqiqatlarında ölkəmizin ərazi bütövlüyünün təmin olunması və qorunmasında, xüsusilə də, Naxçıvan Muxtar Respublikasının muxtariyyət statusunun möhkəmləndirilməsində, etibarlılığının və təhlükəsizliyinin artırılmasında Ulu Öndər Heydər Əliyevin böyük xidmətlərindən bəhs olunur. Tarixçi alim A.A.Qasımov yenə də 1996-cı ildə nəşr olunan “Naxçıvanın muxtar ərazi taleyi və müasir dövr” adlı məqaləsində göstərirdi ... Ancaq burada bir mühüm məsələnin də izahına ehtiyac vardır. Belə ki, görkəmli siyasi xadim Heydər Əliyev cənabları 1992-ci il 22-25 mart tarixlərində Türkiyəyə səfəri zamanı Moskva və Qars müqavilələri haqqında yenidən söhbət apardı, onun ayrı-ayrı

məsələlərini, xüsusilə, Muxtar Respublikanın statusunun tarixi taleyini geniş təhlil etdi və müqavilələrin xalqımızın həyatında mühüm rolunu dərindən aşkarladı ... (54, s. 33).

Təbii ki, istənilən bir ölkənin tarixi mövcudluğu onun ictimai-siyasi sabitliyinin, sosial-iqtisadi inkişafının, mədəni-hüquqi proseslərinin davamlılığında və etibarlılığında mühüm göstəricidir. Bu mənada A.A.Qasımovun araşdırmaları Naxçıvan Muxtar Respublikasının ölkəmizin ayrılmaz tərkib hissəsi olaraq tarixi keçmişinin öyrənilməsinə, müasir dövrün iftixarla dolu səhifələrinin elmi dövriyyəyə cəlb olunmasına və gələcək nəsillərə ərmağan olunmasına böyük töhfədir.

Naxçıvan Muxtar Respublikası milli iqtisadi quruculuq proseslərində daha çevik mexanizmlərlə iştirak etməkdədir. Bu sahəyə aid inkişaf göstəricilərinin elmi dövriyyəyə cəlb olunması, həmin sferaya aid hədəf, məqsəd və prioritetlərin reallaşmasında elmi cəhətdən əsaslandırılmış ideya və təşəbbüslərin rolunun artması, eyni zamanda, artan mahiyyətinin ifadə olunmasında ölkəmizin tarixi ərazisi və ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasındakı iqtisadçı alimlərimizin rolu, fəaliyyəti və peşəkarlıqla apardıqları araşdırmalarının nəticələri mühüm əhəmiyyətə malikdir. Bu sırada akademik mərhum Asəf Nadirovun, i.ü.e.d., prof. Əli Əlirzayevin, i.ü.e.d., prof., Nazim Əhmədovun, i.ü.e.d., prof. Ağarza Rüstəmovun, i.ü.e.d., prof., Asif Şirəliyevin, i.ü.e.d., prof. Teymur Abbasovun, i.ü.f.d. dos. Akif Mədətovun, i.ü.f.d., dos. Mehdi Bağırovun, i.ü.f.d., dos. Həsən Məmmədovun, i.ü.f.d., dos. Ceyhun Mahmudovun, k/t.ü.f.d., dos. Dilsuz Qasımovun, i.ü.f.d dos. Sədaqət Əhmədovanın, i.ü.f.d., dos. Nuriyyə İbrahimovanın, i.ü.f.d., dos. Bülqeyis Novruzovanın, i.ü.f.d., dos. Mehriban İmanovanın, i.ü.f.d., dos. Əli Cabbarovun, i.ü.f.d., dos. Müslüm Cabbarzadənin, i.ü.f.d., dos. İradə Bağırovanın, i.ü.f.d dos. Asəf Qəribovun, i.ü.f.d dos. Əşrəf Ələkbərovun, i.ü.f.d,

dos. Türqan Babayevin, i.ü.f.d, dos. Həvva Adıgözəlovanın, i.ü.f.d Hüseyn Bağırsoylunun, i.ü.f.d Elnur Bağırovun, i.ü.f.d. Polad Əliyevin, i.ü.f.d Sevinc Cabbarovanın, i.ü.f.d Eltun İbrahimovun və digər alimlərimizin araşdırmalarında əhatəli şəkildə olmaqla və peşəkarlıqla yerini almışdır.

Akademik, mərhum A.A.Nadirovun çoxşaxəli araşdırmalarından ibarət olan əsərlərində Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın mərhələlərinə elmi və nəzəri əsaslandırmalar irəli sürülmüş, onun iqtisadiyyatının XX əsrdəki vəziyyəti elmi tədqiqatlara cəlb olunmuşdur. Bunlarla yanaşı, muxtar respublikanın bir əsrə yaxın iqtisadi inkişafı da əhatəli şəkildə olmaqla öyrənilmişdir. Təbii ki, bütün bunlar milli iqtisadi inkişafda muxtar respublikanın mühüm olan yerini bir daha təsdiqləmişdir. AMEA-nın həqiq üzvü olan A. Nadirov 2001-ci ildə işıq üzü görən "Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri" adlı kitabında (mətbuatdakı məqalələrinin toplusu) Naxçıvan Muxtar Respublikanda davamlı iqtisadi inkişafı təmin etmək məqsədilə:

- məhsuldar qüvvələrin inkişafını yüksək səviyyəyə qaldırılmasının zəruriliyindən;
- iqtisadiyyatın sahə strukturunun və istehsal müəssisələrinin fəaliyyətindən;
- **Azad İqtisadi Zona** üçün ən əlverişli region olmasından;
- ərazidə lazımi iqtisadi potensialın yaradılmasından;
- müştərək müəssisələr yaratmaq əsasında geniş fəaliyyət və ümumi qaydada investisiya qoyulmasının əhəmiyyətliliyindən əhatəli şəkildə söz açılmışdır. Əsaslandırılmışdır ki, makroiqtisadi hədəflərə nail olunmasında Naxçıvan Muxtar Respublikası daha çox əsası olan ərazilərdən biri, hətta, bəlkə də, hər cəhətdən ən əlverişli yeganə rayondur.

**Azad İqtisadi Zona** – bir ölkənin milli sərhədləri daxilində yaradılan, lakin onun gömrük sərhədləri xaricində

olan, ölkədə həyata keçirilən xarici ticarət və digər maliyyə və iqtisadi tədbirlərin dövlət tənzimlənməsinin tamamilə və ya qismən məhdudlaşdırıldığı ərazi hissəsidir (57, s. 7).

Əməkdar elm xadimi, i.ü.e.d., prof. Ə.Q.Əlirzayevin araşdırmaları da muxtar respublikanın Azərbaycan Respublikasında milli iqtisadiyyat üzrə perspektivliliyin təmin olunması baxımından olduqca əhəmiyyətlidir. Görkəmli iqtisadçı alim Azərbaycan Respublikasında iqtisad elminin inkişafında müstəsna xidmətləri, xüsusilə də, sosial sahənin uzunmüddətli perspektivlərinin öyrənilməsi, ənənəvi sahələrlə yanaşı, yeni prioritetlərin də sosial-iqtisadi mahiyyətinin əsaslandırılması və digər sahələrlə bağlı tədqiqatların aparılmasındakı fəaliyyəti ilə seçilməkdədir. Onun araşdırmalarında ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olaraq, Naxçıvan Muxtar Respublikasında:

- sosial sferanın perspektivləri və bu sahədə həyata keçirilən islahatların əhəmiyyətliliyindən;
- sosial-iqtisadi inkişafın, xüsusilə də, kəndlərin iqtisadi cəhətdən əhəmiyyətliliyinin və səmərəliliyinin artırılmasından;
- yeni prioritetlər baxımından turizm ehtiyatlarının öyrənilməsi, turizmin inkişafında dövlət tənzimlənməsinin hərəkətverici təsirindən, turizmin əlverşliliyi və makroiqtisadi proseslərin inkişafında onun rolundan, regional turizmin inkişaf istiqamətlərindən;
- bazar iqtisadiyyatı şəraitində sosial sahələrin strateji planlaşdırılması metodologiyasından;
- iqtisadi islahatların sosial konsepsiyası və reallaşma mexanizmlərindən və s. -dən əhatəli şəkildə olmaqla, bəhs olunmuşdur.

İqtisad elmləri doktoru, professor N.H.Əhmədovun əsərlərində istər keçmiş İttifaq dövründə, istərsə də müasir müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının təhlili və öyrənilməsi mühüm yer

almaqdadır. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasında:

- inzibati ərazi bölgüləri, iqtisadiyyatın inkişafı xüsusiyyətlərinə;
- əsas sənaye sahələrinin quruluşu və inkişafı, sənaye siyasəti və rəqabətqabiliyyətliliyin yüksəldilməsinin regional problemlərinə;
- kənd təsərrüfatının inkişafı, aqrar sektorun iqtisadiyyatı və inkişafını təmin edən amillərə;
- iqtisadiyyatın dövlət tənzimlənməsinin müasir vəziyyəti və perspektivlərinə;
- ölkənin ərzaq təhlükəsizliyi və onun regional aspektlərinə;
- yoxsulluğun azaldılmasına yönəldilmiş iqtisadi və sosial siyasətə;
- gömrük siyasəti və onun təkmilləşdirilməsi istiqamətlərinə və s. aktual məsələlərə güclü elmi əsaslandırmalarla yanaşılmışdır.

İqtisad elmləri doktoru, professor A.A.Rüstəmov öz araşdırmalarında Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın müxtəlif sahələrinin öyrənilməsi, geniş tədqiqat obyektinə cəlb olunmasına nail olmuşdur. Əsasən Naxçıvan Muxtar Respublikasında:

- kənd təsərrüfatına kapital qoyuluşu və əsas istehsal fondlarının təkrar istehsalı;
- əsas fondların təkrar istehsalında kreditin rolu;
- kənd təsərrüfatında əsas fondların mahiyyəti, kənd yerlərində aztəminatlı əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətləri, kənd əhalisinin maddi və mədəni-məişət şəraitinin yaxşılaşdırılması problemləri;
- əhalinin maddi rifah halının yaxşılaşdırılmasında sosial-iqtisadi inkişafın istiqamətləri;
- əhalinin maddi rifahının yüksəldilməsinin iqtisadi problemlərinə geniş diqqət ayırmışdır.

İqtisad elmləri doktoru, professor A.İ.Şirəliyevin əsərlərində Naxçıvan Muxtar Respublikasında iqtisadi islahatların davamlılığından və onun sosial-iqtisadi inkişaf sahəsindəki perspektivlərindən bəhs olunur. Digər tərəfdən, muxtar respublikada iqtisad elminin (iqtisadi və nəzəri biliklərin) inkişafı və bu sahədə ixtisaslı kadrların hazırlanmasında mühüm fəaliyyəti ilə seçilmişdir. Bütün bunlarla ölkənin makroiqtisadi siyasətinin səmərəliliyindəki rolundan bəhs olunmuşdur. Alimin araşdırmalarında muxtar respublikada:

- aqrar istehsalının təşkilinin yeni formaları, aqrar-sənaye kompleksində iqtisadi mənafelər;
- kəndli təsərrüfatının səmərəliliyi məsələləri;
- insan kapitalı və onun elmi-nəzəri əsasları;
- iqtisadi artım və sosial tərəqqi;
- iqtisadi nəzəriyyə və s. kimi məsələlər geniş yerə malik olmuşdur.

İqtisad elmləri doktoru, professor T.A.Abbasovun əsərləri də milli iqtisadi inkişafda muxtar respublikanın rolunun elmi əsasalarını təşkil etməkdədir. Milli mühasibatlıq sisteminin inkişafı, mühasibat uçotu və maliyyə işlərinin öyrənilməsi məsələlərinin elmi əsaslarına diqqət çəkilmişdir. Eyni zamanda, Naxçıvan Muxtar Respublikasında:

- Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi və idarə olunmasının sosial məqsədləri və funksiyaları;
- aqrar bazar və sahibkarlıq fəaliyyətinin mahiyyəti və formaları, aqrar bazarın inkişafında iqtisadi potensialın transformasiyasının əsas istiqamətləri;
- regionda aqrar sahibkarlığın inkişafının əsas istiqamətləri, aqrar bazar münasibətlərinin və sahibkarlığın inkişaf dinamikası;
- aqrar sektorun resurs potensialının iqtisadi səmərəliliyinin yüksəldilməsi yolları;

- aqrar bazar və sahibkarlığın perspektiv inkişafında ev təsərrüfatlarının rolunun qiymətləndirilməsi və s. məsələlər əhatəli şəkildə olmaqla, öyrənilmişdir.

İqtisad üzrə fəlsəfə doktoru, dosent A.V.Mədətovun araşdırmalarında Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının aparıcı sahələrinin inkişafı kompleks şəkildə olmaqla yer almışdır. Burada istər sənayenin, istər kənd təsərrüfatının, istərsə də, ASK inteqrasiyası çərçivəsində perspektivlərin təhlili əhatəliliyi ilə seçilmişdir. Eyni zamanda, muxtar respublikada:

- sənayenin sahə strukturunun təkmilləşdirilməsi;
- sənayenin ixtisaslaşmış sahələrinin inkişafının yüksək səviyyədə təmin olunmaqla, yerli tələbatı ödəyən sənaye sahələrinin perspektivləri;
- təsərrüfat inkişafının müxtəlif mərhələlərində məhsuldar qüvvələrin ərazi daxilində səmərəli yerləşdirilməsi;
- ASK-nın yaradılması və inkişafı, həmçinin, kənd təsərrüfatı məhsullarının sənaye emalı çərçivəsində hazır məhsullar istehsalı səviyyəsinə qədər inkişaf prosesi;
- əmək ehtiyatlarından və təbii ehtiyatlardan səmərəli istifadə olunması problemləri peşəkarlıqla şərh olunmuşdur.

İqtisad üzrə fəlsəfə doktoru, dosent M.S.Bağırov araşdırmalarında Naxçıvan Muxtar Respublikasının davamlı iqtisadi inkişafı çoxistiqamətliliyi ilə elmi dövriyyəyə cəlb olunmuşdur. Statistika elminin nəzəri əsaslarının öyrənilməsində, turizm perspektivlərinin əsaslandırılmasında, aqrar sektorun və marketinq prinsiplərinin tədqiqində Onun əsərlərinin mühüm əhəmiyyəti vardır. Xüsusilə, Naxçıvan Muxtar Respublikasında:

- aqrar sahədə hasilat – reallaşdırma sisteminin formalaşdırılmasının nəzəri-metodoloji əsasları;
- **marketinq** araşdırmaları və onların aqroistehsal prosesinə təsirinin qiymətləndirilməsi;

- istehsal və satış sistemlərinin aqrar bazarların tarazlı inkişafına təsiri;
- turizm statistikasının göstəriciləri və kəmiyyətlər sistemi;
- turizm sahəsini ifadə edən hadisə və proseslər, onların qarşılıqlı əlaqələrinin statistik təhlili və digər aktual məsələlər ətraflı şəkildə olmaqla tədqiq olunmuşdur.

**Marketinq** – ehtiyacların və tələbatların mübadilə vasitəsi ilə ödənilməsinə yönəldilmiş insan fəaliyyətinin bir növüdür (42, s. 10).

İqtisad üzrə fəlsəfə doktoru, dosent H.Ə.Məmmədovun əsərləri də Naxçıvan Muxtar Respublikasında davamlı inkişafın və infrastruktur problemlərinin öyrənilməsi məsələləri baxımından diqqəti cəlb etməkdədir. Orada həmçinin Azərbaycan Respublikasında və ona bağlı olan Naxçıvan Muxtar Respublikasında:

- bazar münasibətləri şəraitində istehsal infrastrukturunun inkişafı;
- iqtisadiyyatın dayanıqlı inkişafında aqrar sahənin rolu;
- milli iqtisadiyyatın mahiyyəti, məzmunu və quruluşu;
- milli iqtisadiyyatın maddi əsaslarının formalaşmasında infrastrukturların rolu və dayanıqlı inkişafın regional problemləri;
- iqtisadiyyatın inkişaf etdirilməsində istehsal infrastrukturunun rolu;
- istehsal infrastrukturunun iqtisadi artımda rolu;
- kənd təsərrüfatının dayanıqlı inkişafı və s. məsələlər öyrənilmişdir.

İqtisad üzrə fəlsəfə dokroru, dosent C.İ.Mahmudovun tədqiqatlarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı məsələlərinə tarazlılıq kontekstindən yanaşılmış, müasir şəraitdə reallaşan iqtisadi islahatların uzunmüddətli perspektivləri peşəkarlıqla araşdırılmışdır.

Naxçıvan Muxtar Respublikasının milli iqtisadi inkişafdakı roluna nəzər salınmaqla:

- sosial-iqtisadi inkişafın proqnozlaşdırılmasının metodologiyası;
- sosial-iqtisadi inkişafın baza şərtlərinin proqnozlaşdırılması;
- iqtisadi artımın və iqtisadiyyatın strukturunun proqnozlaşdırılması və sosial-iqtisadi nəticələri;
- biznes fəaliyyətinin təşkilati-hüquqi formaları və onların xüsusiyyətləri;
- müəssisənin yerləşdirilməsi və onun işinin təşkili məsələlərinə daimi aktuallıq qazanan amillər olaraq yanaşma irəli sürülmüşdür.

Kənd təsərrüfatı üzrə fəlsəfə doktoru, dosent Dilsuz Qasımovun tədqiqatlarında Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının (aqrar sektorun) inkişafı ölkənin makroiqtisadi potensialının uzunmüddətli perspektivləri fonunda təhlil olunmuşdur. Çoxşaxəli araşdırmalarda:

- bazar iqtisadiyyatı şəraitində aqrar münasibətlərin formalaşması və onun tənzimlənmə mexanizmləri;
- aqrar iqtisadiyyat və ərzaq təhlükəsizliyi;
- ASK və aqrar iqtisadiyyatın inkişafında inteqrasiya münasibətlərinin formalaşdırılması istiqamətləri;
- aqrar istehsal və kənddə məşğulluq probleminin həlli;
- müasir aqrar iqtisadiyyatda idarəetmə sistemi və onun təkmilləşdirilməsi məsələləri önə çəkilmişdir.

İqtisad üzrə fəlsəfə doktoru, dosent S.E.Əhmədova əsərlərində Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın artan dinamikasından və onun davamlı perspektivlərini araşdırmışdır. Burada iqtisadiyyatın sahə strukturu üzrə səmərəli tənzimləmə siyasətindən və onun müəyyən olunan hədəflərin əlçatan olmasındakı rolunu tədiqat obyektinə çevirmişdir. Onun məqalələrində:

- regionların əmək potensialı və onlardan səmərəli istifadə olunması istiqamətləri;
- əmək potensialın məşğulluğunun yüksəldilməsi istiqamətləri;
- əmək bazarının sosial-iqtisadi mahiyyəti;
- əmək bazarı və yeni iş yerlərinin yaradılması ehtiyatları;
- kənd təsərrüfatı müəssisələrində əmək mövsümlülüyünün yumşaldılmasının əmək potensialından və iş vaxtı fondundan istifadəyə təsiri və digər məsələlər əhatəli şəkildə olmaqla araşdırılmışdır.

İqtisad üzrə fəlsəfə doktoru, dosent N.H.İbrahimovanın araşdırmalarında Naxçıvan Muxtar Respublikasının davamlı sosial-iqtisadi inkişaf prosesləri ölkənin səmərəli regional – iqtisadi siyasətinin mühüm tərkib hissəsi olmaqla araşdırma obyektinə cəlb olunmuşdur. Orada:

- sahibkarlığın yeni bazar infrastrukturunun təkmilləşdirilməsi – dinamik inkişafın qorunması;
- sahibkarlığın inkişafına dövlət himayəsinin təkmilləşdirilməsi;
- aqrar sahədə istehsal əlaqələrin formalaşmasının elmi-nəzəri əsasları;
- aqrar sahənin dayanıqlığının təmin olunması;
- regional şəraitdə aqrar sahənin dayanıqlı inkişafı və daxili bazarın qorunması və digər məsələlər prioritet olaraq tədqiq olunmuşdur.

İqtisad üzrə fəlsəfə doktoru, dosent B.S.Novruzova öz əsərlərində Naxçıvan Muxtar Respublikasında maliyyə siyasətinin təşkili, tənzimlənməsi və bu sahə ilə əlaqəli olan proseslərin idarə olunması məsələlərinə əhatəli yer vermişdir. Həmçinin, orada:

- maliyyə vəsaitlərinin yaranma mənbələri;
- büdcə vəsaitlərinin xərclənməsi məsələləri;

- dövlət büdcəsi xərcələrinin tərkibi və quruluşu;
- iqtisadi inkişaf üzrə büdcə xərclərinin kənd təsərrüfatı, nəqliyyat, rabitə, ticarət, əsaslı tikinti və s. sahələrə, eləcə də, qeyri-istehsal və xüsusilə, sosial müdafiənin inkişafına yönəldilməsi;
- maliyyə bazarları və digər məsələlər əsaslı şəkildə olmaqla, araşdırılmışdır.

İqtisad üzrə fəlsəfə doktoru, dosent M.T.İmanova Naxçıvan Muxtar Respublikasının milli iqtisadiyyatın perspektivləri istiqamətindəki rolunu geniş araşdırma obyektinə cəlb etmişdir. Maliyyə siyasətinin səmərəli təşkili və idarə olunması, islahatların müəyyən olunan hədəflərə dinamik xidmət etməsi, regional bazarın formalaşdırılması və s. məsələlər araşdırılmışdır. Həmçinin, Naxçıvan Muxtar Respublikasında:

- sosial-iqtisadi inkişafda marketinqin rolu;
- regional bazarın marketinq təşkili göstəriciləri və xüsusiyyətləri;
- aqrar bazarın marketinq təşkilinin məqsədli proqram üsulları;
- innovasiyayönümlü iqtisadiyyatın formalaşması və İKT sektorunun inkişafı;
- kənd təsərüfatı məhsullarının ixracının stimullaşdırılmasının əsas istiqamətləri;
- məşgulluğun təmin olunması və onun əsas istiqamətləri;
- sənaye müəssisələrində innovasiya fəaliyyətinin təşkili kimi çoxsahəli məsələlər tədqiq olunmuşdur.

İqtisad üzrə fəlsəfə doktoru, dosent Ə.X.Cabbarovun tədqiqatları da muxtar respublikanın ölkənin davamlı islahatlar fonunda əldə etdiyi sosial-iqtisadi uğurlar baxımından olduqca cəlbedicidir. Onun araşdırmalarında bazar münasibətlərinin inkişaf problemlərinin tədqiqi, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi, turizm sektorunun prioritetlərin

reallaşmasındakı rolu və s. məsələlər öyrənilmişdir. Eyni zamanda, Onun:

- turizm və iqtisadiyyat;
- turizm və sahibkarlıq fəaliyyəti;
- turizm marşrutları və onların növləri;
- turizm ehtiyatları və onlardan istifadə;
- dayanıqlı turizm və onun idarə olunması və s. məsələlər milli iqtisadiyyata töhfə kontekstində araşdırılmışdır.

İqtisad üzrə fəlsəfə doktoru, dosent M.Ə Cabbarzadənin araşdırmalarında göstərilir ki, Naxçıvan Muxtar Respublikasında həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Burada, eyni zamanda:

- muxtar respublika iqtisadiyyatının səmərəli strukturunun formalaşdırılması;
- **eksklav** şəraitdə regional iqtisadi inkişafın Naxçıvan modeli;
- eksklav şəraitdə regional iqtisadi inkişafın dövlət tənzimlənməsi;
- informasiya iqtisadiyyatına keçid və rəqabətə davamlı yüksək texnologiyalı milli təsərrüfatın formalaşdırılması, həmçinin, yeni iqtisadi şəraitdə innovasiyalı iqtisadiyyatın inkişaf perspektivləri;
- regional iqtisadiyyatın dövlət tənzimlənməsi və idarə olunması və digər məsələlər tədqiq olunmuşdur.

**Eksklav** - ölkəsinin əsas ərazisindən aralıda olan və digər dövlətlər (bir və ya bir neçə) tərəfindən əhatə olunan qeyri-suveren region.

İqtisad üzrə fəlsəfə doktoru, dosent İ.V.Bağırovanın tədqiqatları Naxçıvan Muxtar Respublikasının müasir

mərhələdəki dinamik inkişaf məsələlərinə həsr olunmuş və daha çox onun iqtisadiyyatının çoxistiqamətliliyinin əsaslandırılmasına yönəlmişdir. Orada muxtar respublikada:

- Sahibkarlığın inkişafında xarici iqtisadi əlaqələrin rolu;
- sosial-iqtisadi inkişafının əsas meyilləri və makroiqtisadi göstəricilərin təhlili;
- gömrük işinin təşkili və regionun sosial-iqtisadi inkişafı;
- gömrük işinin təşkilində iqtisadi təhlükəsizliyin və milli mənafelərin dövlət tənzimlənməsi
- iqtisadiyyatda inflyasiya və onun tənzimlənməsinin tədrisi məsələləri geniş tədqiqat obyektnə cəlb olunmuşdur.

İqtisad üzrə fəlsəfə doktoru, dosent A.H.Qəribovun əsərlərində ölkənin milli iqtisadi proseslərində Naxçıvan Muxtar Respublikasının rolu xarici iqtisadi əlaqələrin inkişafı müstəvisində araşdırılmışdır. Müasir dövrdə dünya iqtisadiyyatına inteqrasiya olunma və beynəlxalq iqtisadi münasibətlərin inkişafını sürətləndirmə məsələləri araşdırılmışdır. Eyni zamanda, regional idarəetmədə əhəmiyyətli rol oynayan gömrük işinin səmərəli təşkili prosesləri də tədqiqatlarda yer almışdır. Xüsusilə:

- sosial-iqtisadi inkişafın müasir vəziyyəti və makroiqtisadi göstəricilərin müqayisəli təhlilindən;
- xarici iqtisadi əlaqələrin təşkili və idarə olunmasında gömrük işinin rolundan;
- xarici-iqtisadi əlaqələrin inkişafı, gömrük tənzimlənməsinin təkmilləşdirilməsi və inkişaf perspektivlərindən;
- xarici iqtisadi fəaliyyətin gömrük tarif tənzimlənməsinin zəruriliyi, inkişaf meyilləri və əsas istiqamətlərindən;
- beynəlxalq münasibətlər sistemində yeni dövlətlərarası əməkdaşlıq sferalarının yaranması və daha da inkişafı məsələlərindən ibarət dolğun tədqiqatlar təşkil etməkdədir.

İqtisad üzrə fəlsəfə doktoru, dosent Ə.U.Ələkbərovun müəllifi olduğu əsərlərin də muxtar respublikada sosial-iqtisadi inkişaf və ərzaq təhlükəsizliyi baxımından əhəmiyyətliliyini qeyd etmək olar. Onun tədqiqat sahəsində;

- ərzaq bazarlarının formalaşması, onun inkişaf etdirilməsi və eləcə də, ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi;
- ərzaq təhlükəsizliyinin təmin olunmasında ərzaq bazarlarının rolu;
- ərzaq bazarının təmin olunması imkanları və ölkə əhalisinin aclıq təhlükəsinin qorunması;
- ölkədə ərzaq təhlükəsizliyinin və əhalinin etibarlı ərzaq məhsulları ilə təmin oluması, həmçinin, əhalinin etibarlı ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması;
- qloballaşma prosesinin təzahürü kimi reallaşdırılan bazar iqtisadi münasibətləri və digər məsələlər yer almaqdadır.

İqtisad üzrə fəlsəfə doktoru, dosent T.X.Babayevin məqalələrində muxtar respublikada səmərəli iqtisadi inkişafın mühüm tərəfləri öz əksini tapmışdır. Həmçinin, orada:

- iqtisadi-riyazi modellərin tətbiqi ilə kiçik sahibkarlığın inkişaf göstəricilərinin proqnozlaşdırılması;
- müasir mərhələdə kiçik və orta sahibkarlığın dinamik inkişafında qarşıya çıxan problemlərin həlli yollarının müəyyən olunması;
- milli iqtisadiyyatda dayanıqlı artımın təmin olunmasında Sahibkarlığın inkişafının təsiri;
- bazar münasibətləri şəraitində sahibkarlıq subyektlərinin inkişafı;
- iqtisadi göstəricilər üzrə müxtəlif modelləşmə üsulları kimi məsələlər yer almışdır.

İqtisad üzrə fəlsəfə doktoru, dosent H.Ə.Adıgözəlovanın əsərlərində bir çox sahələrlə yanaşı, həm də iqtisad elminin müasir problemləri araşdırılmışdır. Orada həmçinin

aktuallığını artıran məsələlər tədqiqat obyektinə cəlb olunmuşdur. Makroiqtisadi proseslərin artan dinamikasına stimullaşdırıcı təsiri ilə seçilməklə:

- bazar iqtisadiyyatı şəraitində regional sosial infrastrukturun inkişafı problemləri;
- strateji planlaşdırmanın probleməri;
- innovasiya strategiyasının əsasları;
- sosial infrastrukturun perspektiv tənzimlənməsi;
- regional iqtisadi siyasətin səmərəli təşkili və idarə olunması kimi məsələlər araşdırılmışdır.

İqtisad üzrə fəlsəfə doktoru H.Q.Bağırsoylu öz araşdırmalarında Naxçıvan Muxtar Respublikasında müasir iqtisadi şərait üçün səmərəli olacaq və qarşıdakı dövrlər üzrə müəyyənləşdirilən prioritetlərin reallaşmasında mühüm əhəmiyyət kəsb edən məsələləri önə çəkmişdir. Xüsusilə, orada:

- azad iqtisadi zonalar və onların fəaliyyət prinsipləri;
- regionda xüsusi iqtisadi zonaların təşkili imkanları və prespektivləri;
- demoqrafik inkişafın uzunmüddətli dövrlər üzrə proqnozlaşdırılması;
- regionların inkişafının proqnozlaşdırılması;
- inflyasiya proseslərinin idarə olunması və digər mühüm istiqamətlər araşdırılmışdır.

İqtisad üzrə fəlsəfə doktoru E.A.Bağırovun tədqiqatları muxtar respublikanın makroiqtisadi proseslərin inkişafındakı hərəkətverici rolunun əsaslandırılması baxımından çox əhəmiyyətə malikdir. Alimin araşdırmalarında Naxçıvan Muxtar Respublikasında:

- aqrar islahatlar və yeni təsərrüfatstrukturunun formalaşması;
- aqrar sahədə yeni mülkiyyət münasibətlərinin formalaşdırılması və özəlləşdirmə;
- kənd təsərrüfatının sahə strukturunun formalaşması;

- bazar iqtisadiyyatı şəraitində bank-kredit sisteminin formalaşması xüsusiyyətləri;
- bank-kredit sisteminin, xüsusən də, kommersiya banklarının mövcud vəziyyətinin təhlili və s. məsələlər öyrənilmişdir.

İqtisad üzrə fəlsəfə doktoru P.M.Əliyevin əsərlərində muxtar respublikada makroiqtisadi proseslərin təhlili və araşdırılması mühüm yerə malik olması ilə seçilməkdədir. Orada, milli gəlirin yenidən bölgüsü prosesində dövlətin qarşısında duran birinci vəzifənin bölüşdürülməli olan vəsaitin toplanması olduğu qeyd olunur. Bununla yanaşı, onun tədqiqat sahəsinə:

- Azərbaycan Respublkasında milli gəlirin yenidən bölgüsü vasitəsi kimi transfert xərclərinin xarakterik xüsusiyyətləri;
- bazar iqtisadiyyatı münasibətləri şəraitində milli gəlirin bölgüsü və yenidən bölgüsünün təkmilləşdirilməsi;
- bazar iqtisadi sistemdə milli gəlirin yenidən bölgüsü aləti kimi dolayı vergilərin xarakterik xüsusiyyətləri;
- yeni iqtisadi şəraitdə cəmiyyətin bütün institutsional vahidlərinin, o cümlədən də, ev təsərrüfatlarının yığımları;
- sosial transfertlərin səmərəliliyinin yüksəldilməsi istiqamətləri və s. məsələlər aid olmaqla, əhatəli şəkildə araşdırılmışdır.

İqtisad üzrə fəlsəfə doktoru S.Ə. Cabbarovanın məqalələrində Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi proseslərin artan dinamika ilə təşəkkülündən bəhs olunmuş və bunlar, müasir makroiqtisadi proseslər fonunda əsaslandırılmışdır. Orada Naxçıvan Muxtar Respublikasında:

- əmək potensialının formalaşması və istifadəsi;
- emal müəssisələrinin fəaliyyətinin tənzimlənməsi;
- iqtisadi səmərəliliyin artırılması istiqamətləri;

- müstəqillik illərində Naxçıvan iqtisadi rayonunda əmək potensialının formalaşması və inkişafı;

- innovasiya strategiyasının işlənməsi məsələlərinə yanaşılmışdır.

İqtisad üzrə fəlsəfə doktoru E.Y.İbrahimovun məqalələrində Naxçıvan Muxtar Respublikasında bank sektorunun inkişafı və təsərrüfatların maliyyələşmə məsələlərinə diqqət yetirilmişdir. Həmçinin orada:

- Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və maliyyə-kredit təşkilatlarının respublikanın inkişafında önəminin qiymətləndirilməsi;

- Naxçıvan MR-nın dövlət maliyyəsinin respublikanın inkişafında rolu və əhəmiyyəti;

- kənd təsərrüfatının maliyyə təminatında bank sektorunun xidmətləri;

- regionların sosial-iqtisadi inkişafında dövlət maliyyəsinin rolunun nəzəri-konseptual əsasları;

- müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında bank sisteminin vəziyyəti kimi məsələlər yer almışdır.

İqtisad elmi ilə yanaşı, həmçinin, digər sahələrdə də, ardıcıl elmi araşdırmalar aparılmış, muxtar respublikanın sosial-iqtisadi inkişafına dair hərtərəfli məsələlər tədqiqat obyektinə cəlb olunmuşdur. AMEA-nın müxbir üzvü Əliəddin Abbasovun və kimya üzrə fəlsəfə doktoru, dosent Fizzə Məmmədovanın, kimya üzrə elmlər doktoru Bayram Rzayevin, kimya üzrə fəlsəfə doktoru, dosent Əhməd Qarayevin və digər alimlərimizin əsərlərində də muxtar respublikanın milli iqtisadi quruculuq proseslərindəki yüksək perspektivliliyə malik iştirakı məsələləri çoxşaxəliliyi və müxtəlif tərəfləri ilə araşdırılmış, eyni zamanda, elmi tədqiqatlara cəlb olunmuşdur.

AMEA-nın müxbir üzvü Ə.D.Abbasovun və k.ü.f.d., dos. F.S.Məmmədovanın araşdırmalarında Naxçıvan Muxtar

Respublika üçün olduqca əhəmiyyətli olan genişmiqyaslı elmi tədqiqatlar öz yerini almışdır. Bununla yanaşı, təbii sərvətlərinin öyrənilməsinə, onların sosial-iqtisadi inkişaf üçün səmərəlilik göstəricilərinə və həmçinin, istifadə imkanlarına əhatəli şəkildə olmaqla, yanaşılmışdır. Həmin əsərlərdə muxtar respublikanın:

- yerüstü suları – çayları, gölləri, təbii sututarları;
- su anbarları, süni sututarlar, kollektor və drenaj suları, qapalı su sistemləri;
- yeraltı su ehtiyatları – bulaq, çeşmə və kəhriz suları;
- mineral və termal suları;
- artezian suları və digər mühüm aktual məsələlərin faydalılığı elmi cəhətdən əsaslandırılmışdır.

K.ü.e.d. B.Z.Rzayevin, k.ü.f.d,. dos. Ə.M.Qarayevin əsərlərində də Naxçıvan Muxtar Respublikasının **təbii ehtiyatlar**ı haqqında mühüm araşdırmalar mövcuddur.

**Təbii ehtiyatlar** – insanların maddi və mənəvi tələbatını ödəmək məqsədilə cəmiyyət tərəfindən istifadə olunan və ya istifadə olunması mümkün olan təbiətin (onun obyektlərinin, proseslərinin, şəraitinin) bir hissəsidir (59, s. 305).

Hər iki alimin həmmüəllifliklləri ilə 2013-cü ildə işıq üzü görən "Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri: hazırkı vəziyyəti və perspektivləri" adlı monoqrafiya ölkəmizin uzunmüddətli inkişafında muxtar respublikanın böyük rolunun öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Orada muxtar respublikada:

- təbii sərvətlərə **tələbat**ın müasir vəziyyətindən, daş duzun Naxçıvanın ən qiymətli mineral sərvəti olaraq əhəmiyyətindən;
- Nehrəm dolomit yatağından, Darıdağ termal suyundan;
- Biləv zəy süxurlarından və mineral boya xammalından, qurğuşun filizi yataq və təzahürlərindən;

- mis polimetallik filizlərindən, Kotam kobalt yatağından;

- gil minerallarından, qızıl filiz yataqları və təzahürlərindən, alüminium filizlərindən, Şərur filiz rayonunun boksitliyi və digər məsələlərdən ibarət bölmələr araşdırılmışdır.

**Tələbat** – fərdin şəxsiyyəti və mədəni səviyyəsinə müvafiq olaraq özünəxas formaya düşmüş ehtiyacdır (42, s. 11).

Əməkdar elm xadimi, coğrafiya elmləri doktoru, professor, mərhum Səfərəli Babayevin araşdırmalarında muxtar respublikanın ölkəmizin hərtərəfli inkişafındakı rolundan ətraflı şəkildə bəhs olunmuşdur. Onun əsərlərində Naxçıvan Muxtar Respublikasının:

- coğrafi mövqeyi, sərhədləri və ərazisi;
- təbii şəraiti;
- landşaftı;
- təbii rayonlaşma və şaquli qurşağın strukturu;
- yüksəklik qurşaqlarının strukturu;
- təbii ehtiyatları və onlardan istifadə;
- təbiəti mühafizənin vəziyyəti və digər məsələlər əhatəliliklə araşdırılmışdır.

S.Babayevin araşdırmaları Azərbaycan coğrafiya elminin inkişafında böyük önəmliliyə malik olması ilə seçilməkdədir. Naxçıvan Muxtar Respublikasının coğrafiyası üzrə çoxistiqamətli elmi araşdırmalar bu böyük alimin tədiqiqatları ilə daha əhatəli görünməkdədir. Onun əsərlərində bütün tədqiqatçılar üçün yararlı olmaqla, yuxarıda göstərilən mövzular üzrə muxtar respublikanın oroqrafiyası, geoloji quruluşu, geomorfoloji quruluşu, iqlimi, hidroqrafiyası, torpaq örtüyü, heyvanlar aləmi öyrənilmişdir.

Həmçinin böyük alimin araşdırmalarında muxtar respublikanın:

- su energetika ehtiyatları;

- mineral xammal ehtiyatları;
- kənd təsərrüfatı ehtiyatları;
- torpaqların mühafizəsi və istifadəsi vəziyyəti;
- suların mühafizəsi vəziyyəti;
- bitki örtüyünün mühafizəsi vəziyyəti;
- heyvanlar aləminin mühafizəsi vəziyyəti kimi məsələlər elmi və nəzəri cəhətdən əsaslandırılmaqla yer almışdır.

Qeyd edək ki, eyni zamanda, yuxarıda göstərilən araşdırmalar özündə 2004-2018-ci illər də daxil olmaqla, müasir müstəqillik illərinin çox mühüm və strateji mahiyyət daşıyan sosial-iqtisadi inkişaf xüsusiyyətləri elmi və nəzəri baxımdan öyrənilir və əsaslandırılır.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının ölkənin milli iqtisadi quruculuq proseslərində oynadığı strateji rol elmi araşdırmalara əhatəli şəkildə cəlb olunmuşdur. Bu isə onu deməyə əsas verir ki, davamlı sosial – iqtisadi inkişaf qətiyyətliliyi ilə seçilməklə, eyni zamanda, elmi cəhətdən dolğun şəkildə əsaslandırılmaqdadır. Təbii ki, belə bir vəziyyət uzunmüddətli perspektivləri daha da əlçatan etməkdədir.

## 1.2. Sosial və iqtisadi sahələrin inkişafının elmi konseptual əsasları

Artıq Azərbaycan Respublikası müasir müstəqillik illərinin böyük təcrübə əsasında inkişaf edən və uzunmüddətli perspektivlərini qətiyyətlə müəyyənləşdirməyi, eyni zamanda, reallaşdırmağı bacaran ölkəsinə çevrilmişdir. Xalqımızın ümummilli lideri böyük Heydər Əliyevin müəllifi olduğu müasir sosial-iqtisadi inkişaf strategiyası ölkəmizin hazırkı milli və regional iqtisadi siyasətinin çox mükəmməl bazasını təşkil etməkdədir. Ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan Muxtar Respublikasından başlanan müasir iqtisadi

islahatlar makroiqtisadi zəmində keçid etdiyimiz bazar iqtisadiyyatının hüquqi, iqtisadi, texniki və təşkilati əsaslarını təmin etdiyi kimi, onun sosial mahiyyətinin də artırılmasına imkanlar yaratmış oldu. Aparılan islahatlar:

- iqtisadiyyatın xüsusi mülkiyyət üzərində qurulması və təşəkkülünü;
- onun inkişaf perspektivlərinin müəyyənləşdirilməsini;
- cəmiyyətin maraq və mənafelərinin bu əsasda ifadə olunmasını;
- məskunlaşmanın, məşğulluğun, həmçinin, sosial-iqtisadi məmnunluğun təminatının və davamlılığının gücləndirilməsini;
- makroiqtisadi siyasətin sosialyönümlülüyünü stimullaşdırdı.

Təbii ki, bütün bunlar ölkənin bazar münasibətləri şəraitində sosial siyasətinin təşəkkülündən ibarət strateji məqsədlərinin gerçəkləşməsi istiqamətindəki tədbirlərinin ən gerçək ifadəsini təşkil etməkdədir. Bununla yanaşı, inkişaf edən iqtisadiyyat öz sosial dayaqlarını gücləndirməklə, cəmiyyətin maraq və mənafeyinə birbaşa və dolğun xidmət etməyə başladı. Məhz bu isə əhalinin həm ümumilikdə, həm də ayrı-ayrılıqda, onu təşkil edən təbəqələrin sosial, sosial-demoqrafik, sosial-peşə qruplarının, sosial icmaların (ailələr, xalqlar, şəhər, qəsəbə və bölgə əhalisi) sosial vəziyyətinin saxlanması və dəyişdirilməsi səbəbindən irəli gələn qarşılıqlı əlaqəsindən ibarət **sosial siyasət**in əsas mahiyyətini özündə əks etdirir (31, s. 74).

Müasir dünyanın dəyişən tələbləri, bunun isə meqaiqtisadi vəziyyətə təsiri bir-biri ilə əlaqəli inkişaf edən milli iqtisadiyyatlar üçün uyğun sosial-iqtisadi inkişaf strategiyalarının hazırlanmasına ehtiyac formalaşdırmaqdadır. Bu isə təbii ki, ölkələrin tarixi və iqtisadi ənənələrinə, yaxın və uzaq keçmişinə, keçdikləri inkişaf yollarına xas olan **iqtisadi siyasət**in yeridilməsi üçün zəmin yaratmaqddır.

**İqtisadi siyasət** bu və ya digər digər məqsədə çatmaq üçün tətbiq edilən üsul və vasitələrin, habelə təşkilati-tərbiyəvi, inzibati-iqtisadi tədbirlərin toplusu və sintezidir (56, s. 45).

Milli iqtisadiyyat sahəsindəki quruculuq proseslərini dinamik olaraq davam etdirməyi məqsəd olaraq götürən hər bir dövlət müəyyənləşdirdiyi iqtisadi siyasətin həm də sosialyönümlülüyünün artırılmasını hədəfləməkdədir. Bu vasitə ilə eyni zamanda, ölkə daxilində mövcud müəssisələrin fəaliyyətinin genişləndirilməsi, yeni istehsal sahələrinin yaradılması və bu sahədəki proseslərin stimullaşdırılması, nəticə etibarı ilə məşğulluq səviyyəsinin yüksəldilməsi və potensialının artırılması kimi amillər öz qətiyyətli həllini tapmaqdadır. Qeyd olunanlara əhalinin təhsil alma imkanları, savadlanma səviyyəsi, sağlamlığının qorunması sahəsindəki tədbirləri, dünyagörüşünün artması, mədəni keyfiyyətlərinin inkişafı və s. sahələrdəki üstünlükləri aid edə bilərik. Məhz bütün bunlar **dövlətin sosial siyasəti**nin səmərəliliyini təmin edən çox mühüm və strateji amillər içərisində yer almaqdadır.

**Dövlətin sosial siyasəti** üzvi surətdə uzlaşan aspektlərə (ideoloji, hüquqi, iqtisadi, mədəni, psixoloji, demoqrafik, etnik, təşkilati, regional, məkan və s.) malik olan mürəkkəb strukturlu, inteqral bir anlayışdır (31, s. 76).

Ölkəmiz müasir müstəqilliyinin 29-cu ilini yaşamaqdadır. Keçən müddətdə makroiqtisadi səviyyədə əldə olunan uğurlar:

1. sosial-iqtisadi islahatların;
2. hüquqi-iqtisadi tənzimləmələrin;
3. keyfiyyət mərhələlərinin bir-birini əvəz etməsinin;
4. regional və milli iqtisadi quruculuq proseslərinin səmərəliliyinin;
5. dünya (beynəlxalq) iqtisadiyyatına inteqrasiya və s. amillərin hərəkətverici təsiri ilə davamlı inkişafa

istiqamətlənmişdir. Bu isə təbii ki, ölkəmizin əsas hədəf və prioritetlərinin məcmusu olan **sosial-iqtisadi inkişaf**ın çox mühüm təminat vasitəsinə çevrilmişdir.

**Sosial-iqtisadi inkişaf** əsasən uzunmüddətli dövrlər üçün xarakterik olub, cəmiyyətin sosial və iqtisadi sahədəki məsələlərinin düzgün istiqamətləndirilməsini və onların səmərəli həlli yollarını özündə əks etdirməklə, dövlət tərəfindən tənzimlənmənin xüsusi formasını ifadə edir (53, s. 7).

İqtisadiyyatın regional mahiyyətinin yüksəldilməsi, bütün iqtisadi rayonların istehsal gücünün və qabiliyyətliliyinin artırılması, istehsal anlayışının ölkənin bütün regionlarını əhatə etməsi əsas prioritetlərdən hesab olundu və 2004-cü il 11 fevral tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən müvafiq Fərman imzalandı. Bu Fərman, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının hüquqi və iqtisadi əsaslarını nəzərdə tuturdu. Həmin Dövlət Proqramı ölkəmizdə regional inkişaf sahəsində keyfiyyətcə yeni mərhələnin başlanğıcını ifadə edir.

Qeyd edək ki, Dövlət Proqramında əsas **məqsəd** olaraq aşağıdakıları göstərmək olar:

- Azərbaycan Respublikasının rayonlarında mövcud potensialdan səmərəli istifadə etməklə, iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına;
- istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə;
- ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına;
- yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına;
- məşğulluğun səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır (2, s. 7).

**Məqsəd** – iqtisadi sistemin arzu olunan vəziyyətini ifadə edir. Qarşıya məqsədin qoyulması isə məqsədəuyğunluq adlanır (45, s. 239).

Bu, regionların sosial-iqtisadi inkişafını daha da sürətləndirəcək strateji tənzimləmə vasitəsi olmaqla, əhalinin sosial sahədəki maraq və mənafeyinə dolğun şəkildə xidmət etməkdədir. 2004-2008-ci, 2009-2013-cü və 2014-2018-ci illəri əhatə edən hər üç Dövlət Proqramı Azərbaycan Respublikasının və onun regionlarının, xüsusən də, Naxçıvan Muxtar Respublikasının makroiqtisadi proseslərin sosiallaşması sahəsindəki üstünlüklərinin ən gerçək ifadəsinə çevrilmişdir ki, bu da öz növbəsində **sosiallaşan iqtisadiyyat**ın əsaslarını yaratmışdır.

**Sosiallaşan iqtisadiyyat** cəmiyyətin artmaqda olan tələbatının ifadə oluna bildiyi, insanların təhsilinin, sağlamlığının, dünyagörüşünün, mədəni ketfiyyətlərinin təmin olunduğu, ölkənin elmi-texniki inkişafı ilə müşayiət olunan iqtisadiyyatın səmərəlilik göstəricisidir (53, s. 31).

Məhz bu baxımdan da yuxarıdakı məqsədlərin gerçəkləşməsi üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdur:

- müəssisələrin istehsal fəaliyyətini bərpa etmək və yeni istehsal müəssisələri yaratmaq;
- yerli resurslardan istifadənin səmərəsini artırmaq;
- regionların inkişafı üçün zəruri infrastrukturun yaradılmasını və inkişafını təmin etmək;
- aqrar sektorda islahatların ikinci mərhələsini sürətləndirmək, bunun üçün regionlarda fermerlərə və digər kənd təsərrüfatı işçilərinə kömək məqsədilə müxtəlif servis mərkəzləri yaratmaq, toxumçuluq bazasını genişləndirmək, texnika ilə təminatı yaxşılaşdırmaq və digər zəruri tədbirləri həyata keçirmək;

- investorların regionlara cəlb olunması üçün əlverişli şəraitin yaradılmasını təmin etmək;
- yeni iş yerlərinin yaradılmasını həvəsləndirmək;
- əhalinin kommunal xidmətlərlə təminatını yaxşılaşdırmaq və s (2, s. 7).

Azərbaycanda və onun regionlarında sosiallaşan iqtisadiyyata doğru görülən tədbirlər ulu öndər Heydər Əliyevin adı və siyasi fəaliyyəti ilə bağlıdır. İstər keçmiş İttifaq dövründə, istərsə də hazırkı müstəqillik illərində iqtisadiyyatın idarə olunma strategiyasından asılı olmayaraq sosial mahiyyəti yüksək olan iqtisadiyyat qurmaq ölkələrin iqtisadi məqsədlərini təşkil etməkdə idi. Qeyd edək ki, 2009-cu ilin mart ayının 18-də keçirilmiş ümumxalq səsverməsi (referendum) ilə Konstitusiyaya 29 maddəyə 41 əlavə və dəyişiklik olundu. Xüsusən, İqtisadi inkşaf və dövlət adlanan 15-ci maddənin II bəndinə sosialyönümlü sözü əlavə olundu və aşağıdakı kimi təsbit olundu:

Azərbaycan dövləti bazar münasibətləri əsasında ***sosial-yönümlü*** iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir (1).

Və yaxud, Konstitusiyamızın **Sosial inkişaf və dövlət** adlanan 16-cı maddəsinin birinci bəndində göstərilir ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır (1).

Bu islahatlar sonrakı dövrlərdə də davam etdirilərək milli iqtisadiyyatın sosiallaşma göstəricilərinin daha da inkişafında əlamətdarlığı ilə seçilmişdir. 26 sentyabr 2016-cı ildə keçirilən ümumxalq səsverməsində (referendum) yenə də iqtisadiyyatın idarə olunmasında sosial mexanizmlərin aktuallığı əsas götürülmüşdür (burada da 29 maddə üçün əlavə və dəyişikliklər nəzərdə tutulmuşdur). Fikrimizi **Mülkiyyət**

**hüququ** adlanan 29-cu maddə də təsdiq etməkdədir. Bu maddəyə olunmuş əlavə və dəyişikliyə əsasən:

**- V maddə *xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur;***

**- VI maddə isə *sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər*** (1) kimi təsbit olunmuşdur. Təbii ki, bu, hüquqi, iqtisadi və sosial tənzimləmənin müasir dövrlə səsləşməsini ifadə etməkdədir.

Qeyd olunanlardan aydın olduğu kimi, ölkədə regionların sosial-iqtisadi inkişafa dair Dövlət Proqramlarının təsdiq və icra olunması iqtisadiyyatın sosialyönümlülüyünün mühüm göstəricisi və inkişaf sahəsində nail olduğu mühüm mərhələnin ifadəsi kimi çıxış etməkdədir. Artıq üçüncü mərhələsinin yekunları ilə tanış olduğumuz Dövlət Proqramları:

- icrası sona çatan birinci və ikinci Dövlət Proqramlarının nəticələri üzərində təşəkkül tapmaqla və ondan stimul almaqla, onların səmərəli və məhsuldar icra olunduğunun isbatıdır;
- qarşıdakı dövrlər üzrə növbəti mərhələləri əhatə edəcək müvafiq hüquqi tənzimləmələr üçün sağlam sosial və iqtisadi, eyni zamanda, məntiqi və hüquqi mühit yaratmaqdadır;
- iqtisadiyyatın sahə strukturunun güclü əsaslarla inkişafına stimul verir;
- bütün regionların, hətta kəndlərin iqtisadi inkişafında, o cümlədən, infrastruktur təşkilatlanmasında mühüm amildir;
- makroiqtisadi zəmində milli iqtisadiyyat və onun uzaq gələcək üzrə perspektivləri üçün güclü bazanın formalaşdığını ifadə edir.

Bu bir həqiqətdir ki, ölkədə səmərəli fəaliyyət mühitinin yaradılması, yeni təsərrüfatçılıq formalarının təsis olunması, mülkiyyət və istehsal (iqtisadi) münasibətlərinin inkişafı,

iqtisadiyyatın mikro, mezo, makro səviyyələrdəki perspektivlərinin artırılması məhz icra olunan Dövlət Proqramlarının nəticəsi kimi ifadə oluna bilər. Bu mənada qeyd edə bilərik ki, 2009-2013-cü illəri əhatə edən Dövlət Proqramının da sosial və iqtisadi önəmi çox yüksəkdir özündə çoxşaxəli iqtisadiyyat potensialını əks etdirməkdədir.

Ölkə başçısı tərəfindən 14 aprel 2009-cu il tarixdə təsdiq olunan ikinci Dövlət Proqramının məqsədi ölkədə:

- qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə;
- iqtisadiyyatın diversifikasiyasına;
- tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa;
- əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdan ibarətdir.

Göstərilən məqsədlərin dolğun şəkildə yerinə yetirilməsi, hər birinin milli iqtisadi quruculuq proseslərini sürətləndirmə qabiliyyətliliyi, əhatəsinin genişlənməsi, məhsuldarlığının artırılması və s. məsələlər dövlətin sosial və iqtisadi siyasətinin prioritetini təşkil etməkdədir. Məhz buna görə də Dövlət Proqramında müəyyən olunmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- ölkənin təbii və əmək potensialından səmərəli istifadə etməklə, qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi;
- infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi;
- sahibkarlıq mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü tədbirlərin həyata keçirilməsi və sahibkarlığın inkişafının daha da sürətləndirilməsi;
- iqtisadiyyatın inkişafına investisiyaların cəlb olunması işinin davam etdirilməsi;
- ixracyönümlü məhsul istehsalının stimullaşdırılması;
- müasir tipli infrastruktur obyektlərinin yaradılması, mövcud obyektlərin beynəlxalq standartlara uyğunlaşdırılması;

- əhalinin kommunal xidmətlərlə təminatının yaxşılaşdırılması;
- əhalinin məşğulluq səviyyəsinin artırılması istiqamətində tədbirlərin davam etdirilməsi;
- yoxsulluq səviyyəsinin azaldılması (8, s. 3).

Məqsəd və vəzifələrdən də göründüyü kimi, ən mühüm tədbir olaraq, islahatların davam etdirilməsi, bu əsasda keyfiyyətcə yeni mərhələlərin başladılması, iqtisadiyyatın təminat qabiliyyətliliyinin artırılması, diversifikasiyası, məşğulluq və yoxsulluq amillərinin diqqətdə saxlanılması, həmçinin qeyri-neft sektorunun davamlı və perspektivli inkişafını təmin etməkdən ibarət strateji addımların atılması əsas götürülmüşdür.

İqtisadiyyatın şaəxləndirilməsi, ayrı-ayrı sahələrin iqtisadi artımdakı rolunun və çəkisinin artırılması, təminat qabiliyyətliliyinin gücləndirilməsi və digər amillərin məcmusundan ibarət diversifikasiya olunması məsələləri təsdiq, qəbul və icra olunan Dövlət Proqramlarının önəmini daha da artırmaqdadır. Buradakı hər bir məqsəd və vəzifəyə diqqət edəndə açıq şəkildə görmək olur ki, müddəalar mahiyyət etibarı ilə sosial məzmunludur, iqtisadi səmərəliliyi və əhəmiyyəti yüksək olan hüquqi tənzimləmə vasitələridir.

Azərbaycan Respublikasında milli iqtisadiyyatın hədəfləri və prioritetlər üzrə atılan addımların davamlılığını təmin etmək məqsədilə regional dövlət proqramlarının üçüncü mərhələsinin başladılması zəruri məqsəd olaraq qəbul edilmiş və qətiyyətlə icra olunmuşdur. 27 fevral 2014-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafi Dövlət Proqramı təsdiq olundu. Onun əsas məqsədi:

- ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası;

- regionların sürətli inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi;

- xüsusi ilə, kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarət olacaqdır (4, s. 2).

Artıq üçüncü mərhələdə ölkədə konkret tədbirlərin həyata keçirilməsi, daha çox prioritetlərə üstünlük verilməsi, regionların istehsal potensialının daha da artırılmasından ibarət sosiallaşma dərəcəsi yüksək olan amillərin əhatə dairəsinin genişləndirilməsi özünü göstərməkdədir. Hazırda ölkənin bütün iqtisadi rayonlarında nəzərdə tutulan məqsədlərin reallaşdırılmasına nail olunmuş, iqtisadiyyatın aparıcı sahələrinin dinamik inkişafı təmin edilmiş, makroiqtisadi göstəricilərin yüksələn xətt üzrə artımı baş tutmuşdur. Sənayenin, kənd təsərrüfatının, İKT-nin, turizmin və digər sahələrin sürətli inkişafı təmin olundu. Ölkədə sənayeləşmə siyasətinin qətiyyətli şəkildə reallaşdırılması, onun regionlarda əmək ehtiyatlarından istifadə sahəsindəki stimullaşdırıcı təsiri, məskunlaşma sahəsindəki üstünlüklər, nəticə etibarı ilə demoqrafik tarazlığın qorunması məsələləri məhz üç mərhələdə icra olunan müvafiq Dövlət Proqramlarının təsiri nəticəsində mümkün olmuşdur.

2014-2018-ci illəri əhatə edən Dövlət Proqramında da bu baxımdan müəyyən olumuş məqsədlərə nail olmaq üçün:

- regionlarda infrastruktur təminatının, o cümlədən, əhalinin kommunal xidmətlərlə təminatının daha da yaxşılaşdırılması;

- ixracyönümlü və rəqabətədavamlı məhsul istehsalı istiqamətində sahibkarlığın inkişafının sürətləndirilməsi;

- əhalinin, xüsusi ilə, kənd əhalisinin məşğulluq səviyyəsinin artırılması və yoxsulluq səviyyəsinin azaldılması istiqamətində tədbirlərin davam etdirilməsi kimi mühüm vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur (4).

Əlbəttə ki, iqtisadi sistemin formasından, bu sahədəki tənzimləmələrin necəliyindən, müəyyən edilən hədəf və prioritetlərdən asılı olmayaraq, hər bir ölkə əsas məqsəd kimi makroiqtisadi sabitliyin qorunması və gücləndirilməsini daimi diqqətdə saxlayır, onu daha da möhkəmləndirir. **İqtisadi artım**ın təmin olunması, onun daha çox əhalinin sosial təminatına yönəldilməsi və artan tələbatlarının dolğun qarşılanması sahəsindəki əlçatanlığı ölkənin regional siyasətinin də səmərəliliyindən olduq qədər asılıdır.

**İqtisadi artım** istehsal olunan istehsal amillərini artırmaqla, yaxud texnika və texnologiyanı təkmilləşdirməklə adambaşına düşən ümumi milli məhsulu artırmaq, istehsal olunmuş olunmuş əmtəə və xidmətlərin kəmiyyətinin istehlak olunmuş əmtəə və xidmətlərin kəmiyyətindən çox olmasıdır (39, s. 373).

Buradan da görünür ki, icra olunan Dövlət Proqramları cəmiyyətin aktual problemlərinin öyrənilməsi və həlli yollarını nəzərdə tutmaqla, ölkəmizin milli iqtisadi quruculuq proseslərinin daha da sürətlənməsinə xidmət etməkdədir. Əsas məqsəd isə təbii ki, bu amillərin fonunda makroiqtisadi sabitliyin qorunmasından ibarətdir. Qeyd edək ki, 2014-2018-ci illəri əhatə edən Dövlət Proqramında müəyyən olunmuş məqsədlərə nail olunması, eləcə də, qeyd olunan vəzifələrin yerinə yetirilməsi üçün ölkədə makroiqtisadi sabitliyin qorunması mühüm əhəmiyyət kəsb edir ki, bunu da nəzərə alaraq:

- dövlətin büdcə siyasətində iqtisadiyyatın prioritet sahələrinin modernləşməsi və onun effektivliyinin;
- uzunmüddətli dayanıqlılığının təmin edilməsi üçün şəraitin yaradılması;
- investisiya mühitinin daha da yaxşılaşdırılması prioritet hesab edilmişdir (4, s. 2). Artıq qeyd ediyimiz kimi, iqtisadi artımın, məşğulluğun, büdcə və valyuta gəlirlərinin

əsas mənbəyi kimi qeyri-neft sektorunun inkişafı hədəf kimi götürülmüş və bu, tarazlı, həmçinin, dayanıqlı iqtisadi artıma nail olunmasında və yüksək gəlirli iqtisadiyyatın formalaşmasında strateji amil olaraq qəbul olunmuşdur.

Müasir müstəqillik illərinin sosial-iqtisadi inkişaf xronikasına və onun regional siyasətinin səmərəli təşkilinə diqqət edəndə ərazisinə və coğrafi yerləşməsinə görə mühüm əhəmiyyət kəsb edən Naxçıvan Muxtar Respublikasının malik olduğu qürurverici potensial diqqəti cəkməkdədir. İslahatların beşiyi olaraq müasir milli iqtisadi inkişaf tariximizin səhifələrinə qızıl hərflərlə yazılan muxtar respublikamız son 25 ildə böyük Heydər Əliyev ideyalarına əsaslanmaqla güclü sosial-iqtisadi baza formalaşdırmışdır. Əlbəttə ki, bu, milli iqtisadi quruculuq proseslərinə öz töhfəsini verməklə, eyni zamanda, onun səmərəli regional siyasətinin də hərəkətverici qüvvəsinə çevrilmişdir.

## 1.3. Naxçıvan Muxtar Respublikasında regional inkişaf proqramlarının səmərəli icra mexanizmləri

Təbii ki, bu imkanlar isə muxtar respublikada regional inkişafla bağlı olan Fərman, Sərəncam, proqram, strategiya, konsepsiya və digər hüquqi tənzimləmələr üçün mükəmməl sosial və iqtisadi mühitin yaradılmasına imkanlar yaratmışdır. Məhz bu fonda təsdiq və icra olunan Dövlət proqramları ölkə iqtisadiyyatının dayanıqlı və tarazlı inkişafı üçün əlverişli mühitin yaradılmasına istiqamətlənmişdir. Qeyd edək ki, həmin Dövlət proqramlarının muxtar respublikamızda icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" və 2009-cu il 28 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və 1 sentyabr

2014-cü il tarixdə imzaladığı Fərmanla "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq olunub.

Naxçıvan Muxtar Respublikası regional inkişaf proqramları ilə malik olduğu iqtisadi inkişafın, sosial dayanıqlığın və makroiqtisadi göctəricilərin əhatə dairəsini daha da genişləndiməkdədir. Burada 2014-2018-ci illərdə icra olunan sosial-iqtisadi inkişaf üzrə Dövlət Proqramının əsas məqsədi də elə məhz:

- **real sektorun** inkişafı;
- iqtisadiyyatın diversifikasiyası;
- sürətli inkişaf istiqamətində tədbirlərin davam etdirilməsi;
- xüsusilə, kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarətdir.

**Real sektor** – fikrimizcə, digər mənalandırmalarla yanaşı, həm də ölkənin hazırkı inkişaf potensial əsasında müəyyən olunan uzunmüddətli hədəflərinə müvafiq qaydada aktuallığını artıran, davamlı iqtisadi artımı təmin edəcək sahələrin islahatlara söykənən ifadəsi olmaqla, ümumilikdə, milli iqtisadiyyatın şaxələndirilməsini (diversifikasiyasını) və bu əsasda da müqavimətliliyini, eyni zamanda, dayanıqlılığını nəzərdə tutur.

Məhz həmin Dövlət Proqramında da göstərilən məqsədlərin reallaşmasına doğru səmərəli mühitin yaradılmasının nəticəsi olaraq, 2004-2014-cü illərdə makroiqtisadi göstəricilərin artımı təmin olunmuşdur. Bunu aşağışdakı şəkildə də görə bilərik:

***Şəkil 1.3.1***

**Naxçıvan Muxtar Respublikasında 2004-2014-cü illərdə makroiqtisadi göstəricilərin artım göstəriciləri (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi, Dövlət Poqramları muxtar respublikanın sosial-iqtisadi həyatında artan inkişaf göstəriciləri ilə yadda qalmışdır. Xüsusilə, bu, əsas makroiqtisadi göstərici olan ÜDM və onun strukturunda davamlı təşkilatlanma ilə ifadə oluna bilər. İqtisadiyyatın aparıcı sahələrinin inkişafı, infrastruktur quruculuğunun davamlılığı, kommunal təminatların yüksək təşəkkülü, sosial dayanıqlığın güclənməsi və s. amillər muxtar respublikada öz dinamik əksini tapmışdır. Bu dövrdə muxtar respublikada bütün sahələrlə yanaşı, enerji siyasətinin səmərəliliyinin təmin olunması, bu sahədə mövcud və yeni potensialın daha da təşkilatlanması məsələləri diqqətdə saxlanılmış və qətiyyətli addımlar atılmışdır.

İcra olunan Dövlət Proqramları Naxçıvan Muxtar Respublikasının iqtisadi gücünün artırılmasına birbaşa olaraq xidmət etmiş və bu, özünü istehsal **infrastruktur**unun təşkilatlanamasında göstərmişdir. Qeyd edək ki, təkcə 2004-2008-ci illəri əhatə edən birinci Dövlət Proqramının icrasına başalanarkən muxtar respublikada bir sıra sənaye müəssisələri ya tikilmiş, yaxud da yenidə qurularaq istifadəyə verilmişdir.

**İnfrastruktur** – istehsal prosesi üçün yardımçı xarakter daşıyan istehsal və qeyri-istehsal sahələrinin kompleksidir. Başlıca olaraq, istehsal infrastrukturlarına nəqliyyat, enerji təchizatı və rabitə daxildir. Bununla yanaşı, təhsil, səhiyyə, yollar və s - də infrastruktur sahələrinə aid olunur (23, s. 150).

Yuxarıda qeyd olunan sənaye müəssisələrini aşağıdakı ardıcıllıqda da görə bilərik.

- “Bərəkət Qida Məhsulları” Mıhdud Məsuliyyətli Cəmiyyətində gücü 8 saatlıq iş rejimində 16,5 ton, 16 saatlıq iş rejimində 29 ton olan süd və süd məhsullarının emalı sexi;
- Ordubad rayonunun Dəstə kəndində gücü sutkada 15 ton olan un dəyirmanı;
- Şərur rayon “Düdəngə Şərab” Açıq Səhmdar Cəmiyyətində gündəlik istehsal gücü 15 ton olan un dəyirmanı;
- Babək rayonunun Sirab kəndində “İlham” Məhdud Məsuliyyətli Cəmiyyətində gücü sutkada 10 ton olan un dəyirmanı;
- Culfa rayonunun Bənəniyar kəndində saatda 20 kiloqram torba və 70 kiloqram örtük istehsal edən polietilen örtükləri istesalı sexi;
- Babək rayonunda istehsal gücü gündə 500 kubmetr olan beton zavodu və qum-çınqıl karxanası;
- Şüşə Qablar Zavodunda istehsal gücü gündə 6 ton mineral toz və 50 kiloqram polietilen torba olan istehsal sexi;

- “Gəmiqaya LTD şirkəti” Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal gücü gündə 500 kvadratmetr olan travertin üzlük daşlar istehsal sexi;
- Şərur “Tikinti-Quraşdırma” Açıq Səhmdar Cəmiyyətində istehsal gücü gündə 100 kubmetr olan qum-çınqıl karxanası;
- Naxçıvan “Taxıl və Çörək Məmulatları” Açıq Səhmdar Cəmiyyətində istehsal gücü gündə 100 kiloqram un olan lavaş bişirmə sexi;
- Naxçıvan Filiz İdarəsində istehsal gücü gündə 7 və 20 ton olan iki yeni duz üyütmə sexi;
- “Sirab” Açıq Səhmdar Cəmiyyətində yeni texnologiyanın tətbiqi ilə saatda 5000 ədəd şərti butulka mineral su istehsalına imkan verən sex;
- Naxçıvan “Mebel Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətində illik istehsal gücü 2 milyard manat olan (müvafiq dövrün qiymətləri ilə) mebel avadanlıqlarının istehsalı üçün yeni sex;
- Sədərək rayonunda istehsal gücü saatda 50 kiloqram olan Makaron Məmulatları İstehsalı Müəssisəsi;
- Sədərək rayonunda xalça toxuma sexi.

Çox mühüm sosial-iqtisadi əhəmiyyəti ilə yanaşı, həmçinin məntiq etibarı ilə də qeyd edə bilərik ki, hər bir yeni müəssisə açılan yeni iş yerləri deməkdir. Buna görə də, yuxarıda sadalanan istehsal müəssisələrinin fəaliyyəti ilə 300-ə yaxın yeni yerinin açılması təmin olunmuşdur. Təbii ki, bu, ölkənin və muxtar respublikanın sosial məqsədlərinin reallaşmasına birbaşa xidmət etməkdədir. Statistik mənbələr göstərir ki, təkcə 2005-ci il ərzində muxtar respublikanın sənaye müəssisələrində 3285 nəfər işçi çalışmışdır ki, bu gösətərici də 2004-cü illə müqayisədə 5,3 faiz çox olmuşdur.

Azərbaycanın regional iqtisadi siyasətində müstəsna rolu ilə seçilən Naxçıvan Muxtar Respublikası icra olunan Dövlət Proqramlarının nəticəsi olaraq, iqtisadiyyatın təkcə

sənaye sektori ilə deyil, həmçinin kənd təsərrüfatı sahəsində də güclü təşkilatlanma dövrünü başlatmış oldu. Qeyd edə bilərik ki, yuxarıda sadalanan davamlı inkişaf tədbirləri 2006-cı ildə də davam etdirilmiş və muxtar respublika iqtisadiyyatının kənd təsərrüfatı sahəsində də qətiyyətli nəticələr əldə olunmuşdur. Uzaq gələcək üzrə böyük əhəmiyyətə malik olan tədbirlər nəticəsində kənd təsərrüfatının maddi-texniki bazası gücləndirilmiş, bu, milli iqtisadiyyat üçün güclü baza olmuşdur. Nəticədə, xammal-emal-istehsal həlqəsinin daimiliyi və davamlılığı təmin olunmuşdur. 2006-cı ildə kənd təsərrüfatı məhsullarının emalına imkan verən yeni istehsal sahələrinin bir qisminin yaradılması proseslərini aşağıdakı kimi qeyd edə bilərik:

- "Gəmiqaya" Meyvə Məhsulları Kompleksində istehsal gücü gündə 5 ton olan meyvə qurutma müəssisəsi, istehsal gücü gündə 3 ton olan 3 növdə halva istehsalı sexi, istesal gücü saatda 50 kiloqram badam və 40-60 kiloqram cəviz olan qabıqayırma, qurutma və paketləmə sexi, istesal gücü gündə 500-600 ton xammal olan ağ və qırmızı şərab istehsalı müəssisəsi, istehsal gücü saatda 3000 kiloqram xammal olan meyvə suyu və püresi istehsalı müəssisəsi,
- "Cahan Tabacco" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal gücü ayda 10 min qutu olan tütün doldurulması və seqaret istehsalı müəssisəsi;
- "Cahan çay" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal gücü ayda 80-100 ton olan çay və dərman bitkilərinin qablaşdırılması müəssisəsi;
- Babək "Şərab-2" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal gücü saatda 3000 butulka olan tut, üzüm, meyvə və təbii bitkilərdən araq istehsalı müəssisəsi;
- "Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal gücü saatda 1200 ədəd olan südün karton tarada paketlənməsi sexi;

- "Cahan Pen" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal gücü gündə 6800 metr olan profil istehsalı müəssisəsi;
- "Naxçıvan-Tema" fərdi şirkətində istehsal gücü ayda 20 ton olan polietilen istehsalı sexi;
- "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətində gündəlik istehsal gücü 500 metr təşkil edən qapı, pəncərə yığılması və reklam tərtibat xidməti müəssisəsi;
- "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətində dizayn sənaye kompleksi, istehsal gücü gündə 250 kvadratmetr olan mərmər kəsilməsi və cilalanması;
- "Alt Trikotaj" Açıq Səhmdar Cəmiyyətində istehsal gücü ayda 250 min cüt olan sukeçirməz əlcəklərin istehsalı;
- "Naxçıvan Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal gücü ildə 600 min manat dəyərində yumşaq mebel və Naxçıvan şəhərində yeni mebel istehsalı sexləri;
- "Babək" firmasında gündə 300 kiloqram qənnadı məhsulları istehsal edən sex yaradılmışdır.

Artan sosial mahiyyəti, fasiləsiz olan istehsalı, güclənən təminat qabilliyyətliliyi və digər bu kimi üstünlükləri ilə muxtar respublikanın dinamik inkişafını təmin edən bu obyetlərin tikilərək istifadəyə verilməsi arıdıcıl olaraq bir-birini əvə edən illərin qürurverici inkişaf göstəricilərinə çevrilmişdir. Bu gün artıq Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi inkişafı ilə uzun illər ərzində davam edən blokada vəziyyətinin təsir və təhdidlərini sıfıra endirmiş və özünün dayanıqlı iqtisadiyyatı ilə güclü mövqe ortaya qoymağı bacarmışdır. Bu uğurlar özünü bəhs olunan dövrlərdə sənaye və kənd təsərrüfatı sahələri ilə yanaşı, eyni zamanda, sosial sahənin digər istiqamətləri ilə, xüsusən də, təhsil sahəsinin inkişafında göstərmişdir.

İnnovativ inkişafın ən son nailiyyətləri ilə əhatələnən sahələrindən biri də təhsildir. Təhsil sahəsi də bəhs olunan dövrlər üzrə güclü maddi-texniki təchizatı ilə yadda qalmışdır.

Artıq 2008-ci ildə muxtar respublikada təhsil müəssisələrinin tikilməsi və səmərəli fəaliyyətinin təşkili istiqamətindəki inkişaf onun bütün rayonlarını, hətta onların ucqar kəndlərini əhatə edirdi. İstinad olunan ildə tikilərək istifadəyə verilən, əsaslı təmir və yenidənqurma işləri aparılan məktəb binalarını aşağıdakı kimi göstərə bilərik:

- Şərur rayonunun Aşağı Yaycı kəndində 224;
- Babək rayonunun Məmmədrza Dizə kəndində 196;
- Ordubad rayonunun Unus kəndində 168;
- Culfa rayonunun Əbrəqunus kəndində 432;
- Şahbuz rayonunun Şada kəndində 88, Şahbuzkənddə 224 şagird yerlik, cəmi 1332 şagird yerlik 6 ümumtəhsil məktəb binası;
- Babək rayonunun Sizrab kəndində 624, Şıxmahmud kəndində 686;
- Culfa rayonunun Ərəfsə kəndində 320;
- Kəngərli rayonunun Qıvraq qəsəbəsində 1026 şagird yerlik olmaqla, cəmi 2656 şagird yerlik 4 orta məktəb binasında əsaslı təmir və yenidənqurma işləri aparılaraq istifadəyə verilmişdir.

Bütün bu potensial Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına xidmət etməkdədir. Təbii ki, nəticədə isə ölkənin makroiqtisadi potensialı, eləcə də, onun milli iqtisadiyyatın perspektivlərinə təsiri imkanları daha da artmışdır.

Sosial-iqtisadi inkişaf sahəsindəki uğurları təhlil edərkən görürük ki, Dövlət Proqramları mərhələlər üzrə ardıcıllıqla yerinə yetirilir, bir-birinin məntiqi davamıdır, olduqca perspektivlidir. 2004-2008-ci illərdəki uğurlar 2009-2013-cü illər üçün, həmin mərhələdəki potensial isə 2014-2018-ci illər üzrə əlverişli zəminlər yaratmışdır.

Təkcə onu qeyd etmək yerinə düşər ki, 2009-2013-cü illər ərzində Ordubad rayonunda Gilançay üzərində 22

meqavat gücündə Biləv Su Elektrik Stansiyasının və Şərur rayonunda 20,5 meqavat gücündə Arpaçay Su Elektrik Stansiyasının tikintisi başa çatdırılmış, 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik Stansiyasının və 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilmişdir. Bununla da muxtar respublikanın enerji potensialının təşəkkülü sahəsində mühüm addımlar atılmışdır.

İkinci Dövlət Proqramının icrası muxtar respublikanın sosial həyatında çoxsahəli uğurlarla yadda qalmışdır. Fikrimizi təbii qaz təminatı sahəsinə aid etdikdə qeyd edə bilərik ki, müvafiq sahə üzrə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikada 81 min 162 əhali abonenti mavi yanacaqla təmin etmək mümkün olmuşdur. Qeyd edək ki, 2009-2013-cü illərdə muxtar respublika sakinlərinin qış mövsümündə istiliklə etibarlı təmin olunması məqsədilə 81,6 kilometr uzunluğunda Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəmərinin tikintisi başa çatdırılmışdır. Xüsusilə, bu, həm də sərhəd bölgələrində yaşayanların dövlət qayğısı ilə əhatə olunması sahəsində mütərəqqi tədbirlərdir.

Müstəqillik dövrünün çox mühüm tərəqqi mərhələsini yaşayan Naxçıvan Muxtar Respublikasında əhalinin **həyat səviyyəsinin**, rahatlığının, rifah göstəricilərinin və **sosial müdafiə sisteminin** güclənməsinin nəticəsi olaraq dayanıqlı infrastruktur quruculuğunun dinamik olaraq davam etdirilməsi, onun istehsal və sosial sahələrdə özünü göstərməsi təmin edilmişdir.

**Həyat səviyyəsi** – cəmiyyət üzvlərinin təkrar istehsalı ilə bağlı olub, insanların fiziki, sosial və mənəvi təlabatlarının ödənilməsi dərəcəsini ifadə etməkdədir (39, s. 249).

**Sosial müdafiə sistemi** – qanunvericiliklə müəyyən olunmuş iqtisadi, sosial, hüquqi təminatların və hüquqların reallaşmasını təmin edən və əhalinin müxtəlif sosial, xüsusən, ən zəif təbəqələrinin və qruplarının təminatlı və fəaliyyətli

yaşaması üçün şərait yaradan sosial institut və müəssisələrin cəmidir (31, s. 90).

Artıq qeyd etdiyimiz kimi, Naxçıvan şəhəri ilə yanaşı, rayon mərkəzlərindəki çoxmərtəbəli yaşayış binaları da qış aylarında istiliklə təmin olunmaqdadır. Təkcə 2009-2013-cü illərdə muxtar respublikada istilik sisteminin yenidən qurulması ilə əlaqədar 67 qazanxana tikilmiş və əsaslı təmir olunaraq istifadəyə verilmişdir ki, bu da əhalinin sosial rifahına dövlət qayğısının bir nümunəsidir.

Bəhs edilən tədbirlərin ardıcıllığında əhalinin su təminatının yaxşılaşdırılması üçün yeni su və kanalizasiya xətləri çəkilməsini, 568,1 kilometr su, 431,1 kilometr uzunluğunda kanalizasiya xəttinin çəkilməsini, 136 kəhrizin isə təmir və bərpa olunmasını göstərə bilərik. İkinci Dövlət Proqramının icrası ərzində muxtar respublikada 880 kilometrdən çox magistral və yerli əhəmiyyətli yollar çəkilmiş və ya əsaslı təmir edilmiş, 44 körpü tikilmişdir. Göründüyü kimi, Dövlət Proqramlarının səmərəli icrası muxtar respublikanın güclü iqtisadi potensialının formalaşmasına stimul vermiş və bu, özünü sosiallaşma proseslərinin sürətlənməsində göstərmişdir.

2013-cü ilin Azərbaycanda "İnformasiya-kommunikasiya texnologiyaları" ili elan olunması muxtar respublikada bu sahənin inkişafına xüsusi diqqət yetirilməsini ön plana çəkmişdir. Proqramın icrası dövründə muxtar respublikada 120 rabitə müəssisəsi tikilmiş, 76 rabitə müəssisəsi əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Naxçıvan şəhərində, Şərur, Sədərək rayonlarında 3-cü nəsil kommunikasiya sistemləri quraşdırılmışdır. Bu sistem hazırda istifadəçilərin 57 faizinə xidmət göstərir. Avtomat telefon stansiyalarının 94 faizi fiber-optik bağlantılarla təmin olunmuşdur. İnformasiya cəmiyyətinin formalaşmasında

xüsusi əhəmiyyətə malik olan "Elektron hökumət" portalı yaradılmışdır.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları muxtar respublikada iqtisadi tənzimləmə ilə yanaşı, hüquqi tənzimləmələr istiqamətində də mühüm nailiyyətlərin də əsaslarını təşkil etməkdədir:

# II FƏSİL

# REGİONAL İNKİŞAFIN BAŞLICA MEYARI KİMİ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ƏSAS MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİN NƏZƏRİ ƏSASLARI VƏ TƏHLİLİ

## 2.1. Regional inkişaf proqramlarında sosial siyasətin səmərəli təşkili və məşğulluq səsviyyəsinin yüksəldilməsi

Ulu öndər böyük Heydər Əliyevin həmişəyaşar ideyaları ölkəmizin millli iqtisadi quruculuq proseslərinin sürətlənməsində və sosiallaşma hədəflərinin reallaşmasında çox mühüm hərəkətverici qüvvəyə malikdir. Həmin ideyalar əsasında ölkə başçısı cənab İlham Əliyevin uzaqgörən rəhbərliyi altında 2004-cü ildən daha da sürətlənən böyük inkişaf prosesləri bu günlərə qədər daha etibarlı və daha dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasında möhkəm bazanın yaradılmasını təmin etdi.

Ölkə başçısının 11 fivral 2004-cü il tarixdə imzaladığı Fərmanla təsdiq etdiyi Azərbaycan Respublikası Regionlarının sosial-iqtisad inkişafı Dövlət Proqramında da əsas məqsəd:

- Azərbaycan Respublikasında regionların sərvətlərindən və təbii şəraitindən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq;

- qeyri-neft sənaye sahələrinin, o cümlədən, emal sənayesinin, **xidmət** və digər infrastruktur obyektlərin, turizmin inkişafını təmin etmək;

- məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaqdan ibarət olmuşdur.

**Xidmət** – fəaliyyət, insanların hər hansı bir təlabatının ödənilməsi nəticələri olub, gəlirin bir hissəsinin istehlakını ifadə edən sosial-iqtisadi münasibətlərdir. Əməyin faydalı nəticəsi formasında olan müəyyən fəaliyyətdir. Burada, müəssisənin, təşkilatın (birliyin), yaxud ayrıca şəxsin insanın müəyyən təlabatının ödənilməsinə yönəldilmiş qeyri-istehsal fəaliyyətinin nəticəsi öz əksini tapır (62, s. 459).

Qeyd olunduğu kimi, ölkəmizdə bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına istiqamətlənmiş tədbirlər konstitusyon əsaslarla təsbit olunmuşdur. Ümumiyyətlə, elmi və nəzəri baxımdan yanaşdıqda bazar iqtisadiyyatının sosial modelləri bir -birindən fərqləndirilir. Tanınmış iqtisadçı alimlər Oqtay Məmmədlinin və Fazil İsmayılovun həmmüəlliflikləri ilə 2006-cı ildə işıq üzü görən “Bazar iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsi” adlı dərs vəsaitində bu modellərin Amerika, İsveç, Almaniya, Yaponiya, Cənubi Koreya və s-dən ibarətdir. Bunların içərisində Almaniyanın “sosialyönümlü bazar iqtisadiyyatı” və İsveçin “Sosial -demokrat” modelinin daha çox sosial təmayüllü olduğu iqtisadçılar tərəfindən qeyd olunur. Hər iki modelin xarakterik cəhətləri aşağıdakılardan ibarətdir:

Almaniyanın “sosialyönümlü bazar iqtisadiyyatı” modeli üzrə:

- qarışıq iqtisadiyyat az və ya çox dərəcədə dövlət bölməsinin mövcudluğu ilə səciyyələnir;

- təkcə makroiqtisadi proseslər deyil, həm də digər sahələrdə təsərrüfatçılıq edən subyektlərin fəaliyyəti dövlət tərəfindən tənzimlənir;

- iqtisadiyyatın sosial yönümü, dövlətin qayğısı cəmiyyətin bütün üzvləri üçün eyni dərəcədə həyata keçirilir, bu yolla əhalinin səhiyyə, təhsil mədəniyyət və mənzilə olan tələbatının ödənilməsinə təminat verilir;

- azad rəqabətin qorunub saxlanılması, tənzimləmə yolu ilə kapitalın az miqdarda əllərdə toplanmasının qarşısının alınması, yeni təsərrüfat vahidlərinin yaradılmasına xüsusi diqqət yetirilir;

- işsizliyin azaldılması və əhalinin məşğulluğunun tənzimlənməsi diqqət mərkəzində saxlanılır;

- ümumi daxili məhsulda dövlət büdcəsi böyük xüsusi çəkiyə malikdir;

- iqtisadiyyat büdcə-maliyyə siyasəti vasitəsilə deyil, pul-kredit siyasəti vasitəsilə tənzimlənir (45, s. 272).

Ölkədə makroiqtisadi proseslərin tənzimlənməsi sahəsindəki tədbirlərin nəticələrinə diqqət edərkən aydın olur ki, **sosial vəziyyət** bu sahədəki islahatların səmərəliliyinin mühüm göstəricisi kimi çıxış etməkdədir.

**Sosial vəziyyət -** əhalinin ümumən ayrı-ayrı təbəqələrinin həyat fəaliyyətinin kompleks xarakteristikası olub, cəmiyyətin struktur hissələrinin mövcudluğunun və inkişafının ictimai şəraitini təşkil edən mühüm amillər (səbəblər) sisteminin təsirinin nəticəsi kimi formalaşır (31, s. 74)

İsveç modelinin mühüm tərəflərini aşağıdakılar kimi müəyyənləşdirmək olar:

- işsizlik səviyyəsinin aşağı olması;
- əməkhaqqı sahəsində həmkarlar ittifaqlarının həmrəylik siyasəti;
- əmək haqqının mərkəzləşmiş qaydada tənzimlənməsi;
- dövlət bölməsinin yüksək xüsusi çəkiyə malik olması;

- ağır vergi yükünün mövcud olması.

Qeyd olunduğu kimi, regional inkişaf proqramlarının icrasının mühüm məqsədlərindən birini əhalinin etibarlı həyat səviyyəsinin təmin olunması, onun məşğulluğu və rifahı təşkil edir. Həyat səviyyəsi artıq qeyd etdiyimiz kimi, sosial-iqtisadi kateqoriya olub, cəmiyyətin və sosial inkişafın meyarı olmaqla, müasir şəraitdə iqtisadi islahatların həyata keçirilməsində mühüm konseptual istiqamət kimi çıxış edir. Həmçinin bu anlayış, ÜDM-nin istehsalı, bölgüsü, yenidən bölgüsü ilə, həmçinin iqtisadi artımın özünə təsir edən makroiqtisadi amildir (32, s. 84).

Digər iqtisadçı alimimiz Sabir İbadovun müəllifi olduğu və 2009-cu ildə nəşr olunan İqtisadiyyat dərsliyində göstərir ki, həyat səviyyəsi anlayışı:

- müxtəlif əhali qruplarına aid olmaqla, mikro səviyyədə;
- bütövlükdə ölkə əhalisinin maraqları baxımından makroiqtisadi səviyyədə;
- müxtəlif ölkələr səviyyəsində yanaşdıqda isə qlobal səviyyədə öyrənilir (39, s. 250).

Əsaslı şəkildə ölkədə milli iqtisadiyyatın təşəkkülü, sənayeləşmə siyasətinin səmərəliliyi, sosialllaşma proseslərinin məhsuldarlığı, məşğulluq təminatının perspektivliliyi və digər aktuallaşan məsələlər məhz bu Dövlət Proqramının təsdiq olunması ilə yeni iqtisadi və sosial müstəvidə daha mütərəqqi formada təmin olunmağa başladı. Bu dövrdən başlayaraq, Azərbaycan uzunmüddətli hədəflərinə doğru daha inamla və daha qətiyyətlə addımlamaqda qərarlılıq göstərdi. Nəzərdə tutulan islahatlar öz səmərəsini verdi və bununla da, ölkənin bütün iqtisadi rayonları milli iqtisadi quruculuq proseslərində öz potensialını səfərbər etdi və bu istiqamətdə stimul əldə etmiş oldu.

İstər sosial dayanıqlığın qorunması, istərsə də, sosial rifahın mühüm göstəricisi olan məşğulluğun təmin olunması sahəsində Dövlət Proqramlarının icrası getdikcə aktuallığını daha da artıran tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Hansı ki, həmin tədbirlər ölkədə sosial – iqtisadi sahələrdəki böhranlar qarşısında dayanıqlılığı və müqavimətliliyi artırmaqla məşğulluq sahəsində strateji əhəmiyyətə malikdir. 2004-2008-ci illər üzrə icra olunan eyni adlı Dövlət Proramında sosiallaşma və məşğulluq sahəsində həlledici baza yaradılmasını təmin edən tədbirlər artıq 2009-2013-cü illər üzrə keyfiyyətcə yeni mərhələnin başlanması əsasında bu sahədə strateji nəticələr ortaya qoymaqdadır. Xüsusilə də, bazar münasibətlərinin və **iqtisadi müstəqilliyin** möhkəmləndirilməsi şəraitində iqtisadi idarəetmənin çevik formalarını özündə əks etdirən sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi və bu sahədə əmək ehtiyatlarından səmərəli istifadənin təmin olunması, nəticə etibarı ilə, əlverişliliyin yüksəldilməsi məsələlərinə kompleks şəkildə yanaşılmışdır.

**İqtisadi müstəqillik dedikdə:**

1. xalqın tarix boyunca yaratdığı və təbiətin ona bəxş etdiyi sərvətin sahibi olması;

2. cəmiyyət özünü iqtisadi cəhətdən yaşatmaq gücünə malik olur, əsasən, özünün imkanlarına və tarixi reallıqlara arxalanmaqla, iqtisadiyyatın ictimai formasını müəyyən etməsi və formalaşdırması;

3. tərəddüd etmədən xarici iqtisadi əlaqələr yaratmaq, sərbəst dünya bazarına çıxa bilmək, xarici rəqabətə qarşı davamlı olmaq, bir sözlə, iqtisadi müstəqilliyə malik olması başa düşülür (22, s. 14).

Beləliklə, ikinci beşillik üzrə təsdiq olunan regional inkişaf proqramında da insanların öz ölkəsinin təbii sərvətlərindən və sağlam fəaliyyət mühitindən səmərəli istifadə etməklə, məşğul olmaları üçün etibarlı zəminin formalaşdırılması nəzərdə tutulmuş və artan dinamikaya xas

məşğulluq haqqında çox zəruri tədbirlər reallaşdırılmışdır. Təbii ki, nəticədə isə, səmərəli **iqtisadi idarəetmə mexanizmi** dolğun şəkildə olmaqla qərarlaşmışdır.

**İqtisadi idarəetmə mexanizmi** – ictimai istehsalın idarə olunması üçün tətbiq olunan konkret təsərrüfatçılıq formalarının, metodlarının, iqtisadi göstəricilər və mənafelərin, təsərrüfat-hüquqi normaların və təşkilat strukturunun məcmusudur (22, s. 275).

Həmin Dövlət Prorqramında göstərilir ki, məşğulluq siyasətinin mühüm istiqamətlərindən biri yeni iş yerlərinin yaradılmasını məhdudlaşdıran amillərin aradan qaldırılması və məşğulluq səviyyəsinin artırılmasını stimullaşdıran şəraitin yaradılmasıdır. Bu baxımdan sahibkarlığın, əsasən, kiçik və orta sahibkarlığın inkişafına yönəlmiş tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Qarşıdakı illərdə məşğulluq siyasətində əsas məqsəd əmək ehtiyatlarından daha dolğun istifadə etməklə əhalinin səmərəli məşğulluğunun təmin olunmasından ibarət olacaqdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

- **sahibkarlığın**, xüsusilə kiçik və orta sahibkarlığın inkişafı üçün daha münbit şəraitin yaradılması;
- məşğulluğun səmərəli inkişafını təmin edən investisiya fəallığının dəstəklənməsi;
- işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, qeyri-normal əmək münasibətlərinin leqallaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi;
- əmək bazarında **tələb və təklif** arasında dinamik uyğunluğun gücləndirilməsinə yönəldilmiş infrastrukturun təkmilləşdirməsi;
- kadr hazırlığı sisteminin, o cümlədən peşə hazırlığı və ixtisasartırma şəbəkələrinin fəaliyyətinin dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılması.

**Sahibkarlıq fəaliyyəti** – fiziki şəxslərin, onların birliklərinin, habelə, hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə olunması məqsədilə, özlərinin cavabdehliyi və əmək məsuliyyəti ilə, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından ölkə qanunvericiliyi ilə qadağan olunmayan təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən, məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir (23. 294).

**Tələb** – pul ilə ifadə olunan və pulla məhdudlaşdırılan ictimai tələbat olub, tədavül dairəsində tələbatın pul ilə ifadəsinin təzahür formasıdır (36, s. 142).

**Təklif** – bazarda yerləşən və ya oraya göndərilə bilən əmtəələrin və xidmətlərin məcmuusudur (62, s. 503).

Sosialyönümlülük müasir müstəqillik illərində Azərbaycan iqtisadiyyatının davamlı inkişafının ən gerçək ifadəsinə çevrilmişdir. Düşünülmüş, məqsədyönlü və əsaslandırılmış Dövlət Proqramları ölkədə həm regionların, həm də makroiqtisadi zəmində milli iqtisadiyyatın çoxşaxəliliyinin güclü dayaqlarını yaratmışdır. Bütün bunlar təbii ki, özünü məşğulluq siyasətinin səmərəli təşkilində və idarə olunmasında da göstərməkdədir. Təsadüfi deyildir ki, elə 2014-2018-ci illər üzrə regional inkişaf proqramında da bu məsələlər dövlətin müəyyən etdiyi iqtisadi siyasətin çox mühüm tərkib hissəsi olaraq müəyyən olunmuşdur. Həmin Dövlət Proqramında göstərilir ki, dövlətin məşğulluq siyasəti əhalinin məşğulluğunun inkişafına təsir edən **investisiya mühiti**nin yaradılmasına, vergi, gömrük, təhsil və digər müvafiq sahələrlə bağlı siyasətin daha da təkmilləşdirilməsinə, yeni iş yerlərinin açılmasını stimullaşdıran institusional mühitin formalaşmasına yönəldilən tədbirlərin həyata keçirilməsindən ibarət olacaqdır.

**İnvestisiya mühiti -** kapitalın tətbiq olunduğu ölkədəki mövcud şərait nəzərdə tutulur. Bu şəraitə siyasi, iqtisadi, maliyyə, sosial, təşkilati-inzibati və s. amillər təsir edir (45, s. 36).

Yuxarıda qeyd olunanlar bütün tərəfləri ilə iqtisadiyyatın sahə strukturunun makroiqtisadi inkişafa stimullaşdırıcı təsir mexanizmlərini ifadə etməklə, üçüncü beşillikdə ardıcıl tədbirlərin reallaşmasını nəzərdə tutur və qarşıdakı illərdə məşğulluq sahəsində aşağıdakı tədbirlərin həyata keçirilməsini hədəfləyir:

- regional iqtisadi əlaqələrin genişləndirilməsi;
- ədalətli rəqabət mühitinin formalaşdırılması və inkişafı;
- əmək qanunvericiliyinə riayət olunmasına nəzarətin təmin edilməsi;
- neft ixracından əldə olunan gəlirlərin bir hissəsinin insan kapitalının inkişafına istiqamətləndirilməsi və elm tutumlu sahələrin inkişafı ilə bağlı qabaqcıl texnologiya və innovasiyaların tətbiq edilməsi;
- təklif olunan işçi qüvvəsi ilə mövcud iş yerlərinin sayı arasında tarazlığı təmin edən şəraitin yaradılması;
- kənd yerlərində sosial və kommunal infrastrukturun daha da inkişaf etdirilməsi yolu ilə əhalinin miqrasiya səviyyəsinin azaldılması;
- qadınların və gənclərin məşğulluğunun səviyyəsinin artırılması və s.

## 2.2. Naxçıvan Muxtar Respublikasında Ümum Daxili Məhsulun artım dinamikası

Hər bir ölkənin sosial-iqtisadi inkişaf dinamikası onun əsas makroiqtisadi göstəricisini ifadə edən **Ümumi Daxili Məhsul**unda (ÜDM) təşəkkül tapır. ÜDM Milli Hesablar Sisteminin və iqtisadiyyatın ən mühüm göstəricilərindən biridir.

**Ümumi Daxili Məhsul -** bir il ərzində iqtisadiyyatda yaradılmış əmtəə və xidmətlərin bazar dəyərinin cəmindən ibarətdir.

Burada ÜDM ilə yanaşı, həm də **ümumi məhsul** anlayışından da bəhs etmək olar ki, o da müəyyən dövr (ay, kvartal, il) ərzində müəssisədə və iqtisadiyyatın sahələrində istehsalın ümumi həcmini pul ifadəsi ilə əks etdirir (65, s. 125).

Daha doğrusu, ÜDM, il ərzində mövcud ölkə daxilində istehsal olunan bütün məhsulların və xidmətlərin məcmusu ilə əlavə dəyərin birgə yekununu ifadə edir (62, s. 120).

Bazar münasibətləri şəraitində köklü **islahat**lara getməklə ölkənin iqtisadi siyasətinin yeni dəyərlər əsasında qurulması, öz təbii sərvətlərinə özünün istifadə etmək və sərəncam vermək imkanlarının mövcudluğu iqtisadiyyatın müstəqil dövlətə xas olan qanunlar əsasında təşkili və idarə olunmasına stimul verdi.

**İslahat** – fikrimizcə, uzunmüddətli prioritetləri hədəfləyən dövlətlərin mövcud siyasi, həmçinin, iqtisadi təşkilatlanmasının mütərəqqi inkişafı və daha modern qaydalara əsaslanan ardıcıl tədbirlər sistemidir.

Xalqımızın ümummilli lideri böyük Heydər Əliyevin həmişəyaşar ideyaları ilə iqtisadiyyatın sahə strukturunun təşkilatlanması, bütün sahələrin müqavimət gücünün artması ilə daha da mütərəqqi əsaslara malik olması, milli iqtisadiyyat quruculuğu proseslərinin sürətlənməsi, makoriqtisadi səviyyədə müqavimətliliyin təmin olunması ölkə iqtisadiyyatına dayanıqlılıq gətirdi.

Ölkədə və onun regionlarında illər üzrə dəyişən iqtisadi göstəricilər əvvəlki dövrlərlə müqayisədə artıq iqtisadi potensialın yaradılmasına həm zəmin yaratdı, həm də ona stimul verdi. Beləliklə, iqtisadiyyat artım göstəricilərinə söykənən dinamika ilə mövcud perspektivlərini gücləndirdi, sosialyönümlülüyünü artırdı, sözün tam mənasında sosiallaşdı.

Elm, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdəki inkişaf ölkənin mütərəqqi əsaslarla böyüyüən iqtisadiyyatına hərəkətverici təsir etdi. **Maddi və qeyri-maddi istehsal** sahələrinin səmərəlilik göstəriciləri də bu inkişafdan öz bəhrəsini aldı və əhalinin artan tələbatını qarşılaya biləcək iqtisadiyyat formalaşdı.

**Maddi istehsal** – maddi nemətlər yaradılan istehsal sahələridir. Buraya əsasən sənaye, kənd təsərrüfatı, tikinti, istehsala xidmət edən rabitə, ictimai iaşə və s. daxildir (39, s. 385).

**Qeyri – istehsal sahəsi -** əhaliyə və iqtisadiyyata xidmət göstərən, bu xidmətləri idarə edən sahələrin və fəaliyyət növlərinin məcmusudur (23, s.. 32)

Güclü infrastuktur quruculuğu bütün şəhər, rayon, qəsəbə və kəndlərin mərkəzlərinə qədər genişləndi. Artıq bütün regionlarda kənd və xidmət mərkəzləri tikilir, əhaliyə, sakinlərə xidmət güclənir və səmərəliliyi artır, ölkənin makroiqtisadi hədəf və prioritetlərindən irəli gələn məqsəd və vəzifələr yüksək məhsuldarlıq göstəriciləri ilə təmin olunur. Təbii ki, bütün bunlar iqtisadi siyasətin səmərəliliyini, makroiqtisadi göstəricilərin dinamikliyini ifadə edir. Əlbəttə ki, bu potensialın formalaşmasında 2004-cü ildən uğurla icrasına başlanılan və artıq üçüncü mərhələsinin də yekunları təqdim olunan regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının strateji əhəmiyyəti vardır. Və bunlar öz sosial-iqtisadi, eyni zamanda məntiqi nəticələrini Naxçıvan Muxtar Respublikasının da hərətərəfli inkişafında göstərməkdədir.

***Şəkil 2.2.1***

**2004-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasında Ümumi Daxili Məhsulun həcmi (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Hesablamalar göstərir ki, 2004-2008-ci illərdə muxtar respublikada əsas makroiqtisadi göstərici olan ÜDM-nin həcmi 3,4 dəfədən çox artmışdır. Şəkil üzrə hər ötən ilin göstəricisi özündən əvvəlki illə müqayisədə 1,3-1,5 dəfə çox artmışdır.

Müasir müstəqillik illərində əsasları xalqımızın ümummilli lideri böyük Heydər Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikasından müəyyən olunan iqtisadi islahatlar ölkəmizdə sağlam iqtisadiyyat üçün münbit zəminə çevrildi. Bu, öz özülüyündə həm ölkəmizin həm də onun regionları fonunda Naxçıvan Muxtar Respublikasının yeni təşəbbüs və ideyalar qarşısında hazırlıqlı olmasına istiqamətlənmişdir. Növbəti, 2009-2013-cü illər üzrə müvafiq Dövlət Proqramlarının icrası müddətində mövcud iqtisadi artım dinamikası yeni inkişaf mənzərəsini təqdim etməkdədir:

***Şəkil 2.2.2***

**2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasında Ümumi Daxili Məhsulun həcmi (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bu mərhələdəki göstəriciləri təhlil edərkən diqqəti bir sıra uğurlu göstəricilər çəkir. İlk olaraq qeyd edə bilərik ki, 2009-2013-cü illər ərzində muxtar respublikada ÜDM-nin həcmi 2,4 dəfə artmışdır.

Digər tərəfdən, çox əlamətdardır ki, ikinci beşillikdə ÜDM-nin həcmi 2010-cu ildə 1 milyard manatı, 2012-ci ildə isə 2 milyard manatı ötüb keçmişdir. Təhlillər göstərir ki, ÜDM-nin həcmi 2010-cu ildə 2009-cu illə müqayisədə 1,2 dəfə artmışdır. Bu artım 2011-ci illə 2010-cu ilin müqayisəsində 1,5 dəfə təşkil etmişdir. Eyni müqayisə 2012-2011-ci illər üzrə 1,2 dəfə artımla müşayiət olunmuşdur. 2013-cü ildə isə ÜDM-nin həcmi 2012-ci illə müqayisədə 1,1 dəfə artmışdır.

Bunlardan da göründüyü kimi, muxtar respublikada iqtisadiyyatın dinamik artımında qətiyyətlilik, inamlılıq, müqavimətlilik, perspektivlik və digər pozitiv amillərlə yanaşı məqsədyönlülük mövcuddur. Bunu 2014-2018-ci illər üzrə ÜDM-nin artım dinamikası da ifadə etməkdədir:

***Şəkil 2.2.3***

**2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında Ümumi Daxili Məhsulun həcmi (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qeyd edək ki, üçüncü mərhələnin göstəricilərindən ibarət dinamika iqtisadiyyatın güclü dayaqlarını və bu sahədə artan potensialı təqdim etməkdədir. Hesablamalar göstərir ki, muxtar respublikada 2014-2018-ci illərdə ÜDM-nin həcmi 1,2 dəfə artmışdır. Bu, 2014-2017-ci illərdə 1,1 dəfə təşkil etmişdir.

Hesablamalar göstərir ki, **makroiqtisadi siyasət**in səmərəli təşkili ilə Naxçıvan Muxtar Respublikasında ÜDM-nin hər üç beşillik mərhələ üzrə artım dinamikası davamlı xarakterə malik olmuş və bu, milli iqtisadiyyat üçün müəyyən olunan perspektivlərin əlçatanlığını daha da artırmışdır.

**Makroiqtisadi siyasət -** adətən 2 istiqamətdə tətbiq edilir. Monetar və Fiskal. Hər iki istiqamət iqtisadi sabitliyin, ÜDM-in artım səviyyəsinin və resursların tam istifadəsinin qorunub saxlanılması məqsədi ilə istifadə olunur (69).

Nəticədə, muxtar respublika iqtisadiyyatı qarşıya qoyulan məqsədlərə və hədəflərə doğru qətiyyətlə addımlamaqdadır ki, bu da onun müqavimətliliyini və dayanıqlılığını artırmaqdadır.

*Şəkil 2.2.4*

**Hər üç beşillik üzrə Naxçıvan Muxtar Respublikasında Ümumi Daxili Məhsulun həcmi (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Hesablamalar göstərir ki, 2014-2018-ci illərdə istehsal olunan ÜDM-nin həcmi 2009-2013-cü ilin göstəricisi ilə müqayisədə 1,5 dəfədən çox artmışdır. Qeyd edək ki, 2014-2018-ci illərdə istehsal olunan ÜDM-nin həcmi 2004-2008-ci illərin müvafiq göstəricisi ilə müqayisədə 5,7 dəfə artıq olmuşdur.

Digər tərəfdən, sağlam iqtisadi inkişaf, dayanıqlı sosial vəziyyət, etibarlı islahatlar mühiti nəticəsində, həmçinin, regional inkişaf proqramlarının səmərəli icrası nəticəsində əsas makroiqtisadi göstərici olan ÜDM-nin həcmi dinamik artımla müşayiət olundu. Burada onu qeyd edə bilərik ki, təkcə 2013-

cü ildə istehsal olunan ÜDM-nin həcmi 2004-2008-ci illər üzrə olan eyni göstəricidən 2,4 faiz çox olmuşdur. Bu onu göstərir ki, muxtar respublikada makroiqtisadi inkişafın təmin olunması üzrə həyata keçirilən tədbirlər perspektivlidir, məhsuldardır və milli iqtisadiyyat üzrə müəyyən olunan prioritetlərlə çevik şəkildə səsləşir.

## 2.3. Naxçıvan Muxtar Respublikasında regional inkişaf proqramlarının icrası dövründə hər bir nəfərə düşən ÜDM-nin həcminin təhlili

Artıq regional inkişaf proqramlarının icrasının 3-cü mərhələsini yüksək artım dinamikası ilə geridə qoyan muxtar respublikada milli iqtisadiyyat üzrə perspektivlər nəzərə alınmaqla, güclü baza və potensial formalaşdırılmışdır. Bu müddətdə əhalinin ərzaq təhlükəsizliyi, məşğulluq imkanları, sosial müdafiəsi, təhsil almaq sahəsindəki üstünlükləri və digər amillər əhatəli əksini tapmışdır. Bu isə əlbəttə ki, iqtisadiyyata sosiallaşma səviyyəsi yüksək olan dinamika gətirmişdir ki, nəticə etibarı ilə bu da özünü bütün tərəfləri ilə birlikdə **əhalinin alıcılıq qabiliyyəti**nin yüksəldilməsində də göstərməkdədir.

**Əhalinin alıcılıq qabiliyyəti** – pul gəlirləri ilə məhdudlaşan əmtəə və xidmət çoxluğunu ifadə edir (31, s. 53).

Naxçıvan Muxtar Respublikasında ÜDM-nin illər üzrə artım dinamikasına diqqət etdikdə, aydın olur ki, burada iqtisadiyyat əhalinin firəvan yaşayışına, sosial müdafiəsinin güclənməsinə, sosial-iqtisadi inkişafdan yararlanmaq imkanlarının genişlənməsinə istiqamətlənmişdir.

Bütün bunların nəticəsində iqtisadi proseslər ayrılıqda hər bir sakinin, bütövlükdə isə, bütün muxtar republika əhalisinin sosial maraq və mənafelərinin ifadəsinə çevrilmiş, nəticə etibarı ilə təminat qabiliyyətli olmuşdur. Bunu hər bir nəfərə düşən ÜDM-nin həcmi də göstərməkdədir.

*Şəkil 2.3.1*

**2004-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən ÜDM-nin həcmi (manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Təhlillər göstərir ki, birinci Dövlət Proqramının icrası müddətində muxtar respublikada makroiqtisadi proseslər əhalinin maraq və mənafeyini dolğun şəkildə ifadə etməyi bacarmış və bu, özünü statistik göstəricilərin artan dinamikasında göstərməkdədir. Göründüyü kimi, ilk beşillik dövrdə hər bir nəfərə düşən ÜDM-nin həcmi 3,2 dəfədən çox artmışdır. Bu artım, 2004-2007-ci illərdə 2,3 dəfə, 2004-2006-cı illərdə 1,7 dəfədən çox, 2004-2005-ci illərdə isə 1,3 dəfə təşkil etmişdir.

Göstərilən artım dinamikası müasir iqtisadi şərait üçün ölkənin regional iqtisadi siyasətinin çox səmərəli göstəriciləri olub, muxtar respublikada müvafiq Dövlət Proqramları ilə yanaşı, həmçinin digər sahəvi tənzimləmə vasitələrinin də səmərəliliyə söykənən nəticələri əsasında da mümkün olmuşdur. Daha doğrusu, keçdiyimiz illər üzrə qarşıya

qoyulmuş məqsədlər sosial dayanıqlılıq ifadəsi olmaqla, reallaşmışdır. Bu artım göstəricilərini aşağıdakı şəklin məlumatlarında da görə bilərik:

***Şəkil 2.3.2***

**2004-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən ÜDM-nin artım dinamikası (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi, həyata keçirilən səmərəli iqtisadi siyasət muxtar respublikanın makroiqtisadi gücünü daha etibarlı səviyyəyə yüksəltmişdir. 2006-cı ildə hər bir nəfərə düşən ÜDM-nin həcminin 1000 manatı, 2008-ci ildə isə 2000 manatı ötməsi muxtar respublikada qarşıya qoyulan məqsədlərə çatmaqda mühüm mərhələni keçildiyini göstərir. Eyni zamanda bu, əhalinin alıcılıq (tədiyyə) qabiliyyətinin yüksəldilməsini, onun sosial-iqtisadi inkişafdakı çevik iştirakını, milli quruculuq proseslərdə dövlətin ən güvənilir və ən etibarlı dəstəkçisi olmasına stimul verdiyini sübut edir.

Dövlət Proqramları özündə infrasturktur quruculuğu, sağlam fəaliyyət mühiti, sosial dayanıqlılıq, **<u>əmək ehtiyatları</u>**ndan səmərəli və məhsuldar istifadə, elm, təhsil,

səhiyyə və digər sahələrə aid güclü potensial, innovativ inkişaf, ənənəvi və prioritet hesab olunacaq istiqamətlərin çoxşaxəliliyi və s. kimi amilləri əks etdirməkdədir. Bütün bunlar hər üç Dövlət Proqramının məqsəd və vəzifələrində daha da təkmilləşdirilməklə yer almaqdadır.

**Əmək ehtiyatları** – yalnız əmək prosesində fəaliyyət göstərməklə, cəmiyyət üçün müəyyən bir faydalı əmək dairəsində məşğul olmaqla, ölkənin sosial-iqtisadi tərəqqisinə fəal təsir edir (47, s. 228).

Təbii ki, hər bir nəfərə düşən ÜDM-nin həcmini də bu nailiyyətlərin tərkib hissəsi olaraq təqdim etmək mümkündür.

*Şəkil 2.3.3*

**2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən ÜDM-nin həcmi (manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi inkişafına qətiyyətlə və inamla davam edir. Göstərilən illər üzrə təşəkkül tapan göstəricilər ikinci beşilliyin də məhsuldar nəticələrlə tamamlandığını sübut etməkdədir. 2009-2013-cü illərdə belə nəticənin əldə olunması həm də birinci beşillik üzrə dayanıqlı

bazanın olmasını bir daha göstərməkdədir. Həmçinin bu, qarşıdakı dövrlər üzrə iqtisadi perspektivliliyi daha da möhkəmləndirir və onun hədəflər üzrə səmərəliliyini daha da artırır.

Təhlillərimiz göstərir ki, 2009-2013-cü illər ərzində muxtar respublikada ÜDM-nin hər bir nəfərə düşən həcmi 2,2 dəfədən çox artmışdır. Dinamikanın 2009-2012-ci illər üzrə 2 dəfədən çox, 2009-2011-ci illər üzrə 1,8, 2009-2010-cu illər üzrə isə 1,2 dəfə olduğunu qeyd edə bilərik.

*Şəkil 2.3.4*

**2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən ÜDM-nin artım dinamikası (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Məlumatlardan aydın olduğu kimi, 2011-ci ildə ÜDM-nin hər bir nəfərə düşən həcmi 4000 manatı, 2013-cü ildə isə 5000 manatı keçmişdir. Təbii ki, belə bir potensial muxtar respublika əhalisinin sosial rifahının daha da artmasına xidmət etmiş, onun iqtisadi təhlükəsizliyinə təminat yaratmış, milli iqtisadiyyat üçün hərəkətverici amilə çevrilmişdir.

*Şəkil 2.3.5*

**2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən ÜDM-nin həcmi (manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Üçüncü mərhələ də qarşıya qoyulan məqsədlərə, müəyyən olunan hədəflərə xidmət edərək, makroiqtisadi siyasətin səmərəliliyinə güclü töhfə verməklə xarakterizə oluna bilər. Həmçinin bu, **istehsal münasibətləri**nin inkişafının zəruri ifadəsi olmaqla, Azərbaycan Respublikasının sosialyönümlü iqtisadiyyat quruculuğu sahəsindəki islahatların davamlılığı və perspektivliliyinin ifadəsi olaraq əhalinin rifah halının gücləndirilməsi sahəsindəki ardıcıl uğurlarını göstərməkdədir.

**İstehsal münasibətləri** – maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və **istehlakı** prosesində insanlar (siniflər, sosial qruplar, kollektivlər və s.) arasındakı münasibətlərdir (23, s. 123).

Hesablamalar göstərir ki, 2014-2018-ci illəri əhatə edən dövrlər üzrə muxtar respublikada hır bir nəfərə düşən ÜDM-nin həcmi 1-1,2 dəfəyə yaxın artmışdır.

Statistik rəqəmləri nəzərdən keçirərkən qeyd edə bilərik ki, məqsədlərin qətiyyətli reallaşdırılması nəticəsində muxtar respublikada hər bir nəfərə düşən ÜDM-nin həcmi artıq 6000 manatı ötmüşdür.

**İstehlak** – tələbatı ödənilməsi prosesində ictimai məhsuldan istifadədir, təkrar istehsalın son fazasıdır (36, s. 142).

Beləliklə, Regionların sosial iqtisadi inkişafına dair Dövlət Proqramları üç mərhələdə olmaqla, Naxçıvan Muxtar Respublikasında yüksək doğmalıqla icra olundu. Əsas makroiqtisadi göstərici olan ÜDM-nin və onun hər bir nəfərə düşən həcminin artım dinamikası qarşıdakı illərdə və uzaq gələcək üzrə daha mükəmməl potensialın formalaşması üçün perspektivlər açacaq.

# III FƏSİL

# SƏNAYE POTENSİALI SƏNAYELƏŞMƏ SİYASƏTİNİN HƏRƏKƏTVERİCİ AMİLİ KİMİ

## 3.1. Regional inkişaf proqramlarının icrası ərzində sənaye məhsulunun istehsal həcminin təhlili və qiymətləndirilməsi

Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının səmərəli icra olunması iqtisadiyyatın sahə strukturuna güclü perspektivlər gətirdi. Nəticədə, ölkədə milli iqtisadiyyatın uzunmüddətli inkişaf mərhələlərinin əsasları müəyyən olundu. Müasir **iqtisadi sistem** şəraitində aparıcı sahələrə çevrilən kənd təsərrüfatı və sənaye makroiqtisadi proseslərin davamlı inkişafı üçün güclü

baza kimi təşkilatlandı. Həyata keçirilən məqsədyönlü tədbirlər iqtisadiyyatın sənaye əhəmiyyətliliyinin artırılmasına həm stimul verdi, həm də bu istiqamətdəki prosesləri daha da sürətləndirdi.

**İqtisadi sistem** – iqtisadiyyatın başlıca probleminin həllinin təşkili və idarə olunmasına, mövcud resurslardan istifadə olunması səviyyəsinə, həmçinin cəmiyyət və onun üzvlərinin təlabatlarının ödənilməsinə görə bir-birindən fərqlənən iqtisadi şərtlərin və amillərin məcmusudur (22, s. 96).

Üç mərhələdə uğurla icra olunan Dövlət Proqramları bütün sahələr kimi sənaye siyasətinin də məhsuldarlığını təmin etmiş və nəticədə, milli iqtisadiyyatın perspektivləri üçün zəruri mərhələni başlatmış oldu. Məhz bu kimi amillərin təsiri altında 2014-cü ilin "Sənaye ili" elan olunması Azərbaycan dövlətinin bu sahədəki məqsədilərinin reallaşmasında daha da qətiyyətli olduğunu bir daha sübut edirdi.

Regional iqtisadi siyasətin uğrulu təşəkkülü Naxçıvan Muxtar Respublikasında da iqtisadi proseslərin səmərəliliyinin artırılmasında, makroiqtisadi səviyyədəki nəticələrin perspektivliyinin artırılmasında və bu kimi nəticələrin əldə olunmasında güclü vasitəyə çevrildi. Ərazisinin böyük hissəsinin aqrar bölgə olması, əhalisinin isə 70 faizdən artığının məhz kənd yerlərində yaşaması ilə yanaşı, iqtisadiyyatın sənaye əhəmiyyətliliyinin artırılmasına nail olan muxtar respublika ölkənin sənayeləşmə siyasətinə hərəkətverici təsirini göstərmiş oldu. Qeyd edək ki, hələ keçmiş İttifaq dövründə Azərbaycan Respublikasında istehsal olunan sənaye məhsulunun 2,6 faizi muxtar respublikanın payına düşürdü (21, s. 266).

Ulu öndərin əsaslarını müəyyənləşdirdiyi müasir iqtisadi siyasət bütün sahələrin əlaqəli və stimullaşdırıcı inkişafı üçün sağlam mühitin təsisatlarını bərqərar etmiş, bu isə, sənayenin

məhsuldar inkişafına yol açmışdır. 1995-ci ildən qətiyyətlə davam etdirilən bu siyasət muxtar respublikada müvafiq sahə üzrə perspektivlərin artmasına səbəb olmuşdur. Yaradılan güclü baza və həyata keçirilən səmərəli tənzimləmə siyasəti 2004-cü ildən icrasına başlanan regional inkişaf proqramlarının məhsuldar nəticələri üçün əsas oldu. Təbii ki, bu, genişmiqyaslı uğurlar kimi sənaye sahəsinin üç beşillik üzrə inkişaf göstəricilərinə çevrilmiş oldu.

***Şəkil 3.1.1***

**2004-2008-ci illər ərzində Naxçıvan Muxtar Respublikasında istehsal olunmuş sənaye məhsulunun həcmi (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

İcrasına ilk beşillik üçün başlanan regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları Naxçıvan Muxtar Respublikasında **<u>sənaye</u>**nin davamlı inkişafı üçün səmərəli mühit yaratdı. Nəticədə müvafiq sahə üzrə məhsullar özünün dinamik artımına nail olmuş və əsas makroiqtisadi göstərici olan ÜDM-nin strukturunda ilk yerdə təşəkkül tapdı. Qeyd edək ki, sənaye bütün dövrlərdə iqtisadiyyatın aparıcı sahəsi

olub, onun sahə strukturunun davamlı təşəkkülündə strateji əhəmiyyətə malikdir.

**Sənaye** – işçilərinin əməyi əsas etibarı ilə təbiətdə mövcud olan və süni sürətdə təkrar olunmayan maddi nemətlərin əldə olunmasına, bu nemətlərin emalına, həmçinin kənd və meşə təsərrüfatı məhsullarının emalına yönəldilmiş maddi istehsal sahəsidir (52, s. 79).

Təhlillərimiz göstərir ki, 2004-2008-ci illərdə muxtar respublikada **sənaye məhsulu**nun həcmi 6,4 dəfədən çox artmışdır. Bu, müvafiq olaraq:

2004-2007-ci illərdə 4,8 dəfədən çox;

2004-2006-cı ildə 2,8 dəfə;

2004-2005-ci illərdə isə 1,6 dəfədən çox təşkil etmişdir.

**Sənaye məhsulu -** əmtəə və yaxud istehsal xidmətləri (sənaye xarakterli iş) formasında ifadə edilən, müəssisənin fəaliyyətinin birbaşa səmərəli nəticəsidir (istehsal strukturu çərçivəsində əməyin nəticəsilə əldə edilmiş nemət) (16, s. 78).

Ölkəmizdə qeyri-neft sektorunun inkişafının hədəf kimi götürülməsi Naxçıvan Muxtar Respublikasının da makroiqtisadi siyasətinin ən zəruri məqsədlərini təşkil etməklə, birinici dövlət proqramının icrası müddətində özünün səmərəliliyi ilə fərqlənmişdir. Şəklin məlumatlarından da göründüyü kimi, artıq 2007-ci ildə sənaye məhsulunun həcmi 100 milyon manatı ötüb keçmişdir.

Qeyd edək ki, sənaye məhsulunun həcminin dinamik olaraq artması iqtisadiyyatın sosialyönümlülüyünün də güclənməsinə stimul vermiş və bu, özünü hər bir nəfər düşən sənaye məhsulunun həcmində göstərməkdədir.

***Şəkil 3.1.2***

**2004-2008-ci illər ərzində Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən sənaye məhsulunun həcmi (manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

2004-cü ilə qədər muxtar respublikada iqtisadiyyatın sənaye əhəmiyyətinin artırılması özünü ötən əsrin 90-cı illərinin əvvəllərində ulu öndərin həmişəyaşar ideya və təşəbbüslərilə başadılan islahatların qətiyyətlə davam etdirilməsində ifadə etdi. Qeyd edə bilərik ki, bu, həm də sənayenin çoxşaxəliliyi fonunda iqtisadiyyatın digər sahələrini də əhatə edən **sənaye kapitalı**nın ifadəsini özündə əks etdirir.

**Sənaye kapitalı -** təkcə emal və yaxud hasilat sənayesinə qoyulan kapitalı yox, həm də maddi istehsalın digər sahələri olan kənd təsərrüfatı, nəqliyyat, rabitə və s. sahələrini də əhatə edir (44, s. 93).

Məhz bəhs olunan Dövlət Proqramlarının icra olunmasındakı çeviklik 2004-cü ilə qədər olan sosial-iqtisadi inkişafla birbaşa bağlıdır. Təbii ki, birinci beşillikdə əldə olunan uğurlar ikinci beşillik üçün güclü baza oldu və bu daha işlək mexanizmlərin səfərbər edilməsinə imkanlar yaratdı.

Qeyd edək ki, 2004-2008-ci illərdə muxtar respublikada hər bir nəfərə düşən sənaye məhsulunun artımı aşağıdakı şəkildə ifadə olunmuşdur:

*Şəkil 3.1.3*

**2004-2008-ci illər ərzində Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən sənaye məhsulunun artım dinamikası (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qətiyyətli iqtisadi idarəetmə muxtar respublikanın iqtisadi siyasətində sənaye sektorunun payını da olduq qədər artırmışdır. İqtisadiyyatın sahə strukturunun keyfiyyət çəkisinin yüksək vəziyyətini ifadə edən bu amil regional inkişaf proqramlarının məhsuldar icrasına da münbit zəminlər yaratmışdır.

*Şəkil 3.1.4*

**2009-2013-cü illər ərzində Naxçıvan Muxtar Respublikasında istehsal olunmuş sənaye məhsulunun həcmi (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

İkinci Dövlət Proqramının nəticələrini təhlil edərkən aydın olur ki, istehsal olunan sənaye məhsulunun həcmində dinamik inkişaf özünü daha üstün səviyyədə göstərməkdədir. Burada sağlam iqtisadi mühitin və etibarlı **əmək şəraiti**nin mövcudluğu xüsusi əhəmiyyətə malik olması ilə seçilmişdir.

**Əmək şəraiti** – istehsal mühitinə xas amillərin məcmusu olub, əmək prosesində işçinin vəziyyətinə (sağlamlığına, iş qabiliyyətinə əməyə münasibətinə, şəxsiyyətinin inkişafına) və istehsalın nəticələrinə təsir edir (23, s. 76).

İlk olaraq, onu qeyd edək ki, 2008-ci ildəki 100 milyon manatlıq sənaye məhsulu istehsalı artıq 2009-cu ildə 200 milyon manatı ötməklə davam etmişdir. Burada diqqəti çəkən ən mühüm inkişaf göstəricisi 2010-cu illə 2011-ci il arasında mümkün olmuşdur. Belə ki, müvafiq göstərici 2010-cu ildə 300 milyon manatı, 2011-ci ildə isə 600 milyon manatı ötmüşdür. Dinamik artım 2012-ci ildə 700 milyon manatdan, 2013-cü ildə isə 800 milyon manatdan artıq olmuşdur.

2009-2013-cü ildə muxtar respublikada istehsal olunan sənaye məhsulunun həcmi 4 dəfədən çox artmışdır. Bu, müvafiq olaraq:

2009-2012-ci illərdə 3,8 dəfə;

2009-2011-ci illərdə 3,2 dəfə;

2009-2010-cu illərdə isə 1,5 dəfə artmışdır.

Burada bir məqamı qeyd edək ki, ikinci Dövlət Proqramının icrası ərzində sənaye məhsulunun həcmindəki dinamik artım bir-birini əvəz edən digər illər üzrə 1-1,5 dəfə arasında dəyişirsə, bu, 2010-2011-ci illərdə 2,1 dəfə təşkil etməkdədir.

*Şəkil 3.1.5*

**2009-2013-cü illər ərzində Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən sənaye məhsulunun həcmi (manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Dövlətin iqtisadiyyatın sosiallaşması sahəsindəki siyasətinin də çox mühüm inkişaf göstəricisi olan bu amillər muxtar respublikada dayanıqlı fəaliyyət mühitinin zəruri ifadəsidir. Eyni zamanda bu, iqtisadiyyatın sənaye əhəmiyyətliliyinin və sosiallaşması proseslərinin çevik təşkili fonunda mümkün olmuşdur. Təhlillərimiz də göstərir ki, 2009-2013-cü illər ərzində muxtar respublikada bu sahədə uzaqgələcək üçün yüksək mahiyyəti olacaq addımlar atılmışdır. İkinci Dövlət Proqramının icrası dövründə hər bir nəfərə düşən ÜDM-nin həcminin artım vəziyyəti aşağıdakı kimi olmuşdur:

***Şəkil 3.1.6***

**2009-2013-cü illər ərzində Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən sənaye məhsulunun artım dinamikası (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bunlarla yanaşı, onu da qeyd edək ki, artıq 2013-cü ildə hər bir nəfərə düşən sənaye məhsulunun həcmi 2000 manatı ötmüşdür. Təbii ki, bu göstəricilər muxtar respublikada

səmərəli **iqtisadi vəziyyət**in güclü dayaqlarını da yaratmaqdadır.

**İqtisadi vəziyyət** – özündə əməyin sosial və iqtisadi şəraitini, həyat səviyyəsini, iaşə şəbəkəsini, təhsil və səhiyyənin inkişafını və s. əks etdirən obyektiv şərtlərin toplusunu nəzərdə tutur (45, s. 315).

Birinci və ikinci Dövlət Proqramlarının səmərəli icrası Naxçıvan Muxtar Respublikasında makroiqtisadi siyasətin məqsədyönlülüyünü, düzgün təşkili və idarə olunmasını, əsas prioritetlərə istiqamətləndiyini göstərməkdədir. Eyni zamanda hər iki dövrdə formalaşan sosial və iqtisadi baza qarşıdakı dövrlərin də məhsuldar təşəbbüslər üçün güclü zəmin kimi təşəkkülünü göstərmiş oldu. Təbii ki, muxtar respublika özünün təbii, iqtisadi və coğrafi potensialı ilə ölkənin qeyr-neft sektorunun inkişafı üzrə ixtisaslaşmaqla, bu sahələr üzrə dinamik artımı təmin etmişdir. Artıq 2014-2018-ci illərdə bu sahədəki qətiyyətli addımlar öz bəhrəsini verdi.

*Şəkil 3.1.7*

**2014-2018-ci illər ərzində Naxçıvan Muxtar Respublikasında istehsal olunmuş sənaye məhsulunun həcmi (min manat)**



**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Artıq üçüncü Dövlət Proqramının icrası dövründə istehsal olunan sənaye məhsulunun həcmi 1,1 dəfə artmışdır. Artıq bu göstəricinin belə təşəkkülü onun 1 milyard manatı ötəcəyini deməyə əsas verməkdədir. Qeyd edək ki, hazırda muxtar respublikada istehsal olunan sənaye məhsulu ÜDM-nin 37 faizdən artığını təşkil etməkdədir.

Təbii ki, sosial-iqtisadi inkişafın belə dinamikada təşəkkülü muxtar respublikanın kənd, qəsəbə və şəhərlərində müvafiq təsərrüfat şaxələndirməsinin etibarlılığını da qorumaqdadır. Burada bir çox amillərlə yanaşı, məskunlaşmanın səmərəliliyini, istehsalın fasiləsizliyini, mövcud və yeni müəssisələrin fəaliyyətini, məşğulluq siyasətinin etibarlılığını, infrastruktur quruculuğunun ardıcıl xarakterə malik olmasını və s. qeyd etmək olar.

Sosial mahiyyəti yüksək olan proseslərin davamlılığı və bu sahədə dövlətin tənzimləyici tədbirlərinin səmərəliliyi muxtar respublikada qarşıya qoyulan məqsədlərin məhsuldarlıqla reallaşmasına stimul verirdi.

***Şəkil 3.1.8***

**2014-2018-ci illər ərzində Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən sənaye məhsulunun həcmi (manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi, muxtar respublikanın sosial-iqtisadi həyatında davamlı xarakter alan dinamik artım hər bir nəfərə düşən ÜDM-nin həcmində də özünü göstərmiş və sosiallaşma səviyyəsinin artırılmasına stimul vermişdir. Üçüncü Dövlət Proqramının səmərəli icrası müddətində müvafiq göstərici 1,1 dəfəlik artımla müşayiət olunmuşdur. Hər üç Dövlət Proqramı Naxçıvan Muxtar Respublikasının həm sosiallaşma, həm sənayeləşmə, həm də bu sahədəki proseslərin düzgün təşkili və idarə olunmasındakı tədbirlərini olduqca məhsuldar etmişdir. Əlbəttə ki, qarşıdakı dövrlərdə bunun mühüm nəticələrini görəcəyik.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında sənayenin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi bir daha göstərir ki, bu sahədə dinamik artım müəyyən olunan hədəflərə bir başa xidmət edir və ölkənin milli iqtisadiyyat üzrə perspektivlərinə hesablanıb.

## 3.2. Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun mülkiyyət növləri üzrə bölgüsü: özəl sektorun inkişafı və məşğulluq məsələləri

Ölkəmizdə bazar münasibətlərinin inkişafı zəminində təşəkkül tapan iqtisadi siyasət xüsusi mülkiyyətə əsaslanan proseslərin gedişinə də səmərəlilik gətirmişdir. 1995-ci ildən etibarən iqtisadi islahatların başladılması, torpaq üzərində münasibətlərin yeni iqtisadi dəyərlər əsasında təşəkkül tapması, təsərrüfatçılığın bu amillərə söykənən inkişafı, bazar iqtisadi qanunlarının bazası əsasında idarəetmənin təşkili və dövlətin bu sahələr üzrə tənzimləyici tədbirləri makroiqtisadi siyasətin səmərəliliyinə də yeni nəfəs vermişdir. Nəticədə özəl sektorun çoxşaxəli inkişaf istiqamətləri daha da perspektivli olmuş və hazırda ÜDM-də **özəl sektor**un payı 85 faiz ətrafındadır. Qeyd edək ki, bu göstərici Naxçıvan Muxtar Respublikasında 90 faziə yaxındır. Həmin göstəricini sənaye məhsulunun istehsalında özəl bölmənin payına aid etsək görərik ki, bu, 96 faiz təşkil etməkdədir.

**Özəl sektor** – ölkə iqtisadiyyatının xüsusi mülkiyyətə əsaslanan hissəsidir (52, s. 68).

Bu sahədəki prosesləri izləyərkən aydın olur ki, Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun mülkiyyət növləri üzrə bölgüsündə qeyri-dövlət bölməsinin çəkisi daha da təşkilatlanmış və hər üç Dövlət Proqramının səmərəli icrası müddətində bu potensial daha da artmışdır. Ölkəmizdə milli iqtisadiyyatın perspektivləri çərçivəsində qətiyyətlə başladılan və uğurlarla davam etdirilən sənayeləşmə siyasətinin hərəkətverici ifadəsi olaraq muxtar respublika müvafiq sahə üzrə güclü potensial formalşadırmışdır. Bu isə, bütün tərəfləri ilə yanaşı, eyni zamanda, muxtar respublikada:

- ölkənin müəyyən etdiyi hədəf və prioritetlərə sağlam sosial-iqtisadi mühit yaradıldığını göstərir;

- iqtisadiyyatın sahə strukturu üzrə bu məqsədlərin reallaşması üçün mükəmməl təşkilatlanma olduğunu ifadə edir;
- bütün rayonlarda bəhs olunan sahədə güclü təminatqabiliyyətli potensial formalaşdırıldığını təsdiqləyir;
- cəmiyyətin sosial maraq və mənafeyinin ifadə olunduğu iqtisadiyyat üçün zəmin yaradılmasını sürətləndirir;
- qeyr-neft sektorunun inkişafı sahəsindəki perspektivləri daha da artırır və s.

Bunu Dövlət Proqramlarının icrası müddətində istehsal olunan sənaye məhsulunun mülkiyyət növləri üzrə bölgüsü də təsdiqləyir.

*Şəkil 3.2.1.*

**2004-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasında isteshal olunan sənaye məhsulunun mülkiyyət növləri üzrə bölgüsü (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Şəklin məlumatlarından da göründüyü kimi birinci Dövlət Proqramının icrası müddətində muxtar respublikada **qeyri-dövlət sektoru**nda istehsal olunan sənaye məhslunun həcmi dinamik artım tempinə sadiq qalmışdır. 2004-2008-ci illərdə istehsal olunan sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun payı 9,8 dəfədən çox artmışdır. Bu, müvafiq olaraq:

2004-2007-ci illərdə 6,2 dəfə;

2004-2006-cı illərdə 4 dəfə;

2004-2005-ci illərdə isə 2 dəfə artmışdır.

Qeyd edək ki, 2004-cü ildə qeyri-dövlət bölməsində istehsal olunan sənaye məhsulunun həcmi dövlət bölməsində istehsal olunan sənaye məhsulunun həcmindən 1,2 dəfə artıq idisə, bu, 2008-ci ildə 4,6 dəfədən çox olmuşdur.

**Qeyri-dövlət sektoru** – dövlət adından yaradılan publik hüquqi şəxslər, büdcə təşkilatları, dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan maliyyələşən digər orqan və qurumlar, habelə səhmlərinin və ya paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan hüquqi şəxslər istisna olmaqla, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış hüquqi şəxslər və vergi ödəyicisi olan fiziki şəxslər (50).

Təbii ki, bütün bunlar muxtar respublikada özəl sektorun inkişafı üçün həyata keçirilən islahatların və tədbirlərin səmərəliliyini, məqsədyönlülüyünü və perspektivliyini bir daha göstərməkdədir.

***Şəkil 3.2.2.***

**2004-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasında isteshal olunan sənaye məhsulunda qeyri-dövlət sektorunun payı (illər üzrə faizlə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

İllər üzrə inkişaf xronikasını təhlil edərkən aydın olur ki, əgər 2004-cü ildə istehsal olunan sənaye məhsulunun həcmində **<u>dövlət sektoru</u>** özəl sektorun 86 faizini təşkil edirdisə, artıq 2008-ci ildə bu göstərici 22 faizə enmişdir.

**Dövlət sektoru** – iqtisadiyyatın dövlətə məxsus olan sahələrini özündə əks etdirir (39, s. 363).

Muxtar respublikada belə yüksək iqtisadi potensialın yaradılmasında güclü infrastruktur quruculuğu sahəsindəki perspektivlərlərin mühüm əhəmiyyəti vardır. 450-yə yaxın sənaye müəssisələrinin yaradılması, bu sahədəki təminatın gücləndirilməsi, isteshalın fasiləsizliyinin və sosial dayanıqlığa təsirinin yüksəldilməsi qarşıya qoyulmuş məqsədlərin qətiyyətlə reallaşmasına yol açmışdır. Nəticədə isə birinci Dövlət Proqramında əldə olunan nailiyyətlər ikinci və üçüncü mərhələlər üçün icra mexanizmini daha da stimullaşdırmışdır.

Xüsusilə, 2004-2008-ci illərdə muxtar respublikada davamlı iqtisadi inkişafın və onun perspektivlərinin artırılması sahəsindəki tədbirlərin müstəsna əhəmiyyətini qeyd etmək yerinə düşər. Həmin dövrdə muxtar respublikada infrastruktur

təşkilatlanmasında davamlılığı təmin edilmiş, o cümlədən, 3 elektrik stansiyasının tikintisinin başa çatdırılmış, 13 illik fasilədən sonra təbii qazın verilməsinin bərpa olunmuş, Naxçıvan şəhərində müasir standartlara uyğun yeni hava limanının tikilərək istifadəyə verilmiş, yeni müasir müalicə diaqnostika mərkəzinin fəaliyyətə başlamış, Culfa rayonunda Mərkəzi Xəstəxana, Babək rayonunda "Duzdağ" Fizioterapiya Mərkəzi tikilib istifadəyə verilmiş və digər bu kimi tədbirlər həyata keçirilmişdir. İnkişaf və tərəqqinin göstərcisi olaraq bu potensialın yaradılması məhz Dövlət Proqramlarının səmərəli icrasının çox mühüm nəticələri olaraq qeyd edilə bilər.

*Şəkil 3.2.3.*

**2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasında isteshal olunan sənaye məhsulunun mülkiyyət növləri üzrə bölgüsü (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Təhlillər göstərir ki, ikinci Dövlət Proqramının icrası ərzində istər sənaye məhsulunun həcmi, istərsə də, orada

qeyri-dövlət sektorunun payı sürətli artım tempinə sadiq qalmışdır. Bu, sənayenin potensial göstəricilərini ifadə etməklə yanaşı, həmçinin, bu sahədə istehsal prosesinin fasiləsizliyini də göstərməkdədir. Hesablamalarımız göstərir ki, 2009-2013-cü illərdə istehsal olunan sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun payı 4,5 dəfə artmışdır. Bu, müvafiq olaraq:

2009-2012-ci illərdə 4,1 dəfədən çox;

2009-2011-cı illərdə 3,5 dəfə;

2009-2010-ci illərdə isə 1,6 dəfə artmışdır.

Digər tərəfdən, 2009-cu ildə qeyri-dövlət bölməsində istehsal olunan sənaye məhsulunun həcmi dövlət bölməsində istehsal olunan sənaye məhsulunun həcmindən 5,4 dəfə artıq idisə, bu, 2018-ci ildə 12,5 dəfədən çox olmuşdur.

Bu gün Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olaraq, regionda və bütün dünyada sülhün, əminəmanlığın, rifah göstəricilərinin, elmin-təhsilin, sosiallaşma proseslərinin, səmərəli **mülkiyyət** münasibətlərinin, bütün sahələr üzrə islahatların davamlılığının, sakinlərinin firəvan həyat tərizinin daha da yaxşılaşmasının təmin olunması sahəsində məhsuldar ideya və təşəbbüslərin müəllifi olaraq hörmətlə qarşılanmaqdadır.

**Mülkiyyət** – investisiya əmtəələri və istehlak şeylərinin mənimsənilməsini səciyyələndirən, istehsal, bölgü, mübadilə və istehlak prosesində insanlar arasında meydana çıxan və tarixən dəyişən münasibətlər sistemidir (46, s. 85). Qeyd edək ki, insanlar arasında meydana çıxan bütün münasibətlərin əsasını isə mülkiyyət münasibətləri təşkil etməkdədir.

Məhz bütün bunlar imkan vermişdir ki, sənayenin inkişafı sahəsindəki proseslər özünün yüksələn xəttini təmin edə bilsin. Hesablamalar göstərir ki, ikinci Dövlət Proqramının səmərəli icrası ərzində də istehsal olunan sənaye məhsulunda qeyri-dövlət sektorunun payı daha da artmışdır.

***Şəkil 3.2.4.***

**2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasında isteshal olunan sənaye məhsulunda qeyri-dövlət sektorunun payı (illər üzrə faizlə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

İkinci Dövlət Proqramının icrası dövründə, xüsusilə də, 2009-cu ildə istehsal olunan sənaye məhsulunun həcmində dövlət sektoru özəl sektorun 18,7 faizinin təşkil edirdisə, artıq 2013-cü ildə bu göstərici 8 faizə enmişdir. Digər tərəfdən, şəklin məlumatlarından da göründüyü kimi, 2009-cu ildə özəl sektorda istehsal olunan sənaye məhsulunun həcmi 84,3 faiz təşkil edirdisə, artıq bu göstərici 2013-cü ildə 93 faizə qədər artmışdır.

Bazar münasibətləri şəraitində milli iqtisadiyyatın uzunmüddətli perspektivlərinin reallaşması sahəsində həyata keçirilən tədbirlər **xüsusi mülkiyyət**ə əsaslanan təşəbbüslərə söyənməklə daha məhsuldar nəticələrlə müşayiət olunmaqdadır. Naxçıvan Muxtar Respublikası bu sahədə daha dinamik iqtisadi artım nəticələri ilə diqqəti çəkir. Təbii ki, bu isə, makroiqtisadi hədəflər prizmasında olduqca səmərəlidir.

**Xüsusi mülkiyyət** – bu mülkiyyət formasının genezisinin özünəməxsus əsas cəhəti bundan ibarətdir ki, fərdi sahibkar əsaslı məsrəf sərf etməklə, kiçik, orta, iri tipli müəssisə təşkil edir, yaxud özəlləşdirmə yolu ilə alır. Muzdlu əməklə səciyyələnən iş qüvvəsinə, seriya ilə məhsul buraxmaq gücünə (yaxud başqa xarakterli göstərici gücünə) malik olur (62, s. 79).

Dayanıqlığın, müqavimətliliyin, perspektivliliyin ən gerçək ifadəsi olan bu potensial muxtar respublikanın güclü sənayeləşmə mənzərəsini yaratmışdır. Bütün bunlar onun ictimai-siyasi, sosial-iqtisadi, mədəni-hüquqi və digər sahələri üzrə təhlükəsizliyinə çox mühüm təminat verməklə, mövcud potensialın daha da artmasını stimullaşdırmaqdadır.

Proseslərin gedişi göstərir ki, muxtar respublikada sənayeləşmə sahəsindəki tədbirlər ardıcıldır, hədəflərə xidmət edir və özünün yüksək sosial mahiyyəti ilə seçilməkdədir. Bu baxımdan, hər iki mərhələdə sənayenin inkişafı və burada qeyri-dövlət sektorunun çəkisinin artması bütövlükdə milli iqtisadiyyat üçün strateji bazanı təşkil etməkdədir. Qeyd edək ki, 2014-2018-ci illərdə müvafiq göstəricilər prioritetlər baxımından daha pozitiv nəticələr təqdim etməkdədir.

*Şəkil 3.2.5.*

**2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında isteshal olunan sənaye məhsulunun mülkiyyət növləri üzrə bölgüsü (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Artıq üçüncü mərhələdə sənaye məhsulu istehsalının 2009-2013-cü illərdəki yüksək dinamikası verilmişdir. Özəl sektorun təşkilati-texniki inkişafının ifadəsi olan bu potensial sonuncu beşilliyin makroiqtisadi siyasəti üçün hərəkətverici qüvvəyə çevrildi. İstehsal olunan sənaye məhsulunda qeyri-dövlət sektorunun payının artması eyni zamanda, ÜDM-nin strukturunun güclü əsaslarla təşkilatlandığını göstərməkdədir. Qeyd edək ki, ücüncü mərhələnin bütün illəri üzrə istehsal olunan sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun payı 1,1 dəfə artmışdır.

Burada onu da qeyd edə bilərik ki, 2014-cü ildə qeyri-dövlət bölməsində istehsal olunan sənaye məhsulunun həcmi dövlət bölməsində istehsal olunan sənaye məhsulunun həcmindən 12,6 dəfə çox idisə, artıq bu, 2018-ci ildə 17,9 dəfə çox olmuşdur.

***Şəkil 3.2.6.***

**2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında isteshal olunan sənaye məhsulunda qeyri-dövlət sektorunun payı (illər üzrə faizlə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Artıq yeni inkişaf mərhələsində muxtar respublikada sosial-iqtisadi proseslər daha dinamik, daha pozitiv və daha sistemli xarakterə malik olmuşdur. Bu, özünü üçüncü Dövlət Proqramının icrası dövründə iqtisadiyyatın özəl sektorunda göstərməkdədir. Xüsusilə də, 2014-cü ildə istehsal olunan sənaye məhsulunun həcmində dövlət sektoru özəl sektorun 7,9 faizinin təşkil edirdisə, artıq 2018-ci ildə bu göstərici 5,6 faizə enmişdir.

Beləliklə, sənaye potensialının movcud vəziyyətinin təhlili göstərir ki, bu, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının çox mühüm göstəricisidir və qarşıdakı dövrlər üzrə milli iqtisadiyyatın perspektivlərinə dolğun şəkildə xidmət etməkdədir.

Araşdırma nəticələri və təhlillər göstərir ki, ümumilikdə, 2004-2018-ci illərdə regional dövlət proqramlarının icrası Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında

keyfiyyət göstəricilərinin güclü dayaqlarını formalaşdırmış, iqtisadiyyat özünün sosial mahiyyəti ilə daha da sarsılmaz dayaqlara malik olmuşdur. Belə ki, regional inkişaf proqramlarının icra oluduğu 15 il ərzində muxtar respublikada sənaye məhsulunun həcmi 38,7 dəfədən çox artmışdır. Bu, qeyri-dövlət bölməsi üzrə müvafiq göstəricilərin müqayisəsində 68,2 dəfədən çox təşkil etmişdir. Həmin müddət ərzində dövlət sektoru üzrə cəmi 4,4 dəfəlik artım olmuşdur.

Digər müqayisəyə görə, 2004-cü ildə dövlət bölməsində istehsal olunan sənaye məhsulunun həcmi ümumi sənaye məhsulu üzrə göstəricinin 46,2 faizdən artığını təşkil edirdisə, 2018-ci ildə bu, 5,3 faizə düşmüşdür. Və yaxud, əksinə, 2004-cü ildə qeyri-neft üzrə istehsal olunan sənaye məhsulunun həcmi ümumi sənaye məhsulunun həcminin 53,7 faizini təşkil edirdisə, artıq 2018-ci ildə bu göstərici 94,7 faizdən çox olmuşdur.

Təbii ki, ölkəmiz hazırda milli iqtisadi quruculuq proseslərinin belə artan dinamika üzrə davam olunmasını təmin edir və müəyyən etdiyi hədəflərə nail olur. Burada iqtisadiyyatın regional mahiyyətinin yüksəldilməsi Naxçıvan Muxtar Respublikasının materialları əsasında çox əlamətdar görünür və uzunmüddətli prioritetlərin reallaşmasına olan inamı daha da artırmış olur. Nəticədə isə, ölkənin sosial-iqtisadi inkişaf mənzərəsi daha da şaxələndirilmiş olur.

### 3.3. Sənaye səmərəli məşğulluq siyasətinin hərəkətverici qüvvəsi kimi

Bu gün tam qətiyyətlə qeyd edə bilərik ki, Naxçıvan Muxtar Respublikasında ölkənin iqtisadi və siyasi müstəqilliyinin güclü dayaqlarına təminat yaradacaq potensial formalaşdırılmışdır. Həmin potensialda dövlətin öz xalqına, əhalisinə sonsuz diqqət və qayğısının ifadəsi olan meyarlar yer

almaqdadır. Ayrılıqda hər bir şəxsin, bütövlükdə isə xalqın, millətin və cəmiyyətin qürurverici firəvanlıq göstəricilərinin məcmusu olmaqla, hazırkı mərhələnin mütərəqqi təşkili iqtisadiyyatın milli və regional zəmində sosiallaşmasının əsaslarını yaratmaqdadır. Təbii ki, bütün bunlar Naxçıvan Muxtar Respublikasında əsas makroiqtisadi göstərici kimi ÜDM-nin strukturunda ilk yerdə təşəkkül tapan sənayenin iqtisadiyyatın sosiallaşmasına və məşğulluq səviyyəsinin artırılmasına təsiri imkanlarını da yüksəltmişdir.

Naxçıvan Muxtar Respublikasında sənayenin timsalında iqtisadiyyatın artan potensialının təhlili göstərir ki, müasir dövrdə onun sahə strukturu üzrə təşkilatlanmanın təmin olunması, bütün tərəfləri ilə birlikdə **istehsal mədəniyyəti**nin yüksək təşəkkülündən xəbər verməkdədir.

**İstehsal mədəniyyəti** – istehsalın texniki – iqtisadi, təşkilati və estetik səviyyəsinə olan normativ tələblərin məcmusudur (23, s. 123).

Qeyd edək ki, iqtisadiyyatın bu strateji sahəsində işçilərin orta sayına aid göstəricilərin təhlili də bunu göstərir:

***Şəkil 3.3.1.***

**2004 - 2008-ci illərdə Naxçıvan Muxtar Respublikasında sənayedə işçilərin orta sayı (nəfər)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Şəklin məlumatlarını təhlil edərkən aydın olur ki, 2004-2008-ci illərdə muxtar respublikada sənayedə işçilərin orta sayında artım dinamikası aşağıdakı kimi olmuşdur:

Dövlət sektorunda çalışanlar 1,2 dəfə;

Qeyri-dövlət sektorunda çalışanlar 4,1 dəfə;

Sənaye üzrə cəmi çalışanlar isə 2,5 dəfədən çox artmışdır.

Əgər 2004-cü ildə sənayenin qeyri-dövlət sektorunda çalışanlar sənaye üzrə çalışanların 46 faizini təşkil edirdisə, 2008-ci ildə 74,8 faizdən artığını təşkil etmişdir. Və yaxud, 2004-cü ildə sənayenin dövlət sektorunda çalışanlar sənaye üzrə çalışanların 54 faizini təşkil edirdisə, 2008-ci ildə 25,2 faizə qədər enmişdir.

Araşdırmalar göstərir ki, 2004-cü ildə sənayenin dövlət sektorunda çalışanlar qeyri-dövlət sektorunda çalışanlarla müayisədə 117 faiz (1,2 dəfəyə yaxın) çox idisə, artıq 2008-ci ildə dövlət sektorunda çalışanlar qeyri-dövlət sektorunda çalınların 33,6 faizni təşkil edirdi. Diqqət edəndə görünür ki, artıq 2005-ci ildən etibarən sənayenin qeyri-dövlət sektorunda çalışanların sayı dövlət sektorunda çalışanların sayını 8,7 faiz

ötüb keçmişdir. Yəni, regional dövlət proqramlarının icrasındakı səmərəlilik birinci beşilliyin ilk ilindən etibarən özünü göstərməkdədir.

Göründüyü kimi, özəl sektorun güclü dayaqlarının yaradılması həm də **səmərəli məşğulluq** imkanlarının da bu sektorda üstünlük təşkil etməsinə səbəb olmuşdur. Bütün bunlar bir daha göstərir ki, muxtar respublikada səneye sektoru perspektivlidir, ölkənin regional və milli səviyyələrdəki prioritetlərinə cavab verir və olduq qədər dayanıqlıdır. Təbii ki, bu, eyni zamanda, sosiallaşan iqtisadiyyatın hərəkətverici qüvvəsidir.

**Səmərəli məşğulluq** – burada elə məşğulluq başa düşülür ki, o, layiqli gəlir, sağlamlıq, şəxsiyyətin təkmilləşdirilməsi, ictimai əmək məhsuldarlığının yüksəldilməsi əsasında cəmiyyətin hər bir üzvü üçün təhsil və peşə səviyyəsinin yüksəldilmsəinin təmin olunmasına imkan versin (47, s. 181).

Artıq 2009-2013-cü illərdə qətiyyətli əsaslarla Naxçıvan Muxtar Respublikasında mövcud potensial daha da güclənirdi. Sənayenin dinamik inkişafı burada həm özəl sektorun perspektvliyinin, həm də məşğulluq səviyyəsinin yüksəldilməsinin çox mühüm təminat mexanizminə çevrilirdi.

***Şəkil 3.3.2.***

**2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasında sənayedə işçilərin orta sayı (nəfər)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Dövlət Proqramlarının ikinci mərhələsində də muxtar respublika dinamik sosial-iqtisadi inkişafın tərkib hissəsi kimi sənaye sektorunda güclü təşkilatlanmaya davam etmişdir. Müvafiq illər üzrə şəklin məlumatları bizə daha təkmil mənzərəni təqdim etməkdədir. Makroiqtisadi səviyyədə sosial dayanıqlığın və səmərəli məşğulluğun mühüm göstəricisi olmaqla, sənaye sektoru artıq məşğulluq imkanlarını genişləndirən şaxələndirici sahə kimi formalaşmaqdadır. Bu sahədəki göstəriciləri təhlil edərkən aydın olur ki, 2009-2013-cü illərdə muxtar respublikada sənayedə işçilərin orta sayında artım 1,6 dəfədən çox təşkil etmişdir. Bu artım, müvafiq olaraq:

Dövlət sektorunda çalışanlar üzrə 1,5 dəfə;

Qeyri-dövlət sektorunda çalışanlar üzrə isə 1,7 dəfə olmuşdur;

İnkişaf proseslərinin belə təşəkkülü sənayeləşmə siyasətinin uzunmüddətli perspektivlərinə də stimul vermişdir. Bu isə həmçinin qeyri-dövlət bölməsinin çəkisinin artması ilə müşayiət olunmuşdur. Qeyd edək ki, əgər 2009-cu ildə

sənayedə qeyri-dövlət sektorunda çalışanlar sənaye üzrə çalışanların 78,7 faizini təşkil edirdisə, artıq bu göstərici 2013-cü ildə 80,5 faizini təşkil etmişdir. Eyni müqayisəni, davam etdirdikdə, aydın olur ki, 2009-cü ildə sənayenin dövlət sektorunda çalışanlar sənaye üzrə ümumi çalışanların 21,3 faizini təşkil edirdisə, 2013-cü ildə bu göstərici 19,5 faizə qədər azalmışdır.

Təhlillər nəticəsində aydın olur ki, 2009-cu ildə sənayenin dövlət sektorunda çalışanlar qeyri-dövlət sektorunda çalışanların 27,1 faizini təşkil edirdisə, 2013-cü ildə dövlət sektorunda çalışanlar qeyri-dövlət sektorunda çalınların 24,3 faizini təşkil edirdi.

Bütün bunlar iqtisadi şaxələndirmənin də əsaslarını gücləndirməklə, həm də **məşğulluğun sosial funksiyası**nı ifadə etməkdədir.

**Məşğulluğun sosial funksiyası -** əhalinin hərtərəfli inkişafının təmin olunmasından ibarət olmaqdadır (47, s. 183).

Naxçıvan Muxtar Respublikası ölkənin milli iqtisadi quruculuq proseslərində çevik iştirakına davam etməkdədir. Məhz 2014-2018-ci illər üzrə Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasında sənayenin dayanıqlı inkişafı sahəsində bir çox tədbirlərlə yanaşı:

- yeni sənaye müəssisələrinin yaradılmasının dəstəklənməsi;
- zəruri infrastruktura malik ərazidə sənaye parkının yaradılmasının dəstəklənməsi;
- muxtar respublika ərazisində mövcud olan Açıq tipli Səhmdar Cəmiyyətlərin fəaliyyətinin bərpası və inkişafının dəstəklənməsi;
- dağ-mədən sənaye müəsisələrinin fəaliyyətinin bərpası;
- yeni müəssisələrin yaradılmasının dəstəklənməsi;

- mineral xammalının kompleks emalının elmi əsaslarının öyrənilməsi və s. kimi inkişaf amillərinin strateji mahiyyətini göstərmək olar.

Bütün bunlar sonuncu Dövlət Proqramında muxtar respublikada sənayenin inkişafı üçün həyata keçiriləcək tədbirlərdən sadəcə bir neçəsidir. Təbii ki, bu potensial öz hərəkətverici təsirini sənayedə və onun qeyri-dövlət sektorunda da göstərməkdədir.

*Şəkil 3.3.3.*

**2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında sənayedə işçilərin orta sayı (nəfər)!**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikasının qazandığı sosial-iqtisadi uğurlar onun davamlı və dinamik inkişafı üçün əsas olmuşdur. Təhlillərimiz göstərir ki, üçüncü Dövlət Proqramının icrası müddətində muxtar respublikada sənayedə

işçilərin orta sayında artım dinamikası aşağıdakı kimi olmuşdur:

Dövlət sektorunda çalışanlar 1 dəfə;

Qeyri-dövlət sektorunda çalışanlar 1,1 dəfə;

Sənaye üzrə cəmi çalışanlar isə 1 dəfədən çox artmışdır.

Özəl sektorun davamlı inkişaf perspektivlərinin daimi olaraq diqqət mərkəzində saxlanılması, bu sahədəki tənzimləmələrin çevikliyinin təmin olunması məsələləri makroiqtisadi göstəricilərin strukturunda bu sahənin dinamik artımını da stimullaşdırmışdır. Müqayisəli təhlillərimizi davam etdirdikdə, belə nəticəyə gəlirik ki, əgər 2014-cü ildə sənayedə qeyri-dövlət sektorunda çalışanlar sənaye üzrə çalışanların 79,9 faizini təşkil edirdisə, artıq 2018-ci ildə 80,7 faizini təşkil etmişdir. Digər tərəfdən, 2014-cü ildə sənayenin dövlət sektorunda çalışanlar sənaye üzrə çalışanların 20,1 faizini təşkil edirdisə, 2018-ci ildə bu, 19,3 faizə qədər azalmışdır.

Azərbaycan Respublikasında milli iqtisadi quruculuq proseslərinin geniş vüsət aldığı hazırkı şəraitdə Naxçıvan Muxtar Respublikasının regional iqtisadi inkişafın hərəkətverici qüvvəsi olaraq təmin etdiyi bu potensial kreativ ideya və təşəbbüslər fonunda sahibkarlıq fəaliyyətinin davamlı rolunu ortaya qoyur və bu, özəl sektorun stimullaşdırıcı mexanizmi olaraq böyük əhəmiyyətə malikdir. Üçüncü regional inkişaf proqramının nəticələrinin təhlili göstərir ki, 2014-cü ildə sənayenin dövlət sektorunda çalışanlar qeyri-dövlət sektorunda çalışanların 25,2 faizini təşkil edirdisə, 2018-ci ildə dövlət sektorunda çalışanlar qeyri-dövlət sektorunda çalınların 23,9 faizə enmişdir.

Artıq 2004-2018-cü illər üzrə eyni müqayisənin aparılması nəticəsində aydın olur ki, həmin 15 il müddətində Naxçıvan Muxtar Respublikasında sənayedə işçilərin orta sayı 5,4 dəfə artmışdır. Bu, qeyri-dövlət bölməsi üzrə 9,4 dəfədən

çox olmuşdur. Qeyd edək ki, həmin müddət ərzində dövlət bölməsində bu göstərici 1,9 dəfə təşkil etmişdir.

Beləliklə, Naxçıvan Muxtar Respublikasında sənayenin sistemli inkişafının təhlili onun makroiqtisadi proseslərin sosiallaşmasına təsirinin güclü olmasını göstərməkdədir. Bu isə təbii ki, qarşıdakı dövlər üzrə perspektivləri olduq qədər artırmaqdadır.

# IV FƏSİL

# REGİONAL İNKİŞAF ÜZRƏ DÖVLƏT PROQRAMLARININ İCRASI: SƏNAYE PARKLARI VƏ PRİORİTETLƏR

## 4.1 Naxçıvan Muxtar Respublikasında sənayeləşmə siyasətinin səmərəli nəticələri: Sənaye Parkları və Məhəllələrinin yaradılması mərhələsi

Naxçıvan Muxtar Respublikasının dinamik sosial-iqtisadi inkişafı özünün makroiqtisadi gücünü artırmaqla yanaşı, eyni zamanda, onun regionlarının bu sahədəki potensialının daha da artırılmasına stimul vermişdir. Regionların sosial-iqtisadi inkişafına aid məqsədlərin də elə ana məğzini məhz rayonların hər birinin ayrı-ayrılıqda iqtisadi-istehsal gücünün artırılmasından, bu sahədəki perspektivlərin şaxələndirilməsindən, eləcə də, uzaq gələcək üzrə hədəflərə dolğun xidmət etməsindən və s.-dən ibarət olmuşdur.

Bu gün ölkənin, onun regionlarının, o cümlədən, muxtar respublikanın regionlarında Sənaye Parklarının yaradılması, onların maddi-texniki təminatının gücləndirilməsi, özündə güclü məşğulluq potensialını əks etdirməsi kimi məsələlər elə müvafiq sahə üzrə nəzərdə tutulan məqsədlərə xidmət etməkdədir.

Bütün bunlarla ölkəmiz hərtərəfli inkişafını müasir dünyanın günü-gündən zəruriləşən və artan çağırışları əsasında qurmaqdadır. İqtisadiyyatda innovativ proseslərin müşayiəti ilə sənayeləşmə dövrünün başladılması, bunun sosial-iqtisadi davamı və məntiqi nəticəsi olaraq, dövlət başçısının 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı ilə **Sənaye Parkları** haqqında Nümunəvi Əsasnamənin təsdiq edildi. Xüsusən:

- 21 dekabr 2011-ci il tarixli 548 №-li Fərmanı ilə Sumqayıt Kimya Sənaye Parkının;
- 28 dekabr 2011-ci il tarixli 1947 №-li Sərəncamı ilə Bakı şəhərində Balaxanı Sənaye Parkının;
- 26 fevral 2015-ci il tarixli 1077 №-li Sərəncamı ilə Mingəçevir Sənaye Parkının;
- 3 iyul 2015-ci il tarixli 1255 №-li Sərəncamı ilə Qaradağ Sənaye Parkının;
- 14 sentyabr 2016-cı il tarixli 2336 №-li Sərəncamı ilə Bakı şəhər Pirallahı Sənaye Parkları yaradılmışdır. Bundan əlavə ölkənin uzunmüddətli sənayeləşmə perspektivləri nəzərə alınaraq aşağıdakı Sənaye məhəllələrinin yaradılması sahəsində də Dövlət Başçısının müvafiq Fərman və Sərəncamları olmuşdur.
- 13 iyun 2016-cı il tarixdə 2115 №-li Sərəncamı ilə Masallı Sənaye Məhəlləsinin;
- 25 iyul 2017-ci il tarixli Sərəncamı ilə Hacıqabul Sənaye Məhəlləsinin;
- 27 noyabr 2017-ci il tarixli 3407 №-li Sərəncamı ilə isə Sabirabad Sənaye Məhəlləsinin yaradılması təmin olmuşdur.

Keçən müddət ərzində sənayeləşmə siyasətinin ölkənin bütün regionlarını əhatə etməsi, onun daha çox istehsal və məşğulluq kimi strateji məqsədlərə xidmət etməsi, sosiallaşma proseslərinin inkişafyönümlülüyündə sənayenin çəkisinin də artmasına imkan yaratmışdır. Çox sevindiricidir ki, bütün bunlar regionların sosial-iqtisadi inkişafı haqqında məlum

Dövlət Proqramları ilə paralel şəkildə təmin olunmuşdur. Artıq zəruri tədbirlər çərçivəsində həyata keçirilən islahatlar Sənaye Parkları və Məhəllələrinin də istehsal imkanlarını və əhatə dairəsini daha da artırmışdır. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 13 sentyabr 2019-cu il tarixli Fərmanı ilə Şərur Sənaye Məhəlləsinin yaradılması təmin olunmuş və "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanında dəyişiklik olunmuşdur. Fərmanda Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılır ki, Şərur Sənaye Məhəlləsinin fəaliyyəti ilə bağlı müvafiq torpaq sahəsinin istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) qurulması, eləcə də, iştirakçıların fəaliyyətinin dəstəklənməsi və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlərin göstərilməsini təmin etmək məqsədi ilə zəruri tədbirlər görsün.

Bununla yanaşı, Fərmanda göstərilir ki, Şərur Sənaye Məhəlləsinin fəaliyyətinin təşkilini, həmin ərazinin istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) qurulmasını təmin etmək məqsədi ilə ilkin olaraq Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.47.2-ci yarımbəndində göstərilmiş məbləğin 5,0 (beş) milyon manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

Qeyd edək ki, Fərman eyni zamanda muxtar respublikada səmərəli Sənaye Parkları və məhəllələri üçün etibarlı zəminin yaradılmasını təmin edəcək. Digər tərəfdən, Fərmannın 7.1, 7.2 və 7.3-cü bəndlərində də müəyyən olunan **"Naxçıvan Muxtar Respublikasında yaradılan Sənaye Məhəllələri"** ifadəsindən də aydın olur ki, muxtar respublikada Şərur Sənaye Məhəlləsindən sonra yeni Sənaye Məhəllələri və ya Parklarının yaradılması da nəzərə alınmışdır. Yəni dövlətin iqtisadi prioritetlərində Naxçıvan Muxtar Respublikasının uzunmüddətli sosial-iqtisadi inkişafı məsələləri strateji məsələ olaraq yer almaqdadır.

Ölkəmizdə Sənaye Parkları və Məhəllələrinin yaradılması prosesləri göstərir ki:

- özəl sektorun gücünün və imkanlarının artırılması hədəflənir;
- sahibkarlıq fəaliyyətinin aparıcı qüvvə olaraq inkişafı diqqət mərkəzindədir;
- istehsal münasibətlərinin ölkənin bütün regionlarında özünə kök salması təmin olunur;
- məşğulluq səviyyəsinin yüksəldilməsi və bu sahədəki göstəricilərin artım dinamikası dövlətin iqtisadi siyasətində prioritetdir;
- qeyri-neft sektorunun davamlı inkişafı məqsədilə islahatlar perspektivliyə malik olmaqla, davam etdirilir.

Qeyd edək ki, müasir iqtisadi hədəflər prizmasında Şərur Sənaye Məhəlləsinin yaradılmasında əsas məqsəd də məhz Naxçıvan Muxtar Respublikasında:

- iqtisadiyyatın sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin tam şəkildə dəstəklənməsi;
- islahatların reallaşması sahəsindəki tədbirlərin sürətlənməsi;

- qeyri-neft sektorunun davamlı inkişafının və perspektivlərinin gücləndirilməsi;
- əhalinin istehsal sahəsində məşğulluğunun artırılması;
- həmçinin, yerli məsulların çoxnövlülüyünün təmin olunması və s. tədbirlərin reallaşmasından ibarətdir.

İqtisadi idarəetmənin ən səmərəli forması olan sahibkarlıq fəaliyyəti muxtar respublikada sənaye məhəllələrinin yaradılması sahəsindəki prosesləri həm sürətləndirəcək, həm də daha əlverişli sosial-iqtisadi mühit yaradacaq. Qeyd edək ki, artıq bu proseslər başlanmış və Şərur Sənaye Məhəlləsi təşkilatlanma mərhələsini uğurla keçməkdədir. Belə ki, burada mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi məsələlərinə ciddi yanaşılır. Nəticədə Şərur Sənaye Məhəlləsinin ərazisində qeyri-neft sənaye sahələri üzrə məhsul istehsalı müəssisələri, habelə xidmət müəssisələri yaradılır. Nəzərdə tutulur ki, ilkin mərhələdə bitki yağları istehsalı müəssisəsi qurulsun. Təbii ki, bu, muxtar respublikanın ümumilikdə, ölkənin:

- makroiqtisadi proseslərinə;
- sənayeləşmə siyasətinə;
- məşğulluq hədəflərinə;
- sosiallaşma məqsədlərinə;
- qətiyyətli islahatlarına;
- uzunmüddətli prioritetlərinə;
- milli iqtisadi inkişafının sürətlənməsinə və digər tədbirlərin reallaşmasına töhfə verəcək.

Sənaye Parkları haqqında Nümunəvi Əsasnamədə Sənaye Parklarının fəaliyyətinin davamlılığına və fəaliyyətinin səmərəli təşkilinə işıq salınaraq göstərilir ki:

**Sənaye Parkı** - sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabət qabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi

məqsədləri üçün istifadə olunan, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir (61).



Buradan da görndüyü kimi, Sənaye Parkı ölkənin regionları üzrə sahibkarlıq fəaliyyətini stimullaşdırmaqla, həmin ərazilərdə sosial-iqtisadi potensialın artırılmasına xidmət edir, bununla da sosial mahiyyətlidir və iqtisadi idarəetmənin ən səmərəli vasitələrini nəzərdə tutur. Digər tərəfdən, innovativ inkişafa söykənən, istehsal və xidmət sahələrinin inteqrasiyasından ibarət yekdil mexanizmin təşəkkülünü hədəfləyən institut olaraq Sənaye Parkları milli iqtisadiyyatın perspektivliyini artırmaqdadır. Qeyd edək ki, **sənaye parkının infrastrukturu** səmərəli fəaliyyəti təmin edəcək səviyyədə qurulmuşdur.

**Sənaye parkının infrastrukturu** – yol-nəqliyyat, sosial, mədəni, ictimai iaşə, inzibati, mühəndis-kommunikasiya

təminatı və sənaye parkının fəaliyyət göstərməsini təmin edən digər obyektlərin kompleksidir (61).

Dünya iqtisadiyyatına açıq olan, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsində maraqlı olan və onun milli iqtisadiyyatın davamlı inkişafına tətbiq etməkdə çevik olan sahibkarlar ölkəmizdə Sənaye Parklarının yaradılmasında, fəaliyyətinin təşkilində və məhsuldarlığının yüksəldilməsində çox səmərəli mexanizmlərin səfərbər olunmasına qadirdirlər.

Qeyd edək ki, ölkəmizdə bu məqsədlərin gerçəkləşməsi çərçivəsində həm də **Sənaye Məhəllələri** anlayışının da özünə kök salmasının şahidləriyik. Bu, makroiqtisadi maraqlar baxımından Sənaye Parkları ilə mahiyyət etibarı ilə eyni məqsədlərə xidmət edir, ancaq regionların ardıcıl inkişafı baxımından yanaşdıqda burada kiçik və orta sahibkarlığın inkişafı hədəfləri üstün tutulduğuna görə bu cür qurumların yaradılması da özünün strateji zəruriliyi ilə seçilməkdədir. Məlumdur ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Sənaye Məhəllələri barədə Nümunəvi Əsasnamə"nin təsdiq edilməsi haqqında 2015-ci il 13 may tarixli 186 nömrəli qərarı mövcddur. Onun 1.3.1 bəndində göstərilir ki:

**Sənaye məhəlləsi** – sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik olan, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə olunan ərazidir (61).



Sənayenin davamlı inkişafı ölkə iqtisadiyyatına hərəkətverici təsir etdikcə, iqtisadi proseslər daha da sistemli xarakter almaqdadır. Bu, bir tərəfdən iqtisadiyyatın artan təlabatlar qarşısındakı dayanıqlığını göstərir, bir tərəfdən nəzərdə tutulmuş məqsədlərin qətiyyətlə reallaşmasına xidmət göstərirsə, digər tərəfdən də, bütün dövlərin sosial bəlasına çevrilən işsizlik probleminin aradan qaldırılmasına yol açmaqdadır. Ancaq bütün mənalarda sosial dayanıqlığı ifadə edir, iqtisadi artıma hərəkətverici təsir göstərir, makroiqtisadi proseslərə davamlı perspektivlər gətirir.

Təbii ki, sənaye parkları və məhəllələrinin yaradılması, təşkilatlanması və iqtisadi inkişafın hərəkətverici qüvvəsinə çevrilməsi öz - özülüyündə **istehsal və sosial infrastruktur**un da möhkəmləndirilməsinə münbit zəmin yaradacaqdır.

**İstehsal infrastrukturu** – milli iqtisadiyyatın ayrılmaz tərkib hissəsi olmaqla, istehsal prosesində iştirak edərək, istehsalın ümumi inkişafına xidmət edən əmək və kaptal tutumlu sahələr dəstidir (48, s. 45).

İstehsal infrastrukturunun hazırkı iqtisadi prioritetlər baxımından əhəmiyyəti daha da artmaqdadır. Belə ki, cəmiyyət üzvlərinin istehsal-iqtisadi münasibətlərinin inkişafındakı rolu, onun milli iqtisadiyyatın şaxələndirilməsi üzrə səmərəliliyinin artırılması aktuallığı ilə seçilməkdədir. Təbii ki, bu isə, sosial mahiyyəti ilə seçilərək, bu sahədəki infrastrukturun təşəkkülünə imkan yaratmaqdadır.

**Sosial infrastruktur** – insanların normal həyat fəaliyyətinin təmin olunmasında bir başa və dolayısı ilə iştirak edən, milli iqtisadiyyatın ayrılmaz tərkib hissəsi olan sahələr dəsti olub, adamların sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət göstərən sahələrdir (48, s. 52).

Qeyd edək ki, müasir dövrdə belə təşkilati mexanzimlərin təşəkkülü ölkə iqtisadiyyatında və onun tərkib hissəsi olan muxtar respublika iqtisadiyyatında keyfiyyətcə yeni mərhələnin uğurlu başlanığıcı qoyacaq. Hər bir tənzimlənmə vasitələrində olduğu kimi Sənaye parklarının yaradılması və fəaliyyətinin tənzimlənməsində də Naxçıvan Muxtar Respublikasında məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məcisinin Sədri tərəfindən 6 iyun 2013-cü il tarixdə imzalanan Fərmanla təsdiq edilmiş "Sənaye Parkları haqqında Əsasnamə"nin sosial-iqtisadi əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. 16 bənddən ibarət olan həmin əsasnamə muxtar respublika iqtisadiyyatının ardıcıl inkişafında, onun milli iqtisadi inkişafda təkanverici təsirinə bir daha əhəmiyyətlilik gətirməkdədir. Sənaye parkının yaradılması muxtar respublikada müvafiq sahə üzrə əmək potensalından səmərəli istifadə edilməsindən və məhsul istehsalının stimullaşdırılması məqsədlərindən ibarət olmaqla aşağıdakılardan ibarətdir:

1. innovativ və yüksək texnologiyalar əsasında rəqabət-qabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstəril-məsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkar-lığın dəstəklənməsi;

2. iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi;

3. muxtar respublikanın yerli və xarici investisiyalar üçün əlverişliliyinin artırılması;

4. əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması.

Beləliklə, muxtar respublika həm ərazisinin ixtisaslaşmasına və həm də təbii-iqtisadi potensialına görə sənaye parklarının yaradılması, fəaliyyətinin səmərəli tənzimlənməsi, bu sahədəki proseslərin məhsuldar təşkili və idarə olunmasında əhəmiyyətlidir. Bu Əsasnaməyə uyğun olaraq 9 qayda təsdiq olunmuş, yaradılması nəzərdə tutulan sənaye parkının nizamnaməsi hazırlanmışdır. Sənaye parkında 32 layihə üzrə istehsal sahələrinin yaradılmasına dair təkliflər hazırlanmış, həmçinin sənaye parkı üçün yerin seçilməsi və iqtisadi əsaslandırılması həyata keçirilmiş, bu sahədə mövcud təcrübə öyrənilmişdir. Bütün bunlar muxtar respublikanın da sənaye məhsulları sahəsindəki potensialına yeni güc və perspektivlər gətirməkdədir.

## 4.2. Naxçıvan Muxtar Respublikasında şəhər və rayonlar üzrə sənayeləşmə siyasətinin səmərəli nəticələri: sosiallaşma və rifah

Regional inkişaf proqramlarının səmərəli icrası müddətində əldə olunan davamlı inkişaf nəticələri onu göstərir ki, Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələrində olduğu kimi əsas aparıcı sahə olan sənayenin güclü perspektivləri var və ondan uzunmüddətli prioritetlər üçün istifadə olunması strateji önəmə malikdir. Təhlillər göstərir ki, muxtar respublika sənayenin davamlı inkişafı sahəsində mütərəqqi təcrübəyə malikdir və bu, sənaye müəssisələrinin **istehsal gücü**nün artan tələbatlar qarşısında dayanıqlılığını da artırmaqdadır.

**İstehsal gücü** – yüksək keyfiyyətli məhsulun maksimum illik buraxılışıdır. Bu şərtlə ki, istehsal avadanlıqlarından və istehsal sahələrindən tam istifadə olunsun, qabaqcıl texnologiya, istehsal və əmək təşkili nəzərə alınmış olsun. İstehsal gücü başlıca olaraq, əsas sexlərin gücündən asılıdır (65, s. 62).

Keçən zaman müddətində qətiyyətlə reallaşdırılan tənzimləmə vasitələri, o cümlədən, həm Dövlət Proqramları, həm strategiyalar, Prezidentin Fərman və Sərəncamları, eləcə də, bu sahə ilə bağlı digər hüquqi aktlar sözü gedən sahədə gerçək inkişaf mənzərəsini formalaşdırmışdır. Nəticədə isə muxtar respublikanın şəhər və rayonlarında sənaye müəssisələrinin yaradılması, bu sahə üzrə məhsulların artan miqyasda istehsalı və səmərəli fəaliyyətinin təşkili istiqamətində stimullaşdırıcı tədbirlərə geniş yer verilmişdir. Nəticədə isə, muxtar respublikanın şəhər və rayonlarında sənaye məhsulunun istehsal həcmi illər üzrə artım dinamikasında olmuşdur.

*Cədvəl 4.2.1*

**2004-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənaye məhsulu (min manat)**

| Şəhər və rayonlar / İllər | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|
| Naxçıvan şəhəri | 10966,3 | 21438,1 | 31094,4 | 61549,1 | 82938,8 |
| Şərur rayonu | 4354,5 | 4741,6 | 14545,6 | 21279,9 | 28031,1 |
| Babək rayonu | 4340,6 | 4966,5 | 11992,5 | 23356,3 | 32563,7 |
| Ordubad rayonu | 1684,5 | 1764,2 | 2359,6 | 3057,6 | 3980,6 |
| Culfa rayonu | 1434,9 | 1868,4 | 2125,8 | 2930,7 | 3740,8 |
| Kəngərli rayonu | 1030,7 | 3384,1 | 4230,8 | 4985,7 | 5941,0 |
| Şahbuz rayonu | 988,3 | 2072,2 | 2810,8 | 3781,5 | 4905,6 |
| Sədərək rayonu | 755,2 | 972,2 | 1284,1 | 1738,7 | 2350,3 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Muxtar respublikanın milli iqtisadi quruculuq proseslərində məhsuldar iştirakı, iqtisadiyyatın bütün sahələri üzrə şəhər və rayonların xüsusi çəkisinin artmasına səmərəli şərait yaratmaqdadır. Məhsuldarlığı, keyfiyyəti, **mənfəət**i hədəfləyən bu proseslər muxtar respublikanın güclü iqtisadiyyat yolundakı uğurlarını təmin etməkdədir.

**Mənfəət** – müəssisənin öz məhsulunu satdığı topdansatış qiyməti ilə həmin məhsulun maya dəyəri arasındakı fərq olub, müəssisənin xalis gəlirini ifadə edir (48, s. 92).

Göründüyü kimi, bütün şəhər və rayonların iqtisadi (istehsal) gücünün bariz ifadəsi olan bu göstəricilər bir-birini əvəz edən illər üzrə artım xətti ilə müşayiət etmişdir. Aşağıdakı şəkildə hər bir şəhər və rayonlar üzrə sənaye məhsulu istehsalının artım dinamikası verilmişdir.

***Şəkil 4.2.1***

**2004-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında sənaye məhsulunun artım dinamikası haqqında məlumat (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ölkəmiz artıq regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının səmərəli icrası sahəsində keyfiyyətcə yeni mərhələnin möhkəm dayaqlarını formalaşdırmışdır. Həyata keçirilən tədbirlər, reallaşdırılan məqsədlər, əldə olunan uğurlar sənayenin regional mahiyyətinin yüksəldilməsinə hərəkətverici təsir etmiş və bu sahədəki təşəbbüslərin məhsuldarlığını ortaya qoya bilmişdir. Eyni zamanda, bütün bunlar sənayenin timsalında muxtar respublika iqtisadiyyatında **istehsalın idarə olunması** sahəsində yetkin təcrübə olduğunu göstərir.

**İstehsalın idarə olunması -** əvvəlcədən nəzərdə tutulan nəticələrin rellaşması məqsədilə ictimai istehsal prosesi iştirakçılarına (ayrı-ayrı işçilərə, yaxud kollektivə) məqsədyönlü təsir göstərilməsini ifadə edir (48, s. 132).

Cədvəl və şəklin məlumatlarından da göründüyü kimi bu gün artıq muxtar respublikanın bütün şəhər və rayonlarında mütərəqqi sənaye potensialı formalaşdırılmışdır. Təbii ki, bütün bunlar muxtar respublikada sənayeləşmə siyasətinin səmərəliliyini göstərməklə yanaşı, eyni zamanda, onun sosiallaşma proseslərinə yaxınlaşmasını da göstərməkdədir. Artıq ikinci regional inkişaf dövründə bu göstəricilər daha mühüm nəticələrlə müşayiət olunmaqdadır.

*Cədvəl 4.2.2*

**2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənaye məhsulu (min manat)**

| **Şəhər və rayonlar / İllər** | **2009** | **2010** | **2011** | **2012** | **2013** |
|---|---|---|---|---|---|
| Naxçıvan şəhəri | 114500,2 | 179148,4 | 482911,6 | 580881,0 | 627853,1 |
| Şərur rayonu | 33425,9 | 48862,0 | 71243,4 | 78038,8 | 83558,7 |
| Babək rayonu | 40460,3 | 59429,0 | 87149,9 | 97738,4 | 106224,1 |
| Ordubad rayonu | 4576,5 | 5642,3 | 7020,7 | 7633,7 | 8091,2 |
| Culfa rayonu | 4280,7 | 5333,0 | 6372,3 | 6894,6 | 7408,9 |
| Kəngərli rayonu | 7040,8 | 9510,1 | 13533,5 | 14569,5 | 15321,1 |
| Şahbuz rayonu | 5596,2 | 7440,7 | 9040,3 | 9763,9 | 10192,6 |
| Sədərək rayonu | 2588,5 | 3199,3 | 3649,5 | 3972,5 | 4220,8 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Milli iqtisadi quruculuq proseslərinin qətiyyətli artan dinamikasının təmin olunması iqtisadiyyata dayanıqlılıq gətirdikcə, onun sahələri üzrə perspektivlilik də artmaqdadır. Sənaye iqtisadiyyatın elə sahəsidir ki, onun inkişafında sadəcə bir istiqamətin deyil, həmçinin digər aparıcı sahə olan aqrar sektorun da rolu özünün strateji mahiyyətini göstərir və bu, iqtisadiyyata **mezoiqtisadi** önəm verir. Əlbəttə ki, bu, şəhər və

rayonların sənaye potensiallarının məhsuldarlığından və artırılmasının davamlılığından xəbər verməkdədir.

**Mezoiqtisadiyyat** – makroiqtisadiyyatın yarımsistemi olub, bir-biri ilə üzvi bağlı olan sahələr kompleksini ifadə edir (64, s. 17).

Təhlillər nəticəsində aydın olur ki, müvafiq Dövlət Proqramları Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına və onun sənaye əhəmiyyətliliyinin artırılmasına güclü təkan verməkdədir. Qeyd edək ki, birinci və ikinci Dövlət Proqramlarının analoji dövrlərinin müqayisəli təhlilini verərkən dinamik artım açıq şəkildə görünməkdədir.

*Şəkil 4.2.2*

**Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında sənaye məhsulunun artım dinamikası haqqında məlumat (dəfə)**



**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qeyd olunanlar sənaye sahəsində davam etdirilən islahatların səmərəliliyini, onun regionlararası tarazlığın təmin edilməsindəki əhəmiyyətliliyini bir daha göstərməkdədir. Yuxarıdakı şəkil muxtar respublikanın şəhər və rayonlarının sənaye potensialını göstərməklə yanaşı, həmçinin bu istiqamətdə nəzərdə tutulan məqsədlərin düzgün yerinə yetirildiyini göstərir. Təhlillərimiz göstərir ki, muxtar respublikada şəhər və rayonlar üzrə sənaye məhsulu istehsalının artım dinamikası ölkənin milli iqtisadiyyat üzrə perspektivlərinə xidmət etməklə təşəkkül tapmışdır.

***Şəkil 4.2.3***

**Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında sənaye məhsulunun artım dinamikası haqqında məlumat (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi, sənaye və sənayeləşmə siyasətinin səmərəliliyi muxtar repsublika iqtisadiyyatında öz davamlı nəticələrini verməkdədir. İstər birinci, istərsə də ikinci Dövlət Proqramlarının məhsuldar icra mexanizmlərinin təşəkkülü burada üçüncü Dövlət Proqramının icrası üçün sağlam mühitin təsisatlarını qərarlaşdırmışdır.

***Cədvəl 4.2.3***

**2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənaye məhsulu (min manat)**

| Şəhər və rayonlar / İllər | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Naxçıvan şəhəri | 650017,3 | 669290,6 | 689736,0 | 707411,9 | 724548,3 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Şərur rayonu | 85827,5 | 87984,9 | 89931,2 | 92193,3 | 94232,7 |
| Babək rayonu | 109322,4 | 112180,5 | 114888,8 | 117909,9 | 120756,6 |
| Ordubad rayonu | 8278,3 | 8469,7 | 8648,5 | 8857,3 | 9044,3 |
| Culfa rayonu | 7572,7 | 7755,5 | 7919,3 | 8118,5 | 8298,1 |
| Kəngərli rayonu | 15690,7 | 16021,9 | 16376,3 | 16771,7 | 17108,7 |
| Şahbuz rayonu | 10459,1 | 10700,9 | 10937,6 | 11190,7 | 11393,0 |
| Sədərək rayonu | 4318,4 | 4413,9 | 4507,0 | 4606,7 | 4685,3 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Artıq Dövlət Proqramlarının üçüncü mərhələsinin də səmərəli icrasının nəticələri göstərir ki, muxtar respublikanın sənayeləşmə siyasətinin perspektivləri yüksəkdir. Rəsmi statistikanın da məlumatlarını təhlil edərkən bu yöndə həm də uzunmüddətli inkişaf nəticələri ilə tanış oluruq. Nəzərə alsaq ki, muxtar respublikamız 246 km-lik məsafədə tarixi düşmənimiz Ermənistanla həmsərhəddir, onda şəhər və rayonlarımızın belə dayanıqlı sosial-iqtisadi potensiala malik olması onun bu neqativ hal qarşısında müqavimətini olduq qədər artırır, bu isə, uzun müddətdir davam edən **blokada** şəraitinin mənfi təsirlərini minimuma endirir.

**Blokada -** obyektin təcrid olunması istiqamətində əməliyyat, onun xarici əlaqələrinin məhdudlaşdırılması yolu ilə həyata keçirilməsidir (69).

Digər tərəfdən, bu, ölkənin xarici iqtisadi siyasətinin inkişafında və beynəlxalq iqtisadi münasibətlərinin səmərəliliyində muxtar respublikanın rolunun çox əhəmiyyətli olduğunu göstərir.

*Şəkil 4.2.4*

**Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında sənaye məhsulunun artım dinamikası haqqında məlumat (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qeyd edək ki, 2017-ci ilin sonlarında İğdırda keçirilən Türkiyə-Azərbaycan biznes forumunda qeyd olunmuşdur ki, Türkiyə Nazirlər Kabinetinin qərarı ilə Naxçıvan Muxtar Respublikasında istehsal edilən və ya istehsal potensialı olan 43 adda məhsulun Türkiyənin bütün ərazisinə idxal rüsumu ödəmədən, güzəştli şərtlərlə daxil olmasına razılıq verilmişdir. Bunun da məhz 30-nun sənaye sahəsinə aid olması (qalan 13-ü kənd təsərrüfatı) fikrimizi təsdiqləyir. Belə ki, bu, həm də düşünülmüş siyasətlə blokadanın təhdidlərinin artıq iflasa uğradılmasının gerçək ifadəsidir.

Göründüyü kimi, burada da sənaye məhsullarının üstünlük təşkil etməsi muxtar respublikada iqtisadiyyatın sənaye əhəmiyyətliliyinin artırılmasında, **xarici ticarət**

**dövriyyəsinin həcmi**nin artmasında və beynəlxalq iqtisadi əlaqələrin inkişafında bu amilin hərəkətverici təsirindən xəbər verməkdədir.

**Xarici ticarət dövriyyəsinin həcmi** – hər hansı bir dövrdə bir ölkə və ya ölkələr qrupu ilə əmtəə **ixracı və idxal**ının dəyər qiyməti ilə məbləği olub, öz ölkəsinin və ya başqa ölkənin valyutası ilə cari dövrün qiymətləri ilə hesablanır (16, s. 127).

**İxrac -** hökumətin, firmaların, ayrı-ayrı şəxslərin ölkədə istehsal olunan və başqa ölkələrə satılması nəzərdə tutulan əmtəə və xidmətlərdir (62, s. 466).

**İdxal** – xaricdən mal və xidmətin alınmasını ifadə edir (62, s. 462).

Təbii ki, burada sənayenin inkişafının muxtar respublika üzrə göstəriciləri içərisində onun şəhər və rayonları üzrə şəxaləndirilməsinin də straeji əhəmiyyəti böyükdür.

*Şəkil 4.2.5*

**Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında sənaye məhsulunun artım dinamikası haqqında məlumat (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Təbii ki, şəhər və rayonların sənaye potensialının təşəkkülü onların icra olunan Dövlət Proqramlarının məqsədlərinin qətiyyətlə reallaşdırıldığını bir daha göstərməkdədir. Bu, özünü keçən müddətlər ərzində, yəni 2004-2018-ci illəri əhatə edən dövrlərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında sənaye məhsulunun artım dinamikasında da göstərməkdədir.

***Şəkil 4.2.6***

**2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında sənaye məhsulunun artım dinamikası haqqında məlumat (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı sənayenin dinamik inkişafı ilə milli iqtisadiyyat üçün nəzərdə tutulan hədəflərin qətiyyətlə reallaşdığını bir daha göstərməkdədir. Bununla yanaşı, həm də regional iqtisadi siyasətin perspektivliyinin təmin olunması və sosiallaşma proseslərinin uğurlu nəticələrini ortaya qoymaqdadır. Təbii ki, bu isə sənayenin çoxnövlü fəaliyyət üzrə məhsuldarlığını göstərir.

## 4.3. Regional inkişaf proqramları muxtar respublikanın sənaye potensialının çoxşaxəlilik göstəricisidir

Artıq bu bir həqiqətdir ki, Naxçıvan Muxtar Respublikası ölkənin regional iqtisadi siyasətinə uğurlu töhfələr verməklə yanaşı, həm də özünün uğurli regional iqtisadi siyasətinə malikdir. Reallaşan islahatlar, həyata keçirilən tənzimləmə tədbirləri, əhatəsini genişləndirən dövlət qayğısı və digər mexanizmlər muxtar respublikanın şəhər və rayonlarının sənaye sahəsinin təşkilatlanması sahəsindəki perspektivlərini daha da artırmaqdadır. Həmçinin sənayenin ümumi **məşğulluq səviyyəsi**nin yüksəldilməsindəki rolunu artırılmasında mühüm əhəmiyyətə malikdir.

**Məşğulluq səviyyəsi** – hər bir cəmiyyətdə mövcud olan əmək qabiliyyətli əhalinin nə qədərinin ictimai istehsala cəlb olunduğunu və ictimai istehsalda müxtəlif sosial qruplara xas olan əhalinin iştirakının nə səviyyədə olduğunu göstərir (53, s. 68).

Eyni zamanda, bu, sənayeləşmənin və bu sahədəki siyasətin muxtar respublikanın regionları üzrə düzgün və məqsədyönlü nəticələrini ifadə etməkdədir. Daha doğrusu, muxtar respublika bu sahədəki nailiyyətləri ilə makoriqtisadi şaxələndirmənin daha çevik mexanizmlərinin təşkilini sürətləndirməkdədir. Qeyd edək ki, həmçinin bunlar hər bir şəhər və rayonun həm də məşğulluq imkanlarının artırılmasını təmin etməkdədir.

***Cədvəl 4.3.1***

**2004-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənayedə işçilərin orta sayı haqqında məlumat (nəfər)**

| Şəhər və rayonlar / İllər | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|
| Naxçıvan şəhəri | 1876 | 2017 | 2742 | 3250 | 3766 |
| Şərur rayonu | 220 | 665 | 610 | 1288 | 1852 |
| Babək rayonu | 373 | 448 | 436 | 640 | 1185 |
| Ordubad rayonu | 109 | 114 | 95 | 120 | 130 |
| Culfa rayonu | 203 | 240 | 249 | 277 | 280 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Kəngərli rayonu | 103 | 114 | 114 | 133 | 168 |
| Şahbuz rayonu | 163 | 198 | 228 | 244 | 250 |
| Sədərək rayonu | 27 | 34 | 56 | 69 | 70 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl məlumatlarının təhlili göstərir ki, sənaye həmçinin muxtar respublikanın şəhər və rayonları üzrə məşğulluq imkanlarını stimullaşdıran sahə olaraq təşəkkül tapmışdır. Belə ki, Naxçıvan şəhərində 2004-2008-ci illərdə müvafiq göstəricilər 2 dəfədən çox artmışdır. Eyni artım dinamikası:

Şərur rayonunda 8,4 dəfədən çox;
Babək rayonunda 3,2 dəfə;
Ordubad rayonunda 1,2 dəfə;
Culfa rayonunda 1,4 dəfə;
Kəngərli rayonunda 1,6 dəfədən çox;
Şahbuz rayonunda 1,5 dəfədən çox;
Sədərək rayonunda 2,6 dəfə təşkil etmişdir.

Şəhər və rayonların müasir sosial-iqtisadi inkişafının möhtəşəmlik mənzərəsinin ifadəsi kimi bu göstəricilər sosial dayanıqlılıq olaraq da strateji mahiyyətə malikdir. Bunlar eyni zamanda, iqtisadi idarəetmənin səmərəliliyini göstərməklə yanaşı, həmçinin şəhər və rayonlarda məskunlaşmanın etibarlılığını da ifadə etməkdədir.

***Şəkil 4.3.1***

**2004-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənayedə işçilərin orta sayı (nəfər)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının sənaye əhəmiyyətliliyinin yüksəldilməsi və artan potensial bütün tərəfləri ilə əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinə istiqamətlənib və əldə olunan nəticələr qarşıya qoyulan məqsədlərin reallaşmasındakı qərarlılığı ifadə etməkdədir. Əlbəttə ki, muxtar respublika bu proseslərdə, daha doğrusu, ölkənin regionlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə özünün şəhər və rayonlarının sənayeləşməsi ilə, aqrar mahiyyətliliyilə və digər sahələrdəki üstünlükləri ilə təkan verməkdədir.

***Cədvəl 4.3.2***

**2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənayedə işçilərin orta sayı haqqında məlumat (nəfər)**

| Şəhər və rayonlar / İllər | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| Naxçıvan şəhəri | 3843 | 5155 | 6211 | 6596 | 6726 |
| Şərur rayonu | 2480 | 2954 | 2992 | 3036 | 3088 |
| Babək rayonu | 1471 | 2227 | 2531 | 2661 | 2712 |
| Ordubad rayonu | 353 | 539 | 585 | 604 | 618 |
| Culfa rayonu | 405 | 738 | 765 | 786 | 803 |
| Kəngərli rayonu | 371 | 515 | 613 | 631 | 642 |
| Şahbuz rayonu | 323 | 477 | 494 | 509 | 519 |
| Sədərək rayonu | 130 | 250 | 263 | 272 | 277 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Sosial-iqtisadi inkişafın davamlılığı, sosialyönümlülüyün güclü dayaqlarının mövcudluğu, əhalinin rifah göstəricilərinin yüksələn xətt üzrə təşəkkülü, istehlak mallarının əlçatanlığı əsas və aparıcı istiqamət olaraq sənaye sahəsinin perspektivliliyinin də mühüm göstəricisi kimi çıxış etməkdədir. İkinci Dövlət Proqramının icrası da məhz qeyd olunan amillər üzrə sağlam fəaliyyət mühitinin yaradılmasında strateji əhəmiyyətliliyi ilə seçilmişdir. Burada həmçinin müasir dünya çağırışlarına uyğun olaraq **əmək vasitələrinin modernləşdirilməsi** proseslərinin də diqqətdə saxlanılması özünü göstərir.

**Əmək vasitələrinin modernləşdirilməsi** – fəaliyyətdə olan əmək vasitələrinin təkmilləşdirilməsi və onlarda əməli dəyişiklik aparmaq, qovşaq və hissələri əvəz etmək və möhkəmləndirmək, istehsal əməliyyatlarını mexanikiləşdirmək və avtomatlaşdırmaq üçün tərtibatlar və cihazlar quraşdırmaqla onların istehsalın müasir texniki-iqtisadi səviyyəsinə cavab verən vəziyyətə gətirilməsidir (59, s. 68).

Apardığımız hesablamalar göstərir ki, ikinci Dövlət Proqramının səmərəli icrası nəticəsində muxtar respublikanın şəhər və rayonlarında sənayedə işçilərin orta sayı üzrə artım dinamikası aşağıdakı kimi olmuşdur:

Naxçıvan şəhərində 1,8 dəfə;

Şərur rayonunda 1,2 dəfədən çox;

Babək rayonunda 1,8 dəfədən çox;

Ordubad rayonunda 1,8 dəfə;

Culfa rayonunda 2 dəfə;

Kəngərli rayonunda 1,7 dəfədən çox;

Şahbuz rayonunda 1,6 dəfədən artıq;

Sədərək rayonunda 2,1 dəfədən çox artım olmuşdur ki, bu da onların sosiallaşma və sənayeləşmə sahələri üzrə potensialının dayanıqlığının ən gerçək ifadəsini təşkil etməkdədir.

***Şəkil 4.3.3***

**2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənayedə işçilərin orta sayı (nəfər)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ölkənin makroiqtisadi hədəflərinin diqqətdə saxlanılması, işsizliyin aradan qaldırılması, onun milli iqtisadi quruculuq proseslərinə neqativ təsinin minimuma endirilməsi məsələlərinin səmərəli təşkilində qeyd edilən amillərin böyük rolu vardır. Bütün bunlar muxtar respublikanın sosial-iqtisadi uğurlarının davamlılığı və onun sosialyönümlülüyünün daha da gücləndirilməsi üçün etibarlı bazadır. Təbii ki, bunlar üçüncü Dövlət Proqramının uzunmüddətli perspektivlərinin müəyyənləşdirilməsinə həlledici yol açmaqdadır.

***Cədvəl 4.3.3***

**2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənayedə işçilərin orta sayı haqqında məlumat (nəfər)**

| Şəhər və rayonlar / İllər | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Naxçıvan şəhəri | 6789 | 6884 | 7019 | 7128 | 7292 |
| Şərur rayonu | 3125 | 3164 | 3203 | 3255 | 3318 |
| Babək rayonu | 2741 | 2776 | 2813 | 2854 | 2911 |
| Ordubad rayonu | 626 | 634 | 639 | 648 | 655 |
| Culfa rayonu | 812 | 822 | 829 | 842 | 854 |
| Kəngərli rayonu | 650 | 658 | 664 | 676 | 684 |
| Şahbuz rayonu | 526 | 531 | 535 | 544 | 552 |
| Sədərək rayonu | 280 | 283 | 285 | 288 | 291 |

**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Artıq 2014-2018-ci illər sənayedə işçilərin orta sayının artım dinamikası üçün daha uğurlu bir mərhələ oldu. Belə ki, bu illər ərzində muxtar respublika davam edən islahatlar fonunda daha da təşəkkül tapan bir sosial-iqtisadi potensial formalaşdıra bilmişdir ki, burada da sənaye öncül yerdə qərarlaşmışdır. Apardığımız hesablamalar göstərir ki, bəhs olunan illərdə muxtar respublikanın şəhər və rayonlarında sənayedə işçilərin orta sayında artım özünü göstərmiş və bu, 1-1,1 dəfə təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının aqrar region olması ilə yanaşı, hazırda iqtisadiyyatın sənaye əhəmiyyətliliyinin artması, həmçinin onun şəhər və rayonların iqtisadi inkişafında özünü əhatəli şəkildə göstərməsi mövcud potensialın daha da güclənməsi ilə müşayiət olunmaqdadır. Bunu aşağıdakı şəklin məlumatları da göstərir.

***Şəkil 4.3.4***

**2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənayedə işçilərin orta sayı (nəfər)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Beləliklə, iqtisadiyyatın göstərilən dinamikada inkişafı onun sosiallaşmasını da sürətləndirməkdədir. Burada əhalinin layiqli həyat səviyyəsinin təmin olunması, bununla da rifah göstəricilərinin yüksəldiməsi, savadlanması, dünyagörüşünün artması, sağlamlıqlarının etibarlı şəkildə qorunması və s. kimi məsələlər öz yerini tapmaqdadır.

## 4.4. Regional inkişaf proqramlarının icrası muxtar respublikanın şəhər və rayonlarda sənayenin və sosial müdafiənin güclü təsisatları kimi

Məhz şəhər və rayonlar üzrə sənayenin inkişafı burada işçilərin orta sayının artması ilə yanaşı, eyni zamanda, onların orta aylıq əmək haqqı göstəricilərində də öz əksini tapmışdır. Həmin göstəricilər hər üç Dövlət Proqramının icrası müddətində təşəkkül tapmışdır. Bu, özünü aşağıdakı cədvəlin məlumatlarında da göstərməkdədir:

*Cədvəl 4.4.1*

**2004-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənayedə işçilərin orta aylıq əmək haqqı haqqında məlumat (manat)**

| Şəhər və rayonlar / İllər | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|
| Naxçıvan şəhəri | 98,6 | 107,0 | 119,1 | 181,1 | 240,6 |
| Şərur rayonu | 98,6 | 110,9 | 148,3 | 131,8 | 137,7 |
| Babək rayonu | 90,5 | 93,6 | 95,0 | 172,2 | 226,2 |
| Ordubad rayonu | 90,4 | 117,6 | 162,8 | 192,9 | 196,0 |
| Culfa rayonu | 66,4 | 116,6 | 128,0 | 159,7 | 167,3 |
| Kəngərli rayonu | 118,4 | 130,6 | 141,9 | 171,9 | 174,0 |
| Şahbuz rayonu | 85,3 | 118,4 | 100,0 | 173,1 | 189,9 |
| Sədərək rayonu | 67,6 | 145,3 | 138,1 | 191,0 | 196,0 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Yuxarıdakı göstəricilər müasir müstəqillik illərində muxtar respublikanın sürətli inkişaf dinamikasını göstərməkdədir. Hər bir il üzrə əldə olunan nəticələr isə mövcud potensiala daha möhkəm dayaqlar gətirməkdə, onu daha da etibarlı etməkdədir. Bu, muxtar respublikanın şəhər və rayonları üzrə sənayedə işçilərin orta aylıq əmək haqqı göstəricilərinin artım dinamikasında da öz əksini tapmışdır.

*Şəkil 4.4.1*

**2004-2008-ci illər ərzində Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənayedə işçilərin orta aylıq əmək haqqının artım dinamikası haqqında məlumat (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi, muxtar respublikada sosial siyasətin hərəkətverici qüvvəsi kimi sənayedə çalışan işçilərin orta aylıq əmək haqqı davamlı artım göstəriciləri ilə müşayiət olunmuşdur. İkinci Dövlət Proqramının icrası məhz bu istiqamətdəki proseslərə yeni hərəkətverici təsir etmişdir.

*Cədvəl 4.4.2*

**2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənayedə işçilərin orta aylıq əmək haqqı haqqında məlumat (manat)**

| Şəhər və rayonlar / İllər | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| Naxçıvan şəhəri | 268,3 | 339,3 | 380,1 | 390,0 | 399,6 |
| Şərur rayonu | 222,4 | 278,1 | 329,5 | 336,7 | 344,1 |
| Babək rayonu | 232,6 | 292,3 | 302,2 | 312,7 | 322,3 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Ordubad rayonu | 228,5 | 236,8 | 320,8 | 329,0 | 334,8 |
| Culfa rayonu | 225,9 | 215,5 | 285,2 | 291,2 | 298,2 |
| Kəngərli rayonu | 224,6 | 237,0 | 276,7 | 281,7 | 287,6 |
| Şahbuz rayonu | 223,3 | 236,0 | 281,0 | 287,4 | 292,8 |
| Sədərək rayonu | 223,4 | 202,1 | 258,8 | 264,6 | 269,3 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl məlumatları müvafiq istiqamət üzrə dinamikanın yüksək mahiyyət daşıdığını və qətiyyətliliyini göstərir. Təhlillərdən aydın olur ki, Naxçıvan şəhəri üzrə 2009-cu ildə şəhər və rayonlar üzrə sənayedə işçilərin orta aylıq əmək haqqı 2004-cü illə müqayisədə 2,7 dəfə artmışdır. Bu:

Şərur rayonu üzrə 2,3 dəfə;
Babək rayonu üzrə 2,6 dəfə;
Ordubad rayonu üzrə 2,5 dəfə;
Culfa rayonu üzrə 3,4 dəfə;
Kəngərli rayonu üzrə 1,9 dəfə;
Şahbuz rayonu üzrə 2,6 dəfədən çox;
Sədərək rayonu üzrə 3,3 dəfədən çox təşkil etmişdir.

Aşağıdakı şəkildə 2004-2009-cu və 2008-2013-cü illərdə muxtar respublikada şəhər və rayonlar üzrə sənayedə işçilərin orta aylıq əmək haqqının artım dinamikası verilmişdir.

***Şəkil 4.4.2***

**2004-2009-cu və 2008-2013-cü illər ərzində Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənayedə işçilərin orta aylıq əmək haqqının artım dinamikası haqqında məlumat (dəfə)**




| | Naxçıvan şəhəri | Şərur | Babək | Ordubad | Culfa | Kəngərli | Şahbuz | Sədərək |
|---|---|---|---|---|---|---|---|---|
| 2004-2009 | 2,7 | 2,3 | 2,6 | 2,5 | 3,4 | 1,9 | 2,6 | 3,3 |
| 2008-2013 | 1,7 | 2,5 | 1,4 | 1,7 | 1,8 | 1,7 | 1,5 | 1,4 |

**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

İqtisadi və sosial perspektivlərin dinamik xarakterə malik olması ölkənin makroiqtisadi göstəricilərinin də müqavimətliliyini və etibarlılığını artırmaqdadır ki, burada da Naxçıvan Muxtar Respublikasının verdiyi töhfələrin özünəməxsus yeri vardır. Regional inkişaf üzrə Dövlət Proqramları mövcud potensialı daha da artırmaqla, əhalinin rifah göstəricilərinin davamlılığına təkan vermişdir. Həmçinin, bu amil hər üç mərhələ üzrə icra mexanizminin əlaqəliliyinin təmin olunmasında mühüm əhəmiyyətə malik olmuşdur.

*Şəkil 4.4.3*

**2009-2013-cü illər ərzində Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənayedə işçilərin orta aylıq əmək haqqının artım dinamikası haqqında məlumat (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Stimullaşdırıcı mexanimzlərin ifadəsi olaraq əldə olunan göstəricilərin təşəkkülü məhsul istehsalının artan miqyasda təminatına imkanlar yaradır. Bunlar eyni zamanda:

- sənaye məhsullarının istehsalının təşkilindən;
- zəruri infrastruktur potensialının təminatından;
- bütün şəhər və rayonların iqtisadi təşkilatlanmasında sənaye əhəmiyyətliliyinin artırılmasından;
- təbii sərvətlərin və əmək resurslarının səfərbər edilməsindən;
- təbii ki, məşğulluq təminatı fonunda iqtisadiyyatın sosiallaşmasından ibarətdir ki, bunlar da sənayenin dayanıqlı və davamlı inkişafını təmin etməklə mümkün olmuşdur.

Bu gün muxtar respublikada sadalanan amillərin məcmu şəkildə formalaşması dolğun, inkişaf edən və uzaq gələcək üçün perspektivlər gətirəcək sənayenin mövcudluğuna zəminlər yaratmaqdadır ki, bu da üçüncü Dövlət Proqramının icrası ilə daha da möhkəmlənmişdir.

***Cədvəl 4.4.3***

## 2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənayedə işçilərin orta aylıq əmək haqqı haqqında məlumat (manat)

| **Şəhər və rayonlar / İllər** | **2014** | **2015** | **2016** | **2017** | **2018** |
|---|---|---|---|---|---|
| Naxçıvan şəhəri | 402,6 | 408,9 | 416,3 | 429,6 | 436,6 |
| Şərur rayonu | 346,0 | 351,9 | 358,0 | 368,4 | 373,9 |
| Babək rayonu | 324,2 | 329,4 | 335,0 | 344,4 | 349,9 |
| Ordubad rayonu | 336,8 | 342,2 | 344,1 | 353,0 | 359,0 |
| Culfa rayonu | 301,3 | 305,2 | 309,2 | 317,5 | 321,3 |
| Kəngərli rayonu | 290,8 | 294,9 | 299,0 | 306,8 | 311,1 |
| Şahbuz rayonu | 296,3 | 300,7 | 304,1 | 311,7 | 315,7 |
| Sədərək rayonu | 272,8 | 276,9 | 279,7 | 285,8 | 289,0 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Müstəqillik illərində mütərəqqi ideya və təşəbbüslər əsasında sosial-iqtisadi inkişaf potensialının formalaşdırılması öz növbəsində sənaye sektorunun da sistemli inkişafını təmin edə bilmişdir. Hesablamalar nəticəsində aydın olur ki, 2014-2018-ci illərdə muxtar respublikasının şəhər və rayonlarında sənayedə işçilərin orta aylıq əmək haqqı 1,1 dəfə artmışdır.

Sənaye sahəsinin kompleks şəkildə inkişafı onun ayrı-ayrı sahələrinin yüksək göstəricilərlə müşayiət olunmasına stimul verməklə yanaşı, eyni zamanda:

- yerli istehsalın əhatəsinin genişləndirilməsinin ifadəsidir;
- səmərəli iqtisadi idarəetmənin, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsinin gerçək təzahürüdür;
- istehsal olunan məhsulların rəqabətqabiliyyətinin artırılması sahəsində mühüm addımdır;
- makoriqtisadi gücün etibarlı təminatına hərəkətverici təsir edir;

- yeni perspektivlərin açılmasında, xüsusən də, prioritetlərə xidmət edən potensialın formalaşmasında çox mühüm təsirə malikdir və s.

*Şəkil 4.4.4*

**2009-2014-cü və 2013-2018-ci illər ərzində Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə sənayedə işçilərin orta aylıq əmək haqqının artım dinamikası haqqında məlumat (dəfə)**



| | Naxçıvan şəhəri | Şərur | Babək | Ordubad | Culfa | Kəngərli | Şahbuz | Sədərək |
|---|---|---|---|---|---|---|---|---|
| 2009-2014 | 1,5 | 1,6 | 1,4 | 1,5 | 1,3 | 1,3 | 1,3 | 1,2 |
| 2013-2018 | 1,1 | 1,1 | 1,1 | 1,1 | 1,1 | 1,1 | 1,1 | 1,1 |

**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Beləliklə, Naxçıvan Muxtar Respublikası bu potensialla sosial-iqtisadi inkişafda və milli iqtisadi quruculuq proseslərinin səmərəli təşkilində çevik şəkildə iştirak etməkdədir. Əldə olunan nəticələr isə iqtisadiyyatın istər sosiallaşmasında, istər sənayeləşmə proseslərinin sürətlənməsində, istərsə də prioritetlərə doğru qətiyyətli addımların atılmasında strateji mahiyyətə malikdir.

# V FƏSİL
# DÖVLƏT PROQRAMLARININ İCRASI VƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TİKİNTİ SAHƏSİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

## 5.1. Naxçıvan Muxtar Respublikasında əsas kapitala yönəldilən vəsaitlər və məqsədyönlülük

Naxçıvan Muxtar Respublikasının müasir müstəqillik illərində malik olduğu sosial-iqtisadi potensial nəticəsində iqtisadiyyatın sahə strukturu dinamik olaraq inkişaf etməkdədir. Ölkə iqtisadiyyatının milli iqtisadi quruculuq proseslərinin sürətlənməsi fonunda dünya (beynəlxalq) iqtisadiyyatına interqasiya olunmasındakı qətiyyətliliyi, onun həm də səmərəli regional iqtisadiyyatına şaxələndirici təsiri ilə müşayiət olunmaqdadır. Bu isə təbii olaraq imkan verir ki, qarşıya qoyulan məqsədlər, müəyyən olunan hədəf və uzaq gələcək üzrə prioritetlər ölkə iqtisadiyyatının iqtisadi rayonları üzrə davamlı inkişafı təmin etmiş olsun. Yəni yeni istehsal müəssisələri yaradılsın, yeni iş yerləri açılsın, mövcud müəssisə və iş yerlərinin keyfiyyət göstəriciləri artırılsın, iqtisadiyyatın sosiallaşması ilk olaraq elə mikro səviyyədəki proseslərin düzgün tənzimənməsi ilə başlayıb, mezo və makro səviyyələrdə özünün güclü dayaqlarını formalaşdıra bilsin. Nəticə etibarı ilə, bu, özünü əhalinin alıcılıq qabiliyyətinin artırılmasında, sosial rifah və firəvanlıq göstəricilərinin yüksəldilməsində, bu sahədəki dayanıqlığın gücləndirilməsində və digər bu kimi amillərin məcmusunda göstərə bilsin. Xüsusi olaraq, qeyd edək ki, bütün bunlar istehsaldan istehlaka qədər olan həlqədə münasibətlərin səmərəli təşkilini, sürətləndirilməsini və məhsuldar

nəticələrinin əldə olunmasını təmin edir ki, bu da mütərəqqi tədbirlərin müşayiəti ilə daha da artmaqdadır.

Qeyd edək ki, bəhs olunanların gerçək ifadəsini etibarlı infrastruktur təminatı fonunda görə bilərik. Burada istər **əsas kapitala yönəldilmiş vəsaitlərin**, istərsə də onun tərkibində **tikinti-quraşdırma işlərinin** həcmini göstərə bilərik.

**Əsas kapitala yönəldilmiş vəsaitlər -** əsas fondların yaradılmasına və təkrar istehsalına, habelə maddi istehsalın digər formada inkişafına investisiya yönəldilməsi kapital qoyuluşları şəklində həyata keçirilir (72).

Aydın məsələdir ki, qeyd olunanların gerçəkliyə qovuşması yüksək iradə, güclü qətiyyət və məqsədyönlülük tələb edir. Elə bu məqsədlə də, ölkəmizdə iqtisadiyyatın milli və regional mahiyyətinin yüksəldilməsi istiqamətində çoxsaylı zəruri tədbirlər həyata keçirilmişdir ki, bunların da içərisində 2004-cü ildən uğurla və artan etibarlılıqla icra olunan regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının strateji təsirlərini qeyd etmək lazımdır.

Böyük sevgi, artan məhəbbət, yüksək vətənpərvərlik hissi ilə təmin edilən bu nailiyyətlər xalqımızın ümummilli lideri böyük Heydər Əliyev ideyalarına sadiqliyin ən gerçək təzahürüdür. Çünki, əldə olunan hər bir inkişaf göstəricisi Onun əsaslarını yaratdığı milli dövlətçilik siyasətinin tərkib hissəsidir və ona birbaşa olaraq xidmət etməkdədir.

Bu mənada muxtar respublikanın ötən illərdə təmin etdiyi yüksək makroiqtisadi uğurlara bir neçə istiqamətdə yanaşmaq olar. Belə ki, muxtar respublika həmin nailiyyətləri əsasında:

- çox güclü baza formalaşdırmış oldu. Yerli məhsullarının istehsalının stimullaşdırılması, daxili bazarın bu məhsullar hesabına təmin edilməsi, alıcılıq qabiliyyətinin yüksəldilməsi, məhsul çoxnövlülüyü əsasında seçim imkanlarının genişləndirilməsi, istehsalçı və istehlakçı mədəniyyətinin təminatı istiqamətində mühüm addımlar

atılmış oldu. Bunun ardınca ərzaq təhlükəsizliyinin təminatındakı möhkəm və etibarlı təsisatların təşəkkülü, sənayeləşmə siyasətinin perspektivli davamlılığının təmin olunması kimi amillər əvvəlki 25 illik bir dövrün nailiyyətləri ilə daha da möhtəşəmlik qazandı;

- yüksək perpsektivə söykənən başlanğıc oldu. Hər kəsə aydın olan gerçəklikdir ki, muxtar respublika artıq iqtisadiyyatın ənənəvi sahələri ilə yanaşı, eyni zamanda milli iqtisadiyyatın perspektivləri üzrə də ölkə iqtisadiyyatının davamlı inkişafına öz töhfələrini verməkdədir. Belə bir vəziyyətdə makroiqtisadi səviyyədə xarici iqtisadi əlaqələrin ən çevik iştirakçısına çevrilməklə, həm də bu sahədəki proseslərin düzgün yönləndirilməsində ciddi yol qət etdi.

Bütün bunlar Naxçıvan Muxtar Respublikasının ötən illərdə keçdiyi davamlı və qətiyyətli sosial-iqtisadi inkişaf yolunu göstərməkdədir. Təbii ki, hər bir nailiyyət böyük ictimaiyyətin, xalqımızın və cəmiyyətimizin daim yüksək qiymətləndirdiyi ən mühüm gerçəklikdən ibarətdir. Fikrimizi əsaslandırmaq üçün qeyd edə bilərik ki, 2017-ci ildə **Caspian Energy International Media Group** iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycanın iqtisadi regionlarının illik investisiya reytinqini hazırlayıb. Orada böyük Heydər Əliyev ideyalarından bəhrlənən ölkənin uğurla icra etdiyi regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarına aid məqsəd və vəzifələrin əhəmiyyətinə istinad olunmuşdur. Burada Naxçıvan Muxtar Respublikasının formalaşdırdığı güclü infrastruktur potensialının əhəmiyyəti diqqətdə saxlanılmışdır.

**Caspian European Club** – sıralarında dünyanın 50 ölkəsindən 5 mindən artıq şirkət və təşkilatı birləşdirən, Xəzər-Qara dəniz və Baltik region dövlətləri ərazisində fəaliyyət göstərən (və ya bu niyyətdə olan), dinamik inkişaf edən nəhəng regional təşkilatdır. Caspian European Club 2002-ci

ilin iyununda Caspian Energy-nin fəal iştirakı və Xəzər-Qara dəniz və Baltik regionunda fəaliyyət göstərən nəhəng neft-qaz şirkətlərinin dəstəyilə yaradılıb (71).

Qeyd edilənlər Azərbaycan Respublikasının təkcə regionda, Cənubi Qafqazda deyil, eyni zamanda, dünya miqyaslı nüfuz və mövqeyinin güclənməsində əlamətdar olmuşdur. Qeyd edək ki, müxtəlif vaxtlarda İsrailin, Yunanıstanın, Niderlandın, Belçika Krallığının, Türkiyənin, Rumıniyanın, İran İslam Respublikasının, Almaniyanın, Çin Xalq Respublikasının, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının və digər ölkələrin səfirlərinin Naxçıvan Muxtar Respublikasına səfərə gəlmələri, buradakı davamlı və perpsektivli sosial-iqtisadi inkişafın yaxından şahidi olmaları, çox mühüm strateji sahələrlə yanaşı alternativ və bərpa olunan enerji mənbələrinə, həmçinin innovasiya texnologiyalarının tətbiqinə və turizmin inkişafına göstərdiyi diqqətdən valeh olduqlarını bildirmələri də bunu bir daha sübut etməkdədir.

Sözügedən Media Qrupunun bəyan etdiyi nəticələrlərlə tanış olarkən aydın olur ki, regionların qiymətləndirilməsində 18 parametr və 6 qrup üzrə təhlillər aparılmışdır. Bunlar:

- sosial-demoqrafik göstərici,
- sosial-iqtisadi vəziyyət,
- işgüzar mühit,
- infrastruktur,
- rifahlıq,
- kənd təsərrüfatı sahələrindən ibarət olmuşdur.

Qeyd olunanlar muxtar respublikanın dünəni ilə bugünün, bu günü ilə sabahının, eləcə də, sabahı ilə gələcəyinin səsləşməsində çox əlamətdar görünməkdədir. Muxtar respublikamızda həyata keçirilən tədbirlər öz məqsədyönlülüyü ilə seçilərək, yuxarıda müəyyən edilmiş qruplar üzrə dolğun xidmət etmişdir.

Təbii ki, bütün bunlar Naxçıvan Muxtar Respublikasında investisiya siyasətinin də səmərəliliyini göstərməkdədir. Belə ki, bu uğurlar özünü muxtar respublikada hər üç Dövlət Proqramının səmərəli icrası müddətində əsas kapitala yönəldilən investisiyaların həcmində göstərmişdir.

***Şəkil 5.1.1***

**2004-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasında əsas kapitala yönəldilən vəsaitlərin həcmi haqqında məlumat (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Təhlillər göstərir ki, muxtar respublikada iqtisadiyyatın davamlı inkişafı çərçivəsində abadlaşdırma və müasir təminatlar sahəsindəki tədbirlər daha genişmiqyaslılığı ilə seçilməkdədir. Qeyd edək ki, əsas kapitala yönəldilən investisiyalar birinci Dövlət Proqramının icrası müddətində artım dinamikası ilə müşayiət olunmuşdur. Hesablamalar göstərir ki, bu artım 2004-2005-ci illərdə 1,6 dəfə olmuşdur. Bu:

2004-2006-cı illərdə 2,4 dəfə;

2004-2007-ci illərdə 2,8 dəfə;

2004-2008-ci illərdə isə 3,9 dəfə artmışdır.

Təbii ki, iqtisadi cəhətdən perspektivli və səmərəli nəticələrin əldə olunması əgər bir tərəfdən sosial dayanıqlılığı ifadə edirsə, digər tərəfdən də, muxtar respublikada sağlam iqtisadi mühitin daha da möhkəmlənməsinə şərait yaradır.

**Tikinti-quraşdırma işləri** – istehsal və qeyri-istehsal obyektlərinin tikilməsi və onlarda avadanlıq quraşdırılması ilə əlaqədar görülən işlərdir (59, s. 318).

Ölkənin sosial siyasətinin tələblərinə cavab verməklə, onun hüquqi tənzimləmə vasitələrinə uyğun olan, ondan irəli gələn və gələcək istiqamətlərə dəstək olan tədbirlər kimi bu proseslər Naxçıvan Muxtar Respublikasının milli iqtisadi inkşafa ən böyük təhfələri kimi ifadə edilməlidir. Şübhəsiz ki, bunlar isə zəruri infrastruktur potensialının formalaşması və inkişafı nəticəsində mümkün ola bilər. Naxçıvan Muxtar Respublikasının tarixi keçmişinin, müasir inkişaf səviyyəsinin qorunması və milli arxitektura ənənələrinin yaşadılması ilə müşayiət olunan quruculuq proseslərinin geniş vüsət alması ərazinin günbə-gün yeniləşən simasını təqdim etməkdədir. Bunu **tikinti** sahəsinə aid göstəricilər də ifadə edir.

***Şəkil 5.1.2***

**2004-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasında əsas kapitala yönəldilən vəsaitlərin həcmində tikinti-quraşdırma işləri haqqında məlumat (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

**Tikinti** – müəyyən olunmuş qaydada təsdiq olunmuş tikintinin ayrıca titul və yaxud onu əvəz edən sənəd əsasında bir qayda olaraq, vahid layihə-smeta sənədləri üzrə həyata keçirilən bina və qurğuların (obyektlərin) tikintisi, yenidən qurulması və genişləndirilməsinin məcmusudur (16, s. 107).

Göründüyü kimi, muxtar respublikada birinci Dövlət Proqramının icrası ərzində tikinti-quraşdırma işləri geniş vüsət almışdır. Bunu:

- güclü infrastruktur potensialının yaradılmasında;
- kənd mərkəzlərinin (eyni zamanda xidmət) salınmasında;
- şəhərlərin daha müasir dayaqlarının formalaşmasında;
- istehsalın fasiləsizliyinin təmin edilməsi sahəsindəki tədbirlərin ardıcıllığında;
- sosial dayanıqlığın gücləndirilməsi sahəsində və s. görmək mümkündür.

Məhz bu baxımdan da hesablamalar aparanda aydın olur ki, birinci Dövlət Proqramının icrası ərzində muxtar respublikada əsas kapitala yönəldilən vəsaitlərin həcmində tikitinti –quraşdırma işləri dinamik artımla yadda qalmışdır. Qeyd edək ki, 2004-2005-ci illərdə əsas kapitala yönəldilən vəsaitlərin həcmində tikitinti –quraşdırma işlərinin çəkisi 1,4 dəfədən çox artmışdır. Ardıcıl olaraq, sonrakı illərdə, yəni:

2004-2006-cı illərdə 1,5 dəfədən çox;
2004-2007-ci illərdə 2,5 dəfə;
2004-2008-ci illərdə isə 4 dəfə artmışdır.

Bunu aşağıdakı şəklin məlumatlarında da görə bilərik:

*Şəkil 5.1.3*

**2004-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasında əsas kapitala yönəldilən vəsaitlərin həcmində tikinti-quraşdırma işlərinin artım dinamikası (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Dövlət Proqramlarının icrası müddətlərində əldə olunan nəticələrin təhlili göstərir ki, muxtar respublikada hər üç tənzimləmə tədbirləri uğur və nailiyyətlərlə müşayiət olunmuşdur. Bütün şəhər və rayonları əhatə edən bu proseslər makroiqtisadi göstəricilərin yüksələn xətt üzrə artımını təmin etmişdir. Elə əsas məqsəd də qarşıdakı uzunmüddətli dövrlər üçün xarakterik olan proseslərin tənzimlənməsində bu göstəricilərin dinamikliyini təmin etmək mümkün olsun. Artıq 2009-2013-cü illərdə muxtar respublikada bu sahədə daha əhəmiyyətli potensial formalaşdırılmış və bu, milli iqtisadi perspektivlərin məhsuldarlığını daha da artırmışdır.

***Şəkil 5.1.4***

**2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasında əsas kapitala yönəldilən vəsaitlərin həcmi haqqında məlumat (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Artıq ikinci Dövlət Proqramı əsas kapitala yönəldilən vəsaitlərin həcmində keyfiyyətcə yeni mərhələni ifadə edir. Qeyd edək ki, bu sahədə həyata keçirilən tədbirlər bir-birilə qarşılıqlı vəhdət təşkil etməkdədir. Təbii ki, iqtisadiyyatın sahə strukturunun davamlı inkişafı infrastruktur quruculuğu tədbirləri ilə sıx əlaqəlidir. Buna görə də müvafiq sahə üzrə həyata keçirilən tədbirlər muxtar respublikanın makroiqtisadi səviyyədəki nailiyyətlərinin davamlılığı üçün də olduqca əhəmiyyətlidir. Apardığımız hesablamalar göstərir ki, burada 2009-2010-cu illərdə 1,2 dəfədən çox artım olmuşdur. Bu:

2009-2011-ci illərdə 2 dəfə;

2009-2012-ci illərdə 2,4 dəfə;

2004-2008-ci illərdə isə 2,5 dəfədən çox artmışdır.

Eyni dövrdə sosial-iqtisadi proseslərin belə yüksələn xətt üzrə davamlılığı əsas kapitala yönəldilən vəsaitlərin həcmində tikinti-quraşdırma işlərinin də dinamikasını artırmışdır.

*Şəkil 5.1.5*

**2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasında əsas kapitala yönəldilən vəsaitlərin həcmində tikinti-quraşdırma işləri haqqında məlumat (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

İqtisadiyyatın sürətli inkişafının çox mühüm göstəricilərindən birini məhz tikinti-quraşdırma işlərinin həcmi təşkil etməkdədir. Muxtar respublikada bu istiqamətdə həyata keçirilmiş tədbirlərin davamlılığı milli iqtisadi inkişaf proseslərini də sürətləndirməkdədir. Hesablamalarımız göstərir ki, 2009-2010-cu illərdə muxtar respublikada müvafiq sahədə artım 1,2 dəfədən çox təşkil etmişdir. Eyni ilə:

2009-2011-ci illərdə 2 dəfədən çox;

2009-2012-ci illərdə 2,4 dəfədən çox;

2009-2013-cü illərdə isə 2,5 dəfədən çox artım özünü göstərmişdir.

Bu dinamikanı aşağıdakı şəkildə də görə bilərik.

***Şəkil 5.1.6***

**2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasında əsas kapitala yönəldilən vəsaitlərin həcmində tikinti-quraşdırma işlərinin artım dinamikası (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bütün bu uğurlar əsasları ümummilli liderimiz böyük Heydər Əliyevin həmişəyaşar ideyaları ilə qoyulan müasir milli iqtisadiyyatın şaxələndirilməsi proseslərinin qətiyyətə söykənən davamıdır. Burada etibarlılıq, dayanıqlılıq, müqavimətlilik, artan dinamika və yüksək perspektivlər mövcuddur. Respublikamızın və onun regionlarının məlum Dövlət Proqramlarının səmərəli icrası fonunda son 15 ildə keçdiyi sosial-iqtisadi inkişaf yolu hazırda uzaq gələcək üçün etibarlı inkişafın müəyyən edilməsində strateji qətiyyətlilik gətirməkdədir. Təbii ki, bu isə, özünü 2014-2018-ci illərin Dövlət Proqramları üçün daha geniş əhatədə göstərməkdədir.

Bu gün muxtar respublikada təşəkkül tapan iqtisadiyyat təminatqabiliyyətliliyi ilə daha da mühüm mərhələyə gəlib çatmışdır. Bu, sözün bütün mənalarında:

- beynəlxalq iqtisadi münasibətlərə açıq olan:
- innovativ inkişafda dayanıqlılığı ilə seçilən;
- dünya iqtisadiyyatına dolğun şəkildə inteqrasiya edən;
- iqtisadi islahatları davam etdirən;
- bunun üçün iqtisadi və hüquqi bazası güclü olan;

- sosial əhəmiyyətliliyi daha da artan və nəticə etibarı ilə yüksək rifah göstəricilərini özündə əks etdirə bilən bir iqtisadiyyatdır. Təbii ki, inkişaf edən iqtisadiyyatın isə özünü ifadə etdiyi sahələrdən biri də tikinti sahəsidir. Aşağıdakı şəklin məlumatlarına baxaq:

***Şəkil 5.1.7***

**2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında əsas kapitala yönəldilən vəsaitlərin həcmi haqqında məlumat (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

İcrası yenicə sona çatan üçüncü Dövlət Proqramı iqtisadiyyatın istər mövcud, istərsə də prioritet sahələrdə inkişafını daha da sürətləndirmişdir. Proqrama diqqət edərkən ixtisaslaşma əsasında yeni təsərrüfatların və anbarların yaradılması, müxtəlif sahələr üzrə maddi-texniki bazanın möhkəmləndirilməsi, yeni infrastruktur potensialının təşkili, uzunmüddətli perspektivlər nəzərə alınmaqla, bu sahələr üzrə beynəlxalq təcrübənin öyrənilməsi və s. kimi zəruri məsələlərin öz yerini tapdığını görürük. Məhz bütün bunların

səmərəli təşkilində əldə olunan uğurlar özünü üçüncü Dövlət Proqramının icrası ilə ifadə edə bilmişdir.

Apardığımız hesablamalar göstərir ki, 2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında əsas kapitala yönəldilən vəsaitlərin həcmi 1 dəfədən çox artmışdır.

Həmin dövrdə muxtar respublikada əsas kapitala yönəldilən vəsaitlərin həcmində tikinti-quraşdırma işlərinin həcmi də artım dinamikası ilə müşayiət olunmuşdur. Bunu aşağıdakı şəklin məlumatlarından da görə bilərik.

*Şəkil 5.1.8*

**2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında əsas kapitala yönəldilən vəsaitlərin həcmində tikinti-quraşdırma işləri haqqında məlumat (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qeyd etmək olar ki, 2014-2018-ci illərdə əsas kapitala yönəldilən vəsaitlərin həcmində tikinti-quraşdırma işlərinin həcmi 1-1,2 dəfə artmışdır.

Naxçıvan Muxtar Respublikasının davamlı tikinti meydançasına çevrilməsi bir tərəfdən onun məqsədyönlü

şəkildə inkişafını şərtləndirirsə, digər tərəfdən, regional səmərəliliyin yüksəldilməsi göstəricilərini artırır. Bütün hallarda isə ayrılıqda hər bir şəxsdən, bütövlükdə cəmiyyətə, ucqar kənddən məkəzə, isehsaldan istehlaka qədər olan bütün asılılığı, həmçinin ardıcıllığı tərəqqi və intibah səviyyəsinə yüksəldən məqsədyönlü, düşünülmüş və qətiyyətli tədbirlərin məcmusudur. Təbii ki, bu sahədə həyata keçirilən hər bir tədbir tiktinti sektorunun fasiləsiz istehsala xidmət etdiyini göstərir, onun davamlı xarakter aldığının ifadəsidir. Tarixiliklə müasirliyin vəhdətindən ibarət olan bu tədbirlər muxtar respublikada bir-biri ilə əlaqəli olan:

- yüksək təminatlı sağlam fəaliyyət mühitinin yaradılmasına;
- əmək ehtiyatlarından səmərəli istifadə edilməklə, məşğulluq siyasətinin etibarlı təşkilinə;
- sosial dayaqların daha da möhkəmlənməsinə;
- iqtisadiyyatın sahə strukturunun güclü təşkilatlanmasına;
- nəticə etibarı ilə, milli iqtisadi proseslərin düzgün istiqamətləndirilməsinə stimul verməkdədir.

Hesablamalar göstərir ki, 2014-2018-ci illərdə muxtar respublikada əsas kapitala yönəldilən vəsaitlərin həcmi 1-1,1 dəfə artmışdır.

***Şəkil 5.1.9***

**2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında əsas kapitala yönəldilən vəsaitlərin həcmində tikinti-quraşdırma işlərinin artım dinamikası (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Apardığımız hesablamalar 2004-2018-ci illərdə muxtar respublikada istər əsas kapitala yönəldilən vəsaitlərin, istərsə də onların həcmində tikinti-quraşdırma işlərinin dinamik artımla müşayiət olunduğunu göstərməkdədir. Belə ki, istinad olunan 15 illik dövr ərzində **əsas kapitala yönəldilən vəsaitlərin həcmində 12,7 dəfə, tikinti-quraşdırma işləri isə 13,4 dəfədən çox artım olmuşdur.**

Beləliklə, Naxçıvan Muxtar Respublikasının müasir inkişaf mənzərəsinin təməlində müdrik ideyalardan bəhrələnən və uzunmüddətli dövrlər üçün xarakterik olan sosiallaşma prosesləri dayanmaqdadır. Bu isə təbii ki, milli iqtisadiyyat, onun şaxələndirilməsi və əhalinin güclü sosial qayğı ilə əhatə olunması üçün təmin edilməkdədir. Həmçinin bütün bunlar isə dövlətimizin iqtisadi gücünü və etibarlılığını ifadə edir.

## 5.2. Naxçıvan Muxtar Respublikasının səmərəli regional siyasəti: şəhər və rayonların inkişaf mənzərəsi

Azərbaycan Respublikası qeyri-neft sektorunun inkişafı sahəsindəki tədbirlərini qətiyyətlə reallaşdırmaqdadır. Burada iqtisadiyyatın ayrı-ayrı sahələrinin perspektivliyinin artırılması ilə yanaşı, həmçinin regionların iqtisadi (istehsal) potensialının gücləndirilməsi sahəsindəki tədbirləri də xüsusi önəmliliyi ilə seçilməkdədir. Bu sahələr üzrə həyata keçirilən tədbirlər nəticəsində, daha doğrusu, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla icrasının ən gerçək ifadəsi olaraq bütün bölgələrimizin müasir mənzərəsində modernləşmə əldə olunmuşdur. Bununla yanaşı, iqtisadi fəallığın və təşəbbüskarlığın artması, zəruri infrastruktur layihələrinin reallaşdırılması, sosial dayanıqlığın daha da gücləndirilməsi, nəticə etibarı ilə, davamlı və inkişafyönümlü **iqtisadi strategiya**nın təşəkkülü və s. istiqamətlərdə münbit imkanlar da yaradılmışdır. Əlbəttə ki, bütün bunlar isə hazırda da uğurla icra olunan Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji Yol Xəritələrinin səmərəli icra mexanizmlərinin təşkilinə təkan olmaqdadır.

**İqtisadi strategiya** – dövlətin iqtisadi siyasətinin tərkib hissəsi olub, uzun tarixi dövr ərzində ölkənin iqtisadi inkişafının ümumi istiqamətlərini müəyyən edir (59, s. 266).

Ölkəmizdə sosial-iqtisadi proseslərin davamlılığının və artan miqyaslılığının da gerçək ifadəsi kimi ölkə başçısının regionların sosiallaşma proseslərindəki tədbirlərini göstərə bilərik. Qeyd dək ki, ölkə prezidentinin respublikanın şəhər və rayonlarına səfər etməsini göstərə bilərik.

Təbii ki, bunlar isə əhalinin dövlətin sosial müdafiə sahəsindəki tədbirlərində dolğun təmsil olunmasına şərait yaratmaqla yanaşı, eyni zamanda, regionların sosial dayanıqlığının daha da güclənməsinə xidmət etməkdədir. Bu tədbirlər çərçivəsində regionlarda mühüm sosial-iaşə obyektlərinin, mədəniyyət mərkəzlərinin, müəssisə və zavodların açılışı keçirilmiş, ardınca avtomobil yollarının yenidən qurulması işləri təmin olunmuşdur. Ölkə başçısının

gündəlik diqqət və qayğısı ilə regionlarda infrastruktur təminatı daha da gücləndirilmiş və aqrar sektorun dinamik inkişafına dair respublika müşavirələri keçirilmişdir.

Əlbəttə ki, ölkəmiz miqyasında qeyd etdiyimiz bütün bu proseslər Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan, onun tərkibində Muxtar Dövlət kimi ictimai-siyasi və sosial-iqtisadi sahələr də daxil olmaqla, bütün istiqamətlərdəki tədbirlərinə dəstək olan Naxçıvan Muxtar Respublikasında da öz əksini dolğun şəkildə tapmaqdadır. Ali Məclisin Sədrinin muxtar respublikanın bölgələrinə etdiyi səfərlərdə şəhər və rayonlarda:

-fəaliyyət sahələrinin çoxistiqamətliliyinin təşkili və səmərəliliyinin artırılmasına;

- məşğulluq imkanlarının stimullaşdırılmasına;

- kiçik və orta sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə;

- regional iqtisadi inkişafın tərəqqisinə;

- hədəf və prioritetlərin reallaşmasına, bununla da, eyni zamanda, milli iqtisadi inkişafa hərəkətverici təsir edəcək digər sahələrin davamlı intibahı üçün sağlam iqtisadi mühitin əsas təsisatlarını yaratmışdır.

2018-ci ilin aprel ayının 2-də "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Ordubad dəmir yolu stansiyasının kompleks quruculuq işlərindən sonra istifadəyə verilməsi, iyul ayının 5-də Qarabağlar Türbə Kompleksinin bərpadan sonra mədəni irsimizə daxil olması, noyabr ayının 30-da Qazançı körpüsü tarixi-memarlıq abidəsinin bərpadan sonra kənd sakinlərinin istifadəsi üçün yararlı vəziyyətə gətirilməsi, dekabrın 5-də Ağbulaq Kənd **Turizm**-İstirahət Bölgəsinin təqdimatının keçirilməsi və digər tədbirlər muxtar respublikda sosial-iqtisadi inkişafın davamlılığını və qətiyyətliliyini göstərir. Təbii ki, bütün bunlar milli iqtisadi quruculuq proseslərində Naxçıvan Muxtar Respublikasının çevik iştirakını daha da stimullaşdırmışdır.

**Turizm** – istirahət növüdür, özündə ətraf mühiti, bu və digər regionun təbiətini, xalqlarını, monların yaşayışını, milli xüsusiyyətlərini öyrənmək məqsədilə olunan, həmçinin, idman və bizneslə əlaqədar olan səfərləri əks etdirir (52, s. 91)

Digər tərəfdən, bunlar muxtar respublikanın istər mövcud, ənənəvi sahələrdə, istərsə də perspektiv, prioritet kimi müəyyənləşdirilən istiqamətlərdəki məqsədyönlü tədbirlərə mühüm töhfəsi olaraq dəyərləndirilməlidir.

Əlbəttə ki, bunlar muxtar respublikada səmərəli iqtisadi siyasətin dayanıqlılığını və davamlılığını təmin edən şəhər və rayonların həm sosial, həm də iqtisadi inkişafının ifadə göstəricisidir. 2004-cü ildən ötən müddət ərzində bu sahələr üzrə güclü təşkilatlanma həyata keçirilmiş və nəticədə, ölkə iqtisadiyyatının inkişafı üçün baza daha da möhkəmləndirilmişdir. Bu isə, özünü digər sahələrlə yanaşı, eyni zamanda, əsas kapitala yönəldilən vəsaitlərin həcmində də göstərmişdir.

***Cədvəl 5.2.1***

**2004-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasında şəhər və rayonlar üzrə əsas kapitala yönəldilən vəsaitlərin həcmi haqqında məlumat (min manat)**

| Şəhər və rayonlar / İllər | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|
| Naxçıvan şəhəri | 47376,5 | 68645,6 | 69873,2 | 115498,4 | 159399,8 |
| Şərur rayonu | 4490,1 | 8417,9 | 10147,0 | 25531,4 | 28277,9 |
| Babək rayonu | 17173,0 | 17730,9 | 75994,1 | 23832,8 | 38774,5 |
| Ordubad rayonu | 3353,6 | 6508,8 | 8004,0 | 10231,0 | 13105,9 |
| Culfa rayonu | 3180,6 | 9714,8 | 10620,7 | 16515,3 | 18885,1 |
| Kəngərli rayonu | 819,1 | 6085,2 | 6740,8 | 11418,1 | 20084,9 |
| Şahbuz rayonu | 2288,1 | 4639,0 | 5407,9 | 12686,6 | 18244,4 |
| Sədərək rayonu | 1515,1 | 4309,5 | 4969,5 | 7234,4 | 12825,6 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Statistik göstəricilər və onların təhlili göstərir ki, muxtar respublikada birinci Dövlət Proqramının icrası yüksək səmərəlilik göstəriciləri ilə müşayiət olunmuş, bu isə şəhər və rayonların müasir mənzərəsinin daha da gözəlləşməsi ilə yanaşı, əsaslı infrastrukturun təkmilləşməsinə xidmət etmişdir.

Hesablamalar göstərir ki, 2004-2005-ci illərdə Naxçıvan şəhərində əsas kapitala yönəldilən vəsaitlərin həcmi 1,4 dəfədən çox artmışdır. Bu:

2004-2006-cı illərdə 1,5 dəfə;

2004-2007-ci illərdə 2,4 dəfədən çox;

2004-2008-ci illərdə isə 3,4 dəfə təşkil etmişdir.

*Şəkil 5.2.1*

**2004-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasında şəhər və rayonlar üzrə əsas kapitala yönəldilən vəsaitlərin artım dinamikası (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi, muxtar respublika ötən illərin yüksək sosial-iqtisadi nəticələrini qətiyyətlə əldə etmişdir. Mövcud vəziyyətin təhlili göstərir ki, əldə olunan potensial gələcək perpektivlərin çoxşaxəliliyini təmin etmiş və iqtisadi dayanıqlığın etibarlılığını daha da artırmışdır.

Birinci Dövlət Proqramının ardınca ölkədə və onun regionlarında, o cümlədən, Naxçıvan Muxtar Respublikasında ikinci Dövlət Proqramının səmərəli icrası ilə müşayiət olunan nailiyyətlərin şahidləri olduq. Bu isə daha çox ölkənin qeyri-neft sektorunun inkişafı hədəflərindən irəli gəlməklə, onun səmərəli nəticələrinin əldə olunmasına istiqamətlənmiş qətiyyərli tədbirlərin məcmusundan ibarət idi.

***Cədvəl 5.2.2***

**2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasında şəhər və rayonlar üzrə əsas kapitala yönəldilən vəsaitlərin həcmi haqqında məlumat (min manat)**

| Şəhər və rayonlar / İllər | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| Naxçıvan şəhəri | 178922,6 | 253941,9 | 521234,8 | 662058,8 | 700888,9 |
| Şərur rayonu | 48381,8 | 49387,3 | 63206,1 | 69559,0 | 74238,7 |
| Babək rayonu | 42539,2 | 44526,6 | 54811,3 | 61149,0 | 65768,7 |
| Ordubad rayonu | 40610,5 | 43793,9 | 46934,8 | 51881,3 | 55088,4 |
| Culfa rayonu | 22252,8 | 26045,9 | 38400,4 | 40458,6 | 41804,1 |
| Kəngərli rayonu | 38600,4 | 39054,8 | 39791,0 | 42782,2 | 43944,2 |
| Şahbuz rayonu | 20037,8 | 23641,1 | 28048,8 | 29746,9 | 30507,4 |
| Sədərək rayonu | 20176,9 | 20714,0 | 23145,4 | 24628,9 | 25508,0 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Muxtar respublikanın şəhər və rayonlarının mütərəqqi infrastruktur potensialına malik olması onların sosial-iqtisadi inkişafından ibarət makroiqtisadi inkişafı ilə yanaşı, həmçinin yeni istehsal sahələrinin yaradılması istiqamətində də strateji önəm daşımaqdadır.

Hesablamalar göstərir ki, 2009-2010-cu illərdə Naxçıvan şəhərində əsas kapitala yönəldilən vəsaitlərin həcmi 1,4 dəfədən çox artmışdır. Bu:

2009-2011-ci illərdə 2,9 dəfədən artıq;

2009-2012-ci illərdə 3,7 dəfədən çox;

2004-2013-cü illərdə isə 3,9 dəfədən çox artmışdır.

***Şəkil 5.2.2***

**2009-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasında şəhər və rayonlar üzrə əsas kapitala yönəldilən vəsaitlərin artım dinamikası (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qarşıya qoyulan məqsədlər qətiyyətlə və yüksək nəticələrlə reallaşmaqdadır. Ölkəmiz mövcud potensialını gücləndirməklə, regionun söz sahibinə çevrilən və strateji, həmçinin materiklər və qitələrarası dostluq münasibətlərinin inkişafını sürətləndirəcək layihələr gerçəkləşdirməkdədir. Məhz bu, Azərbaycan Respublikasının həm milli, həm də regional iqtisadi siyasətinin dayaqlarını olduqca möhkəmləndirməkdədir. Bu baxımdan da, Naxçıvan Muxtar Respublikası ölkə iqtisadiyyatının davamlı və uzunmüddətli perspektivlərindən aldığı güclə müəyyən olunmuş hədəflər istiqamətində daha böyük əzmlə, etibarlılıqla və inamla addımlamaqdadır. Qeyd edək ki, hər üç Dövlət Proqramının

icrasının nəticələrini izləyərkən gəldiyimiz qənaət belədir ki, bunlar:

- islahatların davamlılığını təmin edirlər;
- innovativ inkişafa istiqamətlənmişlər;
- yenilikçi, yaradıcı (kreativ) ideyalara dolğun zəmin yaradırlar;
- dünyanın müasir çağırışları ilə səsləşirlər;
- yuxarıda sadalanan amilləri bütöv halda mövcud inkişaf səviyyəsinin davamlılığının sürətləndirməsinə istiqamətləndirə bilmişlər və s. Bunu üçüncü Dövlət Proqramının səmərəli icrasının nəticələrində də görmək mümkündür.

*Cədvəl 5.2.3*

**2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında şəhər və rayonlar üzrə əsas kapitala yönəldilən vəsaitlərin həcmi haqqında məlumat (min manat)**

| Şəhər və rayonlar / İllər | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Naxçıvan şəhəri | 609667,2 | 628482,4 | 662986,5 | 669247,1 | 677079,3 |
| Şərur rayonu | 72605,4 | 74493,1 | 77100,4 | 77563,0 | 78493,8 |
| Babək rayonu | 62417,2 | 64164,9 | 66154,0 | 66617,1 | 67349,9 |
| Ordubad rayonu | 54041,7 | 55392,7 | 57386,8 | 57616,3 | 58192,5 |
| Culfa rayonu | 35615,4 | 36470,2 | 38877,2 | 39110,5 | 39462,5 |
| Kəngərli rayonu | 38539,1 | 39387,0 | 40962,5 | 41208,3 | 41661,6 |
| Şahbuz rayonu | 28810,9 | 29415,9 | 29768,9 | 29977,3 | 30247.1 |
| Sədərək rayonu | 22931,7 | 23390,3 | 24372,7 | 24421,4 | 24592,3 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl məlumatlarının təhlili göstərir ki, 2014-2018-ci illər ərzində muxtar respublikanın şəhər və rayonlarında əsas kapitala yönəldilən vəsaitlərin həcmi 1-1,1 dəfə artmışdır.

Bu Proqram da muxtar respublikanın güclü infrastruktur quruculuğuna istiqamətlənmiş, onun iqtisadiyyatın sahələri üzrə məhsuldarlığının artırılmasına xidmət etmiş və səmərəli nəticələrlə müşayiət olunmuşdur.

Ardıcıl həyata keçirilən islahatlar Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında yeni inkişaf səhifələri açmaqdadır. Bunlar iqtisadiyyatın sahə strukturunun davamlı inkişafını təmin etməklə yanaşı, eyni zamanda, öz səmərəli nəticələrini əsas kapitala yönəldilən vəsaitlərin həcmində və eləcə də onun tərkibində tikinti-quraşdırma işlərində də göstərməkdədir. Diqqət edəndə aydın olur ki, muxtar respublikamızda tikinti-quraşdırma işləri ardıcıl davam edən hər üç Dövlət Proqramlarının icrası müddətində artım dinamikası ilə müşayiət olunmuşdur.

***Cədvəl 5.2.4***

**2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında şəhər və rayonlar üzrə əsas kapitala yönəldilən vəsaitlərdən tikinti-quraşdırma işlərinin həcmi haqqında məlumat (min manat)**

| **Şəhər və rayonlar** | **illər** | **Göstəricilər** | | | | |
|---|---|---|---|---|---|---|
| **Naxçıvan şəhəri** | A | 39240,1 | 49842,1 | 53990,6 | 85581,7 | 144603 |
| | B | 153983,8 | 213208,8 | 451591,8 | 574356,7 | 604451,4 |
| | C | 518624,1 | 538025,7 | 609675,9 | 616900,7 | 627451,7 |
| **Şərur rayonu** | A | 4345,1 | 7448,5 | 7875,9 | 20724,8 | 25746,2 |
| | B | 44096,3 | 45343,8 | 59339 | 65539,6 | 69752,2 |
| | C | 67241,1 | 69392,8 | 72545,7 | 73571,2 | 74561,2 |
| **Babək rayonu** | A | 16730 | 17023,1 | 17520,3 | 19413,2 | 34359,8 |
| | B | 39228,6 | 42368,4 | 52042 | 58158,1 | 62195,7 |
| | C | 58339,6 | 60148,1 | 63736,7 | 64307,8 | 65103,8 |
| **Ordubad rayonu** | A | 3257,5 | 5515,7 | 6120,4 | 8169,4 | 11458,3 |
| | B | 33055,3 | 40795,3 | 44233,5 | 48590,6 | 51238,8 |
| | C | 49547,9 | 50885,7 | 53731,5 | 54661,4 | 55317,3 |
| **Culfa rayonu** | A | 2714,8 | 8937,4 | 9383,6 | 13407,9 | 17477,8 |
| | B | 19769,2 | 23951,7 | 36311,5 | 37971,9 | 39140,4 |
| | C | 32525,7 | 33436,4 | 35821,2 | 36479,3 | 36880,6 |
| **Kəngərli rayonu** | A | 777,5 | 5537 | 5739,8 | 9342,1 | 18644,9 |
| | B | 35693,8 | 36387,8 | 37164,8 | 39480,5 | 40457,2 |
| | C | 34469,5 | 35331,2 | 38212,8 | 38636,7 | 39079,0 |
| **Şahbuz rayonu** | A | 2184,4 | 3967,7 | 4231,9 | 11181,9 | 17044,1 |
| | B | 18357,3 | 22068,8 | 26172 | 27464,6 | 28079,3 |
| | C | 25243,3 | 25849,1 | 26306,2 | 26705,6 | 27112,4 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Sədərək rayonu** | A | 1458,1 | 3731,5 | 3940 | 5971,3 | 11505,8 |
| | B | 18853,4 | 19301,4 | 21305,5 | 22980,4 | 23728,3 |
| | C | 20952,1 | 21434,0 | 21526,6 | 21795,8 | 22292,0 |

| | | | | | |
|---|---|---|---|---|---|
| A | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
| B | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| C | 2014 | 2015 | 2016 | 2017 | 2018 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Apardığımız hesablamalar göstərir ki, muxtar respublikanın şəhər və rayonlarında tikinti-quraşdırma işləri dinamik xarakter almışdır. Əlbəttə ki, bu potensial muxtar respublikanın şəhər və rayonlarını etibarlı inkişaf yoluna çıxarmışdır. Bunu aşağıdakı şəklin məlumatları da ifadə etməkdədir.

***Şəkil 5.2.3***

**Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında əsas kapitala yönəldilən vəsaitlərdən tikinti-quraşdırma işlərinin artım dinamikası haqqında məlumat (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qeyd edək ki, Kəngərli rayonu 2004-cü il 19 mart tarixində yaradılmışdır. Rayonun təşkil olunması genişmiqyaslı abadlaşdırma və quruculuq işlərinin aparılması, zəruri infrastruktur quruculuğunun həyata keçirilməsi, rayon və kənd mərkəzlərinin qurulması, sosial-iqtisadi inkişafın sistemliliyinin təmin olunması və digər bu kimi tədbilərinin reallaşdırılması məqsədilə 2004-2008-ci illər ərzində əsas kapitala yönəldilən vəsaitlərin həcmi 24,5 dəfə, onun tərkibində tikinti-quraşdırma işlərinin həcmi isə 24 dəfə artmışdır.

2004-2008-ci illərdə əldə edilən bu uğurlar artıq 2009-2013-cü illər üçün daha səmərəli nəticələrə zəmin yaratdı. İstehsal imkanlarının artırılması, məşğulluq proseslərinin

stimullaşdırılması, məskunlaşma göstəricilərinin qorunması, yeni hədəflərin əlçatanlığı və digər bu kimi strateji məqsədlərin reallaşdırılması üçün güclü infrastruktur potensialının yaradılması məhz şəhər rayonların bu istiqamətlər üzrə dinamik inkişafının ən gerçək ifadəsini təşkil etməkdədir. Əlbəttə ki, şəhər və rayonların sosial-iqtisadi potensialının artması nəticə etibarı ilə muxtar respublikanın da makroiqtisadi potensialının mütərəqqi əsaslarla inkifının sürətləndirici meyarıdır. Məhz bu baxımdan da hər üç Dövlət Proqramının icrasının nəticələrinə diqqət edərkən aydın olur ki, bu sahələr üzrə qətiyyətlilik, məqsədyönlülük və yaradıcı yanaşma özünü göstərmişdir. Təbii ki, bütün bunlar həm də sosiallaşma proseslərinin sürətlənməsi fonunda reallaşmışdır. Həmçinin bu, hər bir şəhər və rayon üzrə əldə olunan uğurların iştirakçıları arasında əmək, sosial və iqtisadi, nəticə etibarı ilə məşğulluq münasibətlərinin gerçək təsvirindən ibarət prosesləri ifadə etməkdədir. Çünki, şəhər və rayonlarda bu göstəricilərin təşəkkülü muxtar respublikanın makroiqtisadi nailiyyətlərinin dayaqlarını möhkəmləndirir, onun davamlılığını artırır və perspektivliliyini yüksəldir ki, bu da qarşıya qoylmuş məqsədlərin gerçəkliyindən xəbər verməkdədir. Sevindiricidir ki, bütün bu qeyd edilənləri muxtar respublikanın bütün bölgələrində dolğun şəkildə görmək mümkündür.

Aşağıdakı şəkil ikinci Dövlət Proqramının məhsuldar icrası nəticəsində əsas kapitala yönəldilən vəsaitlərdən tikinti-quraşdırma işlərinin artım dinamikasını özündə əks etdirir.

*Şəkil 5.2.4*

**Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında əsas kapitala yönəldilən vəsaitlərdən tikinti-quraşdırma işlərinin artım dinamikası haqqında məlumat (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikasında iqtisadi proseslərin təşkili və idarə olunmasında sistemlilik, ardıcıllıq və perspektivlilik var. Ən mühüm məsələ ondan ibarətdir ki, burada əldə olunan bütün nəticələr ölkənin makroiqtisadi uğur göstəricilərinə dayaqdır, ona hərəkəverici təsir edir və regional iqtisadi siyasətinə yüksək səmərəlilik gətirir. Bu isə, təbii ki, müvafiq sahələr üzrə iqtisadi və hüquqi tənzimləmə mexanizmlərinin strateji əhəmiyyətliliyini göstərən vacib məsələdir. Eyni zamanda, bunlar özünü 2014-2018-ci illərin nəticələrində stimullaşdırıcı meyarlar olaraq göstərməkdədir.

***Şəkil 5.2.5***

**Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında əsas kapitala yönəldilən vəsaitlərdən tikinti-quraşdırma işlərinin artım dinamikası haqqında məlumat (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Beləliklə, Naxçıvan Muxtar Respublikası bir-birini əvəz edən illərin güclü sosial-iqtisadi inkişafını formalaşdıra bilmişdir. Qazanılan hər bir uğur milli iqtisadi inkişafın gerçək təzahürüdür, onun qətiyyətli ifadəsidir və qarşıdakı uzunmüddətli dövrlər üzrə aktuallağını qoruyacaq tədbirlərin daha da sürətlənməsinə xidmət edəcəkdir.

## 5.3. Naxçıvan Muxtar Respublikasında sosiallaşma proseslərinin sürətlənməsində tikinti sektorunun rolu

Araşdırma və təhlil materialları göstərir ki, regional inkişaf üzrə Dövlət proqramlarının üçüncü mərhələsi də artan dinamika ilə geridə qalmışdır. Artıq 2019-cu və sonrakı illər məhz həmin illər üzrə formalaşan sarsılmaz baza üzərində qərarlaşmaqdadır ki, məhz muxtar respublikada tikinti sektorunun inkişafı:

- istehsal infrastrukturunun güclənməsinə və onun fasiləsizliyinə xidmət etməklə;
- sosial dayanıqlığın möhkəmləndirilməsi sahəsindəki üstünlüklərini artırmaqla;
- iqtisadiyyatın sahə struktrunun bir-biri ilə əlaqəli tərəqqisinin davamlılığı sahəsindəki perspektivlərinin təşəkkülü ilə;
- investisiya siyasətinin səmərəliliyinin ən gerçək təzahürü olması ilə;
- uzaq gələcək üzrə tədbirlərin reallaşması üçün güclü baza olması ilə və s. daha mütərəqqi görünməkdədir.

Bəhs olunan sahələr üzrə proseslərin gedişi göstərir ki, artıq keçən müddətlər ərzində gerçək uğurlar əldə olunmuşdur. Bunu sosial sferanın müxtəlif sahələri haqqında da göstərə bilərik. Məsələn, təhsil sektorunun inkişafı məqsədilə, bu istiqamətdə etibarlı, dayanıqlı və davamlı infrastruktur siyasətinin müəyyənləşdirilməsi sahəsindəki tədbirləri ifadə edə bilərik. Qeyd edək ki, bu sahə ilə bağlı Dövlət Proqramlarının hər üç mərhələyə aid dövründə ciddi uğurlar əldə olunmuş, bu isə özünü təhsilin və tədrisin səviyyəsinin yüksəldilməsi, həmçinin, mövcud potensialın artırılması sahəsində göstərmişdir. Fikrimizi əsaslandırmaq üçün qeyd edə bilərik ki, 2004-2008-ci illərdə 9990 şagird yerlik 19 ümumtəhsil məktəbi yenidən qurularaq istifadəyə verilmişdir. Bunu, 2009-2013-cü illərdə 20772 şagird yerlik 40, 2014-

2018-ci illərdə isə 14874 şagird yerlik 36 ümumtəhsil məktəbi kimi qeyd edə bilərik. Muxtar respublikada regional, iqtisadi və sosial siyasətin səmərəliliyinin nəticəsidir ki, yuxarıda sadalanan faktlar öz dolğun ifadəsini kənd yerlərində də tapmışdır. Belə ki, 2004-2008-ci illərdə kənd yerlərində 5216 şagird yerlik 12 ümumtəhsil məktəbi yenidən qurularaq istifadəyə verilmişdir. Bu göstəricilər 2009-2013-cü illərdə 11686 şagird yerlik 29 ümumtəhsil məktəbi və 2014-2018-ci illər ərzində isə 11548 şagird yerlik 32 ümumtəhsil məktəbi kimi qeyd oluna bilər.

Qeyd edək ki, Dövlət Proqramlarının səmərəli icrası iqtisadiyyatın həm sosiallaşması, həm də özəl sektorun güclü dayaqlara malik olması sahəsindəki prosesləri daha da sürətləndirmişdir. Təhlillər nəticəsində aydın olur ki, keçən 16 ildə, yəni regional inkişaf proqramlarının təsdiq olunmasından üzü bəri bu sahədəki hədəflərə yüksək məqsədyönlülüklə nail olunmuşdur. Bunu tikilərək istifadəyə verilən yaşayış evlərinin mülkiyyət formaları üzrə bölgüsü də göstərməkdədir. Diqqət edəndə görünür ki, 2004-2008-ci illər ərzində muxtar respublikada ümumi sahəsi 333 min kv. m olan yaşayış evləri tikilərək istifadəyə verilmişdir ki, bunun da 308,9 min kv. m-i və ya 93 faizə yaxını vətəndaşların şəxsi vəsaiti hesabına təmin olunmuşdur. Həmin göstərici ikinci Dövlət Proqramının icrası ərzində 1449,4 min kv. m təşkil etmişdir ki, bunun da 1438,8 min kv. m –i və ya 99,3 faizi vətəndaşların şəxsi vəsaiti hesabına təmin olunmuşdur. Eyni ilə, üçüncü Dövlət Proqramının da icrası ərzində 1900,1 min kv. m yaşayış evləri istifadəyə verilmişdir ki, bunun da 1869,1 min kv. m-i və yaxud 98,4 faizi vətəndaşların şəxsi vəsaiti hesabına təmin olunmuşdur.

Bununla yanaşı, aydın olur ki, birinci Dövlət Proqramının icrası ərzində vətəndaşların şəxsi vəsaiti hesabına tikilərək istifadəyə verilən yaşayış evləri (308,9 min kv. m) öz

növbəsində qeyri-dövlət bölməsinin inkişafını ifadə etməkdədir. Dövlət bölməsində isə bu göstərici 24,1 min kv. m təşkil etməkdədir.

Bunun davamı olaraq, ikinci Dövlət Proqramının icrası ərzində dövlət bölməsi 10,6 min kv. m, üçüncü Dövlət Prqramının icrası əzrində isə 31 min kv. m təşkil etməkdədir.

Əhalinin şəxsi vəsaiti hesabına tikilmiş yaşayış evlərinin statistikasına diqqət edəndə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarının bu sahədəki potensialı da diqqəti çəkməkdədir. Qeyd edək ki, bu sahədəki proseslərin gedişi regional iqtisadi siyasətin səmərəliliyi baxımından çox əhəmiyyətli potensial olaraq dəyərləndirilməlidir.

*Cədvəl 5.3.1*

**Hər üç Dövlət Proqramının icrası ərzində Naxçıvan Muxtar Respublikasında şəhər və rayonlar üzrə əhalinin şəxsi vəsaiti hesabına tikilmiş yaşayış evlərinin ümumi sahəsi (min kvadratmetr)**

| Şəhər və rayonlar / İllər | 2004-2008 | 2009-2013 | 2014-2018 |
|---|---|---|---|
| Naxçıvan şəhəri | 117,7 | 985,5 | 1320,2 |
| Şərur rayonu | 40,4 | 100,4 | 132,2 |
| Babək rayonu | 36,6 | 70,8 | 86,7 |
| Ordubad rayonu | 29,7 | 66,2 | 76,6 |
| Culfa rayonu | 34,2 | 101 | 134,1 |
| Kəngərli rayonu | 31,5 | 72,1 | 72,9 |
| Şahbuz rayonu | 10,5 | 22,2 | 24,8 |
| Sədərək rayonu | 8,3 | 20,6 | 21,6 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Açıq şəkildə göründüyü kimi, Dövlət Proqramlarının səmərəli icrası hər üç mərhələ üzrə iqtisadiyyatın

sosiallaşmasında, özəl sektorun inkişafında və əhalinin firəvanlığının daha möhkəm əsaslarının yaradılmasında keyfiyyətcə yeni mərhələnin təşəkkülünə çevrilmişdir. Təhlillər nəticəsində aydın olur ki, Naxçıvan şəhəri üzrə 2009-2013-cü illərdə əhalinin şəxsi vəsaiti hesabına tikilmiş yaşayış evlərinin sahəsi 2004-2008-ci illərin müvafiq göstəricisindən 8,4 dəfə artıq olmuşdur. Bu göstərici 2014-2018-ci illərlə 2004-2008-ci illərin müqayisəsində 11,2 dəfəlik artımla müşayiət olunmaqdadır. Müvafiq olaraq:

Şərur rayonu üzrə 2,5 və ya 3,3;

Babək rayonu üzrə 1,9 və ya 2,4;

Ordubad rayonu üzrə 2,2 və ya 2,6;

Culfa rayonu üzrə 3 və ya 3,9;

Kəngərli rayonu üzrə 2,3 və ya 2,4;

Şahbuz rayonu üzrə 2,1 və ya 2,4;

Sədərək rayonu üzrə isə 2,5 və ya 2,6 dəfədən çox olmaqla, davam etmişdir.

Tikinti sektorunun genişmiqyaslılığı onun səmərəli təşkilini təmin edir və bu sahədə əmək ehtiyatlarından istifadənin səmərəliliyini zəruriləşdirir. Tikinti sektorunun sosial-iqtisadi göstəricilərinə diqqət edərkən aydın olur ki, bu sahədəki proseslərin məhsuldarlığının dinamik olaraq yüksəldilməsini təmin edəcək amillər nəticəsində bu sektorda məşğulluq imkanlarının artırılması sahəsində qətiyyətli uğurlar əldə olunmuşdur. Statistik rəqəmlər göstərir ki, ümumilikdə, Naxçıvan Muxtar Respublikasında 2004-2008-ci illərdə tikinti sahəsində işçilərin orta siyahı sayı 3501-8481 nəfər arasında, yəni 2,4 dəfədən çox artmışdır. 2009-2013-cü illər ərzində isə bu göstərici 8613 - 12171 nəfər, üçüncü Dövlət Proqramının icrası ərzində isə bu göstərici 12230 - 12833 nəfər arasında dəyişmişdir. Yəni ikinci Dövlət Proqramının icrası ərzində 1,4 dəfədən çox, üçüncü müddət ərzində isə 1 dəfədən çox artmışdır.

*Şəkil 5.3.1*

**Hər üç Dövlət Proqramının icrası müddətində Naxçıvan Muxtar Respublikasında tikinti sahəsində işçilərin orta siyahı sayı (nəfər)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Muxtar respublikanın davamlı sosial-iqtisadi inkişafı sahəsindəki uğurlar özünü tikinti sektorunda çalışanların sosial müdafiəsinin gücləndirilməsində də göstərmişdir. Belə ki, əgər 2004-cü ildə tikinti sektorunda bir işçiyə hesablanmış orta aylıq əmək haqqı 86,4 manat idisə, 2008-ci ildə bu 167 manat təşkil etmişdir. Yəni 2 dəfəyə yaxın artmışdır. Bu göstərici 2009-2013-cü illərdə 296 manatdan 449 manata qədər, daha doğrusu, 1,5 dəfədən çox artmışdır. 2014-2018-ci illər ərzində isə bu məbləğ 452,1 manatdan 487,8 manata qədər, yəni 1,1 dəfə artmışdır.

Göründüyü kimi, tikinti sektorunun inkişafı muxtar respublikada iqtisadiyyatın sosiallaşmasına öz hərəkətverici təsirini göstərmişdir. Əldə olunan nəticə isə insanların

(cəmiyyətin) sosial müdafiəsinin daha da gücləndirilməsi sahəsində çox strateji tədbirlərin tərkib hissəsi kimi çıxış etməkdədir. Təbii ki, bütün bunlar dövlətin sosial-iqtisadi hədəflərinin reallığa çevrilməsi sahəsindəki tədbirlərini daha da gücləndirməkdədir.

*Şəkil 5.3.2*

**Hər üç Dövlət Proqramının icrası müddətində Naxçıvan Muxtar Respublikasında tikintidə bir işçiyə hesablanmış orta aylıq əmək haqqı (manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Beləliklə, muxtar respublikada tikinti sektorunun inkişafı qarşıdakı dövrlər üzrə daha mütərəqqi tədbirlərin reallaşacağına böyük ümidlər yaradır. Hədəflərin və prioritetlərin reallaşması sahəsində dinamik artımı təmin edən bu potensial muxtar respublikanın davamlı və perspektivli inkişafını təmin etmişdir. Əlbəttə ki, bu, muxtar respublikanın sosiallaşma proseslərinə də stimullaşdırıcı təsir göstərəcəkdir.

# VI FƏSİL

# REGİONAL İNKİŞAF PROQRAMLARI VƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATININ DAVAMLI İNKİŞAFI

## 6.1. Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatında dövlət tənzimlənməsinin həyata keçirilməsi

Azərbaycan Respublikasında dövlətin sosial-iqtisadi siyasətinin ən mühüm istiqamətlərindən birini də kənd təsərrüfatının sistemli və dayanıqlı inkişafı sahəsindəki tədbirlər təşkil etməkdədir. Müasir müstəqillik illərində ölkənin regional siyasətinin çox səmərəli nəticələrini özündə əks etdirən bu sektor, makroiqtisadi proseslərin tənzimlənməsində olduqca perspektivli sahə olaraq dəyərləndirilməlidir. Hazırda ölkədə əmək qabiliyyətli əhalinin 40 faizinin məhz kənd təsərrüfatı sahələrində çalışması burada:

- əhalinin məşğulluq imkanlarının genişlənməsində bu sektorun mühüm təsirinin olmasına;
- ərzaq təhlükəsizliyinin təmin olunmasında onun perspektivliyinin yüksəkliyinə;
- qeyri-neft sektorunun sahələr və mərhələlər üzrə şaxələndirici inkişafında strateji əhəmiyyətə malik olmasına;
- iqtisadiyyatın sosiallaşmasındakı üstünlüklərinə;
- milli iqtisadi hədəf və prioritetlərin gerçəkləşməsindəki çevik təşkilatlanmaya və s. dolğun və artan miqyasda təminat qabiliyyətli olmasını göstərir.

Buna görə də kənd təsərrüfatının dinamik inkişafı, aqrar sektorun perspektivlərinin artırılması məsələləri ölkənin iqtisadiyyatında regional inkişaf məsələlərini daha da aktuallaşdırmışdır. Artıq ölkədə və onun regionlarında, o cümlədən, Naxçıvan Muxtar Respublikasında **aqrar məsələ**

dövlətin gündəlik diqqət və qayğısı ilə əhatə olunmuş və hüquqi vasitələrlə tənzimlənməkdədir. Məhz bu məqsədlə, 2004-cü ildən regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının təsdiq və icra edilməsi bu aktuallığı daha da artırmışdır. Qeyd edək ki, bu sahədəki potensialın artırılması, əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına xidmət etməklə, müvafiq istiqamətlər üzrə həyata keçirilən tənzimləmə siyasətinin zəruriliyini və yerində verilmiş qərar olduğunu göstərməkdədir.

**Aqrar məsələ -** kənddə torpaq münasibətləri, siniflər və sinfi mübarizə habelə, kənd təsərrüfatında cəmiyyətin iqtisadi inkişafının qanunlarının meydana gəlməsi və fəaliyyət göstərməsinin konkret formalarıdır (52, s. 6).

Milli iqtisadi inkişafda əldə olunan nailiyyətlərin mühüm tərkib hissələrindən birini də elə məhz regionların kənd təsərrüfatı sahəsindəki rolunun və çəkisinin artırılmasından ibarətdir. Bu mənada, Naxçıvan Muxtar Respublikasının istər ulu öndər böyük Heydər Əliyevin başlatdığı iqtisadi (aqrar) islahatlar, istərsə də 1995-ci ildən müvafiq dövlər üzrə aktuallaşan tədbirlər nəzərə alınmaqla, zənginləşdirilən tədbirlər burada kənd təsərrüfatının dinamik inkişafına güclü zəminlər yaratdı və onun məhsuldarlığını artırmış oldu. Təbii ki, qəbul edilən Dövlət Proqramları isə bu sahədə keyfiyyəcə yeni mərhələnin əsaslarını yaratmış oldu. Təkcə onu qeyd etmək yerinə düşər ki, 2004-2008-ci illərdə kənd təsərrüfatının davamlı inkişafı sahəsində bir çox tədbirlərlə yanaşı:

- üzümçülük, taxılçılıq, heyvandarlıq, ipəkçilik, tərəvəzçilik, gülçülük, arıçılıq, xalçaçılıq, meyvəçilik və s. sahələrin inkişafının sürətləndirilməsinə dair tədbirlərin həyata keçirilməsi;
- müvafiq rayonların dağlıq və yüksək dağlıq ərazilərində kənd təsərrüfatının inkişaf etdirilməsi;
- sosial obyektlərin bərpası və inkişafı;

- konserv, şərabçılıq, tütün-fermentasiya, ət emalı və digər müəssisələrin fəaliyyətinin genişləndirilməsinə dair kompleks tədbirlərin həyata keçirilməsi;

- suvarma əkinçiliyini inkişaf etdirmək məqsədilə mövcud su resurslarından (Arpaçay, Naxçıvançay) istifadə imkanlarının genişləndirilməsi (2) kimi zəruri tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuş və yüksək məhsuldarlıqla reallaşdırılmışdır.

Bütün bunlar muxtar respublikanın sosial-iqtisadi inkişafında artan dinamikaya xas olan mərhələnin əsaslarını yartmaqla, növbəti 2009-2013-cü illər üçün güclü bazaya çevrilmişdir. İkinci Dövlət Proqramının icrası dövründə isə:

- rayon mərkəzlərində meyvə-tərəvəz və kartof məhsulunun saxlanması üçün soyuducu anbarların yaradılması;

- üzümlüklərin və meyvə bağlarının əkin sahələrinin bərpası və genişləndirilməsinin, baramaçılığın bərpası və inkişafının dəstəklənməsi;

- aqroserviz xidmətləri şəbəkəsinin genişləndirilməsinin dəstəklənməsi, "Naxaqrolizinq" ASC-nin maddi-texniki bazasının möhkəmləndirilməsi;

- quşçuluq müəssisələrində istehsalın genişləndirilməsinin dəstəklənməsi;

- balıqçılığın inkişaf etdirilməsinin dəstəklənməsi;

- kənd təsrrüfatına yararsız və azyararlı torpaq sahələrində meşə və qoruyucu meşə zolaqlarının salınması, meşə fondunun səmərəli istifadəsi, qorunması və bərpası tədbirlərinin həyata keçirilməsi və s. (3) tədbirlər reallığa qovuşmuşdur.

Əlbəttə ki, qeyd olunan tədbirlər muxtar respublikada kənd təsərrüfatı sahəsindəki tədbirlərin istiqamətlərinin və şəbəkəsinin genişləndirilməsinə sürətləndirici təsiri ilə seçilmişdir. Dövlət Proqramları üzrə ardıcıllıqlardan da göründüyü kimi, tədbirlər biri-birilə əlaqəlilik təşkil edir və

biri digərinə bazadır. Artıq 2014-2018-ci illər üzrə Dövlət Proqramında muxtar respublikanın kənd təsərrüfatı sahəsindəki inkişafın davamlılığını təmin etmək üçün daha mütərəqqi ideyaların məhsulları olan tədbirlər yer almaqdadır. Bunları aşağıdakı kimi sadalaya bilərik:

- aqrar sahədə mövcud sığorta sisteminin təkmilləşdirilməsi üçün tədbirlərin davam etdirilməsi;
- kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü və emalı sahəsində sahibkarlıq fəaliyyətinin dəstəklənməsi;
- üzümçülük plantasiyalarının salınmasının, gülçülük təsərrüfatlarının yaradılmasının və baramaçılığın bərpa edilməsinin dəstəklənməsi;
- muxtar respublikada dəvəçilik təsərrüfatının genişləndirilməsi;
- ərzaq məhsullarının yaradılması üçün soyuducu anbarların yaradılmasının davam etdirilməsi;
- balıqçılığın inkişaf etdirilməsi və yeni təsərrüfatların yaradılmasının dəstəklənməsi;
- əhalinin mövsümi tərəvəz məhsulları ilə təminatının yaxşılaşdırılması üçün istixana komplekslərinin genişləndirilməsi;
- aqroservis xidmətləri şəbəkəsinin genişləndirilməsi, “Naxçıvan Aqrolizinq ASC”-nin maddi-texniki bazasının möhkəmləndirilməsi;
- yüksək reproduksiyalı, məhsuldar toxumla təminatı yaxşılaşdırmaq məqsədilə toxumçuluq təsərrüfatlarının genişləndirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi;
- muxtar respublikada aborigen meyvə sortlarının tətbiqi;
- heyvandarlıq komplekslərinin inkişaf etdirilməsi və aqrofermaların yaradılmasının dəstəklənməsi;
- kənd təsərrüfatı istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazasının möhkəmləndirilməsi;

- Naxçıvan Muxtar Respublikasının torpaq və iqlim xüsusiyyətləri nəzərə alınmaqla torpaqlardan səmərəli istifadə edilməsi, suvarılan torpaq sahələrinin genişləndirilməsi və həmin ərazilərin xəritələşdirilməsinin davam etdirilməsi;
- əhalinin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə mövcud tələbat nəzərə alınmaqla yeni anbarların tikilməsinin davam etdirilməsi və s. (4) kimi tədbirlər muxtar respublikanın hazırkı güclü sosial-iqtisadi potensialının zəruri bazasıdır.

Qeyd edək ki, ölkəmizdə istər keçmiş İttifaq dövründə, istərsə də hazırkı müəstəqillik illərində böyük Heydər Əliyev siyasətilə daimi diqqətdə saxlanılan və inkişafı hədəflənən sahələrdən biri kimi üzümçülüyün inkişafını qeyd edə bilərik. Ümummilli lider tərəfindən 29 yanvar 2002-ci il tarixdə təsdiq olunan "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə imzalanan Fərman müasir müstəqillik illərində də bu sahədəki fəaliyyətin təkanverici qüvvəsinə çevrildi. Həmin sosial-iqtisadi fəaliyyətin məqsədyönlü davamı olaraq 15 dekabr 2011-ci il tarixdə dövlət başçısının imzaladığı Sərəncamla "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" və onun həyata keçirilməsi üzrə Tədbirlər Planı təsdiq olundu. Burada:

- üzümçülük və şərabçılığın inkişaf etdirilməsi üzrə institusional tədbirlərin həyata keçirilməsindən;
- üzümçülük və şərabçılıq sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsindən;
- üzümçülük və şərabçılığın infrastruktur təminatının yaxşılaşdırılmasından;
- üzümçülük və şərabçılıq sahəsində dövlət dəstəyi tədbirlərinin həyata keçirilməsindən;
- üzümçülük və şərabçılıqda marketinq fəaliyyətinin gücləndirilməsi və ixracın stimullaşdırılmasından ibarət tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Bunlardan əlavə, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarında da üzümçülüyün inkişafı zəruri hədəf olaraq göstərilmişdir. Fikrimizi təsdiq etmək üçün qeyd edə bilərik ki, hər üç Dövlət Proqramı üzrə Abşeron, Ağdam, Ağstafa, Beyləqan, Cəlilabad, Fizuli, Göyçay, Göygöl, İsmayıllı, Kürdəmir, Masallı, Oğuz, Qazax, Qusar, Salyan, Samux, Siyəzən, Şabran, Şamaxı, Şəki, Şəmkir, Tərtər, Tovuz, Zaqatala rayonları ilə birlikdə Naxçıvan Muxtar Respublikasında da üzümçülüyün inkişafı, üzümçülük məhsullarının dəstəklənməsi, bununla bağlı olan emal müəssisələrinin də fəaliyyətinin stimullaşdırılması kimi zəruri tədbirlər nəzərdə tutulmuşdur. Belə ki, hazırda da icrası uğurla davam edən üzümçülüyün inkişafı üzrə Dövlət Proqramının 4.2.7.16-cı bəndində muxtar respublikada digər sahələr üzrə tədbirlərlə yanaşı üzümçülük plantasiyalarının salınmasının dəstəklənməsi göstərilmişdir.

Göstərə bilərik ki, hazırda muxtar respublika ərazisində 120-dən çox üzüm sortu yetişdirilir ki, onlardan da yüzə yaxını yalnız muxtar respublikanın ərazisində yayılıb. Həm qidalılıq əhəmiyyətinə, həm də iqtisadi səmərəsinə görə üzüm əkilməsi vacib sayılan kənd təsərrüfatı bitkilərindən biridir. Hesablamalar göstərir ki, bir hektar üzüm sahəsi dənli bitkilərdən 3,9, pambıqdan 2,7, tərəvəz bitkilərindən 1,5, bostan bitkilərindən 7,5, meyvə bağlarından isə 2,6 dəfə artıq gəlir gətirir. Bu mənada deyə bilərik ki, muxtar respublikada ənənəvi istehsal sahəsi olaraq üzümçülüyün inkişaf etdirilməsi, əvvəllər mövcud olan üzüm bağlarının bərpa edilməsi, yenilərinin salınmasına diqqətlə yanaşılır. Bu isə təbii ki, əkin sahələrinin, üzüm istehsalının və məhsuldarlığın artırılması sahəsində böyük işlərin görülməsini ifadə etməkdədir.

Naxçıvan Muxtar Respublikasında üzümçülüyün inkişafı sahəsində işlər qətiyyətlə davam etdirilməkdədir. Bu sahədə Babək rayonunun Nehrəm qəsəbəsində yaradılan üzümçülük

təsərrüfatını qeyd edə bilərik. Qeyd edək ki, bu qəsəbədə üzümçülük təsərrüfatının yaradılmasına 2015-ci ildə başlanılıb. Ərazidə yerli sortlarla yanaşı, İtaliya, Fransa, Türkiyə və Özbəkistan mənşəli 10 məhsuldar üzüm sortu əkilib. Burada 150 hektarlıq ərazidə ümumilikdə 326 mindən artıq üzüm tingi əkilib, ərazinin torpaq-iqlim şəraiti nəzərə alınmaqla lazımi aqrotexniki tədbirlər həyata keçirilib. İstehsal prosesində innovativ texnologiyaların tətbiqinə də yer verilməkdədir. Ölkənin məşğulluq siyasətinin də səmərəliliyinin yüksəlməsinə təsir edən bu amil nətcəsində Nehrəm Üzümçülük Təsərrüfatında 140 kənd sakini işlə təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin bu sahəyə göstərdiyi qayğı və diqqətin, eləcə də müvafiq istiqamətdə yaradıcı ideya və təşəbbüslərin dəstəkləməsinin ən gerçək nəticəsidir ki, artıq Nehrəm “Sumqala” üzümçülük təsərrüfatının 250 hektar sahənin ibarət olmasını qeyd edə bilərik. Digər tərəfdən, hazırda 200-dən artıq insanın bu sahədə məşğulluğu təmin olunmuşdur. Hazırda burada 14-ü xarici, 10-u yerli olmaqla, 24 üzüm sortu yetişdirilməkdədir. Artıq üzüm sahəsinin 35 faizə yaxınından, daha doğrusu, 80 hektar sahədən məhsul götürülmüşdür. Burada bir diqqəti çəkən məqam da odur ki, götürülən məhsul daxili tələbatı ödəməklə yanaşı, ölkəmizin paytaxtı Bakı şəhərinə, eyni zamanda, Rusiya və Ukrayna bazarlarına da ixrac olunmaqdadır. Təbii ki, bu, ölkənin makroiqtisadi hədəf və prioritetlərinin reallaşmasında onun ayrılmaz tərkib hissəsi olaraq muxtar respublikanın mövqeyinin daha da güclənməsinin çox mühüm təsdiqidir. Həmçinin bu, regional inkişaf proqramlarının səmərəli icrasının gerçək sübutudur, əyani nəticəsidir.

Üzümün əvvəlki şöhrətinin özünə qaytarılması sahəsindəki makroiqtsadi səmərəliliyin məhsuldarlığa söykənən davamlılığı olaraq, sonrakı vaxtlarda burada mövcud

sahənin əhatəsini genişləndirmək məqsədilə yeni 60 hektar üzüm bağının salınması və su xəttinin çəkilişi üçün tədbirlər həyata keçirilmişdir. Əlbəttə ki, bütün bunlar muxtar respublikada iqtisadiyyatın müqavimətinin artırılmasında və təminatqabiliyyətliliyinin daha da gücləndirilməsində əhəmiyyətli göstəricidir. Nehrəm üzümçülük təsərrüfatında məhsulun becərilməsi prosesləri müasir avadanlıqlarla təmin olunmuşdur.

Bu tədbirlərin məntiqi, sosial-iqtisadi və məhsuldar davamı kimi, xüsusən də, aqrar sektorda güclü xammal bazası formalaşdırmaq üçün "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramının müstəsna əhəmiyyətini qeyd etmək yerinə düşər. Həmin çox zəruri hüquqi tənzimləmə aktında da bu strateji məhsulun istehsalı prioritet olaraq seçilmişdir. Bəhs olunan tarixi sənəddə 2016-2020-ci illərdə muxtar respublikada üzümçülüyün inkişafı istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Sözügedən Dövlət Proqramının bəndləri ilə tanış olarkən aydın olur ki:

-muxtar respublikada üzümçülüyün inkişaf etdirilməsi və istehsalının artırılması, üzüm bağlarının salınmasının dəstəklənməsi (16-cı bənd);

-meyvə-tərəvəz və üzümçülük sahələri üzrə kadr potensialının artırılması və ixtisaslı gənclərin tədqiqata cəlb edilməsi (19-cu bənd);

-meyvə-tərəvəz, o cümlədən, üzümçülük sahələrinə investisiyaların cəlb edilməsindən (27-ci bənd) ibarət məqsədyönlü tədbirlərin icrası qarşıda əsas vəzifə kimi müəyyənləşdirilmişdir.

Qeyd edək ki, bu təsərrüfatın ərazisində 20 hektar sahədə alma tingləri də əkilmişdir. Bu isə meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramının icrası sahəsindəki səmərəliliyin ən gerçək ifadəsidir. Əvvəlki

bölmələrdə qeyd etdiyimiz kimi meyvəçiliyin inkişafı ilə bağlı müvafiq Dövlət Proqramında bu sahədə məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəzərdə tutulan nəticələrin əldə olunmasını asanlaşdırmışdır. Dövlət proqramının müxtəlif bəndlərində 2016-2020-ci illər ərzində Naxçıvançay, Əlincəçay, Gilançay çayları boyunca alma bağlarının (cəviz və armudla birgə) salınmasının davam etdirilməsi nəzərdə tutulmuşdur. Həmçinin, bəhs olunan müddət ərzində muxtar respublikanın dağlıq və dağətəyi zonasında da alma bağlarının (alça, cəviz, armud, heyva) salınmasının davam etdirilməsi qarşıya qoyulmuşdur.

Artıq muxtar respublikamız aqrar sektorun dinamik inkişafının təmin olunması sahəsində mühüm yol qət etmişdir. İnfrastruktur siyasətinin, texniki təchizatın, təşkilati tədbirlərin səmərəliliyi fonunda kənd təsərrüfatında mütərəqqi ideyaların gerçəkləşdirilməsi öz məhsuldar nəticələrini verməkdədir. Bu, özünü meyvə bağlarının salınmasında və məhsuldarlığın artırılmasında da göstərməkdədir. Qeyd edək ki, təkcə 2018-ci ilin birinci yarısı ərzində muxtar respublikada 709 hektarda yeni meyvə bağları salınmışdır. Ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilən tədbilər nəticəsində həmin dövrlər ərzində muxtar respublikada 4816,5 hektar sahədə meyvə bağları mövcud olmuşdur ki, bunun da 4124,1 hektarı, daha doğrusu, 86 faizi barverən bağlarından ibarətdir.

Kənd təsərrüfatında məqsədyönlü tədbirlərin həyata keçirilməsi, istehsal prosesinin həm fasiləsizliyinin, həm də əhalinin artan tələbatlarına uyğunluğunun təmin olunmasındakı rolunun artırılması məsələləri dövlətin ardıcıl siyasətinin tərkib hissələrinə çevrilmişdir. Bu sahə üzrə islahatların davam etdirilməsi, yaradıcı təşəbbüslərin ortaya qoyulması, zəruri infrastruktur tədbirləri və s. kimi amillər kənd təsərrüfatının dinamik inkişafını daha da şaxələndirmişdir. Bu sahədəki tədbirlərin nəticəsində istehsalçıların maliyyə resurslarına çıxış imkanları daha da

asanlaşmış, bu isə milli iqtisadi quruculuq proseslərinə mühüm dayaq olmuşdur. Qeyd edək ki, dövlətin iqtisadi siyasətinin strateji tərkib hissəsi olaraq, maliyyə dəstəyinin göstərilməsi, həmçinin özəl investisiya tədbirləri hesabına hazırda muxtar respublikada kənd təsərrüfatı məhsullarının saxlanılması məqsədilə soyuducu anbarların tikilməsi prosesləri uğurla davam etdirilməkdədir. Belə ki, ötən 2018-ci ilin sonlarına olan məlumatlara əsasən muxtar respublikada ümumi tutumu 14 min 245 ton olan 33 soyuducu anbar yaradılmışdır ki, bu da, kənd təsərrüfatı məhsullarından uzunmüddətli istifadənin təmin olunmasına hesablanmışdır. Təbii ki, bu tədbirlər həm də muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin olunması məqsədini daşımaqdadır. Çox yaxşı haldır ki, artıq bu infrastruktur muxtar respublikanın regionlarına doğru öz əhatəsini genişləndirməkdədir. Belə ki, ötən ildən etibarən bu kimi tədbirlərin səmərəli reallaşdırılması məqsədilə Babək rayonunun Nehrəm qəsəbəsində tutumu 2500 ton olan soyuducu anbarın qurulmasına da başlanılmışdır. Bu, iqtisadiyyatın, o cümlədən də, kənd təsərrüfatının (aqrar sektorun) dövlət tərəfindən tənzimlənməsinin zəruri formasını təşkil etməkdədir.

Müasir iqtisadi şəraitdə:

- iqtisadiyyatın aktual sahələrinin müəyyənləşdirilməsi;
- onların inkişafının sistemliliyinin təmin olunması;
- mövcud və yeni istehsal, həmçinin, fəaliyyət sahələrinin yaradılması, eyni zamanda, onların təsisatlarının daha da gücləndirilməsi sahəsində dinamik tədbirlər həyata keçirilməkdədir. Məhz bu sahədə strateji əhəmiyyətə malik xüsusiyyətləri ilə balıqçılıq təsərrüfatlarının yaradılması və fəaliyyətinin düzgün təşkili özünü göstərməkdədir. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında 15 balıqçılıq təsərrüfatı fəaliyyət göstərməkdədir ki, bu da həmin sahənin inkişafı

istiqamətindəki perspektivləri artırmaqdadır. Dövlətin bu sahə üzrə tənzimləyici tədbirləri, xüsusən də, Kənd Təsərrüfatı Nazirliyinin müvafiq istiqamətdəki əlaqələndiriciliyi səmərəli nəticələrini verməkdədir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasında 2008-2015-ci illər üçün uğurla icra olunan əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramında ölkəmizdə göl balıqçılığının inkişaf etdirilməsi də nəzərdə tutulmuşdur. Eyni adlı Dövlət Proqramı müvafiq illər üzrə Naxçıvan Muxtar Respublikasında da səmərəli icra olunmaqla, 2009-2015-ci illərdə çəkikimilər balıq növünü əmtəə çəkisinədək yetişdirən nohur təsərrüfatlarının təşkili və inkişafını, həmçinin, əmtəə çəkisinədək əlvan qızıl xallı balıqların yetişdirilməsinin təşkili və inkişafını nəzərdə tutmuşdur. Təkcə onu qeyd edə bilərik ki, Kəngərli rayonunun Qarabağlar kəndində fəaliyyət göstərən "Asnı balıqçılıq" təsərrüfatında 31 hovuz yaradılmışdır. Həmin təsərrüfatda əsasən Forel balığı yetişdirilir. Təsərrüfatın hovuzlarında balıqların bəslənilməsi muxtar respublikada daxili bazarın tələbatının ödənilməsi məqsədini daşıyır.

Göründüyü kimi, muxtar respublikada etibarlılığa söykənməklə, kənd təsərrüfatının, aqrar sektorun güclü dayaqları qərarlaşmışdır. Bunlar yüksək keyfiyyət göstəriciləri əsasında iqtisadiyyatın sosiallaşmasını, rifah göstəricilərinin artan dinamikasını və bir çox üstünlüklər fonunda milli iqtisadi inkişafın perspektivlərini daha da sürətləndirməkdədir.

2018-ci ilin sosial-iqtisadi proseslərini artan dinamika və etibarlı potensialla geridə qoyan Naxçıvan Muxtar Respublikasında qarşıdakı illər üzrə güclü perspektivlər yaranmışdır. Bunun məntiqi nəticəsi olaraq həmin ilin dekabr ayının 27-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında muxtar respublika Ali Məclisinin Sədri tərəfindən 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları" ili olaraq elan olunmuşdur. Bu, qarşıdakı dövrlərdə:

- aqrar sahədə məşğulluq probleminin həllində keyfiyyətcə yeni mərhələnin əsaslarını daha da möhkəmləndirəcək;
- kənd yerlərində məskunlaşmanın stimullaşdırılmasında daha çevik mexanizmlərin işləkliyini təmin edəcək;
- kiçik və orta sahibkarlıq təşəbbüslərinin məhsuldarlığını daha da artıracaq;
- kəndlərin iqtisadi inkişafının makroiqtisadi göstəricilərə hərəkətverici təsirini daha da gücləndirəcək;
- istehsalla istehlak arasındakı proseslərin fasiləsizliyini və əlçatanlığını təmin edəcək;
- daxili bazarın yerli məhsullarla təminatını etibarlı edəcək;
- kənd təsərrüfatı məhsullarının ixrac potensialını daha da artıracaq və s.

Bunlarla yanaşı, “Ailə təsərrüfatları” ili muxtar respublikada eyni zamanda, sahibkarlıq fəaliyyətinin səmərəliliyə və məhsuldarlığa söykənən nəticələrinin ifadəsinə çevriləcək. Təbii ki, aqrar sektorun bu istiqamət üzrə dinamik inkişaf xüsusiyyətlərini araşdırarkən aydın olur ki, mövcud potensial muxtar respublikada təsərrüfatçılıq şəbəkəsinin səmərəli təşkilini sürətləndirəcəkdir.

Yuxarıda sadalanan amillər muxtar respublikada heyvandarlığın və əkinçiliyin inkişafı ilə kənd təsərrüfatının, torpaqla bağlı münasibətlərin tənzimlənməsi və səmərəliliyinin artırılması ilə isə aqrar sektorun uzunmüddətli perspektivlərini daha da artıracaq. Bu isə heç şübhəsiz, məskunlaşmanın və məşğulluğun təmin olunması fonunda sosial məmnunluğun güclü dayaqlarını formalaşdıracaq. Əlbəttə, bu, dövlətin həmçinin, aqrar sənaye birlikləri prizması baxımından da çox əhəmiyyətlidir. Qeyd edək ki, inkişaf etmiş qərb ölkələrində iqtisadiyyatın mühüm sahələrindən biri kimi kənd təsərrüfatı dövlət tərəfindən dolğun əhatə olunur. Fasiləsiz istehsalın bu

sahəsində azad, sərbəst bazarın formalaşmasının əsas prinsipi (tələblə təklif arasındakı nisbət) dövlət tərəfindən tənzimlənmə ilə müşayiət olunur.

Aqrar sferanın dövlət tənzimlənməsi məsələləri iqtisadiyyatın sosialyönümlülük əsasında tənzimlənməsinə hesablanmış tədbirlərin məcmusudur. Təbii ki, yuxarıdakı amillərin təsiri ilə həmin sektor daha yekdil əsaslarla müasir iqtisadi şəraitin dayaqlarını möhkəmlədəcək.

## 6.2. 2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı

Artıq bu bir həqiqətdir ki, regional Dövlət Proqramları Naxçıvan Muxtar Respublikasında dayanıqlı iqtisadiyyatın formalaşmasında və inkişafında böyük strateji əhəmiyyətə malik olmuşdur. İqtisadiyyatın mühüm və aparıcı sahəsini təşkil edən kənd təsərrüfatı cəmiyyətin artan zəruri təlabatlarının ödənilməsində strateji əhəmiyyət daşıdığı üçün burada ardıcıl tədbirlərin və islahatların da həyata keçirilməsi zəruri məsələ kimi çıxış etməkdədir. Bu isə təbii ki, iqtisadi və hüquqi sahələrdəki tənzimləyici mexanizmlər vasitəsilə həyata keçirilməkdədir. Ötən dövrlərdə, daha doğrusu, Dövlət Proqramlarının icrası müddətində muxtar respublika iqtisadiyyatının aqrar sferası:

- birinci mərhələdə infrastruktur təşkilatlanmasının həyata keçirilməsi, onun şəhər və rayonların, həmçinin ucqar kəndlərin hər birini əhatə etməsi ilə;
- ikinci mərhələdə həmin infrastruktur potensialından istehsal, sosial və bazar şaxələndirilməsində səmərəli istifadə olunması ilə;
- üçüncü mərhələdə isə artıq milli iqtisadi quruculuq proseslərində daha çevik mexanizmlərlə iştirak etməsi, yüksək məşğulluq göstəricilərinə malik olması, dinamik inkişaf edən

potensial formalaşdırması ilə daha mütərəqqi nəticələr ortaya qoymaqla təşəkkül tapdı.

İqtisadi siyasətin səmərəli təşkili və idarə olunması kənd təsərrüfatının (aqrar sektorun) mövcud potensialının daha da artırılmasını və uzunmüddətli perspektivlərə stimul verməsini təmin etmişdir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının təsdiq olunması bu amillərin ölkənin, onun regionlarının, o cümlədən, Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın sahələri üzrə səmərəliliyini artırdı. Bunu hər üç mərhələdə kənd təsərrüfatı sahəsində məhsuldarlığın artan dinamikası da sübut etməkdədir. Fikrimizcə, birinci Dövlət Proqramının icrası ərzində muxtar respublikada kənd təsərrüfatı bitkilərinin əkin sahəsi üzrə məlumatlar da ifadə etməkdədir.

*Cədvəl 6.2.1*

**2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı bitkilərinin əkin sahəsi haqqında məlumat (hektar)**

| İllər | Dənli və dənli paxlalılar (qarğıdalı da daxil olmaqla) | Tərəvəz | Yem bitkiləri |
|---|---|---|---|
| 2004 | 24184,0 | 5682 | 9818 |
| 2008 | 35913,7 | 5889 | 11144 |
| 2009 | 36352,0 | 6000,5 | 9864,6 |
| 2013 | 38399,0 | 6116 | 9652 |
| 2014 | 38908,7 | 6125 | 9825,3 |
| 2018 | 35797,0 | 6183 | 13635,5 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl məlumatları da göstərir ki, hər üç Dövlət Proqramının səmərəli icrası dövründə kənd təsərrüfatı birkilərinin əkin sahəsinə görə göstəricilərdə artım mövcuddur.

Hesablama aparanda aydın olur ki, 2004-2018-ci ilərdə dənli və dənli paxlalıların (qarğıdalı da daxil olmaqla) əkin sahəsi 11613 hektar artmışdır. Bu:

Tərəvəzin əkin sahəsi üzrə 501 hektar;

Yem bitkilərinin əkin sahəsi üzrə isə 3817,5 hektar təşkil etmişdir.

***Şəkil 6.2.1***

**2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı bitkilərinin əkin sahəsinin artması haqqında məlumat (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi, Dövlət Proqramlarının üçünün də icrası müddətində dənli və dənli paxlalıların (qarğıdalı da daxil olmaqla) əkin sahəsi 1,5 dəfə, tərəvəz əkin sahəsi 1,1 dəfə, yem bitkilərinin əkin sahəsi isə 1,4 dəfə artmışdır.

Qətiyyətli icra mexanizmlərinin işləkliyi aqrar sektorun keyfiyyət göstəricilərinin artan miqyaslılığını da təmin etmişdir. Sağlam iqtisadi şərait və onun səmərəli sosiallaşma perspektivləri muxtar respublikada Dövlət Proqramının icrası dövründə özünü göstərmişdir. Müvafiq məhsullar üzrə istehsal göstəriciləri aşağıdakı cədvəlin məlumatlarında da təqdim olunur.

*Cədvəl 6.2.2*

**2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı bitkilərinin istehsal həcmi (ton)**

| İllər | Dənli və dənli paxlalılar (qarğıdalı da daxil olmaqla) | Tərəvəz | Yem bitkiləri |
|---|---|---|---|
| 2004 | 92864 | 55184 | 58248 |
| 2008 | 90145 | 60825 | 88644,5 |
| 2009 | 103625,4 | 63626,6 | 84233,8 |
| 2013 | 113350,9 | 66497 | 113220 |
| 2014 | 113849,5 | 66731,4 | 115708,8 |
| 2018 | 114936,5 | 85642 | 134042,2 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Kənd təsərrüfatında dövlətin tənzimləyici siyasətinin həyata keçirilməsi, onun bütün şəhər və rayonların, həmçinin kəndlərin timsalında təşəkkülü məhsul istehsalının artımında da özünü göstərməkdədir. Hesablamalar göstərir ki, 2004-2018-ci illərdə dənli və dənli paxlalıların (qarğıdalı da daxil olmaqla) istehsalında 1,2 dəfə artım olmuşdur. Bu, tərəvəz istehsalında 1,6 dəfə, yem bitkilərində isə 2,3 dəfədən çox artmışdır.

*Şəkil 6.2.2*

**2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı bitkilərinin istehsal həcminin artım dinamikası (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Qeyd edək ki, 2018-ci ilin sonuna dənli və dənli paxlalıların (qarğıdalı da daxil olmaqla) istehsalı üzrə məhsuldarlıq 1 hektardan 32,1 sentner təşkil edir. Bu, müvafiq olaraq:

Tərəvəz istehsalı üzrə 138,5;

Yem bitkilərində isə 98,3 sentnerdir.

*Şəkil 6.2.3*

**2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı haqqında məlumat (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikası ölkənin milli iqtisadi quruculuq proseslərində çevik və yüksək artım göstəricilərinə malik templə iştirak etməkdədir. Və bütün bunlar muxtar respublika iqtisadiyyatında aqrar sektorun tənzimlənməsi məsələlərinə aktuallıq gətirməkdədir. Təsdiq olunan Dövlət Proqramları özündə əhalinin artan tələbatlarına, ərazinin istehsal xüsusiyyətlərinə, təsərrüfatçılıq formalarının səmərəli təşkilinə cavab verəcək səviyyədə tədbirləri əks etdirməkdədir. Nəticədə isə kənd təsərrüfatı bitkiləri ilə yanaşı, eyni zamanda, meyvəçiliyin inkişafı üçün zəmin yaranmış, bu isə bol-bərəkətli məhsul istehsalının stimullaşdırılmasına təkan olmuşdur. Bunu meyvə və giləmeyvənin əkin sahəsi, ümumi yığım və məhsuldarlıq göstəriciləri də ifadə etməkdədir.

***Cədvəl 6.2.3***

**2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvə və giləmeyvənin əkin sahəsi, ümumi yığım göstəriciləri haqqında məlumat**

| İllər | Əkinlərin sahəsi (ha) | Onlardan bar verən yaşda (ha) | Bar verən yaşda əkin sahəsi əkinlərin sahəsinə nisbətən | | Ümumi yığım, (ton) |
|---|---|---|---|---|---|
| | | | ha | faiz | |
| 2004 | 2241 | 1951,8 | 289,2 | 87,1 | 16633 |
| 2005 | 2746 | 2424 | 322 | 88,3 | 36432 |
| 2006 | 2888 | 2473,6 | 414,4 | 85,7 | 36957 |
| 2007 | 2891 | 2626,4 | 264,6 | 90,8 | 37092 |
| 2008 | 3573 | 2693,8 | 879,2 | 75,4 | 37517 |
| 2009 | 3727,3 | 2868,6 | 858,7 | 77 | 37781,6 |
| 2010 | 3956,2 | 2899,6 | 1056,6 | 73,3 | 38228,4 |
| 2011 | 4107,2 | 3026,9 | 1080,3 | 73,7 | 40309 |
| 2012 | 4235 | 3143,4 | 1091,6 | 74,2 | 41995,8 |
| 2013 | 4327,6 | 3195,7 | 1131,9 | 73,8 | 43276,2 |
| 2014 | 4382 | 3558,9 | 823,1 | 81,2 | 36196 |
| 2015 | 4653,5 | 4013,4 | 640,1 | 86,2 | 51110,5 |
| 2016 | 4735,9 | 4062,1 | 673,8 | 85,8 | 51979,8 |
| 2017 | 4816,5 | 4124,1 | 692,4 | 85,6 | 53069,4 |
| 2018 | 5000,3 | 4170,5 | 829,8 | 83,4 | 55949 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Əvvəlki bölmələrdə qeyd etdiyimiz kimi meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı da uzaqgörənliklə təsdiq olunub, uğurlarla icra olundu. Bu isə, özünü müvafiq istiqamət üzrə regional Dövlət Proqramlarının üç mərhələdəki nəticələrində də göstərməkdədir.

Eyni zamanda, cədvəl məlumatlarından Dövlət Proqramlarının icrası müddətində Naxçıvan Muxtar Respublikasında meyvə və giləmeyvənin istehsalında artım dinamikası da görünməkdədir. Bu, aşağıdakı şəklin məlumatlarında da olduğu kimidir:

***Şəkil 6.2.4***

**Dövlət Proqramlarının icrası dövrlərində Naxçıvan Muxtar Respublikasında ümumi yığılmış olan meyvə və gilə meyvənin həmci (ton)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Apardığımız hesablamalar göstərir ki, 2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvə və giləmeyvənin əkin sahəsi 2759,3 hektar atıq olmuşdur. Bu, bar verən yaşda 2218,7 hektar artıq olmaqla, təşəkkül tapmışdır. Ümumi yığım üzrə isə həmin müddətdə artım 3,4 dəfədən çox təşkil etmişdir. Qeyd edək ki, istinad olunan illərdə bu sahə üzrə məhsuldarlıq 1 hektardan 85,2-134,2 sentner olaraq təşkil etmişdir.

***Şəkil 6.2.5***

**2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvə və giləmeyvənin məhsuldarlığı (sent/ha)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi, 2004-2018-ci illərdə meyvə və giləmeyvənin məhsuldarlığı 1,6 dəfə artmışdır.

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı sahəsindəki tədbirlərin səmərəliliyinin və milli iqtisadiyyatın mezoiqtisadi əhəmiyyətliliyinin artırılması, həmçinin prioritet kimi müəyyən olunan sənayeləşmə proseslərinin davamlılığının təmin olunması sahəsində üzümçülüyün də mühüm əhəmiyyəti vardır. Digər tərəfdən, bu, xammal-emal-istehsal həlqəsinin qırılmazlığının təmin olunmasında strateji mahiyyəti ilə seçilməkdədir. Təbii ki, bütün bunlar ölkənin makroiqtisadi gücünün artırılmasında müstəsna rolu olan Naxçıvan Muxtar Respublikasının müasir sosial-iqtisadi inkişaf göstəricilərinin çox mühüm ifadəsini təşkil etməkdədir. Aşağıdakı cədvəldə muxtar respublikada regional inkişaf üzrə Dövlət Proqramlarının səmərəli icrası ərzində üzümçülüyün inkişafı sahəsində həyata keçirilən məqsədyönlü tədbirlərin nəticələrindən ibarət artım göstəriciləri əksini tapmışdır.

***Cədvəl 6.2.4***

## 2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında üzümün əkin sahəsi, ümumi yığım göstəriciləri haqqında məlumat

| İllər | Əkinlərin sahəsi (ha) | Onlardan bar verən yaşda (ha) | Bar verən yaşda əkin sahəsi əkinlərin sahəsinə nisbətən | | Ümumi yığım, (ton) |
|---|---|---|---|---|---|
| | | | ha | faiz | |
| 2004 | 907,3 | 887,6 | 19,7 | 97,8 | 6986 |
| 2005 | 923,0 | 904 | 19 | 98 | 13461 |
| 2006 | 966,7 | 925,1 | 41,6 | 95,7 | 13630 |
| 2007 | 968,7 | 937,1 | 31,6 | 96,7 | 13678 |
| 2008 | 994,4 | 965,6 | 28,8 | 97,1 | 13754 |
| 2009 | 998,9 | 970,4 | 28,5 | 97,1 | 13790,3 |
| 2010 | 1030,9 | 971,6 | 59,3 | 94,2 | 13912,3 |
| 2011 | 1053 | 995,3 | 57,7 | 94,5 | 14313,4 |
| 2012 | 1089,7 | 1023 | 66,7 | 93,9 | 14724,2 |
| 2013 | 1120,1 | 1043,1 | 77 | 93,1 | 15112,7 |
| 2014 | 1133,1 | 1072,1 | 61 | 94,6 | 14395 |
| 2015 | 1155,9 | 1093,7 | 62,2 | 94,6 | 15354,3 |
| 2016 | 1268,9 | 1109 | 159,9 | 87,4 | 15301,4 |
| 2017 | 1363,4 | 1131,1 | 232,3 | 83 | 15906,3 |
| 2018 | 1401,6 | 1151,1 | 250,5 | 82,1 | 16222,5 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl məlumatlarının təhlili muxtar respublikada üzümçülüyün inkişafı sahəsindəki artım dinamikasını göstərir. Təhlillər göstərir ki, 2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında üzümün əkin sahəsi 494,3 hektar atıq olmuşdur. Bu, bar verən yaşda 263,5 hektar artıq olmuşdur.

2004-cü ildən başlayan səmərəli icra mexanizmləri Dövlət Proqramlarının regionların istehsal perspektivlərini daha da artırmış və bu muxtar respublikanın sosial-iqtisadi inkişafında özünü göstərmişdir. Bu baxımdan, 2004-2008,

2009-2013 və 2014-2018-ci illərdə muxtar respublikada üzüm istehsalının əsas göstəricilərini aşağıdakı şəklin məlumatlarında görə bilərik:

*Şəkil 6.2.6*

**Dövlət Proqramlarının icrası dövrlərində Naxçıvan Muxtar Respublikasında ümumi yığılmış olan üzümün həmci (ton)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Diqqət edəndə aydın olur ki, 2018-ci ildə ümumi yığım üzrə olan göstəricilər 2004-cü il üzrə olan müvafiq göstəricidən 2,3 dəfədən çox təşkil etmişdir. Qeyd edək ki, 2014-2018-ci illərin statistik göstəricilərinə əsasən bu sahə üzrə məhsuldarlıq müvafiq olaraq, 1 hektardan 78,7-140,9 sentner olaraq təşkil etmişdir.

*Şəkil 6.2.7*

**2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında üzümün məhsuldarlığı (sent/ha)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Şəklin məlumatlarından aydın olur ki, 2004-2018-ci illərdə meyvə və giləmeyvənin məhsuldarlığı 1,8 dəfədən çox artmışdır.

Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın mühüm göstəricilərindən biri də tütünçülükdür. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 10 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017–2021-ci illər üçün Dövlət Proqramı" tütünçülüyün inkişafı sahəsində yeni perspektivlər açmışdır. Milli iqtisadiyyatın regional mahiyyətinin artırılmasının ifadəsi olaraq muxtar respublikada tütünçülük inkişaf etdirilməkdədir. 2017-ci ildə Kəngərli rayonunda "Cahan Tabak" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yeni Tütün Yetişdirmə Təsərrüfatı yaradılıb. Burada 2,5 hektar ərazini əhatə edən Tütün Yetişdirmə Təsərrüfatında şitil yetişdirmək üçün 2304 kvadratmetr sahəsi olan 5 istixana, yeraltı su anbarı,

1350 kvadratmetr sahədə tütün qurutma yeri və 420 kvadratmetr sahəsi olan 2 anbar yaradılmışdır. Elə 2017-ci ildə ilkin olaraq 9 hektar sahədə tütün əkini aparılmış və 11,1 ton qurudulmuş tütün tədarük olunmuşdur. Qeyd edək ki, burada 60 nəfərin məşğulluğu da təmin olunmuşdur.

Həyata keçirilən tədbirlər nəticəsində 2018-ci ildə Kəngərli rayonunun Böyükdüz, Xıncab, Çalxanqala, Qarabağlar və Xok kəndlərində "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqı və fermerlər tərəfindən ümumilikdə, 41,5 hektar sahədə tütün əkilmişdir. Həmin sahələrdə də "Virciniya" və "Oriental" tütün sortları becərilir. Qeyd edək ki, artıq 2018-ci ilin iyul ayından etibarən sahələrdən 144 tona yaxın məhsul götürülüb.

Ölkənin iqtisadi prioritetlərinin reallaşmasına xidmət edən Naxçıvan Muxtar Respublikasında tütünçülük təsərrüfatlarından yığılan məhsullar Kəngərli rayonundakı Tütün Yetişdirmə Təsərrüfatına gətirilir və burada qurudulma proseslərinə qəbul olunur. Daha sonra mərkəzdə 3 üsulla-filələmə, xüsusi parça olan elyaf və ipədüzmə üsulu ilə qurutma həyata keçirilir.

Təbii ki, bu proseslər muxtar respublikada milli iqtisadiyyatın perspektivləri çərçivəsində ixrac imkanlarını da artırcaq. İstər ölkədaxili, istərsə də ölkəxarici bazarlarda tələbatın çox olması bu sahədəki perspektivləri də artırır. Belə ki, qurudulan tütün Naxçıvan şəhərində fəaliyyət göstərən "Cahan Tobacco" fabrikinə göndərilməklə, burada "Cahan", "Visore", "Nova" "Fine"və sair markalı filtrli siqaretlər istehsal olunur. Xarici iqtisadi münasibətlərin gerçək ifadəsi kimi bu potensial mühüm əhəmiyyətə malikdir. Qeyd edək ki, istehsal olunan məhsulların 10 faizi daxili tələbatı ödəyir, qalan 90 faizi isə 8 xarici ölkəyə ixrac olunur. Adları çəkilən məhsulların istehsalı üçün istifadə olunan xammal və materiallar isə əsasən İngiltərədən, Avstriyadan, Belçikadan, Hindistandan, İndoneziyadan və digər ölkələrdən alınıb

gətirilir. Təbii ki, əsas hədəf isə daxili bazarın tam şəkildə yerli xammalla təmin olunmasından ibarətdir.

Məhz regional inkişaf üzrə Dövlət Proqramlarının icrası ərzində muxtar respublikada bütün sahələrlə yanaşı tütünçülüyün inkişafı istiqamətində də zəruri işlər həyata keçirilmişdir. Fikrimizi statistik məlumatlar əsasında ifadə etsək, aydın olar ki, təkcə 2009-2018-ci illərdə muxtar respublikada tütün əkin sahəsi və istehsalı üzrə göstəricilərdə artım qeydə alınmışdır. Bu, aşağıdakı şəklin məlumatlarında da özünü göstərir.

*Şəkil 6.2.8*

**2009-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında tütünçülüyün əkin sahəsi və istehsal həcmi haqqında məlumat (ha/ton)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Buradan görünür ki, 2009-2018-ci illərdə tütün əkin sahəsi 33,5 hektar, istehsal həcmi isə 1,7 dəfə artmışdır.

Təbii ki, Naxçıvan Muxtar Respublikasında makroiqtisadi hədəflərin reallaşması fonunda ərzaq təhlükəsizliyinin, sosiallaşma proseslərinin və regional inkişafın təmin olunması məsələləri çox mühüm göstəricilər olaraq çıxış etməkdədir. Bu mənada, təkcə kənd təsərrüfatının deyil, həm də cəmiyyət üzvlərinin strateji qida məhsulu olaraq çıxış edən məhsulardan biri kimi kartofçuluğun önəmini qeyd edə bilərik. Regional inkişaf proqramlarının icrası dövründə kartofçuluğun inkişafı məqsədilə dövlət tərəfindən ardıcıl tənzimləmə siyasəti reallaşdırıldı. Məqsədyönlülük əsas tutulmaqla, qətiyyətli hədəflər müəyyənləşdirilməklə, uzunmüddətli perspektivlər nəzərdə tutulmaqla, Dövlət Proqramlarının təsdiq olunduğu ilkin dövrlərdə, daha doğrusu, 11 aprel 2005-ci il tarixdə muxtar respublika Ali Məclisinin Sədri tərəfindən təsdiq olunan və 2005-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafını nəzərdə tutan Dövlət Proqramı bu sahədə keyfiyyətcə yeni mərhələnin əsaslarını yaratmış oldu. İqtisadi təhlükəsizliyin aparıcı qollarından birini təşkil edən kartofçuluq el arasında ikinci çörək hesab olunmaqdadır. Sosial-iqtisadi inkişafın mühüm göstəricisi olan bu məhsul növü hər üç Dövlət Proqramının icrası müddətində dinamik artım tempinə malik olmuşdur.

***Şəkil 6.2.9***

**Regional inkişaf üzrə Dövlət Proqramlarının icrası müddətində Naxçıvan Muxtar Respublikasında kartofun əkin sahəsi haqqında məlumat (hektar)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Buradan da göründüyü kimi, əgər 2004-cü ildə muxtar respublikada 1602 hektar sahədə kartof əkini aparılmışdırsa, bu, 2018-ci ilin sonuna olan məlumatlara görə 1613 hektar çox olmaqla, 3215 hektara çatmış, daha doğrusu, 2 dəfədən çox artmışdır. İstinad olunan illər üzrə, kartof istehsalı sahəsində artırm özünü göstərmişdir. Statistik rəqəmlərin təhlilinə əsasən tərtib etdiyimiz şəklin məlumatları da bunu göstərir.

***Şəkil 6.2.10***

**Regional inkişaf üzrə Dövlət Proqramlarının icrası müddətində Naxçıvan Muxtar Respublikasında kartof istehsalı haqqında məlumat (ton)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

2004-2018-ci illərdə həyata keçirilən səmərəli iqtisadi siyasət özünü kənd təsərrüfatı məhsullarının artım dinamikasında, o cümlədən, kartof istehsalı sahəsində də göstərdi. Nəticə olaraq qeyd edə bilərik ki, 2004-2018-ci illərdə kartof istesalında 3 dəfəyə yaxın artım olmuşdur.

***Şəkil 6.2.11***

**Regional inkişaf üzrə Dövlət Proqramlarının icrası müddətində Naxçıvan Muxtar Respublikasında kartofun məhsuldarlığı haqqında məlumat (sent/ha)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Milli iqtisadi inkişafın təmin olunmasında, iqtisadiyyatın təminat qabiliyyətliliyinin artırılmasında mühüm amil olan kartofçuluğun inkişafı istinad olunan illər üzrə məhsuldarlıq göstəricisi ilə ifadə olunmuşdur. Belə ki, 2004-2018-ci illərdə muxtar respublikada kartofun məhsuldarlığı 1,5 dəfə artmışdır.

Müasir iqtisadi inkişaf dövründə aktuallığını artıran mühüm məşğulluq sferalarından birini də arıçılıq təşkil etməkdədir. 18 noyabr 2016-cı il tarixdə Naxçıvan Muxtar Resublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan Sərəncamla “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı” təsdiq olunmuşdur. Sosial-iqtisadi inkişafın təmin olunması sahəsində mühüm göstərici olan arıçılıq artıq muxtar respublikanın makroiqtisadi potensialında mühüm yerə malikdir. Eyni zamanda, bu fəaliyyət növünün dəstəklənməsi dövlətin səmərəli iqtisadi siyasətinin gerçək təsdiqdir. Qəbul olunan Dövlət Proqramının məqsəd və vəzifələrində də məhz kənd əhalisinin məşğulluğunun artırılması əsas hədəflərdən biri kimi götürülmüşdür. Təhlillər göstərir ki, əgər 2000-ci ildə muxtar respublikada 12620 arı ailəsi var idisə, artıq 2018-ci

ilin sonuna bu rəqəm 72350 olmuşdur. Daha doğrusu, 59730 arı ailəsi və ya 5,7 dəfədən çox artmışdır. Hazırda muxtar respublikada mövcud bitki örtüyü burada arı ailələrinin saxlanılması üçün imkan verir. Qeyd edək ki, Tənənəm, Havuş, Tivi, Buzqov, Şurud, Kükü və digər kəndlərin adı ilə məhşurlaşan Naxçıvan balı öz dadı, qoxusu, görünüşü, həmçinin bir sıra keyfiyyət göstəricilərinə görə Azərbaycanda, eyni zamanda, qonşu ölkələrdə yüksək qiymətləndirilir. Keçən müddət ərzində muxtar respublikada Arıçılar İctimai Birliyi də yaradılmış və onun fəaliyyəti təmin olunmuşdur.

***Şəkil 6.2.12***

**2000-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında arı ailələrinin sayı haqqında məlumat (ailə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının icra olunduğu müddətlər də əhatə olunmaqla, muxtar respublikada arı ailələrinin sayı dinamik artım tempinə sadiq qalmışdır. Ölkənin səmərəli regional

siyasətinin hərəkətverici qüvvəsinə çevrilən muxtar respublikada arıçılığın inkişafı onun bütün şəhər və rayonlarında təmin olunmuşdur. Aşağıdakı cədvəlin məlumatlarından da aydın olur ki, arıçılıq muxtar respublikada bir-birini əvəz edən illərin aktuallığını qoruyan və artıran fəaliyyət növünə çevrilmişdir. Çox əlamətdar haldır ki, 19 mart 2004-cü il tarixli Azərbaycan Respublikasının Qanunu ilə yaradılan Kəngərli rayonu da 2005-ci ildən etibarən muxtar respublikanın davamlı sosial-iqtisadi inkişafına öz töhfələrini verməkdədir. Elə 2005-ci ildən arı ailələrinin saxlanılmasında bu rayonun da artan dinamikaya malik göstəriciləri vardır.

*Cədvəl 6.2.5*

**Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında arı ailələri haqqında məlumat (ailə)**

| Şəhər və rayonlar / illər | 2000 | 2005 | 2008 | 2009 | 2013 | 2014 | 2018 |
|---|---|---|---|---|---|---|---|
| Naxçıvan şəhəri | 70 | 100 | 266 | 415 | 1950 | 1974 | 2134 |
| Şərur rayonu | 777 | 2795 | 3750 | 4409 | 8858 | 8952 | 9178 |
| Babək rayonu | 971 | 1904 | 2976 | 3717 | 9480 | 9598 | 10540 |
| Ordubad rayonu | 3431 | 4850 | 5994 | 7063 | 13240 | 13374 | 13745 |
| Culfa rayonu | 3154 | 4601 | 5852 | 6990 | 13350 | 13482 | 13897 |
| Kəngərli rayonu | - | 485 | 614 | 772 | 1560 | 1576 | 1642 |
| Şahbuz rayonu | 4127 | 7223 | 9210 | 10989 | 19650 | 19852 | 20547 |
| Sədərək rayonu | 90 | 105 | 198 | 277 | 617 | 624 | 667 |

**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl məlumatlarının təhlili göstərir ki, 2000-2018 -ci illərdə Naxçıvan şəhərində arı ailələrinin sayı 2064 ailə artmışdır. Bu, müvafiq olaraq:

Şərur rayonunda 8401 ailə;

Babək rayonunda 9569 ailə;

Ordubad rayonunda 10314 ailə;

Culfa rayonunda 10743 ailə;
Şahbuz rayonunda 16420 ailə;
Sədərək rayonunda isə 577 ailə artmışdır.

Qeyd edək ki, Kəngərli rayonunda isə 2005-2018-ci illərdə bu artım 1157 ailə olmuşdur.

Naxçıvan Muxtar Respublikasında iqtisadi islahatların davam etdirilməsi məhsuldar nəticələrini kənd təsərrüfatının da dinamik inkişafında göstərməklə, onun çoxistiqamətliliyinin təmin olunmasına stimul verməkdədir. Yeni təsərrüfatçılıq şəraitində fəaliyyətin düzgün qurulması məhsuldar aqrar siyasətin müəyyənləşdirilməsində çox mühüm vasitəyə çevrilmişdir. Bu isə, özünü aqrar sektorda məşğulluq siyasətinin səmərəli təşkilində, heyvandarlığın inkişafında, mal-qaranın baş sayının artmasında göstərməkdədir.

Kənd təsərrüfatının inkişafı regionların sosial-iqtisadi problemlərinin həllində zəruri amil olaraq təşəkkül tapmaqdadır. Bu isə, öz axarlılığı ilə iqtisadiyyatın sosialyönümlülüyünü daha da artırır. Təbii ki, hər bir dövlətin də sosial-iqtisadi məqsədlərinin ana xəttini bu amil təşkil etməkdədir. Kənd təsərrüfatı iqtisadiyyatın elə bir sahəsidir ki, burada aparıcı istiqamətlər öz inkişafında hərəkətverici fəaliyyəti ifadə olunur. Buna görə də muxtar respublikada iqtisadiyyatın əsas hissəsini, daha doğrusu, onun hərəkətverici qüvvəsi olaraq kənd təsərrüfatı çox böyük əhəmiyyətə malikdir. Aşağıdakı şəkil də muxtar respublikada kənd təsərrüfatının yüksək potensiallıq göstəricilərini ifadə etməkdədir.

***Şəkil 6.2.13***

**2004-2008-ci illərdə mal-qaranın sayı (ilin sonuna, baş)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Sosial-iqtisadi inkişafın davamlılığını və perspektivliyini təmin edən amillərin tərkib hissəsi kimi şəklin məlumatları muxtar respublikada bu sahədəki məqsədyönlü fəaliyyəti ifadə etməkdədir. Hesablamalar göstərir ki, 2004-2008-ci illərdə muxtar respublikada mal-qaranın baş sayında 1,2 dəfəyə yaxın artım olmuşdur.

Həyata keçirilmiş düzgün tənzimləmə siyasəti muxtar respublikada təsərrüfatçılığın şaxələndirilməsini və məhsuldarlığını da artırmışdır. Birinci Dövlət Proqramının icrası ərzində təsərrüfatlarda mal-qaranın tərkibində qoyun və keçilərin baş sayında da artım özünü göstərmişdir. Kəndə, kənd həyatına bağlılığın mühüm ifadəsi olaraq, bu sahədəki proseslər aqrar sektorda məşğulluq probleminin həllindəki üstünlükləri də ifadə edir.

***Şəkil 6.2.14***

**2004-2008-ci illərdə qoyun və keçilərin sayı (ilin sonuna, baş)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Hesablamalar göstərir ki, muxtar respublikada təsərrüfatçılığın bu sahəsində 1,1 dəfədən çox artım olmuşdur. Birinci Dövlət Proqramının icrası ərzində əldə olunan bu göstəricilər ikinci müddət üçün etibarlı davamlılıq gətirmiş, özünü əlverişli təsərrüfatçılıq təsisatlarının yaradılmasında göstərmişdir. Aşağıdakı şəklin məlumatları bunu ifadə etməkdədir.

***Şəkil 6.2.15***

**2009-2013-ci illərdə mal-qaranın sayı (ilin sonuna, baş)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Artıq göründüyü kimi, 2009-2013-cü illər arasında 1,1 dəfə artım olmuşdur. Həmçinin təhlillər göstərir ki, muxtar respublikada əkinçiliyin inkişafında olduğu kimi heyvandarlığın da perspektivliliyinin artırılmasında maraqlı olan, bu işlərdə stimul hiss edən zəhmətkeşlər ordusu, çoxsaylı istifadəçilər və iş adamları var. Eyni ilə bunu təsərrüfatçılığın digər mühüm sahəsi olan qoyun və keçilərin baş sayındakı artmada da görə bilərik.

***Şəkil 6.2.16***

**2009-2013-ci illərdə qoyun və keçilərin sayı (ilin sonuna, baş)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı davamlıdır, perspektivlidir. Bunu muxtar respublikanın kəndlərindəki inkişaf göstəriciləri də ifadə etməkdədir. Məhsul bolluğunun yaradılması, zəruri istehlak mallarının əlçatanlığının təmin olunması və bu sahədəki dinamikanın səmərəliliyini bir daha göstərməkdədir. Məhz yuxarıdakı şəkildə də aqrar sektorun səmərəli iqtisadi fəaliyyət üçün əlverişli şəraitə malik olduğu görünməkdədir. Hesablamalar göstərir ki, 2009-2013-cü illərdə müvafiq göstəricilər üzrə 1,1 dəfə artım olmuşdur.

Naxçıvan Muxtar Respublikası hər mərhələ üzrə mövcud potensialını artırmaqla, qarşıdakı uzunmüddətli dövrlər üçün etibarlı zəmin formalaşdırmaqdadır. Bu isə üçüncü Dövlət Proqramının icrası üçün də sağlam iqtisadi mühit yaratmışdır. Artıq 2014-2018-ci illərdə mövcud sahənin göstəricilərində yenə də artım müşahidə olunmuşdur.

***Şəkil 6.2.17***

**2014-2018-ci illərdə mal-qaranın sayı (ilin sonuna, baş)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bu dinamika qətiyyətli tənzimləyici tədbirlər vasitəsilə müşayiət olunmuşdur. Əldə olunan göstəricilər muxtar respublikada məhsuldar təsərrüfatçılıq şəbəkəsinin güclü dayaqlarını təmin etmişdir. Yuxarıdakı şəklin məlumatları da bunu göstərir. 2014-2018-ci illər üzrə 1,1 dəfədən çox təşkil edən artım həm də üçüncü Dövlət Proqramının icrasındakı səmərəliliyi göstərməkdədir.

Eyni zamanda, bu göstəricilər muxtar respublikanın bütün regionlarında səmərəli tənzimlənməyə, güclü təsərrüfatçılığa və yeni sosiallaşmaya malik iqtisadiyyatın təşəkkülünü ifadə etməkdədir.

***Şəkil 6.2.18***

**2014-2018-ci illərdə qoyun və keçilərin sayı (ilin sonuna, baş)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

2014-2018-ci illərdə dinamik artım olan bu sahədə qarşıdakı dövrlər üçün də münbit zəminlər vardır. Faktlara söykənən bu hesablamalar onu deməyə əsas verir ki, muxtar respublika iqtisadiyyatının bu aparıcı sahəsində əldə olunan nailiyyətlər onu etibarlı məşğulluq sferasına çevirə bilmişdir.

Bütün bunlar əlbəttə ki, təsərrüfatçılıq formalarının inkişafı və əhatəsinin genişləndirilməsində mühüm amildir. Regional iqtisadi siyasətin güclü əsaslarla təşkilində, kəndlərin iqtisadi gücünün artırılmasında və məskunlaşma siyasətinin səmərəliliyinin yüksəldilməsində aqrar sektorun artmaqda olan potensialının böyük əhəmiyyəti vardır.

Təbii ki, bütün bunlar Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf mənzərəsinin ifadəsidir. Yuxarıda aparılan hər bir təhlil və araşdırma kənd təsərrüfatının iqtisadi artımdakı gücünü ortaya qoymaqdadır. Regionların sosial-iqtisadi inkişafina dair Dövlət Proqramlarının icrası müddətində kənd təsərrüfatı (aqrar sektor) bu potensialını daha da artırmış və ölkənin hədəf və prioritetlərinə dolğun cavab

verməkdədir. 2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında keyfiyyətcə yeni mərhələnin əsaslarını təşkil edən bu göstəricilər istehsal olunan kənd təsərrüfatının ümumi məhsulunda öz əksini tapmışdır.

*Şəkil 6.2.19*

**2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının ümumi məhsulu haqqında məlumat (faktiki qiymətlərlə, min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göstərilən illər üzrə kənd təsəsrrüfatının ümumi məhsullarının artım dinamikasına diqqət edərkən aydın olur ki, 2004-2018-ci illərdə bitkiçilik məhsulları 7,1 dəfə artmışdır. Bu, heyvandarlıq məhsulları üzrə bu artım 5 dəfədən artıq təşkil etmişdir. Kənd təsərrüfatının ümumi məhsulunda isə həmin müddətdə 6,2 dəfəlik artım olmuşdur.

## 6.3. Regional inkişaf proqramlarının icrası ərzində muxtar respublikanın şəhər və rayonlarında kənd təsərrüfatının təhlili: davamlı istehsal və iqtisadi artım

Apardığımız təhlillər və hesablamalardan, həmçinin, dolğun elmi əsaslandırmalara malik müşahidələrdən də aydın olur ki, Naxçıvan Muxtar Respublikasında, eləcə də, onun şəhər və rayonlarında çox böyük sosial-iqtisadi potensial vardır və bu, onun iqtisadiyyatının bütün sahələrini əhatə edir. Nəzərə alsaq ki, icra olunan hər üç Dövlət Proqramları ölkənin bütün regionları kimi Naxçıvan Muxtar Respublikasının da davamlı, ardıcıl, sistemli, dinamik və yüksək perspektivlərə malik inkişafını təmin etdi, onda əldə olunan potensialın daha böyük təsirə malik olduğunu qeyd edə bilərik. Bu isə təbii ki, onun şəhər və rayonlarının da istehsal göstəricilərinin artmasında özünü göstərmiş oldu. Açıq şəkildə göründü ki, muxtar respublikanın şəhər və rayonları mühüm sosial-iqtisadi əhəmiyyətə malikdir və bu, eyni zamanda, mezoiqtisadi əhəmiyyətlilik baxımından da olduca hərəkətverici təsir daşımaqdadır. Nəticə etibarı ilə isə muxtar respublikada və onun şəhər və rayonlarında formalaşan bu potensial kənd təsərrüfatının inkişafını hədəfləməkdədir ki, bu da iqtisadiyyatın sənaye əhəmiyyətliliyinin artırılmasında yüksək mahiyyət kəsb edir. Aqrar Sənaye əlaqəliliyinin möhkəmlənməsində və səmərəliliyinin güclənməsində mühüm rol oynayır. Məhz 2004-cü ildən etibarən uğurla icta olunan regional inkişafa dair Dövlət Proqramları bu istiqamətdə də müqavimət və təminat qabiliyyətli iqtisadiyyat quruculuğunda Naxçıvan Muxtar Respublikasında müəyyənləşdirilən hədəflərin qətiyyətlə reallaşmasında güclü təsirə malik oldu.

Ölkədə təsdiq və qəbul olunan Dövlət Proqramlarının muxtar respublikada icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq olunan:

- 9 iyun 2005 -ci il tarixdə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)";
- 28 may 2009-cu il tarixdə "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı";
- 1 sentyabr 2014-cü il tarixdə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və;
- 31 yanvar 2014-cü il tarixdə "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafına dair Proqramı" da özünün mühüm əhəmiyyətliliyə malik olması ilə seçilir.

Qeyd olunmalıdır ki, bütün bu hüquqi tənzimləmələr bir tərəfdən geridə qalan illərin güclü soaial-iqtisadi bazasını təşkil edirdisə, qarşıdakı dövrlər üzrə də davamlı perspektivlər vəd etməkdədir. Burada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 29 mart 2019-cu il tarixdə "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq olunmasını da qeyd edə bilərik.

Təbii ki, ən mühüm və strateji məsələ olaraq, sosial-iqtisadi inkişafın davamlılığı fonunda onun uzunmüddətli perspektivlərə xidmət etməsini təmin etməklə, ərzaq təhlükəsizliyinin təmin olunmasında etibarlılıq özünü göstərdi ki, bu da el arasında ikinci çörək kimi tanınan kartofçuluğun inkişafı ilə müşayiət olundu. Statistik məlumatlar əsasında üçüncü Dövlət Proqramının icrasının son ilində - 2018-ci ildə muxtar respublikanın şəhər və rayonlarında kartofun istehsal həcminə diqqət edək. Aşağıdakı şəkildə qeyd olunan məlumatlar öz əksini tapmışdır:

***Cədvəl 6.3.1***

**2018-ci ildə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında kartofun əkin sahəsi və istehsalı haqqında məlumat (ha / ton)**

| Şəhər və rayonlar / İllər | əkin sahəsi (ha) | İstehsalı (ton) |
|---|---|---|
| Naxçıvan şəhəri | 33 | 371 |
| Şərur rayonu | 1076 | 16357 |
| Babək rayonu | 478 | 8790 |
| Ordubad rayonu | 577 | 8510 |
| Culfa rayonu | 278 | 3006 |
| Kəngərli rayonu | 235 | 3208 |
| Şahbuz rayonu | 435 | 7586 |
| Sədərək rayonu | 103 | 1746 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bu bir həqiqətdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 11 aprel 2005-ci il tarixdə təsdiq olunan və 2005-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı muxtar respublikada bu sahədə keyfiyyətcə yeni mərhələnin əsaslarını yaratmış oldu. Elə məhz bu proqramın məqsədi də muxtar respublikada olan əkinəyararlı torpaq sahələrindən kartofçuluğun inkişafı üçün səmərəli istifadə etmək, yerli sahibkarlığı inkişaf etdirmək, əhalini ilboyu kartofla təmin etmək, xüsusən də, kənd əhalisinin məşğulluğunu artırmaqdan ibarət olmuşdur.

Keçən müddət ərzində muxtar respublikada kartofçuluğun inkişafı dövlətin qayğısı, həmçinin, kənd zəhmətkeşlərinin çox səmərəli fəaliyyətinin vəhdəti və nəticəsi olmaq etibarı ilə təmin olunmuşdur. Buna görə də cədvəl məlumatlarından da göründüyü kimi 2018-ci ildə muxtar

respublikanın şəhər və rayonlarında kartof istehsalında məhsuldarlıq artan dinamikaya malik tempdə olmuşdur.

*Şəkil 6.3.1*

**2018-ci ildə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında kartofun məhsuldarlığı (sent/ha)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Kartofçulun inkişafında muxtar respublikada həyata keçirilən tədbirlər regionların sosial və iqtisadi sahələr üzrə dayanıqlığını göstərməkdədir. Bir daha məlum olur ki, dövlət vətəndaşların sosial müdafiəsinin və rifah göstəricilərinin daha da artırılmasında qətiyyətlidir, bu sahədə onlara hər cür dəstək verməkdədir. Məhz yuxarıdakı şəkillərin məlumatları da kartof istehsalının stimullaşdırılması sahəsindəki nailiyyətləri ifadə etməklə, aqrar sferadakı fəaliyyətin səmərəliliyini bir daha göstərməkdədir. Təbii ki, bu isə müvafiq sahə üzrə məhsul istehsalında davamlılığın təmin olunmasında mühüm amil olaraq çıxış etməkdədir.

Bütün bunlarla, əldə olunan nəticələrə diqqət edərkən, muxtar respublikanın şəhər və rayonlarının sosial-iqtisadi inkişafında çoxşaxəlilik olduğunu görməkdəyik. Nəticə isə regional iqtisadi siyasətin çox mühüm amili olaraq özünü göstərməkdədir.

Göstərilən hər bir statistik məlumat muxtar respublikanın iqtisadiyyatı üçün həm də davamlı istehsal perspektivlərini ifadə etməkdə, kənd təsərrüfatını etibarlı istehsal sahəsi kimi daha da gücləndirməkdədir. Uğurlu nəticələr fonunda qeyd edə bilərik ki, kənd təsərrüfatının belə inkişaf dinamikası kəndlərin iqtisadi inkişafına təkan olmaqdadır və bu, ümumilikdə, muxtar respublikanın uzun illərdir ki, davam edən blokada vəziyyətinin təsirləri qarşısındakı dayanıqlığını və müqavimətliliyini də artırmaqdadır. Qeyd edək ki, eyni zamanda, əldə olunan nəticələr ucqar kəndlərdə istehsal fəaliyyətinin təşkili və idarə olunmasındakı etibarlılığı göstərməkdədir. Kiçik və orta sahibkarlığın təşkilinə, Ailə təsərrüfatlarının yaradılmasına, onların fəaliyyətinin səmərəliliyinə dövlət qayğısının artırılması nəticə etibarı ilə məhsuldarlığın da yüksəlməsinə səbəb olmuşdur. Bu, özünü tərəvəz istehsalında da göstərmişdir.

*Cədvəl 6.3.2*

**2018-ci ildə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında tərəvəzin əkin sahəsi və istehsalı haqqında məlumat**

| Şəhər və rayonlar / İllər | Əkin sahəsi (ha) | İstehsalı (ton) |
|---|---|---|
| Naxçıvan şəhəri | 373 | 3562 |
| Şərur rayonu | 1820 | 34396 |
| Babək rayonu | 2094 | 26729 |
| Ordubad rayonu | 675 | 5715 |
| Culfa rayonu | 340 | 4612 |
| Kəngərli rayonu | 299 | 4095 |

| | | |
|---|---|---|
| Şahbuz rayonu | 165 | 2187 |
| Sədərək rayonu | 417 | 4346 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bütün bu göstəricilərlə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları qarşıdakı dövlər üzrə güclü potensial formalaşdırmış oldu. Əldə olunan nəticələr sosial – iqtisadi inkişafına inamla davam edən muxtar respublikada sağlam istehsal mühitinin varlığına təminat olduğunu göstərir. İstinad olunan il üzrə tərəvəzin məhsuldarlığı aşağıdakı şəkildə təqdim olunmuşdur.

*Şəkil 6.3.2*

**2018-ci ildə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında tərəvəzin məhsuldarlığı (sent/ha)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikasında təşəkkül tapan iqtisadi inkişafın müasir mərhələsində bir tərəfdən sosial

mahiyyəti yüksək olan tədbirləri reallaşdırılır, bir tərəfdən də, kənd təsərrüfatının strateji məhsullarının tarixi şöhrətinin özünə qaytarılması təmin olunur. Beləliklə də, ən mühüm amil olaraq üzümçülüyün inkişafı iqtisadi prioritetlərin tərkib hissəsi olaraq nəzərdə tutuldu. Əvvəlki fəsillərdə muxtar respublikada üzümçülüyün inkişafı sahəsində reallaşdırılan tədbirlər haqqında qeyd etdik. Təbii ki, bu, həm də qeyri-neft sektorunun davamlı inkişafı sahəsində başladılan yeni islahatlar mərhələsində hərəkətverici qüvvə olaraq çıxış etməkdədir. Eyni zamanda, bu sahədə görülən işlər muxtar respublikanın şəhər və rayonlarında da üzümün əkin sahəsi və istehsalı sahəsindəki göstəricilərin artan dinamikasını təmin etdi. Bir-birini əvəz edən illərin inkişaf xronikası da göstərir ki, üzümçülük muxtar respublikada həm də regional inkişaf proqramlarının səmərəli icrasının gerçək nəticəsi olaraq inkişaf etdirilmiş və artıq 2018 - ci ilin sosial-iqtisadi inkişaf göstəricilərində mühüm yerə malik olmuşdur. Bunu aşağıdakı cədvəlin məlumatlarında da görə bilərik:

*Cədvəl 6.3.3*

**2018-ci ildə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında üzümün əkin sahəsi və istehsalı haqqında məlumat (ha / ton)**

| Şəhər və rayonlar / İllər | Əkin sahəsi (ha) | o cümlədən, üzüm bağları bar verən yaşda (ha) | İstehsalı (ton) |
|---|---|---|---|
| Naxçıvan şəhəri | 15 | 9 | 115 |
| Şərur rayonu | 111 | 99 | 1559 |
| Babək rayonu | 500,6 | 348,1 | 6020,2 |
| Ordubad rayonu | 5 | 4 | 296,3 |
| Culfa rayonu | 380 | 358 | 6038 |
| Kəngərli rayonu | 88 | 60 | 532 |
| Şahbuz rayonu | 38 | 26 | 186 |
| Sədərək rayonu | 264 | 247 | 1476 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Üzümçülüyün inkişaf etdirilməsi iqtisadiyyatın təkcə bir sahəsinin – kənd təsərrüfatının inkişafını ifadə etməyib, eyni zamanda, əsas aparıcı sahə olan sənayenin də inkişafına zəmin yaratmaqdadır. Yəni mezoiqtisadi formada aqrar-sənaye inteqrasiyası şəklində inkişafı da sürətləndirməkdədir. Göründüyü kimi, cədvəldə üzümün əkin sahəsi ilə yanaşı, həm də üzüm bağlarının bar verən yaşda da göstəriciləri təqdim olunur. Hesablamalar göstərir ki, Naxçıvan şəhərində bar verən yaşda olan üzüm bağları ümumi əkin sahəsinin 60 faizini təşkil etməkdədir. Həmin göstərici müvafiq olaraq:

Şərur rayonu üzrə 89 faizdən artıq;

Babək rayonu üzrə 70 faiz;

Ordubad rayonu üzrə 80 faiz;

Culfa rayonu üzrə 94 faizdən artıq;

Kəngərli rayonu üzrə 68 faizdən artıq;

Şahbuz rayonu üzrə 68 faizdən artıq;

Sədərək rayonu üzrə isə 94 faizə yaxın təşkil etməkdədir.

Üzümçülüyün belə dinamik artım göstəriciləri, təbii ki, onun məhsuldarlığında da özünü göstərməkdədir. Aşağıdakı şəklin məlumatlarında muxtar respublikanın şəhər və rayonlarında üzümün məhsuldarlığı haqqında məlumatlar yer almaqdadır.

***Şəkil 6.3.3***

**2018-ci ildə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında üzümün məhsuldarlığı (sent/ha)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bu bir həqiqətdir ki, muxtar respublikada əldə olunan makroiqtisadi uğurlar həm də iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin çox mühüm nəticəsidir. Təsdiq və icra olunan regional inkişaf proqramları ilə yanaşı, həm də iki mərhələdə (2012-2015 və 2016-2020-ci illər) icra olunan "Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqram"larının da böyük əhəmiyyəti vardır. 2020-ci ildə ikinci mərhələsinin sonuncu icra ili olan bu Dövlət Proqramı yüksək məhsuldarlıqla yanaşı, həm də artıq muxtar respublikada sağlam ekoloji mühitin güclü əsaslarını təmin edə bilmişdir. Statistik məlumatlara istinad edəndə aydın olur ki, muxtar respublikada üçüncü regional inkişaf proqramının sonuncu ilində də meyvəçilik üzrə göstəricilərdə güclü potensialın yaradılmasına təmin olunmuşdur. Aşağıdakı cədvəlin məlumatlarından da onu görə bilərik:

***Cədvəl 6.3.4***

**2018-ci ildə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında bağlar və giləmeyvəliklər əkmələrinin cəmi sahəsi və meyvə və giləmeyvəlilərin istehsalı haqqında məlumat**

| Şəhər və rayonlar / İllər | Bağlar və giləmeyvəliklər əkmələrinin cəmi (ha) | o cümlədən, bağlar və giləmeyvəliklər əkmələri bar verən yaşda (ha) | Meyvə və giləmeyvəlilərin istehsalı (cəmi, ton) |
|---|---|---|---|
| Naxçıvan şəhəri | 290 | 224 | 1319,6 |
| Şərur rayonu | 1297,8 | 1238,5 | 21675 |
| Babək rayonu | 586,5 | 444 | 7459,3 |
| Ordubad rayonu | 720 | 622 | 5592 |
| Culfa rayonu | 320,8 | 250 | 3631,6 |
| Kəngərli rayonu | 790,5 | 606 | 7385,5 |
| Şahbuz rayonu | 877,5 | 704,5 | 8277,8 |
| Sədərək rayonu | 117,2 | 81,5 | 608,2 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Eyni zamanda, özünüməşğulluğun, məskunlaşmanın, istehsal (iqtisadi) münasibətlərinin, yaradıcı ideyaların, ailə təsərrüfatlarının və digər bu kimi təşkilatlanmaların ifadəsi olan bu göstəricilər muxtar respublikanın mövcud və gerçək sosial-iqtisadi inkişafının sübutudur. Təhlillərdən aydın olur ki, Naxçıvan şəhərində bar verən yaşda olan bağlar və giləmeyvəliklər əkmələri bağlar və giləmeyvəliklər əkmələrinin cəmi əkin sahəsinin 77 faizdən artığını təşkil etməkdədir. Bu göstərici, müvafiq olaraq:

Şərur rayonu üzrə 95 faizdən artıq;
Babək rayonu üzrə 76 faiz;
Ordubad rayonu üzrə 86,4 faiz;
Culfa rayonu üzrə 78 faiz;
Kəngərli rayonu üzrə 77 faiz;
Şahbuz rayonu üzrə 80,3 faiz;
Sədərək rayonu üzrə isə 70 faiz təşkil etməkdədir.

Qeyd edək ki, muxtar respublikada iqtisadiyyatın sahə strukturu qətiyyətli və çevik inkişaf dinamikasına malikdir. Təsadüfi deyildir ki, elə meyvəçiliyin inkişafı da bu göstəricilər içərisində olmaqla artan məhsuldarlığa xas olmaqla, təşəkkül tapmışdır. Aşağıdakı şəklin məlumatları bunu göstərir.

***Şəkil 6.3.4***

**2018-ci ildə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında meyvənin məhsuldarlığı (sent/ha)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikasında şəhər və rayonların sosial-iqtisadi inkişaf göstəricilərinin artım dinamikasına malik olması, onun makroiqtisadi proseslərin hərəktverici qüvvəsi olaraq formalaşdığını təsdiq edir. Digər tərəfdən, bu amil onun həm də təsərrüfat həyatının çoxşaxəliliyində ifadə olunmaqdadır. Dövlətin kənd təsərrüfatı sahəsində də reallaşdırdığı səmərəli tənzimləmə siyasətinin gerçək ifadəsi olaraq, əhalinin bu sahəyə olan maraqları artmış, əməyə və onun nəticələrinə olan münasibətlərinin inkişafına zəmin yaranmışdır. Əhatəli və genişmiqyaslılığı ilə seçilən fəaliyyət

özünü digər sahələrlə yanaşı, iribuynuzlu mal-qaranın baş sayında da göstərməkdədir. 2004-cü ildən sonrakı dövrlərdə bu sahə üzrə göstəricilər aşağıdakı şəklin məlumatlarında yer almışdır.

*Şəkil 6.3.5*

**2005-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında iribuynuzlu mal-qaranın sayı haqqında məlumat (baş)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi, Naxçıvan şəhərində 2005-2018-ci illərdə iribuynuzlu mal-qaranın baş sayı 5,4 dəfə artmışdır. Həmin dinamika muxtar respublikanın:

Şərur rayonunda 1,3 dəfə;
Babək rayonunda 1,2 dəfə;
Ordubad rayonunda 1,5 dəfə;
Culfa rayonunda 1,2 dəfədən çox;

Kəngərli rayonunda 1, dəfədən çox;
Şahbuz rayonunda 1,3 dəfə;
Sədərək rayonunda isə 1,4 dəfə kimi olmuşdur.

Eyni müqayisəni qoyun keçilərin baş sayı üçün də apara bilərik. Bu halda aydın olur ki, muxtar respublikanın şəhər və rayonlarında təsərrüfatçılığın bu sahəsində də illər üzrə artım göstəricilərindən ibarət göstəricilər mövcud olmuşdur.

*Şəkil 6.3.6*

**2005-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında qoyun və keçilərin sayı haqqında məlumat (baş)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Səmərəli aqrar siyasətin, perspektivli fəaliyyətin təşkilinə verdiyi stimullaşdırıcı təsir regional iqtisadi siyasətin strateji amilinə çevrilmişdir. Artıq şəklin məlumatlarından da göründüyü kimi, Naxçıvan şəhərində 2005-2018-ci illərdə qoyun və keçilərin baş sayı 3,7 dəfədən çox artmışdır. Həmin dinamika muxtar respublikanın:

Şərur rayonunda 1,3 dəfədən çox;
Babək rayonunda 1,2 dəfədən çox;
Ordubad rayonunda 1,4 dəfədən çox;
Culfa rayonunda 1,2 dəfədən çox;
Kəngərli rayonunda 1,2 dəfədən çox;
Şahbuz rayonunda 1,3 dəfə;
Sədərək rayonunda isə 1,3 dəfə olmuşdur.

Bütün bunlar bir daha onu göstərir ki, artıq Naxçıvan Muxtar Respublikasının bütün şəhər və rayonlarında məhsuldar təsərrüfat fəaliyyəti üçün əlverişli mühit yaradılmışdır. Təbii ki, bu mənzərə ən ucqar dağ kəndlərinin də istehsal proseslərindəki iştirakını stimullaşdırmaqdadır.

Təkmilləşdirilən istehsal infrastrukturu, qətiyyətli tənzimləmə tədbirləri, artan iqtisadi potensial, möhkəmlənən sosial dayanıqlılıq və yüksələn rifah göstəriciləri təsərrüfatçılığın bütün sahələrində səmərəli nəticələrin əldə olunmasına imkan vermişdir. Bunu ümumilikdə, muxtar respublikada hər üç dövlət proqramının icrası müddətində balıqçılığın inkişaf göstəriciləri də ifadə etməkdədir.

***Şəkil 6.3.7***

**2005-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında balıqçılıq təsərrüfatlarının ümumi məhsulu haqqında məlumat (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Şəklin məlumatlarından da göründüyü kimi, 2005-2018-ci illərdə balıqçılıq məhsulları 41,6 dəfə artmışdır. Burada əsas diqqət çəkən məqam ondan ibarətdir ki, birinci dövlət proqramının icrası müddətində bu sahədə mütərəqqi artım dinamikasının əsası qoyulmuş və artıq müvafiq göstərici üzrə 2009-cu ildə 2008-ci illə müqayisədə 9,3 dəfə çox məhsul istehsal olunmuşdur. Həmin göstərici 2009-2013-cü illərdə 1,7 dəfə, 2014-2018-ci illərdə isə 1,1 dəfə təşkil etmişdir.

İqtisadiyyatın belə inkişaf vəziyyəti kəndli təsərrüfatlarının inkişafında bir tərəfdən keyfiyyətcə yeni mərhələnin əsaslarını yaratmışdırsa, digər tərəfdən, iqtisadi-istehsal münasibətlərinin hərəkətverici qüvvəsinə çevrilmişdir.

Sadalanan uğurların hər birini yumurta istehsalında da görə bilərik. Aşağıdakı şəklin məlumatlarına diqqət edəndə aydın olur ki, 2005-2018-ci illərdə yumurta istehsalında 1,8 dəfə artım olmuşdur.

*Şəkil 6.3.8*

**2005-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında yumurta istehsalı haqqında məlumat (min ədəd)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Beləliklə, qeyd olunanlardan bir daha aydın olur ki, muxtar respublikanın iqtisadiyyatında kənd təsərrüfatının rolu qətiyyətli artım dinamikasına malik olacaqdır. Bu, milli iqtisadiyyatın sosiallaşma proseslərinə hərəkətverici təsirini daha da gücləndirəcək və daha çox kənd yerlərinin məşğulluq göstəricilərinin yüksəldilməsində artan dinamikaya çevriləcək.

# VII FƏSİL

# İQTİSADİYYATIN SOSİALLAŞMASI: REGİONAL İNKİŞAF PROQRAMLARI VƏ MƏŞĞULLUQ SİYASƏTİNİN SƏMƏRƏLİLİYİ

## 7.1. Müasir dövrdə məşğulluq proseslərinin tənzimlənməsi məsələləri

Azərbaycan Respublikasında müasir iqtisadi siyasətin, makroiqtisadi proseslərin, həmçinin milli iqtisadiyyatın sosialyönümlülüyünün artırılmasının, bazar münasibətlərinin bu əsaslar üstün tutulmaqla gücləndirilməsinin və qarşıdakı dövrlərdə prioritetlərin müəyyən olunması yalnız strateji məqsəd olan məşğulluğun təşəkkülü məsələlərinə xidmət etməkdədir. Məşğulluq iqtisadiyyatın səmərəlilik göstəricilərindən biridir. Burada iqtisadiyyatın sahə strukturu üzrə yer alan bütün tərəflərin məqsədyönlü və dinamik göstəricilər əsasında formalaşması və inkişaf gedişləri ifadə olunmaqdadır. İstənilən iqtisadi formasiyada vətəndaşlarla dövlət arasında bağlılıq və dövlətin iqtisadi siyasətinin səmərəliliyinin artırılması məhz məşğulluq anlayışı vasitəsilə özünü göstərməkdədir. Məşğulluğun təmin olunması sahəsindəki proseslərin təşkili və idarə olunmasına həm məqsəd, həm də vasitə olaraq yanaşmaq mümkündür. Birinci halda, mövcud və yeni iş yerlərinin açılması ilə nəticələnən, əmək ehtiyatlarından səmərəli istifadə etməklə məşğulluğun təmin olunması məqsəd kimi qəbul olunur. İkinci tərəfdən, isə nəticə etibarı ilə milli iqtisadiyyatın müqavimətli inkişafı, dayanıqlılığı, dünya iqtisadiyyatına inteqrasiya olunması vəs. kimi hədəflərin reallaşması isə məşğulluğun vasitə kimi mövcudluğunu qeyd etməyə əsas verməkdədir.

Müasir dövrdə iqtisadiyyatın şaxələndirilməsi və diversifikasiya olunması sahəsindəki perspektivlərin

gücləndirilməsi, makroiqtisadi tədbirlərin reallaşması sahəsindəki addımlar öz-özlüyündə sosial dayanıqlılığa gətirib çıxarır ki, bu da nəticə etibarı ilə səmərəli və etibarlı məşğulluq imkanlarını daha da artırır.

**Diversifikasiya** – latın sözü olub, “diversus” və “facere” sözlərindən əmələ gəlmiş “müxtəlif etmək” mənasını daşıyır. Başqa sözlə, diversifikasiya dəyişiklik, müxtəliflik mənasında, iqtisadi anlamında kapitalın təmərküzləşməsi, formalarından biri kimi məhsulun nomenklaturasının genişləndirilməsi, istehsalın bir-birilə əlaqəsi olmayan növlərinin eyni zamanda inkişafını səciyyələndirir (40, s. 115).

Fikrimizcə, diversifikasiya eyni zamanda, davamlı inkişaf şəraitində iqtisadiyyatın və onun sahə strukturunun risklərdən qorunması ilə müşayiət olunan təşkilatlanması, müqavimətliliyinin daha da artırılması fonunda çoxşaxəliliyinin təmin olunmasıdır. Burada mövcud bazanın daha da gücləndirilməsi və uzunmüddətli perspektivlərin artırılması da nəzərdə tutula bilər. Məhz məşğulluq sahəsindəki proseslərin tənzimlənməsi diversifikasiyanın məqsədlərindən birini təşkil edir.

Hazırkı şəraitdə ölkədə və onun regionlarında istehsal potensialının və iqtisadi gücün artırılması məşğulluq anlayışının ölkə miqyasında əlçatanlığına hesablanıb. Bu məqsədlə, reallaşan tədbirləri aşağıdakı sxemdə görə bilərik:

***Sxem 7.1.1***

**Məşğulluğun təmin olunması məqsədilə reallaşan makroiqtisadi tədbirlər**




**Sxem** müəllif tərəfindən hazırlanmışdır.

Ümumiyyətlə, məşğulluq məsələsi hazırda ölkənin regional siyasətinin milli iqtisadi inkişafa istiqamətlənən səmərəlilik meyarıdır. Orada çoxnövlü mülkiyyət münasibətləri əsasında təsərrüfat fəaliyyətinin məhsuldarlığa söykənən təşkili diqqəti çəkir.

Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluq təminatının əsasları ötən əsrin 90-cı illərinin əvvəllərindən xalqımızın ümummilli lideri böyük Heydər Əliyev tərəfindən uzaqgörənliklə qoyulmuşdur. Bütün bunlar müasir bazar münasibətlərinə uyğun olaraq, məşğulluq üçün münbit zəminlər yaratdı və:

- iqtisadi islahatların başladılmasını;
- torpağın kəndliyə verilməsinin iqtisadi və hüquqi əsaslarının yaradılmasını;
- şaqulu idarəetmənin üfiqi idarəetmə ilə əvəz olunmasını;
- təsərrüfatçılığın yeni formalarının təsisatlarını;
- kənd yerlərində davamlı istehsal üçün zəruri infrastrukturun formalaşdırılması və kəndlərin iqtisadi inkişafını daha da sürətləndirdi.

Eyni zamanda, həmin tədbirlər məskunlaşma sahəsində stimullaşdırıcı tədbirlərin reallaşdırılmasına da təkan oldu. Həmçinin, iqtisadiyyatın güclü potensialla inkişafına stimul verdi.

Artıq muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi proseslərinə diqqət edəndə aydın olur ki, burada iqtisadiyyatın sahə strukturunun təşkilatlanması, sosial dayanıqlığının gücləndirilməsi, insanların maddi-rifah halının daha da yaxşılaşdırılması, xammal-emal-istehsal həlqəsində davamlılığın etibarlılığı, bir sözlə, infrastruktur potensialının artırılması məsələlərində çeviklik mövcuddur və bu sahədə sosial-iqtisadi səmərəyə malik təcrübə vardır.

Təbii ki, bu sahə üzrə həyata keçirilən hüquqi-iqtisadi tənzimləmə tədbirləri muxtar respublikada istehsal (iqtisadi) münasibətlərinin də inkişafına zəmin yaratmaqdadır. Bu isə ictimai istehsalın davamlılığını təmin edə bilmiş, **əmək potensialı**ndan dolğun istifadə olunması sahəsində perspektivləri artırmışdır. Bununla yanaşı, səmərəli məşğulluq üçün əlverişli zəmin yaratmışdır.

**Əmək potensialı** - maddi nemətlərin istehsalçısı kimi əhalini xarakterizə edən anlayışlardan biridir. Bura ehtiyatda olan əmək resursları, başqa sözlə desək, müvafiq əmək resurslarına onların kəmiyyət və keyfiyyət tərəflərinin vəhdətliyi başa düşülür (67, s. 13).

Ümummilli lider böyük Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan Muxtar Respublikası dövründə əsasları qoyulan müasir iqtisadi islahatlar özündə əgər bir tərəfdən iqtisadiyyatın yeni iqtisadi şərait üçün inkişaf istiqamətlərini müəyyənləşdirirdisə, digər tərəfdən də, burada əhalinin səmərəli fəaliyyəti üçün yeni imkanlar açmaqda idi. Təmin olunan sağlam iqtisadi mühit iqtisadiyyatın sahələri üzrə istehsal (iqtisadi) münasibətlərinin inkişafına əhəmiyyətli dərəcədə təkan oldu. Bu isə təbii ki, **məşğulluq** məsələsini diqqətə və gündəliyə gətirirdi.

Qeyd edək ki, keçmiş İttifaq dövründə olduğu kimi, müasir müstəqillik illərində də məşğulluq siyasətinin səmərəliliyinin yüksəldilməsi sahəsində həyata keçirilən tədbirlər ulu öndər Heydər Əliyevin adı və siyasi fəaliyyəti ilə bağlıdır. Belə ki, Azərbaycan Respublikasının 2 iyul 2001-ci il tarixdə Onun Prezident kimi təsdiq etdiyi "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda məşğulluq anlayışına belə tərif verilir:

**Məşğulluq** - Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasında daimi yaşayan və vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin (bundan sonra vətəndaşların) Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq onlara qazanc (gəlir) gətirən fəaliyyətidir (4).

Düzdür, 27 iyun 1991-ci il tarixdə də Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Lakin, 2001-ci ildə təsdiq edilən eyni adlı qanunda dövlətimizin müəyyən etdiyi siyasət, məşğul şəxs adlandırılan insanlar, məşğulluq sahəsində insanların hüquqları, məşğulluğun tənzimlənməsi, məşğulluq sahəsində həmkarlar ittifaqlarının iştirakı, işaxtaranlarla işəgötürənlərin qanunla müəyyən olunan münasibətləri və digər mühüm məsələlərə ətraflı olaraq aydınlıq gətirilmişdir. Bir sözlə, bu qanun tam mükəmməl və sanballı prosedurları özündə əks etdirməklə gələcək üçün çox güclü təminatdır. Qeyd edək ki, həmin dövlət sənədində yuxarıda göstərilənlər məşğulluğun tənzimlənməsi ilə bərabər, həm də orada təmsil olunan insanların bir-biri ilə münasibətlərinə də yenilik gətirir. Fikrimizcə, bunu yenilik kimi göstərməklə **məşğulluq mədəniyyəti** formasında ifadə etmək olar.

**Məşğulluq mədəniyyəti** - dövlətin müvafiq qanunvericiliyilə müəyyən edilərək, məşğul şəxs adlandırılan insanların əhatə olunmasını, onun hüquqlarının qorunmasını və tənzimlənməsini, təmin olunmasında həmkarlar ittifaqlarının iştirakı-

nı və işaxtaranlarla işəgötürənlərin qanunla müəyyən olunan münasibətlərini ifadə edir (39, s. 60).

Qeyd edək ki, ölkəmizdə qətiyyətli və məqsədyönlü milli iqtisadi quruculuq proseslərinin təşəkkülü sosiallaşma proseslərinin də özünə kök salmasına imkan verir ki, bu da nəticə etibarı ilə etibarlı məşğulluq sahəsində mühüm göstəricidir. Digər tərəfdən, bu, məşğulluğun hüquqi tənzimlənməsi sahəsindəki potensialı daha da artırmış olur. Ölkə başçısı cənab İlham Əliyev tərəfindən 29 iyun 2018-ci il tarixdə (№1196-VQ) təsdiq olunan Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanununda müasir dövrümüzlə daha yaxından səsləşən məsələlər öz əksini tapmışdır. Orada məşğulluq anlayışı daha da dəqiqləşdirilərək aşağıdakı kimi təsbit olunmuşdur:

**Məşğulluq** – Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin (bundan sonra - şəxslər) Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və qazanc (gəlir) gətirən hər hansı fəaliyyətidir (14).

Həmin qanunda məşğulluqla bağlı əsas anlayışlar ətrafı şəkildə əsaslandırılır. Orada daha sonra:

- məşğul şəxslər;
- işaxtaran və işsiz şəsxlərin qeydiyyatına dair ümumi müddəalar;
- münasib iş;
- vakansiya bankının yaradılması;
- məşğulluq sahəsində dövlətin vəzifələri;
- məşğulluq sahəsində şəxslərin hüquqları;
- əmək hüququnun həyata keçirilməsində dövlət təminatları;
- sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğu üçün əlavə təminatlar;
- respublika və ərazi məşğulluq proqramları və digər məsələlərə yer verilmişdir.

Məşğulluğun hüquqi təminatında çox zəruri mexanizmləri özündə əks etdirən bu qanun 6 fəsil, 37 maddədən ibarətdir (14).

Yeni Məşğulluq Qanununun mahiyyəti bir çox amillərə görə yüksək dəyərləndirilə bilər. Bunlardan biri 11-ci maddədə təsbit olunan **sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğu üçün əlavə təminatlar**ın nəzərdə tutulmasıdır. Həmin maddənin 11.1-ci bəndində göstərilir ki, dövlət sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərə əlavə iş yerləri və sosial müəssisələr yaratmaq, onlar üçün uyğunlaşdırılmış təlim proqramları əsasında peşə hazırlığı kursları təşkil etmək, habelə kvota müəyyən etmək yolu ilə əlavə təminatlar verir (14).

Bununla yanaşı, dövlət başçısı tərəfindən 30 oktyabr 2018-ci il tarixli imzalanan Sərəncamla "2019-2030-cu illərdə Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" təsdiq olunmuş və 13 fevral 2020-ci il tarixdə "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün "Tədbirlər Planı"nın təsdiq olunması haqqında Sərəncam imzalanmışdır.

Təbii ki, burada əsas məqsəd məşğulluq siyasətinin ekstensiv mərhələdən intensiv mərhələyə keçidini təmin etmək, əhalinin məşğulluq səviyyəsini artırmaq, tam məşğulluğu təmin etmək, layiqli əməyi dəstəkləmək və **əmək məhsuldarlığı**nı yüksəltməkdən ibarətdir.

**Əmək məhsuldarlığı** – vahid vaxt ərzində istehsal olunmuş məhsulun həcmi ilə və ya vahid məhsul istehsalına sərf olunmuş iş vaxtının miqdarı ilə ölçülür (52, s. 22).

Bəhs olunan tənzimləmələr müəyyən olunmuş dövr ərzindən ölkədə məşğulluq proseslərinin çox səmərəli təşkili və idarə olunmasını nəzərdə tutur. Hansı ki, bunlar məşğulluğun uzunmüddətli dövlər üzrə səmərəliliyini hədəfləyir. Elə məhz 2019-2030-cu illər üzrə müvafiq

strategiyanın aşağıdakı əsas istiqamətlər üzrə həyata keçiriləməsi bu baxımdan çox önəmlidir:

- məşğulluqyönümlü iqtisadi inkişaf siyasətinin həyata keçirilməsi, mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi;
- əmək bazarının tənzimlənməsi sahəsində normativ hüquqi bazanın və institutsional strukturun təkmilləşdirilməsi;
- işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi və əmək standartlarının təkmilləşdirilməsi;
- aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və səmərəliliyinin artırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların əmək bazarına inteqrasiyasının gücləndirilməsi;
- sosial dialoqun inkişaf etdirilməsi və qeyri – rəsmi əmək münasibətlərinin qarşısının alınması;
- əmək bazarının monitorinqi və proqnozlaşdırılması sisteminin inkişaf etdirilməsi (2019-2030 cu illər məş. str).

Müasir bazar münasibətləri şəraitində ölkədə və onun regionlarında məşğulluq təminatı sahəsində ciddi hədəflər müəyyən olunmuşdur. Belə qənaətə gələ bilərik ki, bu, inkişafın gerçək görüntüsü olmaqla, daha çox ***istehsalın əhatəsinin mərkəzdən regionlara doğru genişlənməsi, məşğulluğun isə sosial nailiyyət göstəricisi olmaq və müəyyən olunan hədəflərin reallaşması etibarı ilə regionlardan mərkəzə doğru irəliləməsinin*** gerçək təzahürüdür. Qeyd olunanların məntiqi davamı olaraq, iqtisadiyyatın regional və milli mahiyyətinin yüksəldilməsi və məşğulluğun bu əsasda təmin olunması reallaşdı. Məhz bu baxımdan, strategiyanın həyata keçirilməsi ilə bağlı nəzərdə tutulan hədəflər də müəyyən olunmuş, gözlənilən nəticələr verilmişdir:

- əmək bazarında baş verən proseslərə uyğun çevik institutsional sistem formalaşdırılacaq;

- əhalinin məşğulluq və layiqli iş imkanları genişlənəcək;
- inklüziv məşğulluq təmin olunacaq;
- təhsil sisteminin əmək bazarı ilə uyğunluğu təmin olunacaq;
- məşğulluqla sosial müdafiə arasında əlaqə güclənəcək (14).

Təbii ki, bunlar məşğulluq sahəsində hüquqi əsaslandırmalardan ibarət mexanizmlərdir. İqtisad elmində isə **məşğulluq** anlayışına iqtisadi kateqoriya kimi, real gerçəklikdə iş qüvvəsi daşıyıcılarının iş yerləri arasında bölünməsi və onların istehsal vasitələri ilə birləşməsi üzrə olan ictimai iqtisadi münasibətləri əks etdirir (42, s. 12).

Məşğulluq eyni zamanda, əhalinin **işsizlik**dən qorunmasının sosial-iqtisadi təminatı sahəsində dövlətin məqsədyönlü və qanunla müəyyən etdiyi, tənzimlədiyi proseslərin məcmusudur.

**İşsizlik** – burada elə bir sosial-iqtisadi hal başa düşülür ki, o zaman əmək qabiliyyətli əhalinin bir hissəsi işləmək istəyir və işə hazırdır, lakin müəyyən vaxtda və müəyyən ərazidə müvafiq ixtisas üzrə özünə iş tapa bilmir. Başqa sözlə, işsizlik halı-işçi qüvvəsinin təklifinin işçi qüvvəsinə olan tələbi üstələməsidir (16, s. 246).

Qeyd edə bilərik ki, ölkəmizdə Yeni Məşğulluq Qanunun qəbul olunması bu sahədəki keyfiyyətcə yeni mərhələnin başlanmasının nəticəsi olub, bu sahə üzrə təminat göstəricilərinin qorunmasına təkan olacaq. Orada məşğulluq sahəsindəki proseslər müasir milli iqtisadi ishalatlar əsasında təşəkkül tapan dayanıqlı sosiallaşmaya xas olaraq öz əksini tapmışdır. Xüsusilə, davam edən islahatlar fonunda məşğulluğun etibarlılığı, davamlılığı və artan dinamikası, həmçinin, bu əsasda da işsizliyin minimum səviyyədə saxlanılması hədəflənməkdədir.

Yeni Qanunda **işsiz şəxs** anlayışı da ifadə olunur və göstərilir ki:

**İşsiz şəxs** – işi və qazancı olmayan, işə başlamağa hazır olub, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) işsiz kimi qeydiyyata alınan, əmәkqabiliyyətli yaşda olan əmək qabiliyyətli şəxsdir (14).

Ölkənin sosial sahələr üzrə qətiyyətli islahatları, iqtisadiyyatın sahə strukturu üzrə davamlı inkişaf prosesləri regionlarda etibarlı məşğulluq mühitinin güclü təsisatlarının yaradılmasına imkan yaratmışdır. Təbii ki, bütün bunların hüquqi təminatı regional inkişaf proqramları ilə daha mütərəqqi görünməkdə və nəticə etibarı ilə **özünüməşğulluq** üzrə perspektivlərin güclənməsinə səbəb olmaqdadır. Yeni Məşğulluq Qanununda həmçinin bu anlayış çərçivəsində əmək fəaliyyətinin tənzimlənməsi nəzərdə tutulur.

**Özünüməşğulluq** – şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsidir (14).

Daha çox dövlət tərəfindən icra olunan proqram və layihələrin reallaşdırılması nəticəsində cəlb olunan vətəndaşların sərbəst şəkildə özünü işlə təmin edə bilmək gücü və bacarığı kimi ifadə olunan özünüməşğulluq hazırkı iqtisadi şəraitin sosialyönümlülüyünün ən gerçək ifadəsi olaraq dəyərləndirilə bilər. Özünüməşğulluq anlayışını aşağıdakı əsaslandırmalarla da ifadə edə bilərik:

- hər şeydən əvvəl hər kəsin ayrı-ayrılıqda özünə iş qura bilmə qabiliyyətidir;
- dövlətin hüquqi tənzimləməsi fonunda vətəndaşların sağlam fəaliyyət mühitini yarada bilməsidir;
- regionlarda təsərrüfat fəaliyyətinin yetkin təşkili sahəsində səmərəli və məhsuldar fəaliyyətin zəruri formasıdır;
- məşğulluğun səmərəlilik göstəricisi olub, əmək qabiliyyətli insanların hər birinin işə cəlb olunmasıdır;

- hər bir vətəndaşın **istehsal vasitəsi**nə malik olmasının və müvafiq sahə üzrə dolğun təcrübəyə sahibliyinin, bu əsasda isə əməyinin səmərəliliyinin ifadəsidir.

**İstehsal vasitələri** – maddi ünsürlər, əşya ünsürləri (binalar, qurğular, avadanlıqlar, maşınlar) və əmək predmetləridir (59, s. 60).

Eyni zamanda, özünüməşğulluq anlayışında regionların canlanması və müvafiq Dövlət Proqramlarında qarşıya qoyulmuş məqsəd və hədəflərin tam şəkildə reallaşması cəmlənməkdədir. Həmçinin bu anlayış, işsizliklə mübarizənin təşkilində keyfiyyətcə yeni mərhələnin başlanmasını ifadə edir və aztəminatlı ailələrə dövlət dəstəyinin mühüm forması olaraq təşəkkül tapır.

## 7.2. Regional inkişaf Dövlət Proqramları Naxçıvan Muxtar Respublikasında işsizliyin minimum səviyyəsinin qorunmasının və səmərəli məşğulluğun təmin olunmasının tənzimləyici mexanizmi kimi

İstənilən halda müasir dövrdə dünya iqtisadiyyatının məruz qaldığı çalxalanmalar işsizliklə mübarizə sahəsində daha çevik, daha kreativ ideya və təşəbbüslərin zəruriliyini daha da artırmaqdadır. İstər müharibə ocaqlarının mövcudluğu, istər ölkələrin tarixən malik olduqları iqtisadi potensialın iflasa uğraması, istərsə də, dünya bazarındakı tarazlığın pozulması təəssüf ki, işsizlik qarşısındakı müqavimətliliyin olduqca zəifləməsinə səbəb olmaqdadır. Belə bir neqativ hal qarşısında mövcud potensialın qorunması və gücləndirilməsi, milli iqtisadiyyata dayanıqlılıq və güc gətirəcək davamlı islahatların reallaşdırılması, daha perspektivli sahələrin fəallığının artırılması və digər tədbirlərin həyata keçirilməsi öz aktuallığını artırmaqdadır.

Bütün dövrlərdə işsizliyin mövcud olduğu şəraitlərdə heç bir kəmiyyət və keyfiyyətdən söz gedə bilməz. Təbii ki,

belə bir vəziyyətdə məhsuldarlıq yox dərəcəsinə düşməklə, iqtisadi və hüquqi tənzimləmənin həyata keçirilməsi üçün şərait də qəti şəkildə olmayacaq. Fikrimizcə, xüsusən də, hazırkı bazar münasibətləri şəraitində işsizliyin mövcud olması milli iqtisadiyyatların həyəcan təbili çalması deməkdir. Hazırkı dövrdə xüsusi mülkiyyətdən istifadənin mümkün olmadığı bir haldır işsizlik. ***Ümumi mənada, yeni təsərrüfatçılıq şəraitində, sağlam iqtisadi fəaliyyətin zəruri olduğu, zəncirvari, arası kəsilməz, davamlı, ardıcıl istehsal münasibətlərinin lazım gəldiyi, sosial sarsıntılardan və yoxsulluqdan qorunmağın həyati əhəmiyyət kəsb etdiyi, eləcə də ehtiyacların və tələbatların bu iqtisadi sistem əsasında qarşılanması tələb olunduğu, xüsusən də hakim olan iqtisadi sistemin qanunlarının, məqsədlərinin və vəzifələrinin icra olunmasına münbit şərait lazım olduğu, iqtisadi tarazlığın var olmasına zərurət olduğu bir halda sosial dayanıqlılıq axtarışında olan dünya iqtisadiyyatı üçün işsizliyin hökm sürməsi həqiqətən də sosial bəladır.***

Buna görə də, ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlər makroiqtisadi proseslərin həmin sosial bəlaya qarşı müqavimət gücünün artırılmasından ibarət olub, rifahın və firəvanlığın təmin olunmasında qətiyyətli addımlara çevrilmiş oldu. Ən ciddi tədbir kimi muxtar respublika üzrə məşğulluq xidməti orqanları məşğulluğun təmin edilməsi istiqamətində mühüm amil kimi işsiz vətəndaşlara müvafiq statusların və **müavinət**lərin verilməsinə diqqət artırdılar. Fikrimizi rəqəmlərlə ifadə etsək aydın olar ki, 2000-ci ildə muxtar respublika üzrə məşğulluq xidməti orqanlarında işsiz statusu və müavinət alan şəxslərin sayı 5812 nəfər olmuşdur. Bu, müvafiq olaraq sonrakı illər üzrə:

2001-5989;

2002-6645;

2003-7284;

2004-7737;

2005-ci ildə isə 7904 nəfər (58) kimi olmuşdur.

**Müavinət** – xəstələnmə, zədələnmə, hamiləlik, iş qabiliyyətinin itirilməsi hallarında insanlara onların material təminatının qismən yaxşılaşdırılması məqsədilə əvəzsiz verilən maliyyə vəsaitidir (23, s. 234).

Göründüyü kimi, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları muxtar respublikanın məşğulluq təminatı sahəsindəki hədəflərini daha da əlçatan etmiş və artıq bu, özünü 2005-ci ildən etibarən işsizlik səviyyəsinin aşağı düşməsində göstərmişdir. Naxçıvan Muxtar Respublikasında məşğulluq səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər öz məqsədyönlülüyü ilə seçilir və bu, 29 iyun 2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunan Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tənzimlənir.

Bu tənzimlənmə müasir iqtisadi şəraitin ən ciddi problemlərinin aradan qaldırılmasına yönəldilmiş, dövlətin sosial-iqtisadi prioritetlərinin dolğun ifadəsi olan, əhalinin maddi rifah halının yaxşılaşdırılması məqsədlərini özündə əks etdirən, bununla da cəmiyyəti sosial-iqtisadi bəlalardan qoruyaraq sağlam milli iqtisadiyyata yönəldilmiş tədbirlərin məcmusudur. Bu mənada Naxçıvan Muxtar Respublikasının məşğulluq potensialının artırılması istiqamətində modern inkişaf yolunu seçməsi və sosial dayanıqlığın təmin olunmasına doğru inamla irəliləməsi ciddi nəticələri ilə xarakterizə olunmalıdır. Aşağıdakı şəklə diqqət edərkən görünür ki, işsiz vətəndaşların münasib işlə təmin olunmaları sahəsində məqsədyönlü tədbirlərin həyata keçirilməsi, xüsusən də, regional inkişaf üzrə Dövlət Proqramlarımım səmərəli icrası nəticəsində artıq 2006-cı ildən etibarən işsizlərin sayında azalma müşahidə edilməkdədir (58):

*Şəkil 7.2.1*

**Naxçıvan Muxtar Respublikasında Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən qeydə alınan işsizlərin sayı (nəfər)**




**Şəkil** statistik məlumatlar əsasında müəllif tərəfindən işlənmişdir.

Şəkildən görünür ki, Dövlət Proqramlarının icrası müddətlərində işsizlərin sayındakı azalma muxtar respublikanın sosial siyasətinin strateji hədəflərini təşkil etmiş və bu sahədə güclü iradə nümayiş etdirilmişdir. Xüsusən də, işsizliyin səviyyəsindəki azalmanın birinci Dövlət Proqramının icrası dövründə reallaşması bu sahədəki qətiyyətli addımların həm də qısa müddətdə atıldığını göstərir.

Ölkənin milli iqtisadiyyat üzrə perspektivlərinin nəzərə alınmaqla düzgün istiqamətləndirilməsinin, sosial-iqtisadi inkişafın dinamikliyinin təmin olunması məqsədilə qəbul olunan qərarların, qanunların, layihələrin, Sərəncam və Fərmanların, Dövlət Proqramlarının, Konsepsiyaların, strategiyaların, yol xəritələrinin və digər hüquqi tənzimləmə

vasitələrinin muxtar respublikada düzgün və qətiyyətli icra mexanizmlərinin mövcudluğu sözügedən sahədə möhkəm dayaqlar formalaşdırmışdır. Bütün bunların da nəticəsində iqtisadiyyat bazar münasibətlərinin qanun və tələbləri əsasında daha da möhkəmlənmiş, sosialyönümlülük mexanizmləri özünə kök salmış, xüsusi mülkiyyət əsasında iqtisadi-istehsal münasibətləri daha da təkmilləşmişdir. Nəticədə isə, 2006-2011-ci illərdə işsizlərin sayı 239 dəfə azalmışdır.

Digər tərəfdən, ümummilli lider böyük Heydər Əliyevin elə məhz Naxçıvandan başlatdığı müasir islahatlara sadiq qalaraq yeni dövrdə də onun innovativ proseslərin ardıcıllığı naminə davam etdirilməsi sosial dayanıqlığın ən bariz göstəricisinə çevrilmiş və bu, özünü digər sahələrlə yanaşı işsizlərin sayındakı minimum səviyyənin təminatında göstərmişdir.

*Şəkil 7.2.2*

**Naxçıvan Muxtar Respublikasında Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən qeydə alınan işsizlərin sayı (kişi və qadınlar üzrə, nəfər)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Şəklin məlumatlarından aydın olur ki, 2011-ci ildən sonra muxtar respublikada həm ümumi işsizlərin sayında, həm də onların cins üzrə bölgüsündə artım qeydə alınmamışdır. Bu, bir tərəfdən Dövlət Proqramlarının icrasındakı qətiyyətliliyin ifadəsidirsə, digər tərəfdən, dövlətin məqsədyönlü sosial siyasətinin nəticəsidir. Hesablamalar da göstərir ki, 2006-2011-ci illərdə muxtar respublikada işsizliyin həcmi kişilər üzrə 661 dəfə, qadınlar üzrə isə 178 dəfədən çox azalmışdır.

Bunlarla yanaşı, ölkədə səmərəli məşğulluq mühitinin təşəkkülü və bu fonda işsizliyin nəzarətdə saxlanılması sahəsində dövlət siyasətinin yaratdığı şəraiti xüsusi qeyd etmək olar. Ölkə başçısının 30 iyun 2017-ci il tarixdə (№765 - VQ) təsdiq etdiyi İşsizlikdən sığorta haqqında Azərbaycan Respublikasının Qanunu da mühüm əhəmiyyətə malikdir. Qanunun məqsədi ***Azərbaycan Respublikasının əmək bazarında riskin ötürülməsinə əsaslanan münasibətlərin və yeni maliyyələşmə mexanizmlərinin yaradılması, sığortaolunanların itirilmiş əməkhaqqlarının konpensasiya olunması və işsizliyin yaranması hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təminat verilməsidir.*** 26 maddədən ibarət olan bu qanun dövlət orqanının və ya hüquqi şəxsin ləğv olunması və ya işçilərin sayı və ya ştatların ixtisar olunması nəticəsində əmək münasibətlərinə xitam verilmiş şəxslərə şamil olunur.

Naxçıvan Muxtar Respublikasında işsizlikdən sığorta Fondunun fəaliyyətinin təşkili və bu sahədəki proseslərin tənzimlənməsi məqsədilə zəruri tədbirlər həyata keçirilməkdədir. Qeyd edək ki, 27 dekabr 2018-ci il tarixdə 2019-cu il üçün, 21 dekabr 2019-cu il tarixdə isə 2020-ci il üçün İşsizlikdən sığorta fondunun büdcəsi haqqında Naxçıvan Muxtar Respublikası Qanununun tətbiqi barədə Naxçıvan

Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı mövcuddur. Həmin Fərmanda Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, Vergilər Nazirliyinə (hazırda Dövlət Vergi Xidmətinə) və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müvafiq tapşırıqlar da verilmişdir.

Bu bir həqiqətdir ki, Naxçıvan Muxtar Respublikası son iyirmi beş illik bir inkişaf tarixində güclü idarəçilik təcrübəsi ilə yuxarıda bəhs olunan məqamların təmin olunması sahəsində uzun bir tarixi yol qət etmişdir. Böyük iqtisadi və hüquqi dayaqlar üzərində təmin olunan bu mərhələ muxtar respublikanın hətta blokada şəraitində belə dayanıqlı inkişafı üçün geniş zəminlər açmışdır. İqtisadiyyatın aparıcı sahələrinin bir-birinə təkan olan inkişafı, xüsusən, kənd təsərüfatının, sənayenin iqtisadi faydalılığının və gəlirliliyinin artırılması, bunun isə digər sahələrin sürətli inkişafına stimullaşdırıcı təsiri fonunda yeni istehsal sahələrinin təşfiqinə münbit zəmin yaratması muxtar respublikanın modern inkişaf mənzərəsini formalaşdırmışdır.

Hazırkı dövrün inkişaf səviyyəsindən keçdiyimiz yola nəzər saldıqda görürük ki, Naxçıvan Muxtar Respublikası həm də ölkənin qeyri-neft sektorunun inkişaf məqsədlərindən ibarət əsas prioritetlərin müəyyənləşdirilməsində öz sözünü deməkdədir. Bu sahədə təbii ki, yeni sahələrin potensialı və onun sosial-iqtisadi inkişafa verdiyi təkan öz əhəmiyyətini daha da artırmaqdadır.

Naxçıvan Muxtar Respublikası son 25 ildə bütün sahələrdə olduğu kimi **əmək ehtiyatları**ndan istifadə, məhsuldar qüvvələrin yerləşdirilməsi, insan potensialının inkişafı, ondan ixtisaslaşmış əmək qüvvəsi kimi istifadənin öyrənilməsində də böyük təcrübə qazanmışdır. İqtisadiyyatın bütün sahələrində insan amilinin aparıcı təsirə malik olmasında bu amilin müstəsna əhəmiyyəti vardır. Bu mənada qeyd edə bilərik ki, məhsuldar qüvvələrin yerləşdirilməsində makroiqtisadi nailiyyətlərin bir hədəf olaraq seçilməsi burada milli iqtisadi inkişafın təminatında həlledici olmuşdur.

**Əmək ehtiyatları** - əmək qabiliyyətli əhali daxildir. əmək ehtiyatları sosial-demoqrafik, peşə-ixtisas və mədəni təhsil aspektlərindən nəzərədən keçirilir (46, s. 40-41)

Məşğulluqla bağlı məsələlərin təşkili və idarə olunması Naxçıvan Muxtar Respublikasının dövlət siyasətini təşkil etməkdədir. Keçirilən **əmək bazarları** (**yarmarka**ları), işaxtaranların istedad, bilik və təcrübəsinə uyğun iş yerləri ilə təmin edilmələri sahəsindəki prosesləri tənzimləməkdədir.

**Yarmarka** alman dilində hər il keçirilən bazar deməkdir. Qeyd edək ki, topdansatış ticarətinin inkişaf xüsusiyyətləri ilə əlaqədar olan bu anlayış öz inkişafında müxtəlif formalarda, o cümlədən, yarmarkalar, xüsusi topdansatış bazarları, əmtəə birjaları və s. kimi şəkil almışdır. Göründüyü kimi, yarmarka topdansatış ticarətinin xüsusi formasıdır. Digər tərəfdən, yarmarkalar əmtəə birjalarının klassik formaları sırasına daxildirlər və bu gün də bazar infrastrukturunda özlərinə məxsus xüsusi yer tuturlar.

Fikrimizcə, Naxçıvan Muxtar Respublikasında yarmarkaların keçirilməsi artıq ənənə halını almışdır. Yarmarkaların keçirilməsi imkan verəcəkdir ki:

- bazar münasibətlərinin zəruri qanunlarından olan tələb və təklifin tənzimlənməsinə münbit zəmin yaradılsın və bununla da, ilkin mərhələdə bazar tarazlığının, geniş mənada isə iqtisadi tarazlığın təminatı mümkün olsun;
- alıcıların seçim imkanlarında əhəmiyyətlilik yaransın. Zövqlərinə, alıcılıq qabiliyyətinə, təlabatlarına uyğun əmtəəni və istehlak şeylərini almağa yardımçı olur;
- rəqabət mühitinin yaradılmasına səbəb olur. Çoxlu alıcı və çoxlu satıcı anlayışı özünə yer tapa bilir;
- süni qiymət artımının qarşısının alınmasında zəruri tədbirdir. Çünki, yarmarkaların tez-tez keçirilməsi qiymətlərin tənzimlənməsi fonunda istehlakçı mövqeyinin qorunmasında və davranışlarının stimullaşdırılmasında zəruri əhəmiyyətə malikdir;

- ən başlıca amil kimi də muxtar respublikada yerli məhsulların istehsalının yeni inkişaf mərhələsinə qədəm qoyduğunu ifadə edir və s.

**Əmək bazarı -** azad razılaşma əsasında işçi qüvvəsinin alqı-satqısı ilə bağlı sövdələşmə yeri, məkanı başa düşülür. Burada başlıca məsələlərdən biri işçi qüvvəsinə tələb və işçi qüvvəsinin təklifi, habelə, işçi qüvvəsinin dəyəri olan əmək haqqının müəyyən olunmasıdır (27, s. 233).

Dövlətin sosial siyasətinin səmərəlilik göstəricisi olan məşğulluq **iqtisadi fəal əhali**nin sayında öz ifadəsini tapmaqdadır.

**İqtisadi fəal əhali** – bütün işləyənlərin və işsizlərin məcmusundan ibarət olur (16, s. 70).

Bu mənada Naxçıvan Muxtar Respublikasında məşğulluq sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2011-ci ildən iqtisadi fəal əhalinin sayı ilə onun ümumi sayında məşğul olanların sayı bərabərləşmişdir.

***Şəkil 7.2.3.***

**Naxçıvan Muxtar Respublikasında iqtisadi fəal əhali və iqtisadiyyatda məşğul olanların sayı (min nəfər)**




**Mənbə**: http://statistika.nmr.az/source/labour/index.php əsasında müəllif tərəfindən işlənmişdir.

Şəklin məlumatları bir daha onu göstərir ki, muxtar respublikada regional inkişaf proqramları makroiqtisadi inkişafın davamlılığını təmin edə bilmiş, sosiallaşma prosesləri sürətlənmiş və əhalinin davamlı dövlət qayğısı ilə əhatə olunması aktual olmuşdur. Nəticədə isə, əhali məşğulluğunun artan dinamikası sosial iqtisadiyyatın əsasını təşkil etməkdə, bu isə sağlam **milli iqtisadiyyat** yaratmaqdadır.

**Milli iqtisadiyyat** - elə adından da göründüyü kimi, müəyyən xalqa, millətə məxsus olub, onun mənafelərini ifadə edən, hüdudları dövlət sərhədləri ilə məhdudlaşan, özünün maddi-texniki əsası, münasibətlər sistemi, təsərrüfat mexanizmi və idarəetmə strukturları olan sosial-iqtisadi orqanizm kimi ifadə olunduğunu görürük (39, s. 338). Daha doğrusu, milli iqtisadiyyat mahiyyət etibarı ilə:

- vətəndaşların iqtisadi maraqlarını qoruya bilən, onun rifahının yüksəldilməsini təmin etməyi bacaran, maddi rifah halının daha da yaxşılaşdırılmasına təminat verən;

- artan tələbatlar qarşısında təminatqabiliyyətliliyi və böhranlar zamanı müqavimətliliyi ilə seçilə bilən;

- yoxsulluqdan və işsizlikdən qorunmanın, nəticə etibarı ilə isə məşğulluğun çevik mexanzimlərini üstün tuta bilən və digər bu kimi strateji keyfiyyətlərə malik olan iqtisadiyyatın qurulmasını hədəfləyir və onu bacarır.

İqtisadi proseslərin düzgün müəyyənləşdirilməsi, onun mövcud hadisə və inkişaf mənzərəsi ilə səmərəli əlaqələndirilməsi, yeni və perspektiv layihələrin gerçəkləşdirilməsi əsasında əmək ehtiyatlarından yüksək potensiallı istifadə olunmasına stimul vermişdir. Məhz Naxçıvan Muxtar Respublikasında zəruri məqsəd kimi bu götürülmüş və dövlət siyasətinə çevrilmişdir. Bu sahədə məqsədyönlü tədbirlərin həyata keçirilməsi isə məhsuldar qüvvələrin yerləşdirilməsində uğurlu nəticələrin əldə olunmasına imkanlar açmış və bu, əmək münasibətlərinin çevik tənzimləyici vasitəsinə çevrilmişdir. Nəticədə isə, əhalinin səmərəli məşğulluğunun təmin olunmasına geniş imkanlar açılmışdır. Müasir müstəqillik illərinin strateji məsələləri içərisində öz aktuallığı ilə seçilən həmin prosesləri aşağıdakı cədvəl (70) ifadə etməkdədir:

***Cədvəl 7.2.1.***

**Naxçıvan Muxtar Respublikası üzrə yeni açılmış iş yerləri**

| Açılmış iş yerlərinin təşkilatlar üzrə bölgüsü | 2004 | 2008 | 2009 | 2013 | 2014 | 2018 |
|---|---|---|---|---|---|---|
| Açılmış iş yerlərinin sayı | 7330 | 6434 | 4742 | 2260 | 3805 | 2827 |
| o cümlədən: | | | | | | |
| yeni yaradılmış müəssisə və təşkilatlarda | 2240 | 132 | 256 | 49 | 161 | 94 |
| Mövcud müəssisə və təşkilatlarda | 926 | 1245 | 437 | 608 | 703 | 331 |
| Fiziki şəxslərdə | 725 | 3085 | 2753 | 1435 | 2845 | 2354 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| digər tədbirlər üzrə (müxtəlif beynəlxalq və yerli layihələr, abadlıq işləri və s.) | 2825 | 1972 | 1284 | 168 | 96 | 45 |

**Cədvəl**: http://www.statistika.nmr.az/source/labour/index.php əsasında müəllif tərəfindən işlənmişdir.

Cədvəlin məlumatlarına diqqət edərkən görürük ki, 2004-2018-ci illəri əhatə edən bütün dövrlərdə Naxçıvan Muxtar Respublikasında məşğulluq məsələsi dövlət siyasətinin prioritet istiqamətlərini təşkil etmiş, yeni iş yerləri açılmış və bu sahədəki proseslər məhsuldar olmuşdur. Fiziki və hüquqi şəxslərin yüksək məşğulluq potensialına malik olması istiqamətindəki tədbirlər makoriqtisadi göstəricilərin ən mühüm ifadəsinə çevrilə bilmişdir. Yəni bütün bunlar bir tərəfdən ölkənin və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının uğurlu sosial-iqtisadi və regional siyasətinin mövcudluğundan xəbər verirsə, digər tərəfdən də, ümummilli liderimiz böyük Heydər Əliyevin 1969-1982-ci qızıl illərin başlatdığı məşğulluq siyasətinin davamlılığının ən mühüm ifadəsidir. Məhz muxtar respublika bu potensialla hazırkı inkişaf dövrünü yaşamaqdadır.

Göründüyü kimi, məşğulluq anlayışında ayrılıqda bir fərdin, bütövlükdə cəmiyyətin sosial-iqtisadi məmnunluğu ifadə olunmaqdadır ki, Naxçıvan Muxtar Respublikası bu istiqamətdə də qətiyyətli nəticələr ortaya qoymaqdadır. Bu isə təbii ki, makroiqtisadi potensialın təşəkkülündə və yüksək dinamika ilə inkişafında əhəmiyyətli təsirə malikdir. Burada onu qeyd edək ki, məşğulluq səviyyəsinin yüksəldilməsi əgər bir tərəfdən makroiqtisadi göstəricilərin yüksələn xətt üzrə dinamikasını təmin edirsə, digər tərəfdən də, ondan yetərli şəkildə yararlana bilir. Muxtar respublikada məşğul olan hər bir nəfərə düşən ÜDM-nin həcmi aşağıdakı kimidir:

***Şəkil 7.2.4.***

**Regional inkişaf proqramlarının icrası ərzində Naxçıvan Muxtar Respublikasında məşğul olan əhalinin bir nəfərinə düşən ÜDM-nin həcmi (manat)**




**Mənbə**: http://statistika.nmr.az/source/labour/index.php əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi, hazırda IV mərhələsi uğurla davam edən Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları və digər tənzimləyici mexanizmlər əhəmiyyətli nəticələrin əldə olunmasına imkan vermişdir. Bunun da nəticəsində 2004-2018-ci illərdə məşğul olan əhalinin bir nəfərinə düşən ÜDM-nin həcmi 8,6 dəfə artmışdır.

Ümumiyyətlə, ölkələr məşğulluq məsələsinə strateji tədbirlər kimi yanaşaqla əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılmasına nail olmağa çalışırlar. Naxçıvan Muxtar Respublikasının iqtisadi siyasətində ölkənin prioritetləri əsas tutularaq ciddi sosial dayanıqlıq təmin olunmuşdur. Bu, özünü aşağıdakı şəkildə də ifadə edir:

*Şəkil 7.2.5.*

**Regional inkişaf proqramlarının icrası ərzində Naxçıvan Muxtar Respublikasında orta aylıq əmək haqqı (manat)**




**Mənbə**: http://statistika.nmr.az/source/labour/index.php əsasında müəllif tərəfindən hazırlanmışdır.

2004-cü ildən etibarən ölkədə reallaşdırılan tədbirlər səmərəli makroiqtisadi siyasətin ən gerçək təzahür formalarından biridir. İqtisadiyyatda baş verən sosialyönümlü keyfiyyət irəliləyişləri 2004 – 2018-ci illərdə real göstəricilərdə özünü ifadə etmiş və bu, makroiqtisadi proseslərin hərəkətverici qüvvəsinə çevrilmişdir. Belə ki, 2004 - 2018-ci illərdə iqtisadiyyatda işləyənlərin orta aylıq əmək haqqısı 6,4 dəfə artıq olmuşdur. Bu göstərici artıq birinci Dövlət Proqramının icrası ərzində 3,5 dəfə çox olmaqla, sıçrayışla müşayiət olunmuşdur ki, bu da regional inkişaf proqramlarının səmərəli icrasının nəticəsini ifadə edir.

Ölkəmiz Milli İqtisadiyyat və İqisadiyyatın əsas sektorları üzfrə Strateji Yol Xəritələrinin səmərəli icrasından ibarət davamlı inkişaf dövrünü yaşamaqdadır. Əldə olunan uğurlu nəticələr 2020-ci ildə növbəti uzunmüddətli dövrlər üzrə daha dinamik inkişaf vəd edən bir dövrün başlanmasına zəmin olacağını deməyə əsas verir. Qeyd olunanlar təbii ki, regional inkişaf proqramları ilə vəhdət halında dayanıqlı və

müqavimətli iqtisadiyyat üçün səmərəli mühit yaratmaqdadır. Artıq innovativ inkişafa əsaslanmaqla digər ərazi və regionlar üçün nümunəvi idarəetmə konsepsiyası, inkişaf modeli, demoqrafik tarazlıq strategiyası həm tətbiq olunmaqla, həm də təkmilləşdirilməkdədir. Yaradılan səmərəli fəaliyyət mühiti faydalı əmək şəraitinə stimul vermiş, Sahibkarlığın inkişafına, xüsusən, onun kiçik və orta formaları üzrə tərəqqisinə yönəldilən məşğulluq mənzərəsini formalaşdırmışdır.

Bu isə təbii ki:

- 2007-ci il 30 may tarixdə Naxçıvan MR Ali Məclisinin Sədrinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında Məşğulluq Startegiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramında (2007-2010-cu illər);

- birinci mərhələdə 18 dekabr 2013-cü ildə qəbul edilərək 2014-2015-ci illəri əhatə edən;

- ikinci mərhələdə isə 11 yanvar 2016-cı ildə qəbul olunmaqla, 2016-2020-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılmasına dair Dövlət Proqramı"nda əsas məqsədlər kimi götürülmüş və qarşıdakı illərdə yaradılması hədəflənən yeni iş yerlərinin açılmasına öz töhvələrini verməkdədir. Düşünürük ki, eyni adlı Dövlət Proqramları 2020-2025 – ci illəri əhatə etməklə möhkəm baza əsasında növbəti mərhələ üçün daha güclü perspektivlər aça bilər.

Məşğulluq müasir iqtisadi sistem şəraitində Azərbaycan dövlətinin gündəlik diqqət mərkəzində saxladığı ən zəruri məsələdir. Artıq iqtisadi formasiyaların bir-birini əvəz etdiyi ötən əsrin 90-cı illərinin əvvəllərində keçmiş ittifaq ölkələri arasında qırılan iqtisadi-istehsal münasibətləri müasir müstəqillik dövrünün və bazar münasibətlərinin tələbləri əsasında ölkəmizdə və onun regionlarında, xüsusilə də, Naxçıvan Muxtar Respublikasında yeni hüquqi və iqtisadi dəyərlər əsasında tənzimlənməyə başlandı. Bazar qanunlarının tələblərinə xas olan idarəetmənin təşkili mümkün oldu. Bunun əsasında

xüsusi mülkiyyətə, sahibkarlıq fəaliyyətinə, kəndli-fermer təsərrüfatlarına və onların bazası əsasında digər təsərrüfat suyektlərinin yaradılması proseslərinin təşkilinə başlandı.

Ümumi mənada, məşğulluğun təmin olunması bütün dövrlərin ən zəruri və ən aktual məsələsini təşkil edən işsizlik probleminin həllində ciddi nailiyyət olmaqdadır. Əhalinin sosial rifahının yüksəldilməsi, sosial müdafiəsinin gücləndirilməsi və yaşayış səviyyəsin daha da yaxşılaşdırılması məhsuldar və faydalı məşğulluq potensialının formalaşdırılmasından asılıdır. Hüquqi tənzimləmələr isə bu sahədə əlverişli zəmin yaradacaq.

Beləliklə, qeyd olunanlardan da aydın olur ki, regional Dövlət Proqramları Naxçıvan Muxtar Respublikasında milli iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi olaraq çıxış etməkdədir. Burada əhalinin məşğulluq imkanları və onun iqtisadiyyatın dayanıqlılığına təsiri, həmçinin, sosiallaşma sahəsindəki perspektivlər daha da aktual olaraq görünür. Təbii ki, bu, iqtisadiyyatın şaxələndirilməsi fonunda daha mütərəqqi şəkil almaqdadır.

### 7.3. 2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında demoqrafik tarazlığın təmin olunması məsələləri

Azərbaycan Respublikasının milli iqtisadiyyat üzrə əsas hədəfləri qətiyyətlə reallaşmaqdadır. Burada iqtisadiyyatın sosiallaşması və əhalinin etibarlı rifah götəricilərinin təmin olunması məsələləri öz aktuallığını saxlamaqdadır. Ölkənin dayanıqlı sosial siyasətində strateji əhəmiyyətliliyi ilə böyük rola malik olan Naxçıvan Muxtar Respublikasında bu sahədə mükəmməl baza yaradılmışdır. Artıq yaranmasının 96-cı ilini yaşayan muxtar respublika üzrə 205 kənd yaşayış məntəqəsi və 159 kənd inzibati ərazi dairəsi vardır. Müvafiq olaraq

həmin bölgünü muxtar respublikanın rayonları üzrə belə təqdim etmək olar:

Naxçıvan şəhəri 5 və 3;
Şərur rayonu 65 və 52:
Babək rayonu 35 və 27;
Ordubad rayonu 43 və 27;
Culfa rayonu 22 və 18;
Kəngərli rayonu 10 və 9;
Şahbuz rayonu 22 və 20;
Sədərək rayonu 3 və 3 (70).

Strateji sosial təsirə malik olması ilə seçilən qüvvə olaraq, **insan** amili müasir dövrdə də aktuallığını saxlamaqdadır. Bütün dövrlər üçün aktuallığını qoruyan ən mühüm amillərdən biri kimi insan amili, bütövlükdə isə, əhali problemlərinin öyrənilməsi məsələləri dövlətlərin milli məqsədləri, həmçinin, sosial-iqtisadi siyasətlərinin strateji tərkib hissəsini təşkil etmişdir.

**İnsan** – ictimai istehsalın başlıca hərəkətverici qüvvəsi və onun səmərəliliyinin yüksəldilməsi vasitəsi kimi ifadə olunub, sərmayə qoyuluşunun obyekti və onları sonradan reallaşdırmaq məqsədilə bilik və qabiliyyətlərinin məcmusuna çevirən subyektidir (47, s. 208).

Ölkəmiz müstəqillik qazandıqdan sonra əhalinin məskunlaşması, davamlı inkişafın ən çevik iştirakçısına çevrilməsi, onların maraq və mənafelərinin ifadə olunması, yerdəyişməsi, milli tərkibi, doğum və ölüm vəziyyətinin təhlili və qiymətləndirilməsi məsələləri ən zəruri tələb kimi qarşıya qoyulmuşdur. Bunlar isə təbii ki, sağlam demoqrafik siyasətin gücü daxilində həll olunması zəruri olan məsələlər idi.

**Demoqrafiya** iqtisad və digər sosial elmlərin yaxından araşdırıb, tədqiq etdiyi, öyrəndiyi elm sahəsi, sosial proses və hərəkətin nəticəsidir.

**Demoqrafiya** - əhali haqqında elm olub, əhalinin strukturu, yerləşməsi, dinamikası, miqrasiyasını və bu diapazonda

baş verən sosial-iqtisadi, bioloji və coğrafi amil, səbəb və şərtləri tədqiq edir (37, s. 94).

Ümumi mənada, iqtisadiyyatın (istehsalın) olduğu kimi, iqtisadi hadisə və proseslərin də ən zəruri daşıyıcısı olan insan amilinin üzərində qurulan demoqrafiya anlayışının iqtisadi ədəbiyyatlarda yunan dilindən keçməklə, demos-xalq, grapho-yazıram kimi mənalandırıldığını görməkdəyik. Bu iqtisadi anlayış, öz mövcudluğu, iqtisadi mahiyyəti və spesifik açıqlaması ilə əsasən əhalinin sayı, onun doğumu, ölümü və bunlarla bağlı olan göstəricilərin dəyişməsini, əhalinin miqrasiyasını cins və yaş strukturunu, milli və etnik tərkibini, coğrafi yerləşməsini (vəziyyətini) öyrənir. Eyni zamanda, demoqrafiya terminində ictimai-siyasi, sosial-iqtisadi mədəni-hüquqi və digər hadisələrin insanların yaşayışına, davranışına, fəaliyyətinə, məskunlaşmasına, hərəkətinə təsiri istiqamətləri də yer almaqdadır.

Bütün tərəfləri ilə demoqrafiya anlayışı insan amili ilə bağlı olduğu üçün hər bir ölkənin sosial siyasətinin çox mühüm tərkib hissəsi olmaqla, iqtisadi məqsəd və hədəflərinin əsasını təşkil etməkdədir. Bu mənada, ölkələrin iqtisadi maraqlarının, bu sahədəki proseslərin və bununla bağlı həyata keçirilən dövlət siyasətinin mahiyyətini özündə daşımaqdadır. Demoqrafiya-insan amili, onun firəvanlığı, işsizlik və məşğulluq səviyyəsi, əhali problemlərinin öyrənilməsi məsələləri ilə bir başa bağlı olub, bu amillərin ölkənin iqtisadi siyasətinə təsiri mexanzimlərini də şərtləndirir.

İqtisad elmində demoqrafiya məsələlərinin araşdırılması, elmi cəhətdən əsaslandırılması və tədqiqat obyektinə çevrilməsində bir sıra iqtisadçı və sosial elmlərin mütəxəssislərinin rolu böyük olmuşdur. Bu sırada konkret formada olmasa da, səpələnmiş şəkildə müxtəlif əsərlərdə rast gəlinmişdir. Xüsusilə, qeyd edək ki, 1619-1674-cü illərdə yaşamış ingilis alimi Con Qrauntanın əsərlərində hələ 1662-ci

ildə demoqrafiya anlayışına xidmət edən məqamalar öz əksini tapmışdır. Onun zəmanəsindən 146 il sonra 1766-1834-cü illərdə yaşamış ingilis iqtisadçısı Tomas Robert Maltus, 180 il sonra isə 1799-1856-cı illərdə yaşamış fransız alimi Jan Klod Aşil Qiyar isə öz araşdırmalarında və əsərlərində demoqrafiya anlayışının elmi mahiyyətin açıqlamış və mövzuya insanların sosial həyatının təsviri olaraq yanaşmışlar. T.R.Maltus insan potensialının iqtisadi əhəmiyyətini, onun sosial mahiyyətini açıqlamış, istehlak səviyyəsi ilə insanların alıcılıq qabiliyyətinin müqayisəsini təqdim etmişdir. Ö, "Əhali artıqlığı" haqqında qanunun müəllifi kimi tanınmış və orada təbii artımla istehlak mallarının istehsalı arasındakı tarazlıq nisbətini göstərmişdir. Məhşur alimin tədqiqatlarına diqqət edərkən aydın olur ki, əgər əhalinin artımı həndəsi silsilə ilə baş verirsə, istehlak vasitələri ədədi silsilə ilə davamlı xarakter daşıyır. Məhz cəmiyyətin durmadan artan tələbatının mənbəyində bu amil dayanmaqdadır.

Buradan da görünür ki, demoqrafiya məsələləri iqtisadi tərəfi ilə yanaşı, həm də strateji mahiyyət daşıyır və buna görə də ölkələrin bu sahəyə diqqət göstərməsini zəruri şəkildə şərtləndirməkdədir. Buna görə də ölkəmizdə və onun regionlarında sosial-iqtisadi inkişafın təmin edilməsi, onun davamlılığının və dayanıqlığının artırılmasına dövlət qayğısının gücləndirilməsi, eləcə də, işsizliyin minimuma endirilməsi, məşğulluq səviyyəsinin yüksəldilməsi və potensialının artırılması, məskunlaşma siyasətinin səmərəliliyinin təmin edilməsi, demoqrafik tarazlığın qorunmasına xidmət edən tədbirlərin geniş vüsət alması, ümumiyyətlə, insan kapitalının inkişafına yönəldilən tədbirlərin stimullaşdırılması günümüzün ən gerçək reallıqlarına çevrilmişdir.

Ölkənin milli iqtisadi inkişafında özünün strateji coğrafi mövqeyi və iqtisadi nailiyyətləri ilə xüsusi yeri olan Naxçıvan Muxtar Respublikasında deoqrafik siyasətin səmərəliliyinin artırılması, burada əhalinin sayı, ümumi və təbii artım səviy-

yəsi, doğulanlar, ölənlər və s. haqqında statistik göstəricilərə diqqət edərkən aydın olur ki, bu iqtisadi rayonda demoqrafik tarazlıq qorunmuş və səmərəlilik mexanzimləri əsas götürülmüşdür. Bu isə öz növbəsində dövlətin səmərəli **demoqrafiya siyasətinin** uğurlu istiqamətlənməsinə təkan vermişdir.

**Demoqrafiya siyasəti** - əhalinin təkrar istehsalında əsas proseslərə, başqa sözlə doğum, ölüm, nigah, boşanma, miqrasiya, əhalinin məskunlaşması proseslərinə lazımi istiqamət verilməsi üçün həyata keçirilən tədbirlərdə təcəssüm edir (52, s. 13-14).

Naxçıvan Muxtar Respublikasının ərazi xüsusiyyətlərinə görə aqrar bölgə olması, bununla yanaşı mezoiqtisadi baxımdan iqtisadiyyatın sənaye əhəmiyyətinin yüksəldilməsi burada əhalinin məskunlaşma siyasətinin təşkili və idarə olunmasında məqsədyönlü tədbirlərin həyata keçirilməsini stimullaşdırmışdır. 2004-2018-ci illəri əhatə edən dövrlər ərzində muxtar respublikada reallaşdırılan tədbirlər demoqrafik siyasətin də səmərəliliyinə stimul vermişdir. Əhalinin illər üzrə artım göstəricilərinə diqqət edərkən bunu aydın şəkildə görmək mümkündür. Aşağıdakı şəkil fikrimizi təsdiq edir:

***Şəkil 7.3.1.***

**Regional inkişaf proqramlarının icrası müddətində Naxçıvan Muxtar Respublikasında əhalinin artım vəziyyəti (ilin əvvəlinə, min nəfər)**




**Şəkil** statisik məlumatlar əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Hesablamalar göstərir ki, 2004-2018-ci illərdə muxtar respublikada əhalinin sayı 78,9 min nəfər və ya 1,2 dəfədən çox artmışdır. Bir-birini əvəz edən illərin əvvəlinə olan məlumatlara əsasən muxtar respublika əhalisinin sayı dinamik artım tempinə xas olmuş və bu, sağlam sosial-iqtisadi inkişafın göstəricisidir. Əhalinin artım dinamikasına diqqət edərkən aydın olur ki, muxtar respublikada müvafiq göstərici üzrə artım hər üç Dövlət Proqramının icra müddətini əhatə edən 15 ildə pozitiv olmuşdur. Göründüyü kimi, bu artım göstəricisi 2013-cü ildə 400 min nəfəri (427,2), 2018-ci ildə isə 450 min nəfəri (452,8) keçmişdir.

Naxçıvan Muxtar Respublikasının demoqrafiq siyasətinin uğurlu yöndə təmin olunmasının nəticəsində burada əhalinin məskunlaşma prosesində səmərəlilik və tarazlıq qorunmuş və bu, hazırda da davam etməkdədir. Tədqiqatlara əsasən qeyd edə bilərik ki, 2004-cü ildə muxtar respublikada şəhər və kənd əhalisinin müqayisə göstəricisi 2018-ci ildə də qorunmaqdadır. Belə ki, 2004-cü ildə muxtar respublikada kənd yerlərində yaşayanların sayı 263,8 min, şəhər yerlərində isə 110,1 min nəfər təşkil edirdisə və kənd əhalisi şəhər əhalisindən 2,4 dəfə çox idisə, hazırda da bu göstəricinin dəyişmədiyini deyə bilərik.

Belə ki, 2018-ci ilin əvvəlinə olan məlumatlara əsasən muxtar respublikada əhalinin 319,2 min nəfəri kənd, 133,6 min nəfəri isə şəhər yerlərində yaşamaqdadır. Məhz bu dövrdə də kənd əhalisi şəhər əhalisindən 2,4 dəfə çox olmuşdur. Təhlillərdən aydın olur ki, bu, muxtar respublikanın Dövlət Proqramlarının səmərəli icrasındakı rolunu ifadə etməkdə və əhalinin məskunluğu sahəsindəki siyasətinin səmərəliliyinin mühüm göstəricisini təşkil etməkdədir.

**Məskunlaşma** siyasəti ölkələrin səmərəli demoqrafik siyasətinin tərkib hissəsi olub, regionların sosial-iqtisadi inkişafdakı rolunu müəyyənləşdirən mühüm amildir.

**Məskunlaşma** - əhalinin ölkə, yaxud region ərazisində tarixən yayılma prosesi olub, yaşayış məntəqələri şəbəkəsinin yerləşməsi ilə əlaqədar əhalinin ərazidə yerbəyer olunmasıdır. (35, s. 248).

Bu mənada, Naxçıvan Muxtar Respublikası da xüsusən, müvafiq dövr ərzində həm şəhər, həm də kənd əhalisinin məskunlaşmasında stimullaşdırıcı amilləri səfərbər etmiş və nəticədə isə demoqrafiq tarazlıq yaranmışdır. Aşağıdakı şəklə diqqət edəndə bunu açıq şəkildə görə bilərik:

***Şəkil 7.3.2.***

**Regional inkişaf proqramlarının icrası müddətində Naxçıvan Muxtar Respublikasında əhalinin şəhər və kənd yerləri üzrə bölgüsü (ilin əvvəlinə, min nəfər)**




**Şəkil** statistik məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır

Göründüyü kimi, muxtar respublikada əhalinin təbii artımında illər üzrə mövcud temp qorunub saxlanılmışdır. Bu isə ölkədə təmin olunan sosial-iqtisadi inkişaf vəziyyətinin yaxşılığından xəbər verir.

Aydındır ki, ölkəmiz 1991-ci ildən müəstəqilliyini elan etmişdir. Ulu Tanrının xalqımıza bəxş etdiyi ən böyük sevinc ondan ibarət oldu ki, müstəqilliyin ilk illərində muxtar respublikamızda Ali Məclisin Sədri kimi böyük Heydər Əliyev fəaliyyət göstərməyə başladı. Bu amil muxtar respublikaya tarixi düşmənlərimiz ermənilərin təcavüzkarlıq siyasətindən doğan blokada şəraitinin və dövrün sosial-iqtisadi problemlərinin çətinliklərinə qarşı müqavimət gücü verdi. Bununla da, iqtisadiyyatın bütün sahələrində neqativ təsirlər sıfıra bərabər olmaqla, əldə olunan nailiyyətlər əhalinin dinamik artımında yüksələn ardıcıllığı təmin etdi. Güclü sosial bazaya çevrilən həmin proseslər 1995-ci ildən təcrübəli idarəetməyə etibar olundu. Müəyyən olunan məqsədyönlü və dinamik iqtisadi siyasət elə ilk ildən - 1996-cı ildə muxtar respublikada əhalinin

sayının artmasına zəmin yaratdı (1995-ci ildə 331,9 min nəfərdən 1996-cı ildə 337,8 min nəfərə) və 1990-cı ilin müvafiq göstəricisi ilə (300,5 min nəfər) müqayisədə 1,1 dəfədən çox artmışdır. Bu artım şəhər əhalisinin sayında 1 dəfə, kənd əhalisinin sayında isə 1,1 dəfə təşkil edirdi. Göründüyü kimi, muxtar respublika böyük Heydər Əliyev siyasətindən qidalanmaqla, 1995-ci ildən yüksək sədaqətlə inkişaf yoluna qədəm qoydu və regional inkişaf proqramlarının ən yüksək məhsuldarlıqla icra olunduğu əraziyə çevrildi.

Artıq Naxçıvan Muxtar Respublikası müasir müstəqillik dövrünün iyirmi beş ilini modern inkişaf modeli ilə yaşamaqda, **tarazlı inkişafını** təmin etməkdədir.

**Tarazlı inkişaf** - burada elə bir inkişaf nəzərdə tutulur ki, indiki vaxtın tələbatları ödənilsin, lakin gələcək nəsillərin öz tələbatlarını ödəmək imkanı təhlükə altında qalmasın (52, s. 87).

Bu müddət ərzində insan amili sosial-iqtisadi inkişafın ən yaxın iştirakçısına çevrilmiş, bir potensial kimi inkişaf etmiş və dövlətin uğurlu demoqrafik siyasətinin təkanverici qüvvəsini təşkil etmişdir. Araşdırmalar göstərir ki, əhalinin ümumi sayında, şəhər və kənd üzrə olduğu kimi dinamik artım vəziyyəti özünü muxtar respublika əhalisinin cins üzrə bölgüsündə də göstərmişdir. 2004-2018-ci illər üzrə olan məlumatlara əsasən muxtar respublikada əhalinin müvafiq bölgü üzrə xarakteristikasını aşağıdakı kimi verə bilərik:

***Şəkil 7.3.3.***

**Regional inkişaf proqramlarının icrası müddətində Naxçıvan Muxtar Respublikasında əhalinin cins üzrə bölgüsü (ilin əvvəlinə, min nəfər)**




**Şəkil** statistik məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır

Aparılan hesablamalar göstərir ki, 2004-2018-ci illərdə (illərin əvvəlinə olmaqla) muxtar respublikada hər iki cins üzrə artım 1,2 dəfədən çox olmuşdur.

Məlumdur ki, müasir müstəqillik illərində ölkəmizdə əhalinin siyahıya alınması tədbirləri 1999 və 2009-cu illərdə keçirilmişdir. Sonrakı mərhələ üzrə, yəni 2019-cu ildə də “Azərbaycan Respublikasında əhalinin siyahıya alınmasının keçirilməsi haqqında” Prezident cənab İlham Əliyev tərəfindən 7 sentyabr 2016-cı il tarixdə Fərman imzalanmışdır. Həmin hüquqi tənzimləməyə əsasən, əhalinin növbəti siyahıya alınması 2019-cu ilin 1-10 oktyabr tarixlərində keçirilməsi nəzərdə tutulmuş və artıq ötən il reallaşdırılmışdır. Prosesin reallaşdırılmasında 720 siyahıyaalma, 6777 təlimatçı və 33 min 907 sayıcı məntəqəsi iştirak etmişdir. Qeydiyyatı aparılan sorğu vərəqəsində siyahıya alınacaq hər bir şəxsin:

- cinsi, yaşı;
- doğulduğu yer;

- vətəndaşlığı;
- milli (etnik) mənsubiyyəti;
- ana dili və sərbəst danışdığı dillər;
- ailə vəziyyəti;
- siyahıyaalma anında olduğu yerdə daimi və müvəqqəti yaşaması;
- təhsil səviyyəsi;
- gəlir mənbələri;
- məşğulluq vəziyyəti;
- əhalinin ölkədaxili yerdəyişməsinin və xarici miqrasiyasının səbəbləri və digər göstəricilər üzrə suallar öz əksini tapıb. Siyahıyaalma vərəqəsində 6 sual, sorğu vərəqəsində isə altsuallar daxil olmaqla 46 sual öz əksini tapmışdır. Qeyd edək ki, əhalinin siyahıya alınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənilməsi, nəticələrinin dərc olunaraq yayılması isə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə həvalə olunmuşdur. Bununla əlaqədar hazırlıq və onun keçirilməsi ilə bağlı Tədbirlər Planı haqqında həm də Azərbaycan Respublikasının Nazirlər Kabineti rərəfindən 16 dekabr 2016-cı il tarixdə 517 №-li Qərar qəbul olunmuşdur.

Qeyd edək ki, muxtar respublika iqtisadiyyatında pozitiv meyllərin mövcudluğu, perspektivli sahələrin uzunmüddətli inkişaf istiqamətlərinin müəyyən olunması, insan-tələbat-istehsal həlqəsinin ardıcıl təminatına stimul vermiş, nəticə etibarı ilə istehsal, bölgü, mübadilə və istehlak fazalarında qırılmazlıq baş tutmuş, bu isə sosial-iqtisadi tarazlığa təminat verməklə, əhalinin sayı və onun sıxlığındakı artan vəziyyəti formalaşdırmışdır. Aşağıdakı cədvəldə Dövlət Proqramlarının icrası müddətində muxtar respublikanın şəhər və rayonları üzrə əhalinin sayı və 1 yanvar 2020-ci il tarixə olan statistik məlumatlara əsasən əhalinin sıxlığı haqqında məlumat verilmişdir:

*Cədvəl 7.3.1.*

**1 yanvar 2019-cu il tarixinə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə əhalinin sayı**

| Şəhər və rayonlar | Əhalinin sayı (min nəfərlə) | | | | | | Əhalinin sıxlığı (1 kv. km, nəfər) 01.01.2020 |
|---|---|---|---|---|---|---|---|
| | 2004 | 2008 | 2009 | 2013 | 2014 | 2018 | |
| Naxçıvan şəhəri | 70,7 | 72,7 | 82,4 | 88 | 89,5 | 92,9 | 493 |
| Şərur rayonu | 96,7 | 100,8 | 102,1 | 109,4 | 111,2 | 115,6 | 135 |
| Babək rayonu | 65,7 | 70,1 | 62,7 | 68,7 | 70,4 | 75 | 92 |
| Ordubad rayonu | 42,8 | 44,5 | 45 | 47,7 | 48,4 | 49,7 | 51 |
| Culfa rayonu | 38,3 | 40,4 | 41 | 44,5 | 45,5 | 46,4 | 51 |
| Kəngərli rayonu | 25,3 | 27 | 27,4 | 30,0 | 30,6 | 32,2 | 47 |
| Şahbuz rayonu | 21,5 | 22,5 | 22,7 | 24 | 24,4 | 25,1 | 30 |
| Sədərək rayonu | 12,9 | 13,8 | 14 | 14,9 | 15,3 | 15,9 | 98 |

**Cədvəl** statistik məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır

Təbii ki, bütün bunlar muxtar respublikada sosial siyasətin səmərəli təşkilinin gerçək mənzərəsidir. Hazırda təmin olunan davamlı inkişaf ölkədə sosial və iqtisadi sahələrdəki islahatların uğurlu nəticlərinin ifadəsi olmaqla, həm də regionların müvafiq sahələr üzrə təşkilatlandığını qeyd etməyə əsas verir. Bu mənada qeyd olunanlar Naxçıvan Muxtar Respublikasının səmərəli demoqrafiq siyasətinin mühüm göstəriciləri olaraq böyük əhəmiyyətə malikdir. Son iyirmi beş ildə qətiyyətlə reallaşdırılan məqsədyönlü tədbirlər və davamlı hal alan tənzimləmələr burada sosial-iqtisadi tədbirlərin gedişində əhalinin iştirak və yararlanma səviyyəsini daha da fəallaşdırmışdır ki, bu da sosiallaşma proseslərini sürətləndirmişdir. Nəticədə isə demoqrafiq tarazlığın təmin olunmasında keyfiyyətcə yeni mərhələ başlanmışdır. Artıq 2019-cu ilin statistik məlumatlarına görə muxtar respublikada kişilər üzrə doğulanlar (2853 nəfər) ölənlərdən (1081 nəfər) 2,6 dəfədən çox, qadınlar üzrə (müvafiq olaraq 2562-999) isə

2,6 dəfə çox olmuşdur. Təbii artım isə kişilər üzrə 1772, qadınlar üzrə isə 1563 nəfər təşkil etmişdir.

Yuxarıdakı müqayisəni şəhər və kənd yerləri üzrə aparsaq, onda müvafiq olaraq, kişilər üzrə şəhər yerlərində doğulanlar ölənlərlə (müvafiq olaraq, 746-323) müqayisədə 2,3 dəfədən çox, kənd yerlərində (2107-758) 2,8 dəfə artmışdır. Təbii artım isə şəhər yerlərində 423 nəfər, kənd yerlərində 1349 nəfər olmuşdur.

Tərəqqi və intibah dövrünün həm də güclü sosial bazasının təmin olunduğu muxtar respublikada eyni müqayisəni şəhər və kənd yerlərinə uyğun olaraq da aparmaq olar. Aydın olur ki, bu artım qadınlar üzrə şəhər yerlərində (628-303) 2,1 dəfə, kənd yerlərində isə (1934-696) 2,8 dəfə təşkil etmişdir. Burada təbii artım göstəricisi isə birincilər üzrə 325 nəfər olmuşdursa, ikincilər üzrə 1238 nəfər kimi qərarlaşmışdır.

Fikrimizi muxtar respublikanın ümumi əhalisi üçün ifadə etsək görərik ki, doğulanlar (5415) ölənlərlə (2080) müqayisədə 2,6 dəfədən çox olmuşdur. Burada təbii artım isə 3335 nəfər təşkil etmişdir. O cümlədən, ümumi şəkildə şəhər yerlərində doğulanlar (1374) ölənlərlə (626) müqayisədə 2,2 dəfə, kənd yerlərində isə (müvafiq olaraq, 4041-1454) 2,8 dəfə olmuşdur. Təbii artım isə birincilərdə 748, ikincilərdə isə 2587 nəfər təşkil etmişdir.

Hazırkı müstəqillik şəraitində muxtar respublikanın əldə etdiyi etibarlı sosial-iqtisadi dayanıqlılıq burada əhalinin rifah halının yaxşılaşdırılmasına, sosial məmnunluğunun yüksəlməsinə, bununla da, ömür uzunluğunun artmasına səbəb olmaqdadır. Aşağıdakı şəklə diqqət edəndə regional inkişaf proqramlarının icrası ərzində muxtar respublika üzrə cins bölgüsündə doğulanda gözlənilən ömür uzunluğu haqqında məlumat verilmişdir:

*Şəkil 7.3.4.*

**Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrası müddətində Naxçıvan Muxtar Respublikasında cins bölgüsündə doğulanda gözlənilən ömür uzunluğu (yaş sayı)**




**Şəkil** statistik məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır

2004-2018-ci illəri əhatə etməklə apardığımız təhlillər bir daha göstərir ki, muxtar respublikada sağlam sosial mühit mövcuddur. Həmin anlayış içərisində mühüm göstərici olaraq yer alan ana ölümü haqqında qeyd edə bilərik. Statistik məlumatlar göstərir ki, 2004-2018-ci illərdə muxtar respublikada ana ölümü (doğuşdan sonrakı dövrün, doğuşun və hamiləliyin ağırlaşmasından zahı və hamilə qadınların ölümü) qeydə alınmamışdır. Düşünürük ki, burada sosial siyasətin mühüm tərkib hissəsi kimi çıxış edən tibbi müayinələrin yetkinliyi, sakinlərin özünün bu sahədəki etibarlı tədbirləri və digər amillər mühüm rola malikdir.

Təbii ki, bütün bunlar makroiqtisadi sabitliyin və inkişafın mühüm amillərindən və təkanverici qüvvəsindən hesab olunur, sosial siyasətin dayanıqlığını daha da gücləndirməklə iqtisadi inkişafa böyük töhfə kimi ifadə oluna bilər.

# VIII FƏSİL

# REGİONAL İNKİŞAF PROQRAMLARI DÖVLƏTİN VƏTƏNDAŞLARA QAYĞISININ İFADƏSİ KİMİ

## 8.1. Əhalinin sosial müdafiəsinin təmini makroiqtisadi hədəflər müstəvisində

Azərbaycan Respublikasında sosiallaşma proseslərinin dinamik xarakterə malik olması iqtisadiyyatın sahə strukturunun təşkilatlanması və istehsalın fasiləsizliyi fonunda daha da etibarlı görünməkdədir ki, burada da əhalinin sosial rifahının yaxşılaşdırılması məsələləri diqqəti daha çox cəlb edir. Bu sahədə dövlətin iqtisadi və hüquqi tənzimləmə siyasətinin çox zəruri vasitəsi və tərkib hissəsi olaraq davamlı perspektivlərə istiqamətlənən və formalaşan mükəmməl baza mövcuddur. Hələ:

- 3 sentyabr 1993-cü il tarixdə "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında";
- 6 dekar 1993-cü il tarixdə "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında";
- 28 iyun 1994-cü il tarixdə "Veteranlar haqqında";
- 13 iyun 1997-ci il tarixdə "Vətəndaşların pensiya təminatı haqqında";
- 17 iyul 2001-ci il tarixdə "Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası";
- 4 avqus 2003-cü il tarixdə isə "Azərbaycan Respublikasında dövlət pensiya sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında" qanunlar təsdiq olundu.

Təbii ki, səmərəli sosial siyasətin mövcudluğu ölkədə etibarlı sosial rifahın yüksəldilməsi sahəsində də mühüm addım olaraq dəyərləndirilə bilər. Görkəmli dövlət xadimi Heydər Əliyevin sosial sahədəki tənzimləmə tədbilərinin nəticəsi olaraq təhsil sektorundakı hüquqi islahatların əhəmiyyətini qeyd edə bilərik. Belə ki, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 26 aprel 1999-cu il tarixli Qərarı ilə Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartının təsdiq olunması və buna uyğun olaraq, həyata keçirilən islahatlar təhsilin və tədrisin səviyyəsinin yüksəldilməsi baxımından olduqca zəruridir. Ardıcıl tənzimləmə tədbirləri fonunda 15 iyun 1999-cu il tarixli Sərəncamla təsdiq olunmuş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" yeni iqtisadi və sosial şəraitdə davam edən islahatların səmərəsini artırmaqdadır. bu sahədə hərtərəfli inkişafa geniş şərait yaradan qiymətli dövlət konsepsiyasıdır. Təhsil sahəsində hüquqi tənzimləmənin növbəti səmərəsi ölkə başçısı tərəfindən "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 23 iyun 2000-ci il tarixli Fərmanı strateji əhəmiyyətə malikdir. 4 oktyabr 2002-ci il tarixli "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncamın imzalanması, 23 avqust 1996-cı ildə "Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında" Qərarın qəbul olunması bu sahədəki proseslərin əhəmiyyətini yüksəltməkdədir.

Sosial rifah siyasətinin səmərəlilik göstəricilərindən biri kimi səhiyyə sahəsindəki tənzimləmələr də mühüm əhəmiyyətə malikdir. 5 noyabr 1996-cı il tarixdə "Əczaçılıq fəaliyyəti haqqında", 26 iyun 1997-ci il tarixdə "Əhalinin sağlamlığının qorunması haqqında", 28 oktyabr 1999-cu il tarixdə "Tibbi sığorta haqqında" və digər hüquqi aktlar milli

liderin ölkədə sosial rifahın güclü dayaqları sahəsindəki tədbirlətinin tərkib hissəsidir.

Davamlı və dinamik inkişaf göstəricilərindən də görünür ki, ölkənin iqtisadi siyasəti əhalinin rifah göstəricilərindən ibarət inkişaf potensialını daha da artırmış və bu, da öz növbəsində sosial dayanıqlığın daha da gücləndirilməsini qoruya bilmişdir. Bunu müvafiq Dövlət Proqramlarının səmərəli icrası müddətlərində ölkəmizdə müəyyən olunmuş **minimum əmək haqqı**nın ölçüləri də göstərir (1995-ci ildən başlayaraq denominasiya (1 AZN=5000AZM) nəzərə alınmaqla).

*Şəkil 8.1.1.*

**Regional Dövlət Proqramlarının səmərəli icrası müddətlərində ölkəmizdə müəyyən olunmuş minimum əmək haqqının ölçüləri (manat)**




**Şəkil** Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi, sosial dövlət əhalinin sosial müdafiəsini daim diqqət mərkəzində saxlamaqla, bir ildə iki dəfə minimum əmək haqqının artmasını təmin etmişdir. Şəklin məlumatlarının təhlilindən aydın olur ki, 2004-2008-ci illərdə minimum əmək haqqının səviyyəsində 5 və 6,3 dəfəlik artım olmuşdur. Müvafiq olaraq, bu dinamika 2004-2013-cü illərdə 8,8 dəfə, 2004-2018-ci illərdə isə 10,8 dəfədən çox təşkil etmişdir.

Dövlətin sosial siyasətinin səmərəli təşkilinin ifadəsi olaraq, 2019-cu ilin 1 mart tarixində minimum əmək haqqının məbləği ölkə üzrə 180 manat, 1 sentyabr tarixində isə 250 manat müəyyən olundu. Bu, həmin il üzrə 2004-cü illə müqayisədə birinci mərhələdə 15, ikinci mərhələdə isə 20,8 dəfədən çox artım deməkdir.

**Minimum əmək haqqı -** qanunvericiliklə ixtisassız əməyə və xidmətə görə aylıq əməkhaqqının ən aşağı səviyyəsini müəyyən edən sosial normativdir (67).

Ölkə iqtisadiyyatında sosiallaşma proseslərini uğurla davam etdirilməsi əhalinin zəruri dövlət qayğısı ilə əhatə olunması sahəsində keyfiyyətcə yeni mərhələnin güclü əsaslarını yaratmaqdadır. Burada:

- yaşayış səviyyəsinin yüksəldilməsi;
- alıcılıq qabiliyyətinin gücləndirilməsi;
- sosial təbəqələr arasında qeyri-bərabərliyin aradan qaldırılması;
- əhalinin həssas təbəqisinin dövlət qayğısı ilə əhatə olunması zəruriliyinin əsaslandırılması;
- sosial rifah göstəricilərinin artan dinamikasının təşəkkülü məsələlərindən ibarət güclü hüquqi baza formalaşdırılmışdır. Bu sahədə həyata keçirilən hüquqi tənzimləmə tədbirlərindən biri kimi 5 oktyabr 2004-cü il (№ 768-IIQ) tarixdə ölkə başçısı tərəfindən təsdiq olunan Yaşayış minimumu haqqında Azərbaycan Respublikasının Qanununun

böyük əhəmiyyətini qeyd etmək yerinə düşər. Qeyd edək ki, həmin Qanun Azərbaycan Respublikasında yaşayış minimumunun müəyyənləşdirilməsinin, ona dövlət təminatının, ölkənin sosial-iqtisadi inkişafına uyğun olaraq yaşayış minimumunun yüksəldilməsinin prinsiplərini və qaydalarını müəyyən edir. Bu qanunla minimum istehlak səbətinin dəyəri və icbari ödənişlərin cəmindən ibarət sosial norma olaraq **yaşayış minimumu** illər üzrə müəyyən olunmuş və bu, hazırda da davam etdirilməkdədir.

**Yaşayış minimumu -** minimum istehlak səbətinin dəyəri və icbari ödənişlərin cəmindən ibarət sosial normadır (67).

*Cədvəl 8.1.1.*

**Regional Dövlət Proqramlarının səmərəli icrası müddətlərində ölkəmizdə müəyyən olunmuş yaşayış minimumu haqqında məlumat (manat)**

| İllər | Ölkə üzrə adambaşına orta hesabla | O cümlədən, əmək qabiliyyətli əhali üçün | Pensiyaçılar üçün | Uşaqlar üçün |
|---|---|---|---|---|
| 2007 | 64 | 70 | 49,7 | 52,4 |
| 2008 | 70 | 79 | 55 | 59 |
| 2009 | 84 | 92 | 65 | 69 |
| 2010 | 87 | 96 | 68 | 72 |
| 2011 | 95 | 102 | 72 | 76 |
| 2012 | 108 | 116 | 84 | 87 |
| 2013 | 116 | 125 | 94 | 93 |
| 2014 | 125 | 136 | 103 | 103 |
| 2015 | 131 | 140 | 108 | 108 |
| 2016 | 136 | 146 | 115 | 117 |
| 2017 | 155 | 164,5 | 130,2 | 136,6 |
| 2018 | 173 | 183 | 144 | 154 |
| 2019 | 180 | 191 | 149 | 160 |
| 2020 | 190 | 201 | 157 | 170 |

**Cədvəl** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bəhs olunan Qanunda əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumundan asılı olaraq ünvanlı dövlət sosial yardımının təyin olunması məqsədilə dövlət büdcəsi ilə birgə hər il üçün təsdiq olunan hədd kimi **ehtiyac meyarı** da təsbit olunmuş və hazırda da bu, icra olunmaqdadır.

**Ehtiyac meyarı -** əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumundan asılı olaraq ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə dövlət büdcəsi ilə birgə hər il üçün təsdiq olunan həddir (67).

***Cədvəl 8.1.2.***

**Regional Dövlət Proqramlarının səmərəli icrası müddətlərində ölkəmizdə müəyyən olunmuş ehtiyac meyarı haqqında məlumat (manat)**

| **İllər** | **Ehtiyac meyarının həddi** |
|---|---|
| 01.01.2007 | 35 |
| 01.07.2007 | 40 |
| 01.01.2008 | 45 |
| 01.07.2008 | 55 |
| 2009 | 60 |
| 2010 | 65 |
| 2011 | 75 |
| 2012 | 84 |
| 2013 | 93 |
| 2014 | 100 |
| 2015 | 105 |
| 2016 | 105 |
| 2017 | 116 |
| 2018 | 130 |
| 2019 | 143 |
| 2020 | 160 |

**Şəkil** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

## 8.2. Naxçıvan Muxtar Respublikasında reallaşan tədbirlər sosial sahənin davamlı inkişafının əsas amili və perspektivləri kimi

Azərbaycan Respublikasında milli iqtisadi quruculuq proseslərinin səmərəli təşkili məsələləri regionların sosial-iqtisadi inkişafı sahəsindəki tədbirlərin məhsuldarlığını da yüksəltməkdədir. Artan dayanıqlılıq və etibarlılıq sosial sahələr üzrə daha güclü perspektivlər yaratmadadır. Təbii ki, bu sahədə təhsil sektorunun iqtisadi və hüquqi tənzimlənməsi də mühüm əhəmiyyətə malikdir. Həyata keçirilən məqsədyönlü tədbirlər sosial sahənin mühüm bölmələrindən olan təhsilin və tədrisin keyfiyyətinin yüksəldilməsinə təkan vermiş, daha kreativ ideyalara əsaslanan potensial formalaşdırılmışdır.

Təhsil daimi axtarışda olan, yenilikçi dəyərlərə üstünlük verən, innovativ inkişafın imkanlarına əsaslanan sahədir. Bu sahə üzrə proseslərin səmərəliliyinin təmin olunması, təşkili və idarə olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən ardıcıl olaraq hüquqi tənzimləmələr həyata keçirilmişdir:

*Cədvəl 8.2.1.*

**2004-2018-ci illər ərzində müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasında təhsil sahəsinin hüquqi tənzimlənməsi tədbirləri**

| S№ | Hüquqi aktın adı | Təsdiq olunma tarixi |
|---|---|---|
| 1 | Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında imzalanan Fərman və bu Fərmanla təsdiq olunan Naxçıvan Muxtar Respublikasında Gənc İstedadlarının “Qızıl Kitabı”na | 31 yanvar 2012-ci il |

| | | |
|---|---|---|
| | adları yazılmış gənc istedadlar üçün təqaüdün verilməsi Qaydaları | |
| 2 | Naxçıvan Muxtar Respub-likasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam | 20 iyun 2014-cü il |
| 3 | "Elm, texnika, memarlıq, mədə-niyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika mükafatlarının təsis edilməsi, Mükafat Komissiyasının yaradılması və Əsasnaməsinin təsdiq olunması haqqında" Fərman | 23 avqust 2014-cü il |
| 4 | "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təsis edilməsi haqqında" Fərman | 4 sentyabr 2014-cü il |
| 5 | "Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında" Sərəncam | 14 mart 2015-ci il |
| 6 | "Ali və orta ixtisas təhsili müəssi-sələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncam | 27 iyul 2015-ci il |

**Cədvəl**: hüquqi normativ aktlar əsasında müəllif tərəfindən işlənmişdir.

Göstərilənlərlə yanaşı, 22 avqust 2016-cı il tarixli "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 81 №li qərarı da vardır ki, bunlarla da təhsil sahəsində keyfiyyətcə yeni mərhələnin əsasları yaradılmışdır.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları Naxçıvan Muxtar Respublikasının bütün sahələrdə olduğu kimi təhsil sahəsinin uzunmüddətli perspektivlərinə işıq salmış, nəticədə isə **iqtisadi təhsil** sahəsində mühüm yol qət olunmuşdur. Bu isə, muxtar

respublika gənclərinin daha müasir və daha kreativ ideyalarla formalaşmasına yol açmışdır.

**İqtisadi təhsil** – milli iqtisadiyyatın sahələri üzrə kadrların hazırlanmasının və təkmilləşdirilməsinin tərkib hissəsini təşkil edir (65, s. 54).

Hazırda Naxçıvan Muxtar Respublikasında böyüyən sağlam gənclik məhz bu keyfiyyətlər əsasında yetişməkdədir. Eyni zamanda, bütün bunlar artıq hazırkı 2020-ci ildə muxtar respublikada təhsil sektorunun güclü potensial əsasında qurulduğunu göstərməkdədir. Qeyd edək ki, burada:

- 3943 uşağın qayğı ilə əhatə olunduğu 22 məktəbə qədər təhsil müəssisəsinin;
- 50905 şagirdin təhsil aldığı 213 əyani ümumtəhsil müəssisəsinin;
- 664 şagirdin təhsil aldığı 4 peşə məktəblərinin və peşə liseyinin;
- 1730 tələbənin təhsil aldığı 4 orta ixtisas təhsil müəssisəsinin;
- 8194 tələbənin (6993 tələbə dövlət, 1201 qeyri-dövlət) təhsil aldığı 3 (2-si dövlət, 1-i qeyri-dövlət) ali təhsil müəssisəsinin fəaliyyət göstərməsini qeyd etmək olar. Onu da qeyd edək ki, muxtar respublikanın ali təhsil müəssisələrində oxuyan tələbələrin 4277 nəfərini qadınlar təşkil etməkdədir (70).

Təbiidir ki, insanın yaşadığı yer onun məhdud düşüncə ilə, qeyri-məhsuldar ideyalarla yaşamasına, dünyanın modernləşmə istiqamətli çağırışları ilə səsləşməməsinə əsas vermir. Dünya ilə onun öz dilində danışma bacarığına yiyələnmək yalnız yüksək təhsili olan gənclik vasitəsilə mümkün ola bilər. Məhz bu sahədə həyata keçirilən tədbirlər onu deməyə əsas verir ki, muxtar respublika qeyd olunan məsələlərin reallaşmasında maraqlıdır və onu təmin etməyi qətiyyətlə bacarır.

Naxçıvan Muxtar Respublikasında sosial dayanıqlığın ən mühüm göstəricilərindən birini iqtisadiyyatın bütün sahələrində innovativ inkişafın geniş əhatə dairəsini formalaşdırması təşkil etməkdədir. Qeyd edək ki, innovativ inkişaf sahəsində dövlət tənzimlənməsi zaman keçdikcə daha da təkmilləşmişdir. Burada 10 yanvar 2019-cu il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında Sərəncam imzalanmasını xüsusilə qeyd edə bilərik. Burada əsas məqsəd innovativ inkişaf sahəsində effektivliyin artırılmasından ibarətdir. Sərəncama əsasən, mərkəzi icra hakimiyyəti orqanları, AMEA, Azərbaycan Respublikası Prezidentinin, habelə, Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi icra hakimiyyəti orqanlarının yaratdıqları publik hüquqi şəxslər, o cümlədən, dövlət ali təhsil müəssisələri, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər (koordinasiya subyektləri) elmi naliyyətlər, bilik və rəqəmsal yeniliklər bazasında məhsul, xidmət, texnologiya, proses və həllərin hazırlanmasına, təqdim olunmasına və istifadəsinə əsaslanan innovativ inkişaf məsələləri üzrə məsul əlaqələndirici şəxsi on gün müddətində təyin edərək bu barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına məlumat verməlidirlər. Milli iqtisadi quruculuq proseslərində qeyri-neft sektorunun inkişafı sahəsində reallaşdırılan islahatların davamlılığında bu hüquqi tənzimlənmənin müstəsna əhəmiyyətə malik olduğunu qeyd edə bilərik. İnformasiyaların qorunması, ötürülməsi və əlaqələndirmənin sürətli təşkili məqsədilə adı çəkilən Sərəncamın böyük rolu olacaqdır ki, burada da təhsil sahəsinin perspektivləri diqqəti daha çox çəkməkdədir.

Bir az əvvəl yuxarıda muxtar respublikanın təhsil sahəsindəki göstəricilərdən bəhs olunan məsələləri qeyd etdik. Həmin göstəricilər gənclərin müasir tenika və texnologiyadan

istifadə sahəsindəki imkanlarını artırmaqdadır. Əlbəttə ki, onların elmi biliklərinin və dünyaya çıxış imkanlarının genişlənməsində mühüm stimuldur. Bu amil təhsil sahəsində həyata keçirilən tədbirlərin ən gerçək ifadəsinə çevrilmişdir. Qeyd edək ki, savadlanmanın, elmi-nəzəri biliklərin, dünyagörüşün və məntiqi yanaşmanın təkanverici qüvvəsinə çevrilən tədbirlər muxtar respublikada təhsil səviyyəsinin yüksəldilməsində ciddi amil olmuşdur. Nəticə etibarı ilə, muxtar respublikanın təhsil sektorundakı yeniliklər artıq regional Dövlət Proqramlarının üçüncü mərhələsinin yekunları üzrə səmərəli göstəricilər ortaya qoya bilmişdir. Bunu artıq 2019-cu ili əhatə etməklə, aşağıdakı cədvəl də ifadə etməkdədir (70).

***Cədvəl 8.2.2.***

**2019-cu ildə Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin İKT ilə təminatı (dərs ilinin əvvəlinə)**

| S/№ | Göstəricilər | Şəhər | Kənd | Ümumi |
|---|---|---|---|---|
| 1 | Ümumtəhsil məktəblərinin sayı | 37 | 176 | 213 |
| 2 | Kompüteri olan ümumtəhsil məktəblərinin sayı | 37 | 176 | 213 |
| 3 | İnternetə çıxışı olan ümumtəhsil məktəblərinin sayı | 37 | 176 | 213 |
| 4 | Kompüterlərin (fərdi, noutbuk və s.) sayı | 1674 | 3409 | 5083 |
| 5 | İnternetə qoşulan kompüterlərin sayı | 1476 | 3078 | 4554 |
| 6 | Orta hesabla bir kompüterdən istifadə edən şagirdlərin sayı | 12 | 9 | 10 |

**Cədvəl** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl məlumatları da göstərir ki, muxtar respublikanın bütün ümumtəhsil məktəblərinin hamısı kompüterlə təmin olunmuş və onların internetə çıxış imkanları artırılmışdır. Hesablamar göstərir ki, muxtar respublikanın bütün ümumtəhsil məktəbləri üzrə hər məktəbə 24 kompüter (fərdi,

noutbuk və s.) düşməkdədir. Bu, şəhər yerləri üzrə 45,2-dən çox, kənd yerlərində isə 19,4 kompüter demək olur. Digər bir müqayisəyə diqqət edərkən aydın olur ki, muxtar respublikanın ümumtəhsil məktəblərində verilən kompüterlərin 90 faizi internetə qoşulmuşdur. Həmçinin bu, şəhər yerləri üzrə 88,2, kənd yerləri üzrə isə 90,3 faiz təşkil edir.

Göründüyü kimi, bu gün Naxçıvan gənci və gəncliyi dünya iqtisadiyyatına, onun sosiallaşma proseslərinə, elminə, təhsilinə, araşdırmalarına, bir sözlə, ixtisaslı və savadlı kadr potensialına sürətlə inteqrasiya oluna bilən Azərbaycan dövlətinin hədəf və prioritetlərinə dolğun töhfə verməkdədir və bu sahədə dövlətin tənzimləyici dəstəyi ilə əhatə olunmuşdur. Həmin məlumatlara istinad etməklə, əldə olunan nəticələrin etibarlı **innovasiya fəaliyyəti**nin hərəkətverici qüvvəsi olduğunu bildirmək olar.

**İnnovasiya fəaliyyəti** – iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək məqsədilə yeni və kreativ ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq olunmasıdır (52, s. 35).

Sosial-iqtisadi inkişafın artan dinamikası təhsil sektorunun davamlı yüksəlişini təmin etməklə, Naxçıvan Muxtar Respublikasında gənc nəslin müasir dünyanın elmi yeniliklərinə münasibətində, düzgün yanaşmasında və səmərəli nəticələrin ortaya qoyulmasında mühüm əhəmiyyət daşımaqdadır. Müasir dövrün elmi tədqiqatlarının, təhsil sahəsindəki ən son nailiyyətlərinin əldə olunması məhz bu istiqamətdə təmin olunan innovativ potensialın əhatəsindən və imkanlarından çox asılıdır. Buna görə də təhsil sahəsində, eləcə də, ümumtəhsil məktəblərində kompüterləşmə səviyyəsinin, internetdən istifadə imkanlarının səmərəliliyi geridə qoyduğumuz illərin məhz sosial-iqtisadi ininkişaf tarixinə aid olunmalıdır. Artıq 2019-2020-ci tədris ilinin əvvəlinə muxtar respublikanın şəhər və rayonları üzrə:

- Naxçıvan şəhərində 23;
- Şərur rayonunda 55;
- Babək rayonunda 36;
- Ordubad rayonunda 34;
- Culfa rayonunda 26;
- Kəngərli rayonunda 12;
- Şahbuz rayonunda 23;
- Sədərək rayonunda isə 4 ümumtəhsil məktəbi vardır ki, onların da hamısı kompüterlə təmin olunmuşdur.

Aşağıdakı şəkildə muxtar respublikanın şəhər və rayonları üzrə ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları (İKT) ilə təminatına dair məlumatlar yer almışdır.

*Şəkil 8.2.1.*

**2019-2020-ci tədris ilinin əvvəlinə muxtar respublikanın şəhər və rayonları üzrə ümumtəhsil məktəblərinin İKT ilə təminatı**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır

Müvafiq statistik məlumatların təhlili göstərir ki, Naxçıvan şəhəri üzrə hər bir ümumtəhsil məktəbinə 50,2 kompüter düşməkdədir. Digər şəhər və rayonlar üzrə isə:

Şərur rayonu üzrə 23,3;
Babək rayonu üzrə 21,9;
Ordubad rayonu üzrə 15,9;
Culfa rayonu üzrə 21,5;
Kəngərli rayonu üzrə 30,1;
Şahbuz rayonu üzrə 10,3;
Sədərək rayonu üzrə 40 olmaqla təşkil edir.

Qeyd edək ki, muxtar respublikanın bütün ümumtəhsil məktəbləri kompüterlə təmin edilmişdir. Hesablamalarla şəhər və rayonların ümumtəhsil məktəbləri üzrə kompüterlərin internetə qoşulması haqqında məlumatı aşağıdakı kimi göstərə bilərik:

Naxçıvan şəhəri – 87,3%;
Şərur rayonu – 93,1%;
Babək rayonu – 86,3%;
Ordubad rayonu – 84,8%;
Culfa rayonu – 93,4%;
Kəngərli rayonu – 94,5%;
Şahbuz rayonu – 94,5%;
Sədərək rayonu – 78,6%.

Göründüyü kimi, ümumtəhsil məktəblərində internetdən istifadə üçün səmərəli imkanlar yaradılmış və bu, tədris prosesi üçün bilik mübadiləsinin, telekörpülərin inkişafında, eləcə də əldə edilmiş təcrübələrin yayılmasında mühüm əhəmiyyətə malik olmuşdur. Bu, eyni zamanda, ümumtəhsil məktəblərində şagirdlərin kompüterdən istifadə imkanlarını da genişləndirmişdir. Qeyd edə bilərik ki, müvafiq dövr üzrə orta hesabla:

Naxçıvan şəhərində - 11
Şərur rayonunda – 8
Babək rayonunda – 12

Ordubad rayonunda – 9
Culfa rayonunda – 9
Kəngərli rayonunda – 10
Şahbuz rayonunda – 9
Sədərək rayonunda – 8 şagird bir kompüterdən istifadə edə bilir (70).

Heç şübhəsiz ki, bütün bunlar muxtar respublikada təhsilin və tədris proseslərinin səmərəliliyini daha da artırmaqdadır. Yaradılan əlverişli şərait sağlam mütaliə mühitinin, elmi bilik və dünyagörüşün təşəkkülündəki tədbirlərin məqsədyönlülüyünü daha da gücləndirmiş, onun cəmiyyət üçün faydalılığını artırmışdır. İstinad olunan sahələr üzrə reallaşan tədbirlər özünün ardıcıllığı, yeni və modern inkişaf səhifələrinin açılması və müasir dünyanın yeni çağırışları ilə səsləşməsilə önəmini yüksəltməkdədir. Nəticədə, kitaba, savadlanmaya, elmə, təhsilə, yeniliklərə, axtarışlara və müasirləşməyə olan münasibət tamamilə dəyişmiş, yeni əsrin, hətta gələcəyin düşüncəsilə yaşayan və inkişaf edən gənclik formalaşmışdır. Təbii ki, bu, muxtar respublikada innovativ inkişafla yanaşı, intellektual mülkiyyətin də mövcudluğuna, onun qorunmasına və uzaq gələcək üzrə perspektivliliyinə güclü təminat verməkdədir. Bu sahədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 28 avqust 2017-ci il tarixdə Oxunması zəruri olan kitablar haqqında Sərəncamın imzalanması və Oxunması zəruri olan kitabların Siyahısı təsdiq olunması müstəsna əhəmiyyətə malik olması ilə seçilməkdədir. Bu tənzimlənmə aktı muxtar respublikada:

- xüsusən gənclərin savadlanmasında güclü və mükəmməl bazanı daha da möhkəmlətməklə, onlara dünya görüşlərini artırmaqda yeni imkanlar açacaq;
- gənclərlə yanaşı, həm də digər təbəqələrdən və yaşlardan olan insanların asudə vaxtlarının daha səmərəli keçirilmə-

sinə zəmin yaradacaq ki, bu da təhsilə və savadlanmaya olan marağın daha da artmasına səbəb olacaq;

- ölkənin qeyri-maddi istehsal sahəsindəki artım göstəricilərinin yüksəldilməsinə yol açacaq;

- cəmiyyətdə humanizmin, xoşməramın, elmi-mədəni mühitin bundan sonrakı inkişafına və bu istiqamətdə məqsədyönlülüyə təkan olacaq;

- gənclərin yaradıcılıq potensialının, yeni təşəbbüs və təşkilatçılıq keyfiyyətlərinin inkişafına stimul verəcək ki, bu da sosialyönümlülüyü ilə milli iqtisadiyyatın əsas perspektivlərinə hesablanıb.

Siyahıya diqqət edərkən ilkin, başlanğıc mərhələ üçün 30 kitabın təsdiq olunduğunu və onun daha da zənginləşməsinin diqqətdə saxlanılması müəyyən olunduğunu görürük. Təbii ki, bu, Azərbaycan ədəbiyyatının klassik və müasir səhifələrinin açılması, öyrənilməsi, təkrarlanması, bilik və elmi-nəzəri təcrübənin mənimsənilməsi, şair, yazıçı və mütəfəkkirləimizin həyat və yaradıcılığına daha yaxından bələdçiliyin ən gerçək göstəricisidir. Digər tərəfdən, Azərbaycan oxucusunun dünya ədəbiyyatına inteqrasiyasının, bununla da, dünyəvi bilik və düşüncənin, fikir mübadiləsinin müasir yanaşma tərzinin dolğunluğunun isbatıdır. Burada həm də, sanki, oxunan kitabların müəllifləri ilə qurulan ünsiyyətin real gerçəklikdəki mənzərəsi təqdim olunmaqdadır.

Qeyd edək ki, bu, həmçinin kitabsevərlərə dövlət qayğısının bir ifadəsidir. Oxucular muxtar respublikada olan 212 kütləvi kitabxanada həmin kitablarla tanış olmaq imkanına malikdirlər. Bunlarla yanaşı, elmi və tarixi əsaslara söykənən fəaliyyətin təşkili məsələlərinə də ciddi yanaşma mövcuddur. Təkcə onu deyə bilərik ki, 2019-cu ildə muxtar respublikada olan 30 muzeyə gələnlərin sayı 502,2 min nəfərdən artıq olmuşdur. Bu, bir muzey üçün 17 min nəfərə yaxın ziyarətçi təşkil edir.

Bu bir həqiqətdir ki, muxtar respublikada sosial-iqtisadi sahələr üzrə reallaşdırılan tədbirlər, davam etdirilən islahatlar və yaradılan infrastruktur potensialı hər bir sakinin rifahının artırılmasına, daha yaxşı yaşam tərzinin təmin olunmasına hesablanıb. İnsanların asudə vaxtlarının daha səmərəli keçirilməsi məqsədilə muxtar respublika ərazisində 50 mədəniyyət və istirahət parkı yaradılmışdır. Bu sahədəki tədbirlər hazırda daha səmərəli olmaqla, davam etdirilməkdədir. Şəhərimizin gözoxşar, tarixiliyin və müasirliyin vəhdətindən ibarət üslübda diqqət çəkən yerlərindən biri də Naxçıvançayın sahillərində yaradılmış istirahət məkanlarıdır. Həmin ərazidə "Görüş yeri" kafesi, "Əyləncə adası" İstirahət və Əyləncə Mərkəzi, 10 may tarixində isə istifadəyə verilən Sahil parkı yerləşməkdədir ki, bu da körpüdən körpüyə yeni elə məmnunluq körpüsünə çevrilmişdir.

Ölkəmiz sosial dayaqlarını gücləndirdikcə vətəndaşların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması məsələləri daha çox diqqət mərkəzində olur. İqtisadiyyatın sahə strukturunun davamlı inkişafı məqsədilə həyata keçirilən tənzimləmə tədbirləri bütün tərəfləri ilə onun sosiallaşma çəkisinin artmasında həlledici amilə çevrilməkdədir. Bütün bunlar isə xalqımızın ümummilli lideri böyük Heydər Əliyevin həmişəyaşar ideyaları ilə müasir müstəqillik illərinin çox möhtəşəm sosial-iqtisadi inkişaf tarixini təşkil etməkdədir. Nəticədə isə, həmin ideyalar məlum Dövlət Proqramlarının uzunmüddətli və çoxşaxəli perspektvlərin qətiyyətlə reallaşmasına təsirini daha da artırmışdır.

Artıq Azərbaycan Respublikası məhz bu dəyərlər əsasında son 17 illik bir inkişaf dövründə:

- iqtisadiyyatın regional mahiyyətinin yüksəldilməsindən ibarət güclü inkişaf yolu keçmiş;

- bazar iqtisadiyyatının sosialyönümlülüyünün artırılması ilə daha mütərəqqi layihələrin icrasına zəmin yarada bilmiş;
- regional iqtisadi inkişafın daha çox milli iqtisadi inkişafın təmin olunması sahəsində uzunmüddətli hədəflərini müəyyənləşdirmiş;
- əhalinin davamlı dövlət qayğısı ilə əhatə olunmasında qətiyyətli addımlar atmış;
- nəhayət, bütövlükdə milli iqtisadiyyatın məşğulluq və rifah anlayışlarının yer aldığı, daha dorğusu, özünə kök saldığı qətiyyətli təminatqabiliyyətinə malik sosial dəyərlər məcmusuna çevirlməsinə nail ola bilmişdir.

Bunlarla yanaşı, uzaq gələcək üzrə prioritetlərin reallaşması məqsədilə davamlı və artan potensiala malik islahatların həyata keçirilməsi diqqətdə saxlanılmış, bütün bunlar regionların sosial – iqtisadi inkişafına dair Dövlət Proqramlarının əsas məqsədlərində yer almışdır.

İstər regional, istərsə də milli iqtisadi hədəflər baxımından makroiqtisadi potensialın artırılmasında Naxçıvan Muxtar Respublikasının yeri, rolu və çəkisi daha da artmaqdadır. Keçən müddətlər ərzində muxtar respublikada bu sahədə hüquqi tənzimləmələrin həyata keçirilməsi ardıcıl xarakter daşımışdır.

Əldə olunan genişmiqyaslı uğurları nəzərə almaqla, qeyd edə bilərik ki, bu və ya digər tənzimləmə tədbirləri muxtar respublikada güclü iqtisadi bazanın yaradılmasını və ondan gələcək perspektivlər nəzərə alınmaqla səmərəli istifadə olunmasını da nəzərdə tutmaqdadır. Göründüyü kimi, muxtar respublikada sosiallaşma proseslərinin təşəkkülü bir qayda olaraq onun çoxcəhətli üstünlüklərini qeyd etməyə imkan yaratmaqdadır:

- iqtisadiyyat hər bir vətəndaşın (sakinin) artan tələbatlarını nəzarətdə saxlayır, onun qarşılanması sahəsində tənzimləyici prosesləri müəyyənləşdirir;

- cəmiyyət üzvlərinin təlabatdan təminata qədər olan əlçatanlığını asanlaşdırır və bu sahədə yetkin bazanın yaradılmasına stimul yaradır;
- regionların davamlı istehsal potensialının artırılaraq əhalinin etibarlı məşğulluğu sahəsindəki perspektivləri gücləndirir;
- milli iqtisadiyyat üzrə reallaşdırılan layihələrin səmərəliliyinin və çoxşaxəliliyinin artırılması üçün stimullaşdırıcı mexanizlərin dəqiqləşdirilməsinə təkan verir;
- təkmil iqtisadi idarəetmənin təminatı məqsədilə islahatların davamlılığında qərarlılıq var və bu sahədəki proseslərin səmərəliliyini diqqətdə saxlayır və s.

Sosiallaşan iqtisadiyyat özündə eyni zamanda, iqtisadi – istehsal münasibətlərinin möhkəmlənməsində olduğu kimi, onun davamlılığında da maraqlıdır. İxtisaslaşmanın zəruriliyi, sağlamlığın qorunması, dünyagörüşün artırılması, mədəni keyfiyyətlərin, təhsilalma imkanlarının və digər amillərin məcmusu olaraq bu anlayış daim aktualdır.

Təbii ki, yuxarıda bəhs etdiklərimizin hər birini bu sahədə mükəmməl tədbirlər olaraq dəyərləndirmək olar və bunların hər biri muxtar respublika iqtisadiyyatının çoxşaxəlilik proseslərinə etibarlılıq gətirməkdədir. Burada makroiqtisadi göstəricilərin təhlilindən aydın olur ki, bütün sahələrlə yanaşı, bədən tərbiyəsi və idman sahəsində də artım dinamikası təmin olunmuşdur. Regional inkişaf proqramlarının səmərəli icrası bu sahənin də dövlətin diqqətində olduğunu göstərməkdədir.

Müasir müstəqillik illərində ölkədə sosiallaşma prosesləri sahəsində əldə olunan uğurlar içərisində idmanın rolu böyükdür. İstər xaricdə, istərsə də ölkəmizin müxtəlif şəhərlərində ev sahibliyi ilə keçirilən beynəlxalq idman yarışlarında idmançılarımızın qazandıqları medallar bu sahənin inkişafında da dövlətin tənzimləyici rolunun artdığını

deməyə güclü əsaslar verməkdədir. Sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi idman sahəsində də zəruri infrastrukturun yaradılması və ondan hədəflər üzrə səmərəli istifadənin təmin olunması muxtar respublikada təşəkkül tapmışdır. Regional inkişaf üzrə Dövlət Proqramlarının səmərəli icrası idman sahəsinin də güclü dayaqlarını yaratmışdır. Bunu müxtəlif illərin müqayisəsi də göstərir. Müvafiq illər üzrə muxtar respublikada olan idman qurğularının sayı haqqındakı məlumatlar aşağıdakı şəkildə yer almışdır.

***Şəkil 8.2.2.***

**Regional inkişaf proqramlarının icrası üzrə müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasında idman qurğularının sayı (ilin axırına, cəmi)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Şəklin məlumatlarından aydın olur ki, 2018-ci ildə muxtar respublikada idman qurğularının cəmi sayı 2012-ci illə müqayisədə 1,6 dəfə artmışdır ki, bu da idman sahəsində əsas

göstəricilər olaraq qeyd oluna bilər. Şübhəsiz ki, Dövlət Proqramlarının icrası ilə yaradılan səmərəli mühit idmanla məşğul olanların sayında da artımın təmin olunmasına öz təsirini göstərməkdədir. Tikilən olimpiya kompleksləri, fəaliyyətləri daha da məhsuldar olan çoxnövlü federasiyalar artıq muxtar respublikanın idman ictimaiyyəti üçün daha etibarlı zəminlər yaratmaqdadır. Onlardan Naxçıvan Muxtar Respublikasının Şahmat, Kikboksinq, Atıcılıq, Voleybol, Güləş, Boks, Yüngül Atletika, Ekstremal İdman Növləri, Karate-do, Basketbol, Futbol, Paralimpiya və s. kimi federasiyalarının fəaliyyətlərini qeyd edə bilərik ki, onlar həm də idman mədəniyyətinin inkişafında böyük əhəmiyyətə malikdirlər.

*Şəkil 8.2.3.*

**Regional inkişaf proqramlarının icrası üzrə müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi ilə məşğul olanların sayı (il ərzində)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Hər qarışda tarixiliklə müasirliyin vəhdətini yaşadan muxtar respublikada 58 idman müəssisəsi və 886 idman obyekti mövcuddur. İnsan sağlamlığının qorunması üçün zərərli vərdişlərdən uzaq olmanın, cəmiyyət üzvlərinin təhlükəsiz həyat şəraitinin bərqərar olmasında, dünya görüşün, məntiqi və düzgün qərar vermə keyfiyyətlərinin inkişafında idmanın və onun müxtəlif növlərinin mühüm rolunu qeyd edə bilərik. Bu məqsədlə, muxtar respublikada bədən tərbiyəsinin inkişafına və idman sahəsinin perspektivliyinin artırılmasına dövlət qayğısı özünü göstərməkdədir. Milli iqtisadi inkişafın sürətləndirilməsi və sosial dayanıqlığın daha da möhkəmləndirilməsi sahəsindəki islahatlar öz əhatəsini idmanın inkişafında da göstərməkdədir. Naxçıvan Muxtar Respublikasında səmərəli idman mühitinin və etibarlı bədən tərbiyəsi sahəsinin təşəkkülü məqsədilə zəruri tədbirlər həyata keçirilməkdədir. 2020-ci ilin fevral ayının 1-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" müşavirənin keçirilməsi də bu sahədəki tədbirlərin davamlılığının və perspektivliliyinin ifadəsidir. Müşavirədə muxtar respublikada idmanın və bədən tərbiyəsinin uzunmüddətli inkişafı istiqamətində bir sıra tədbirlərlə yanaşı, qarşıdakı dövrlər üzrə idman sahəsində görüləcək işlərin dinamikliyini təmin etmək məqsədilə "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Resublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın hazırlanması da qərara alınmışdır. Həmçinin idman federasiyalarının muxtar respublikada ölkə və beynəlxalq səviyyəli idman yarışlarının keçirilməsinə diqqətinin artırılması, federasiyadaxili və rayonlararası idman yarışlarının keçirilməsinin zəruriliyi və digər tədbirlər də zəruri məqsədlər olaraq götürülmüşdür. Qeyd edək ki, 14 fevral 2020-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən bəhs olunan Dövlət Proqramı təsdiq olunmuşdur. Sosial siyasətin

səmərəliliyinin yüksəldilməsində mühüm göstərici olan bu tədbirlər muxtar respublikada idmanın davamlı inkişafında yeni inkişaf mərhələsinin əsaslarını təşkil edəcək. Dövlət Proqramında həyata keçiriləcək tədbirlər 6 mərhələdə nəzərdə tutulmuşdur ki, onlar da aşağıdakılardan ibarətdir:

- muxtar respublikada idmanın kütləviliyini artırmaq üçün həyata keçirilən tədbirlər;
- kadr təminatı və tədrisin təşkili;
- bədən tərbiyəsi və idmanın inkişafı ilə maddi-texniki bazanın möhkəmləndirilməsi;
- idman sahəsində beynəlxalq əməkdaşlıq;
- bədən tərbiyəsi və idman sahəsində təminatlar;
- idmanın təbliği sahəsində maarifləndirici tədbirlər

Beləliklə, Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlər öz genişmiqyaslılığı ilə sosial-iqtisadi inkişafda yeni-yeni səhifələrin açılmasına istiqamətlənmişdir. Bədən tərbiyəsi və idmanın qarşıdakı uzunmüddətli dövrlər üzrə inkişafı isə bu istiqamətdəki göstəricilərin yüksələn xətt üzrə davamlılığına etibarlı zəmin olacaq. Muxtar respublikada müəyyən olunan prioritetlərin reallaşmasındakı qətiyyətlilik bunu deməyə əsas verir.

## 8.3. Regional Dövlət Proqramlarının səmərəli icrası əhalinin sosial müdafiəsinə dövlət qayğısının əsas amili kimi

Bu bir həqiqətdir ki, ölkəmiz sosial dayaqlarını gücləndirdikcə, əhalinin diqqətdə saxlanılması, onların dövlətin müxtəlif layihələrində iştirakı məsələləri də genişmiqyaslılığı ilə seçilir. Elə bu məqsədlə artıq 16 ildir ki, ölkəmizdə regional inkişaf sahəsində Dövlət Proqramları ölkə başçımız tərəfindən təsdiq olunmuş və artıq dördüncü mərhələsinin uğurlar fonunda icrası təmin olunmaqdadır. Əlbəttə ki, sosial təminat qabiliyyəti güclü olan ölkələrin

böhran və sıxıntılara qarşı müqavimət gücü də yüksək olar. Bu mənada, Naxçıvan Muxtar Respublikasında əhalinin sosial müdafiəsinin daim diqqətdə saxlanılması onların dövlətin himayədarlığı altında özlərini güvəndə hiss etmələrinə səbəb olmuşdur. Yüksək doğmalıqla həyata keçirilən bu tədbirlər özünü yeni iş yerlərinin açılması, məşğulluq səviyyəsinin yüksəldilməsi, əhalinin maddi-rifah halının daha da yaxşılaşdırılması, təqaüddə olanların yüksək dövlət qayğısı ilə əhatə olunmasında və s. kimi məsələlərdə göstərməkdədir.

Artıq Naxçıvan Muxtar Respublikası özünün davamlı, yenilikçi və yaradıcı sosial-iqtisadi perspektivləri ilə güclü makroiqtisadi potensialını qurmuşdur. Uzun illərdir davam edən blokada vəziyyətinin təsirlərinə baxmayaraq muxtar respublikamız iqtisadiyyatın sosiallaşma çəkisinin daha da artmasına diqqət göstərmiş və bu, əhalinin etibarlı və təminatlı yaşamasının çox mühüm göstəricisinə çevrilmişdir. Müxtəlif təbəqələrdən olan insanlar dövlətin daimi diqqət və qayğısından ruhlanaraq daha firəvan həyat şəraiti qurmaqdadırlar. Təbii ki, bunlar pensiyaçıların da sosial müdafiəsinin güclənməsində əsas amildir.

Qeyd edək ki, pensiyaçıların sosial vəziyyətinin yaxşılaşdırılması məsələlərinə diqqət edərkən aydın olur ki, regional inkişaf sahəsindəki tənmzimləmələr muxtar respublikada müxtəlif illər üzrə təqaüddə olanların dövlət qayğısı ilə əhatə olunmasına imkan yaratmışdır. Aşağıdakı şəklin məlumatları regional inkişaf Dövlət Proqramlarının icrası üzrə müxtəlif illərdə muxtar respublikada olan pensiyaçılar haqqında məlumatları ifadə edir:

***Şəkil 8.3.1.***

**Regional inkişaf Dövlət Proqramlarının icrası üzrə müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasında pensiyaçılar haqqında məlumat (ilin axırına, nəfər)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Əmək pensiyaları haqqında Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli (№ 54-III Q) Qanununa görə əmək pensiyalarının yaşa, əlilliyə və ailə başçısını itirməyə görə olmaqla, üç növü müəyyən olunmuşdur. Qeyd edək ki, həmin qanun Azərbaycan Respublikasında vətəndaşların əmək pensiyası hüquqlarının yaranmasının əsaslarını, bu hüquqların həyata keçirilməsi qaydalarını və əmək pensiyası təminatı sistemini müəyyən edir. Müvafiq statistik məlumatlara diqqət edəndə muxtar respublikada hər üç növ üzrə göstəricilərin aşağıdakı kimi olduğunu görürük.

*Şəkil 8.3.2.*

**Regional inkişaf Dövlət Proqramlarının icrası üzrə müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasında əmək pensiyasının növlər üzrə bölgüsünə aid məlumat (ilin axırına, nəfər)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Artıq dördüncü mərhələsinin uğurlu icrası davam edən regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının yaratdığı səmərəli sosial mühit əmək pensiyaçılarının davamlı dövlət qayğısı ilə əhatə olunmasında güc mənbəyinə çevrildi. Bunu təyin olunmuş aylıq pensiyaların orta məbləği haqqında məlumatlar da göstərməkdədir.

***Şəkil 8.3.3.***

**Regional inkişaf Dövlət Proqramlarının icrası üzrə müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasında təyin olunmuş aylıq pensiyaların orta məbləği (ilin axırına, manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi, muxtar respublikada müxtəlif illər üzrə pensiyaçıların dövlət qayğısı ilə əhatə olunması daim diqqət mərkəzində saxlanılmışdır. Bütün bunlar ölkənin sosial gücünü, onun regionlarının, xüsusilə də, muxtar respublikanın bu istiqamətdəki çevik iştirakını göstərməkdədir.

Makroiqtisadi inkişafın mühüm göstəricilərindən birini də **sosial müavinətlər**in təyin olunması məsələləri təşkil etməkdədir.

**Sosial müavinətlər** – Azərbaycan Respublikasının Sosial müavinətlər haqqında Qanunla müəyyən olunmuş qaydada ayrı-ayrı şəxslərə sosial yardım göstərilməsi

məqsədilə aylıq və birdəfəlik ödənilən pul vəsaitidir (31, s. 72).

Müvafiq məlumatlarla tanış olarkən, muxtar respublikada sosial müavinətlərin təyin olunmasına aid göstəriciləri aşağıdakı kimi göstərə bilərik:

***Şəkil 8.3.4.***

**Regional inkişaf Dövlət Proqramlarının icrası üzrə müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasında sosial müavinət təyin olunan şəxslərin sayı (ilin əvvəlinə, nəfər)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Sosial sektorun dinamik inkişafı və bu sahədə davamlılıq məqsədilə əladə olunan uğurlar muxtar respublika iqtisadiyyatında uzunmüddətli perspektivləri daha da artırmaqdadır. Təbii ki, bu isə, bir nəfərə düşən sosial müavinətin orta aylıq məbləğinin illər üzrə artımında özünü göstərməkdədir. Bununla, dövlət öz vətəndaşına sahib çıxır, onun hüquqlarını, sosial müdafiəsini qoruyur, rifahını, yaşam tərzini nəzarətdə saxlayır, iqtisadi böhranlar qarşısında müavimətliliyinin artırılmasında maraqlı olduğunu göstərir. Aşağıdakı şəklin məlumatlarında bunu görmək olar.

*Şəkil 8.3.5.*

**Regional inkişaf Dövlət Proqramlarının icrası üzrə müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasında bir nəfərə düşən sosial müavinətin orta aylıq məbləği (ilin əvvəlinə, manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ölkəmiz böyük Heydər Əliyevin sosial dayanıqlılıq ideyalarından bəhrələnməklə, müasir dövrün tələblərinə və hazırkı inkişaf səviyyəsinə yüksəlməyə davam etməkdədir. Naxçıvan Muxtar Respublikasında da bu baxımdan dövlətin hədəf və prioritetləri əsasında qətiyyətli addımlar atılır. Bu isə təbii ki, əhalinin maddi rifah halının daha da yaxşılaşdırılması məqsədlərinə xidmət etməkdədir. Bu gün muxtar respublikada:

- əhalinin etibarlı yaşam tərzinin daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü işlər həyata keçirilməkdədir;

- iqtisadiyyatın sahə strukturunun sosiallaşma çəkisi bütün mərhələlərdə özünü göstərməkdədir;

- dövlətin sosial-iqtisadi siyasəti davamlı və dayanıqlı inkişaf göstəriciləri ilə müşayiət edilməkdədir;

- sosial proqramların icrası üzrə biri-biri ilə əlaqəli olan hüquqi tənzimləmələrin qəbulu və təsdiqi davam etməkdədir;

- bütün bunlar milli iqtisadiyyatın uzaq gələcək üçün perspektivlərinə hesablanıb və s.

Bütün bunlar bir daha onu göstərir ki, ölkənin vətəndaşları onun yüksək sosial diqqət və qayğısından hər zaman yararlanmış və dövlətin bu sahədə gerçəkləşdirdiyi bütün layihələr məhz vətəndaşların firəvanlığına yönəlmişdir.

Ölkə başçısı cənab İlham Əliyev 2019-2023-cü illər üzrə Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına da ir müşavirədə demişdir: ***2004-cü ildə qəbul edilmiş birinci proqram tarixi hadisə idi. O vaxt o proqram mənim seçkiqabağı proqramımın tərkib hissəsi idi. O vaxt ilk dəfə prezident vəzifəsinə seçilən zaman vətəndaşlara demişdim ki, əgər mənə etimad göstərilərsə, o cümlədən regionların inkişafı ilə ciddi məşğul olacağam. Çünki bilirdim ki, Azərbaycanın regionlarında vəziyyət o qədər də yaxşı deyil. Bunun da əlbəttə ki, təbii səbəbləri var idi - infrastruktur köhnəlmişdi, demək olar ki, sıradan çıxmışdı, bir çox müəssisələr fəaliyyətini dayandırmışdı, kənd təsərrüfatında durğunluq yaşanırdı. Ona görə hesab edirdim ki, Regional İnkişaf Proqramı bizim üçün əsas təkanverici proqram olacaq. Eyni zamanda, Azərbaycan əhalisinin böyük əksəriyyəti bölgələrdə yaşayır, rayonlarda, kəndlərdə yaşayır. Onların yaşayışı yaxşılaşmalı idi. Ona görə bu proqramın qəbul edilməsi bir daha demək istəyirəm ki, tarixi hadisə idi. O vaxtdan bu günə qədər hər il biz proqramın icrasını müzakirə edirik. Dediyim kimi, üç proqram qəbul edildi və icra olundu, dördüncü proqram indi icra edilir.***

# IX FƏSİL

# REGİONAL İNKİŞAF ÜZRƏ DÖVLƏT PROQRAMLARI VƏ MİLLİ İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ: MƏŞĞULLUQ SİYASƏTİ, İNFRASTRUKTUR, DAYANIQLILIQ VƏ YA DAVAMLILIQ

## 9.1. Regional Dövlət Proqramları və ölkədə məşğulluğun təmin olunması sahəsində keyfiyyətcə yeni mərhələnin başlanması

Azərbaycan Respublikasında milli iqtisadiyyat üzrə quruculuq prosesləri inkişaf dinamikasına malikdir. Müasir müstəqilliyin hazırkı mərhələsində uzunmüddətli perspektivlərin müəyyən olunduğu tədbirlər ölkənin bütün regionlarının istehsal (iqtisadi) münasibətlərinin inkişafındakı rolunu artırmış, bu isə iqtisadiyyatın sosiallaşması sahəsində dayanıqlı potensial formalaşdırmışdır. Nəticədə isə, iqtisadiyyat özünün çoxşaxəliliyi ilə əhalinin rifah səviyyəsinin, sosial müdafiəsinin və məşğulluq perspektivlərinin etibarlı təminatı sahəsində güclü bazaya çevrilmişdir. Məşğulluq həm elmi, həm də sosial-iqtisadi mahiyyəti ilə bütün dövrlərin aktual məsələsi olaraq qalmaqdadır. Ölkələr çox müxtəlif tədbirlər, islahatlar və tənzimləmələr vasitəsilə məşğulluğun hüquqi və iqtisadi təminat mexanizmlərini hazırlayır və yeni iş yerlərinin açılması ilə bu sahədəki məqsədlərini əlçatan edirlər. Əlbəttə ki, məşğulluq anlayışı özünün dolğun izahı ilə işsizliyin minimum səviyyəsini ifadə edir və bu sahə üzrə pozitiv meyilləri nəzərdə tutur. Buna görə də ölkəmizdə məşğulluğun təmin olunması sahəsində nail olduğumuz hazırkı inkişaf

səviyyəsindən baxdıqda geridə qalan illərin strateji tənzimləmə sahəsindəki mühüm göstəricilərlə zəngin olduğunu qeyd edə bilərik.

Həyata keçirilən məşğulluq tədbirlərinin mövcud vəziyyətinin təhlili və uzaq gələcək üzrə perspektivlərinin müəyyən olunması bir daha göstərir ki, bu sahə dövlətin iqtisadi prioritetlərinə aiddir və müvafiq istiqamətdəki proseslərin davamlılığı təmin olunmuşdur. Elə həmin tədbirlərin nəticəsi olaraq, 13 fevral 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan Sərəncamla Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı təsdiq olunmuşdur. Bu Sərəncam əvvəlki dövrlərdə məşğulluq sahəsində qüvvədə olan qanunvericiliyin sosial-iqtisadi və məntiqi davamıdır. Qeyd edək ki, Tədbirlər Planı beş əsas mərhələdən ibarətdir. Bunlar:

- əmək bazarının tənzimlənməsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsindən;
- işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi və əmək standartlarının təkmilləşdirilməsindən;
- aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və səmərəliliyinin artırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin əmək bazarına inteqrasiyasının gücləndirilməsindən;
- sosial dialoqun inkişaf etdirilməsi və qeyri-formal əmək münasibətlərinin qarşısının alınmasından;
- əmək bazarının monitorinqi və proqnozlaşdırılması sisteminin inkişaf etdirilməsindən ibarət olmaqla, dövlətin məşğulluq siyasətinin çoxistiqamətliliyini bir daha göstərir.

Qeyd edək ki, əvvəlki dövrlərdə də, xüsusən, 2 iyul 2001 -ci və 29 iyun 2018-ci il tarixlərdə Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunları qəbul olunmuşdur.

Dövlət başçısının 26 oktyabr 2005-ci ildə imzaladığı Sərəncamla "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)", 15 may 2007-ci il tarixdə imzaladığı Sərəncamla isə "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-ci illər)" da təsdiq olunmuşdur. Bunlarla yanaşı, 2006-2015-ci illər üzrə təsdiq olunmuş Dövlət Proqramında nəzərdə tutulmuş ikinci mərhələnin həyata keçirilməsini təmin etmək məqsədilə 15 noyabr 2011-ci il tarixdə dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı" təsdiq olunmuşdur. Bütün bunlar bir daha göstərir ki, məşğulluq məsələsi dövlətin gündəlik diqqəti ilə əhatə olunmuşdur və onun uzaq gələcək üzrə müəyyən olunması nəzərdə tutulmuşdur. Bunu 30 oktyabr 2018-ci il tarixdə "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın təsdiq edilməsi haqqında dövlət başçısı tərəfindən imzalanan növbəti Sərəncam da göstərir.

Bu bir həqiqətdir ki, ölkədə sosial dayanıqlılıq ifadəsi olan məşğulluq siyasəti son 16 ildə regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının səmərəli icrası ilə daha etibarlılıq qazanmaqdadır. Keçən müddət ərzində ölkə iqtisadiyyatında yeni hədəf və prioritetlərin müəyyən olunması və reallaşdırılması sahəsində daha dinamik islahatlar həyata keçirilmişdir. Həmin dövrlərdə qeyri-neft sektorunun inkişafı, milli iqtisadi quruculuq proseslərinin sürətləndirilməsi, iqtisadiyyatın sosialyönümlülüyünün artırılması sahəsindəki perspektivlərin daha da artırılması və digər məsələlər daha aktual bir şəkildə diqqət mərkəzində saxlanılmışdır. Təbii ki, bütün bunlar artıq geridə qalan 2019-cu ilin yekinları üzrə də artan dinamika ilə yadda qalmışdır. Bu sahədəki davamlı uğurları cari ilin fevral ayının 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı

Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yüksək dəyərləndirərək demişdir: **14 faizdən çox artan qeyri-neft sənayemiz yeni iş yerlərinin yaradılması deməkdir. Qeyd etməliyəm ki, keçən il 98 min yeni iş yeri yaradılmışdır. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bu, daimi proses olmalıdır. Çünki Azərbaycanda əhali yüksək templərlə artır və iqtisadiyyat, iqtisadi inkişaf, o cümlədən iş yerlərinin yaradılması demoqrafik inkişafı daim üstələməlidir. Buna görə biz daim bu məsələyə xüsusi diqqət verməliyik. Ancaq o da həqiqətdir ki, hər bir iş yerinin yaradılması üçün həm dövlət, həm də özəl sektor tərəfindən böyük vəsait tələb olunur. Çünki iş yerlərinin yaradılması elə boş yerə olmur, gərək infrastruktur, şərait, imkanlar olsun. Özəl sektor, əlbəttə ki, iş yerlərini yaradan əsas sektor olaraq öz sözünü deyir və deməlidir.**

Ölkəmizdə bazar münasibətlərinin inkişafı və bu əsasda davam edən islahatlar xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlı olmaqla, iqtisadiyyatın müqavimətliliyinə və bununla da əhalinin firəvan həyat şəraitinin təmin olunmasına xidmət etməkdədir. Nəticə etibarı ilə qeyd edə bilərik ki, islahatlar müasir dövrün sosial-iqtisadi tələblərinə, dünyanın çağırışlarına və hazırkı inkişaf səviyyəsinə xas şəkildə aparılaraq daha çox məşğulluğun təmin olunmasında özəl sektorun çəkisinin artırılmasına istiqamətlənib. Yaradıcı ideya və təşəbbüslərin artan təcrübə əsasında təmin olunan iqtisadi idarəetmə ilə vəhdət halında reallaşması bu sahədəki tədbirlərin məhsuldarlığını daha da artırmışdır. Qeyd edək ki, bu sahədə uğurla icra olunan Dövlət Proqramlarının səmərəli nəticələri mühüm əhəmiyyətə malik olmağı ilə seçilir.

***Şəkil 9.1.1.***

**Azərbaycan Respublikasında məşğul əhalinin sayı və onun mülkiyyət növləri üzrə bölgüsü (min nəfər)**




**Şəkil** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Həyata keçirilən islahatlar qeyri-dövlət sektorunun inkişafı sahəsindəki nəticələrin səmərəliliyini də artırmışdır. Hesablamalar göstərir ki, 2014-2018-ci illərdə məşğulluğun təmin olunmasında qeyri-dövlət sektorunun çəkisi 74,4 faizdən 76,3 faizə yüksəlmişdir. Müvafiq olaraq, dövlət sektorunun çəkisi isə 25,6 faizdən 23,7 faizə enmişdir. Göründüyü kimi, məqsədyönlülük müəyyən olunan hədəflərin reallaşmasına münbit zəminlər açmaqdadır.

Təbii ki, məşğulluq anlayışı sosial-iqtisadi mahiyyətinə görə cəmiyyətin rifah göstəricilərini xarakterizə etməklə ölkənin makroiqtisadi proseslərinin səmərəliliyini şərtləndirir

və daha çox sosiallaşan iqtisadiyyatı formalaşdırır. Statistik rəqəmlərə əsasən apardığımız təhlillər də ölkədə əhalinin məşğulluq dinamikasının illər üzrə artdığını göstərir və bu, regional inkişaf üzrə Dövlət Proqramlarının icrası ilə eyni vaxtda daha məhsuldar nəticələr ortaya qoymaqdadır. Digər tərəfdən, məşğulluq sahəsində həyata keçirilən tədbirlər demoqrafik inkişafla müqayisədə birincilərin üstünlük təşkil etməsini hədəfləyir. Regionlarda istehsal potensialının artırılması, təsərrüfat subyektlərinin fəaliyyətinin stimullaşdırılması, məşğulluq və özünüməşğulluq imkanlarının daha da genişləndirilməsi və digər məsələlər müvafiq sahə üzrə müəyyən olunan tədbirlərin səmərəliliyini artırmışdır. Nəticədə isə, ümumi olaraq, məşğulluğun təmin olunması sahəsində müəyyən olunan hədəflərin əlçatanlığı təmin olunmuşdur. Bunu məşğul olan əhalinin cins üzrə bölgüsü də göstərir.

***Şəkil 9.1.2.***

**Azərbaycan Respublikasında məşğul olan əhalinin cins üzrə bölgüsü (min nəfər)**




**Şəkil** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Məşğulluq siyasətinin səmərəliliyi ölkədə makroiqtisadi proseslərin məqsədyönlülüyünün təmin olunmasında mühüm göstəricidir. Çünki bu, həm də əmək ehtiyatlarından səmərəli istifadənin ifadəsi olub, iqtisadi fəal əhalinin sayı ilə məşğul əhalinin sayı arasındakı yaxınlaşmanın nəticəsi olaraq çıxış edir. Təbii ki, belə bir göstərici sosial bəla olan işsizliyin minimum səviyyəsinin qorunmasında zəruriliyi ilə seçilir.

***Şəkil 9.1.3.***

**Azərbaycan Respublikasında iqtisadi fəal əhalinin və məşğul olan əhalinin sayı (min nəfər)**




**Şəkil** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Şəklin məlumatlarından da göründüyü kimi, 2014-2018-ci illərdə ölkədə məşğul əhali iqtisadi fəal əhalinin 95 faizdən artığını təşkil etməkdədir. Bu isə əhali problemlərinin öyrənilməsi, insan amilinin daim aktual olaraq saxlanılması, onun makroiqtisadi proseslərin hərəkətverici qüvvəsi olaraq önəmini artırmaqdadır.

Beləliklə, məşğulluq Azərbaycan Respublikasında milli iqtisadiyyat üzrə perspektivlərin artırılmasında güc və müqavimət mənbəyidir. Ölkə başçısının təsdiq etdiyi Tədbirlər Planı qarşıdakı dövrlər üzrə mövcud potensialı daha da artıracaq və məşğulluq səviyyəsinin yüksəldilməsində keyfiyyətcə yeni mərhələnin dayaqlarını gücləndirəcək. Eyni zamanda bu, sosial dayanıqlığın daha da güclənməsinə xidmət edəcəkdir.

## 9.2. Regional inkişaf üzrə IV Dövlət Proqramının icrası prosesi

Əvvəlki bölmələr üzrə aparılan araşdırmalar və təhlillər bir daha göstərir ki, Naxçıvan Muxtar Respublikasında davamlı, əlaqəli və ardıcıl sosial-iqtisadi inkişaf mövcuddur və bu, artıq dördüncü mərhələsinin icrası qətiyyətlə davam etdirilən regional inkişaf üzrə Dövlət Proqramlarının nəticəsində daha da etibarlılıq qazanmaqdadır. Fikrimizi Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına və xüsusən də məşğulluq sahəsindəki perspektivlərinə uyğun olmaqla ifadə etsək, aydın olar ki, burada ərazinin ixtisaslaşmasına və əhalisinin məskunlaşmasına görə aqrar bölgə olması və kənd təsərrüfatına aid təsərrüfat sahələrinin üstünlük təşkil etməsi özünüməşğulluq imkanlarının genişlənməsində mühüm amilə çevrilməkdədir.

Bu və ya digər tədbirlər muxtar respublikanın özünün sosial-iqtisadi inkişafı sahəsindəki hüquqi – normativ aktlarda geniş yerə malik olmuşdur. Xüsusilə, 2004-cü ildən başladılan "Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları" hazırda da dördüncü inkişaf mərhələsində olmaqla, Naxçıvan Muxtar Respublikasında milli iqtisadi maraqlara xidmət edən təkmil bir iqtisadiyyat yaratmışdır. Qeyd edək ki, təkcə 2004-2008-ci illəri əhatə edən eyni adlı Dövlət Proqramında muxtar respublikanın sosial-iqtisadi inkişafı üçün 57, 2009-2013-cü illər üzrə 46, 2014-2018-ci illər üzrə 57 mərhələdə tədbir həyata keçirilmişdir. Qeyd edək ki, həmin tədbirlər indiki icra müddətində də uğurla davam etməkdədir. Belə ki, həmin göstərici hazırkı 2019-2023-cü illəri əhatə edən Dövlət Proqramında da 18 mərhələli tədbirlə uğurla icra olunmaqdadır. Sonuncu Dövlət Proqramında

Naxçıvan Muxtar Respublikasında müvafiq illər üzrə aşağıdakı tədbirlərin reallaşdırılması nəzərdə tutulub:

**Qeyri-neft sektorunun inkişafı üzrə:**

- Şərur sənaye məhəlləsinin yaradılması;
- Tullantıların Təkrar Emalı Zavodunun tikintisi;
- Süni Mayalandırma Mərkəzinin tikintisi və avadanlıqlarla təchizatı;
- 250 hekat sahədə üzüm bağının salınması;

**Yol təsərrüfatı və nəqliyyatın inkişafı üzrə:**

- Naxçıvan Beynəlxalq Hava Limanında yeni uçuş-enmə zolağının tikintisi;
- Culfa-Ordubad magistral avtomobil yolunun yenidən qurulması;
- Şərur rayonunun Xanlıqlar-Şərur şəhər-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi kəndləri üzrə avtomobil yolunun tikintisi;

**Kommunal xidmətlərin yaxşılaşdırılması üzrə:**

- Gücü 36 Mvt olan Ordubad Su Elektrik Stansiyasının tikintisi;
- Ordubad-Naxçıvan hava elektrik xəttinin çəkilişi;
- Əlincə çayı üzərində (Qazançı) su anbarı və 3,75 Mvt gücündə Su Elektrik Stansiyasının tikintisi;
- Şərur, Babək, Culfa, Kəngərli, Şahbuz, Ordubad və Sədərək rayonlarında su təchizatı və kanalizasiya sistemlərinin yaradılması və yenidən qurulması üzrə işlərin davam etdirilməsi;
- Qaz anbarının tikintisi (10 ədəd quyu);

**Meliorasiya və irriqasiya tədbirləri üzrə:**

- “Pivot” layihəsi çərçivəsində 500 hektar ərazidə müasir suvarma sisteminin quraşdırılması;
- Şərur rayonunun Arpaçay sağsahil və solsahil magistral kanallarının tikintisi;
- Subartezian quyularının qazılması

**Sosial infrastrukturun yaxşılaşdırılması üzrə:**

- Şərur Rayon Mədəniyyət Sarayının tikintisi;

**Turizmin inkişafı üzrə:**

- "Darıdağ" Termal Otelin tikintisi.

Qeyd edək ki, muxtar respublikamızda sənayeləşmə siyasətinin səmərəli təşkili və idarə olunması məsələləri daim diqqət mərkəzindədir. IV fəslin 1-ci yarımfəslində göstərildiyi kimi artıq Şərur Sənaye Məhəlləsi yaradılmışdır. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının icrasındakı məqsədyönlülük bir daha özünü ifadə etməkdədir. IV Dövlət Proqramı ilə tanış olarkən, aydın olur ki, bu, əsasən milli iqtisadiyyatın qeyri-neft sektoru üzrə ixtisaslaşmasına hədəflənib və bu sahədə güclü təşkilatlanmaya nail olunub.

Dördüncü Dövlət Proqramında muxtar respublika üçün strateji əhəmiyyətə malik olmağı ilə seçilən digər məsələ infrastrukturun gücləndirilməsi, daha doğrusu, nəqliyyat sahəsindəki inkişafın davamlılığı ilə bağlıdır. Burada Naxçıvan Beynəlxalq Hava Limanında (NBHL) II yeni uçuş-enmə zolağının (UEZ) tikintisinin reallaşdırılması nəzərdə tutulmuşdur. Qeyd edək ki, UEZ-nın uzunluğu 3300, eni isə 60 metr olub, ümumi sahəsi 250 kvadratmetr təşkil etməkdədir. Təəssüfləndirici həqiqətdir ki, muxtar respublikamız uzun illərdir ki, tarixi düşmənlərimiz erməni daşnaqları tərəfindən blokada şəraitindədir. Lakin buna baxmayaraq, ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən əsaslarını yaratdığı dinamik, güclü, müqavimətli iqtisadi siyasətin hazırda da müasir dövrün çağırışları ilə səsləşməsi nəticəsində yeni hədəflər, yeni ideyalar və uğurlu təşəbbüslər reallığa çevrilməkdədir. Bu isə, əlbəttə ki, blokadanın təhdidlərini və bütün neqativ təsirlərini sıfıra endirməkdədir. Təbii ki, burada NBHL-da yeni UEZ-nın tikintisi, eyni zamanda, bu tədbirlərin gerçək və uzaq gələcəyə hesablanmış nəticəsidir. Həmin layihənin reallaşmasından sonra Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi

dayanıqlığını daha da artıracaq və sərnişinlərin, yükün və poçtun daşınmasındakı alternativ imkanları daha da genişləndirəcək.

Digər tərəfdən, Dövlət Proqramında həyata keçiriləcək tədbirlərin əhatəsinə diqqə edərkən muxtar respublikanın sosial-iqtisadi inkişafında, xüsusilə, əkin sahələrinin suvarma suyu ilə təchizatının olduq qədər yaxşılaşdırılmasına təkan olacaq tədbirləri görmək olar. Bu sırada enerji təhlükəsizliyinin təmin olunması, mövcud infrastrukturun daha da gücləndirilməsi məqsələlərini də qeyd edə bilərik. Həmçinin iqtisadiyyatın mövcud - ənənəvi sahələr üzrə potensialı ilə birlikdə yeni prioritetlər üzrə inkişafı da güclü dayaqlar və perspektivli islahatlar yolu ilə nəzərdə tutulmuşdur. Qeyd edək ki, bu tədbirlər muxtar respublikanın rayonlarının hər birində yüksək peşəkarlıq və doğmalıqla reallaşdırılmaqdadır.

Naxçıvan Muxtar Respublikasında iqtisadi sahədə sağlam şəraitin, məhsuldar nəticələrin, cari və perspektiv inkişaf üçün əlverişli mühitin davamlılığını təmin etmək məqsədilə Ali Məclis Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının da müstəsna əhəmiyyəti vardır. Burada da qarşıdakı dövrlər üzrə həyata keçiriləcək tədbirlər:

- makroiqtisadi sabitliyi;
- məşğulluq səviyyəsinin yüksəldilməsini;
- bank və kredit təşkilatlarını;
- investisiya fəaliyyətini;
- sahibkarlığın inkişafını;
- sənayeləşmə siyasətini;
- kənd təsərrüfatında ardıcıl islahatları;
- **xarici ticarət** fəaliyyətini;
- informasiya və kommunikasiya texnologiyalarını;
- turizmin inkişafını;

- elektrik və qaz təsərrüfatını;
- mənzil-kommunal təsərrüfatının inkişafını;
- nəqliyyat xidmətlərini;
- ekoloji tarazlığı;
- əhalinin sosial müdafiəsini;
- təhsil sahəsini;
- səhiyyə xidmətlərini;
- gəncləri, həmçinin bədən tərbiyəsi və idmanı, mədəni irsin qorunmasını əhatə etməkdədir.

**Xarici ticarət** – mal gətirilməsi (idxalat) və göndərilməsi (ixracat) ilə səciyyələnən ölkələrarası ticarətdir (59, s. 343).

Buradan da göründüyü kimi, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları iqtisadiyyatın inkişafında çoxşaxəlilik, istehsal və sosiallaşma üçün güclü dayaqlar yaratmaqda və onlara davamlılıq gətirməkdədir. Bu isə əlbəttə ki, məşğulluqla yanaşı özünüməşğulluq imkanlarının artmasında özünü göstərməkdədir. Geridə qoyduğumuz 2019-cu ilin "Ailə Təsərrüfatı" ili kimi qeyd olunması sözügedən sahədə yeni perspektivlərin açılmasını da təmin etməkdədir.

Təbii ki, bütün bunlar məşğulluğun və işsizliyin iqtisadi və digər sosial mahiyyətli elmlər tərəfindən araşdırılan, öyrənilən və tədqiq olunan tərəfləridir.

Müasir Azərbaycan gerçəkliyində öz aktuallığı ilə seçilən, daim ölkəmizin sosial-iqtisadi siyasətində aparıcı yerlərdən birini tutan məsələlərin tərkib hissələrindən biri kimi məşğulluğun təmin edilərək səviyyəsinin yüksəldilməsi, işsizliyin isə aradan qaldırılmaqla ən minimum səviyyəyə endirilməsi zəruri olan tədbirlərdir.

Eyni zamanda, bu tədbirlər ölkəmizin sosial siyasətinə və onun səmərəliliyinə xidmət etməkdədir. Təbii ki, mövcud iqtisadi potensial öz növbəsində əhalinin yaşayış tərzinin, onun səmərəli fəaliyyətinin, daha doğrusu, məşğulluq potensialının

daha da artmasına münbit zəmin yaratmışdır. Bu gün qətiyyətlə deyə bilərik ki, ölkəmizin regional siyasətinin səmərəliliyi baxımından qətiyyətli söz sahibi olan Naxçıvan Muxtar Respublikasında bu məsələlər sahəsində yüksək nailiyyətlər əldə olunmuşdur.

## 9.3. Pandemiya dövründə uzunmüddətli iqtisadi hədəflərə doğru

Artıq dünyanın 210 ölkə və bölgəsində qeydə alınan Koronavirus (COVİD - 19) pandemiyası dünya miqyasında bütün sahələrlə yanaşı, iqtisadiyyatın da davamlı inkişafında gözləmələrə və ya tənəzzül meyillərinə səbəb olmaqdadır. Ölkələr nəinki, qarşıdakı uzunmüddətli hədəflərini reallaşdırmaq sahəsində çətnliklərlə üzləşir, hətta pandemiyaya qarşı mübarizə, həmçinin müdafiə tədbirlərinin görülməsində ciddi maneələrlə rastlaşırlar.

Çinin hüdudları daxilində başlanmaqla, özünün yayılma sürətinə görə əvvəlcə epidemiya, sonralar isə qısa müddətdə dünyanı əhatə etməklə, pandemiya şəklində olan və dünyanın ABŞ, Böyük Britaniya, Rusiya, İtaliya, Türkiyə, İran və s. kimi ölkələrini də əhatə etmiş bu virus, onların iqtisadiyyatları və sosial sahədəki perspektivləri üçün ciddi təhdidə çevrilmişdir. Bu isə, onların milli iqtisadiyyatları üçün olduqca dözülməz təhdidlər yaratmaqda, əmək ehtiyatlarından istifadənin səmərəliliyini minimuma endirməkdədir. Nəticədə isə, müəssisələrin fəaliyyətində uzunmüddətli fasilələr özünü göstərir ki, bu da dünyəvi sosial bəla olan işsizliyin artması fonunda əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi sahəsindəki imkanları məhdudlaşdırmaqdadır.

Bu mənada, belə qənaətə gələ bilərik ki, COVİD-19 pandemiyası dünya iqtisadiyyatı ilə yanaşı, eyni zamanda, ölkələrin milli iqtisadiyyatlarına təhdid olması baxımından

iqtisadiyyatın idarə olunması proseslərini üç mərhələdə formalaşdırmışdır.

- Birinci mərhələ, koronavirusdan əvvəlki dövrün iqtisadiyyatıdır. Bunu ölkələrin malik olduqları sosial-iqtisadi potensiala görə **baza** olaraq ifadə edə bilərik;
- İkinci mərhələni indiki koronavirus dövrünün iqtisadiyyatı olaraq dəyərləndirmək olar. Həmin mərhələ üçün əldə olunan bazadan istifadə olunmasında **məqsədyönlülük** əsas tutulur;
- Üçüncü mərhələ isə, koronavirusdan sonrakı dövrlərin iqtisadiyyatıdır. Burada isə koronavirusla mübarizədən zəfərlə çıxa bilən ölkələrin milli iqtisadiyyatları üçün **perspektivlilik** nəzərdə tutulur.

Yeni növ koronavirusun dünya iqtisadiyyatına təsirlərini minimuma endirilməsi və aradan qaldırılması məsələləri Beynəlxalq Təşkilatlar tərəfindən müzakirə olunmaqdadır. Bu məqsədlə, 2020-ci ilin mart ayında G20 ölkələrinin maliyyə və sonra isə ticarət nazirləri telekonfrans keçirməklə ümumi strategiyanın hazırlanması haqda razılığa gəlmiş, koronavirusla mübarizədə izlənəcək yol xəritəsi müzakirə olunmuşdur.

Pandemiya nəticəsində dünya iqtisadiyyatı üçün tənəzzül meylləri baş qaldırmış, cəmiyyət üzvlərinin artan tələbatlarının tənzimlənməsi və dolğun qarşılanması üçün zəruri olan istehsalın davamlılığını şübhə altına almışdır. Belə ki, Asiya İnkişaf Bankının hazırladığı hesabata əsasən pandemiyanın dünya iqtisadiyyatına vuracağı zərər üç müddət üzrə proqnoz olunur. Hesabata görə pandemiyanın iki ay davam etməsinin ən yaxşı halda, dünya iqtisadiyyatına vuracağı zərər 76,6 milyard dollar olacaq. Əgər bu pandemiyanın təsiri üç ay ərzində mövcud olarsa, onda bu zərər 155,9 milyard dollar təşkil edəcək. Həmin proqnozlara

görə koronavirusun altı ay davam edəcəyi halda dünya iqtisadiyyatına vuracağı zərər 346,9 milyard dollar olacaqdır.

Təbii ki, ölkəmiz dünyanın bir parçası olmaq etibarı ilə baş verən meqaiqtisadi hadisə və proseslərin milli iqtisadiyyatımıza təsiri hiss olunmaqdadır. Qeyd edək ki, əsasları ulu öndər Heydər Əliyev tərəfindən uzaqgörənliklə müəyyən olunan milli iqtisadi inkişaf proseslərinin bu günlərə qədər yüksələn dinamika əsasında təşəkkülü müasir müstəqillik illərində çox güclü bazaya çevrildi və rastlana biləcəyimiz meqaiqtisadi böhran, tənəzzül, həmçinin, sarsıntı dövrlərində ölkə iqtisadiyyatına müqavimətlilik gətirdi. Məhz bu əsasda da:

- ölkədə iqtisadiyyatın şaxələndirilməsinə;
- milli iqtisadiyyatın təminatqabiliyyətliliyinin daha da gücləndirilməsinə;
- mövcud sosial-iqtisadi inkişaf potensialı əsasında dünyanın yeni çağırışlarına çevik uyğunlaşmanın mümkünlüyünə;
- beynəlxalq iqtisadiyyata inteqrasiyanın sürətləndirilməsinə;
- meqaiqtisadi əhəmiyyəti daha da yüksək olan layihələrin reallaşmasına qətiyyətlə nail olundu və nəticədə ölkəmiz qarşıya qoyduğu bütün hədəflərini əlçatan etdi. Hadisələrin gedişi göstərir ki, qeyd olunan amillər keçdiyimiz dövrlər üzrə rastlaşdığımız iqtisadi – maliyyə böhranları qarşısında dayanıqlı və etibarlı əsaslar yaratması ilə aktuallıq qazandı.

Azərbaycan Respublikasında pandemiyanın milli iqtisadi quruculuq və davamlı inkişaf proseslərinə neqativ təsirlərinin qarşısının alınması, hədəf və prioritetlərin perspektivliyinin və əlçatanlığının qorunması və digər bu kimi məqsədlər əsas tutulmaqla, zəruri hüquqi tənzimləmə vasitələri səfərbər olundu. Ardıcıl tənzimləmə tədbirləri çərçivəsində dövlətimizin başçısı tərəfindən:

1. Yeni növ koronavirus (COVİD-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında 18 mart 2020-ci il tarixdə imzalanan Sərəncamın böyük tarixi əhəmiyyəti vardır. Orada Yeni növ koronavirus (COVİD-19) infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşının 3–5 mislinədək miqdarda müddətli əlavə müəyyən edilməsi göstərilirdi. Nazirlər kabinetinə isə müəyyən edilən müddətli əlavənin şamil olunacağı tibb işçilərinin əhatə dairəsinin, əlavənin ödənilmə müddətinin, eyni zamanda, işin xüsusiyyətindən asılı olaraq miqdarının və yeni növ koronavirus (COVİD-19) infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan tibb işçilərinin və könüllülərin əməyinin ödənilməsi şərtlərinin müəyyən olunması tapşırılmışdır;

2. Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında 19 mart 2020-ci il tarixli fərman imazlanmışdır. Orada Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılması, "Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası" təsdiq olundu (əlavə olunur) və müəyyən olundu ki, Koronavirusla Mübarizəyə Dəstək Fondunun məqsədi koronavirus infeksiyasının Azərbaycan Respublikasında yayılmasının qarşısını almaqdan və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etməkdən ibarətdir;

3. Azərbaycan Respublikasında koronavirus infeksiyasına qarşı həyata keçirilən səhiyyə tədbirləri üçün Koronavirusla Mübarizəyə Dəstək Fonduna vəsait ayrılması haqqında 19 mart 2020-ci il tarixli Sərəncam imzalanmışdır.

Həmin Sərəncamda Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və onunla mübarizə istiqamətində səhiyyə tədbirlərinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Koronavirusla Mübarizəyə Dəstək Fonduna ilkin olaraq 20,0 (iyirmi) milyon manat ayrılsın.

4. Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikasının Prezidenti tərəfindən 19 mart 2020-ci il Sərəncam imzalandı. Bu məqsədlə, həyata keçiriləcək tədbirlərin maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə 1,0 (bir) milyard manat ayrılması nəzərdə tutulmuşdur. Sərəncamda:

- Pandemiyanın Azərbaycan Respublikasının iqtisadiyyatına təsirini qiymətləndirmək üçün Azərbaycan Respublikası İqtisadiyyat nazirinin;
- Azərbaycan Respublikasında fəaliyyət göstərən pandemiyadan zərər çəkməsi ehtimal olunan sahibkarlıq subyektlərinə dövlət dəstəyi üçün müvafiq təkliflər hazırlanması məqsədilə Azərbaycan Respublikası Maliyyə nazirinin;
- Pandemiyanın Azərbaycan Respublikasının iqtisadiyyatına ehtimal olunan mənfi təsirindən ölkədə yarana biləcək məşğulluq problemlərinin və sosial problemlərin həlli məqsədilə müvafiq təkliflərin hazırlanması üçün Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin;
- Pandemiya şəraitində Azərbaycan Respublikasında makroiqtisadi sabitliyin qorunub saxlanması məqsədilə əlavə

tədbirlər görülməsinə dair təkliflərin hazırlanması ilə bağlı Azərbaycan Respublikası Mərkəzi Bankının sədrinin rəhbərlikləri ilə müvafiq strukturlar üzrə İşçi Qrupunun yaradılması tapşırılmışdır.

5. Koronavirus pandemiyası ilə mübarizənin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2020-ci il tarixli Sərəncam imzalandı. Həmin tarixi sənədə əsasən hər birində 200 çarpayı olan modul tipli 6 (altı) xəstəxananın quraşdırılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.66-cı bəndində göstərilmiş məbləğin 14,8 milyon (on dörd milyon səkkiz yüz min) manatı Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə ayrılması nəzərdə tutuldu;

6. Koronavirus pandemiyasına qarşı Azərbaycan Respublikasında həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü üçün vəsait ayrılması haqqında 9 aprel 2020-ci il Sərəncamın böyük tarixi əhəmiiyətə malik olduğunu qeyd etmək lazımdır. Həmin Sərəncamda Koronavirus pandemiyasının yayılmasının qarşısının alınması və onunla mübarizənin gücləndirilməsi məqsədilə zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə 97,0 (doxsan yeddi) milyon manat ayrılmışdır;

7. Koronavirus pandemiyası şəraitində və sonrakı dövrdə kənd təsərrüfatı məhsulları istehsalçılarının mikrokreditlərlə təminatının yaxşılaşdırılması üçün vəsait ayrılması haqqında 14 aprel 2020-ci il tarixli Sərəncamlar

imzalanmışdır. Orada Koronavirus pandemiyası şəraitində və sonrakı dövrdə kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə vəsaitinə ehtiyacının qarşılanması məqsədilə aqrar sektorda təminatsız mikrokreditlərin verilməsi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinə 30,0 (otuz) milyon manatın ayrılması göstərilirdi;

8. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən cari ilin 24 mart tarixində Naxçıvan Muxtar Respublikasında koronavirus infeksiyasına qarşı həyata keçirilən səhiyyə tədbirləri üçün Koronavirusla Mübarizəyə Dəstək Fonduna vəsait ayrılması haqqında Sərəncam imzalanmışdır. Sərəncamda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və onunla mübarizə istiqamətində səhiyyə tədbirlərinin həyata keçirilməsi məqsədilə Naxçıvanın İnkişafı və Müdafiə Fondundan 200000 (iki yüz min) manatın Koronavirusla Mübarizəyə Dəstək Fonduna ayrılması nəzərdə tutulmuşdur.

Təbii ki, bütün bunlar ölkədə pandemiyanın təsirlərinin minimum səviyyədə saxlanılması, yoluxmanın və itkinin qarşısının alınması, sosial-iqtisadi proseslərin təşkili və idarə olunmasında səmərəliliyin qorunması, nəticə etibarı ilə, makroiqtisadi müqavimətliliyin təmin olunması və s. məsələlərə hesablanmışdır.

Bu sahədə ölkənin bütün iqtisadi rayonları üzrə qarşıya qoyulmuş hədəflərin reallaşması sahəsində ardıcıl tədbirlər davam etdirilməkdədir. Koronavirus (COVİD – 19) pandemiyası dövründə ölkə iqtisadiyyatının milli mahiyyətinin üstün tutulması ilə yanaşı, eyni zamanda, onun regional inkşafının daha güclü dayaqlarının yaradılması prosesləri qətiyyətlə davam etdirildi. Pandemiya ilə qətiyyətli mübarizə tədbirləri çərçivəsində keçən müddət ərzində ölkənin Xaçmaz,

Göygöl, Quba, Füzuli, Samux, Oğuz, Masallı, Qax rayonlarının sosial-iqtisadi inkişafının sürətlənməsinə və həmin rayonlarda yaşayan əhalinin sosial rifahının yüksəldilməsinə stimullaşdırıcı təsir olan tənzimləyici tədbirlər həyata keçirilmiş və bu sahədə qətiyyətli addımlar atılmışdır. Həmin tədbirlər göstərilən rayonlar üzrə əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə aid olmaqla, strateji əhəmiyyətə malik olması ilə daha da aktuallıq qazanmaqdadır. Bunlarla yanaşı, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında ölkə başçısının 15 aprel 2020-ci il tarixdə imzaladığı Sərəncamın da mühüm əhəmiyyətini qeyd edə bilərik. Həmin Sərəncama əsasən ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə mavafiq Komissiya yaradılmışdır.

Bütün bunlar bir daha onu göstərir ki, Azərbaycan Respublikasında ölkə başçısının uzaqgörən siyasəti nəticəsində ilk növbədə ayrılıqda hər bir vətəndaşın, ümumilikdə isə, bütövlükdə xalqın fərdi və ictimai rifahı, firəvanlığı, sağlamlığı, təşəbbüskarlığı, sosial-iqtisadi inkişaf proseslərində fəal iştirakı kimi məsələlər daim aktuallığını saxlamaqdadır, artırmaqdadır. Təbii ki, bu isə, istənilən neqativ halın və hadisənin qarşısında güc mənbəyi deməkdir. Hazırda həmin potensial iqtisadiyyatın sosialyönümlülük çəkisinin daha da artmasına xidmət etməkdədir.

2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirililən müşavirədə dövlətimizin başçısı ölkəmizin pandemiyanın təsirlərindən müdafiə olunmasında və sosial-iqtisadi gücünün qətiyyətlə artırılmasında reallaşdırılan tədbirlərin əhəmiyyətini yüksək dəyərləndirməklə demişdir: ***Koronavirus böyük bəladır, 100***

***mindən çox insanın həyatına son qoyub. Demək olar ki, dünyanın bütün ölkələrində koronavirusla bağlı problemlər yaşanır. Azərbaycan da dünyanın bir parçasıdır. Ancaq deyə bilərəm ki, qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində biz vəziyyəti nəzarət altında saxlayırıq. Hesab edirəm ki, bu günə qədər atılmış bütün addımlar düzgün istiqamətdə atılmış addımlardır. Məhz bu addımların atılması nəticəsində Azərbaycanda vəziyyət nəzarət altındadır.***

Beləliklə, mövcud sosial-iqtisadi potensial və onun davamlılığı sahəsində çxoistiqamətli dövlət tədbirlərinin həyata keçirilməsi əsaslanmaqla qeyd edə bilərik ki, Azərbaycan Respublikası Koronavirus (COVİD-19) pandemiyasının təsirlərinə qarşı etibarlı müdafiə gücünə malikdir. Bu günlərə qədər həm iqtisadiyyat, həm səhiyyə sahəsindəki islahatların effektivliliyi bu dünyəvi virusla mübarizədə ölkəmizin müqavimətliliyində bir daha özünü göstərdi. Digər tərəfdən, ölkə vətəndaşlarının pandemiya ilə mübarizədə də dövlətimizin və onun başçısının ətrafında sıx birləşdiyi, eyni zamanda həmrəy olması bir daha sübut olundu. Güc birlikdədir şüarı isə “evdəqal” çağırışına sadiq qalan vətəndaşların həyat amalına çevrildi.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2017, 27 s.
2. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 11 fevral 2004-cü il tarixdə ölkə başçısı tərəfindən təsdiq olunub.
3. “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq olunması haqqında Azərbaycan Respublikası Prezidentinin

Fərmanı. 14 aprel 2009-cu il tarixdə ölkə başçısı tərəfindən təsdiq olunub.

4. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı təsdiq olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 27 fevral 2014-cü il tarixdə ölkə başçısı tərəfindən təsdiq olunub.

5. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 29 yanvar 2019-cu il tarixdə təsdiq olunub.

6. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq olunub.

7. "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)". 9 iyun 2005 -ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq olunub.

8. "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı". 28 may 2009-cu il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq olunub.

9. "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafina dair Proqramı". 31 yanvar 2014-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq olunub.

10. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı". 1 sentyabr 2014-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq olunub.

11. Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı". 29 mart 2019-cu il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq olunub.

12. Azərbaycan Respublikasının Məşğulluq Qanunu. 27 iyun 1991-ci ildə qəbul olunub.

13. Azərbaycan Respublikasının Məşğulluq Qanunu. 2 iyul 2001-ci ildə qəbul olunub.

14. Azərbaycan Respublikasının Məşğulluq Qanunu. 29 iyun 2018-ci ildə qəbul olunub.

15. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycan kənd təsərrüfatı. Bakı: Səda, 2002, 287 s.

16. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Əsas iqtisadi-statistik göstəricilərə dair metodoloji izahatlar. İkinci nəşr.Bakı: Səda, 2004, 138 s.

17. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 6 dekabr 2016-cı il tarixdə təsdiq olunub.

18. Abasov İ.D. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı. Bakı: Şərq-Qərb, 2013, 712 s.

19. Abbasov V.Z. Özəl sektorun imkanlarından istifadənin təkmilləşdirilməsi. Dissertasiya. 2015-ci ildə müdafiə edilib.

20. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Ali Məktəblər üçün dərslik. Bakı: 2006, 834 s.

21. Allahverdiyev N.N. Azərbaycan SSR iqtisadi və sosial coğrafiyası. Bakı: Maarif, 1991, 272 s.

22. Alıyev İ. H., İbadov S. A. Azərbaycan iqtisadiyyati. Bakı: Ağrıdağ, 1999, 400 s.

23. Ağayev A.Q. Maliyyə terminlərinin izahlı və tərcümə lüğəti. Bakı: Ziya, 2005, 421 s.

24. Bağırov M.S. Naxçıvan Muxtar Respublikasının aqrar sektoru: hasilat-reallaşdırma sistemi və marketinq prinsipləri. Dərs vəsaiti. Naxçıvan: Əcəmi, 2016, 344 s.

25. Bağırov M.S. Kənd təsərrüfatında istehsal və satış sisteminin formalaşması: müasir vəziyyəti və xüsusiyyətlər. Monoqrafiya. Naxçıvan: Qeyrət, 2014, 107 s.

26. Bağırov M.S. Sosial-iqtisadi statistika II cild. Dərs vəsaiti. Naxçıvan: İdeya, 2011, 224 s.

27. Bayramova S.R., Qurbanova S.Ə. Gəlirlər və əmək haqqı siyasəti. Dərslik. Bakı: 2009, 330 s.

28. Bingöl Z. M. Türkiyənin Aralıq dənizi bölgəsində turizmin inkişafının dövlət tənzimlənməsi. Dissertasiya. 2017-ci ildə müdafiə edilib.

29. Əhmədov N.H. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə. Naxçıvan: Əcəmi, 2015, 272 s.

30. Əhmədov N.H. Naxçıvan Muxtar Respublikasının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Naxçıvan: Sabah, 2008, 431 s.

31. Əliyev A. Ə., Quliyev A.S. Sosial sferanın iqtisadi və metodoloji əsasları. Bakı: Adiloğlu, 2005, 304 s.

32. Əliyev M. T. Azərbaycanın iqtisadiyyatı. Bakı: 1998, 219 s.

33. Əlirzayev Ə. Q. Azərbaycanda sahibkarlığın inkişafı problemləri və həlli yolları: nəzəriyyə və təcrübə. Bakı: Elm, 2000, 114 s

34. Əlirzayev Ə. Q. Əlirzayeva T. Ə., Əhalinin gəlirləri və istehlakının maliyyə mexanizmləri. Bakı: Elm, 2007, 247 s.

35. Əfəndiyev V., Nağıyev S. Əhali coğrafiyası. Dərslik. Bakı: Bakı Universiteti, 2006, 338 s.

36. Feyzullayev İ.Ə. Ticarətin iqtisadiyyatı. Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1989, 421 s.

37. Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat. Bakı: Elm, 2006, 509 s.

38. Hüseynov T. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Bakı: Elm, 2015, 466 s.

39. İbadov S. A. İqtisadi nəzəriyyə. Dərslik. Bakı: Şərq-Qərb, 2009, 414 s.

40. İsmayılov B. V. Strateji menecment. Bakı: Təhsil, 2018, 296 s.

41. İmanova M.T. Mühasibat uçotunda interaktivlik. Dərs vəsaiti. Naxçıvan: Əcəmi, 2014, 176 s.

42. Kotler F. Marketinqin əsasları. Bakı: Ergün, 1993, 559 s.

43. Kərimov C., Orucov A., Kərimova T. Beynəlxalq iqtisadi təşkilatlar. Bakı: Nurlan, 2008, 212 s.

44. Kərimov C., Orucov A., İsrafilov H. Dünya iqtisadiyyatı. Dərslik. Bakı: Nurlan, 2009, 728 s.

45. Məmmədli O. Q., İsmayılov F. İ. Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi. Bakı: MBM, 2006, 432 s.

46. Məmmədli O. Q., İsmayılov F. İ. İqtisadi nəzəriyyə. Bakı: MBM, 2007, 800 s.

47. Muradov Ş. M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı: Elm, 2004, 656 s.

48. Məmmədov H.Ə. Davamlı iqtisadi inkişaf: infrastruktur problemləri. Naxçıvan: Əcəmi, 240 s.

49. Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000, 104 s

50. Neft-qaz sahəsində fəaliyyətin və qeyri-dövlət sektorunun Meyarlarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. 18 fevral 2019-cu ul tarixdə Azərbaycan Respublikasının Baş Naziri tərəfindən təsdiq olunub.

51. Qasımov A.A. XX əsrdə Naxçıvanda erməni-Azərbaycan ziddiyyətləri // Azərbaycan tarixində Naxçıvan (tarixi oçerklər) Bakı: ADPU-nun mətbəəsi, 1996, 144 s.

52. Qasımov C.Y. İqtisadi terminologiya: aqrar sektor, məşğulluq, sosial sfera. Naxçıvan: Əcəmi, 2017, 104 s.

53. Qasımov C.Y., Ələsgərova F.Q. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı: tarixilik və müasirlik. Dərs vəsaiti. Naxçıvan: Əcəmi, 2017, 184 s.

54. Qasımov A.A. Naxçıvanın muxtar ərazi taleyi və müasir dövr. Naxçıvan tarixinin səhifələri ("Uluslararası qaynaqlarda Naxçıvan" Beynəlxalq simpoziumunun materialları): Bakı: ADPU-nun mətbəəsi, 1996, 222 s.

55. Qasımov D. Q. Yeni təsərrüfatçılıq sisteminin formalaşması şəraitində torpaqlardan intensiv və səmərəli istifadə // Azərbaycan Respublikası Təhsil Nazirliyi. Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər, №5 (25), Naxçıvan: Qeyrət, 2008, 312 s.

56. Quliyev T.Ə. İdarəetmənin əsasları. Bakı: Maarif, 1993, 333 s.

57. Qəribov A.H.Beynəlxalq iqtisadi münasibətlər və gömrük işi (terminlərin qısa izahlı lüğəti). Bakı: Səda, 2007, 112 s.

58. Qradov A.P. Milli iqtisadiyyat. II nəşr. Dərslik. Rus dilindən tərcümə. Bakı: İqtisad universiteti, 2008, 275 s.

59. Libman Q.İ., Filatov O.K. Qısa iqtisadi lüğət. Bakı: ASE, 1989, 359 s.

60. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərs vəsaiti. Bakı: AVROPA, 2013, 406 s.

61. Sənaye parkları haqqında nümunəvi əsasnamə. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

62. Vəliyev D. Ə. Beynəlxalq iqtisadiyyat. Bakı: Azərbaycan Universiteti, 1998, 382 s.

63. Vəliyev T. S., Qafarov Ş. S. ümumi redaktəsi ilə. İqtisadi nəzəriyyə. Bakı: Azpoliqraf LTD MMC, 2004, 504 s.

64. Vəliyev T. S., Babayev Ə, P., Meybullayev M. X. redaktəsi ilə. İqtisadi nəzəriyyə. Bakı: Çaşıoğlu, 1999, 684 s.

65. Valovoy D. V. Kütləvi lüğət-məlumat kitabı – səmərəlilik, keyfiyyət. Bakı: Azərnəşr, 1980, 222 s.

66. Yusifova T.Q. Əməyin iqtisadiyyatının əsasları. Dərs vəsaiti. Bakı: İqtisad Universiteti. 2005, 167 s.

67. Yaşayış minimumu haqqında Azərbaycan Respublikasının Qanunu. 5 oktyabr 2004-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunub.

68. Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər). Bakı: R.N.Novruz-94, 2003, 304 s.

69. https://az.wikipedia.org/wiki/Makroiqtisadiyyat

70. http://www.statistika.nmr.az/

71. http://www.caspianenergy.org/index.php/az/

72. http://www.e-qanun.az/alpidata/framework/data/9/f_9367.htm

## MÜNDƏRİCAT

GİRİŞ.........................................................................4

I FƏSİL

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFI VƏ MİLLİ İQTİSADİ QURUCULUQ PROSESLƏRİ...............................................7

1.1. Naxçıvan Muxtar Respublikasının ölkənin milli iqtisadi quruculuq proseslərində səmərəli iştirakı elmi araşdırmalarda...........................................................................7

1.2. Sosial və iqtisadi sahələrin inkişafının elmi konseptual əsasları...............................................................25

1.3. Naxçıvan Muxtar Respublikasında regional inkişaf proqramlarının səmərəli icra mexanizmləri............................35

II FƏSİL

REGİONAL İNKİŞAFIN BAŞLICA MEYARI KİMİ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ƏSAS MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİN NƏZƏRİ ƏSASLARI VƏ TƏHLİLİ....................................................45

2.1. Regional inkişaf proqramlarında sosial siyasətin səmərəli təşkili və məşğulluq səsviyyəsinin yüksəldilməsi............................................................................45

2.2. Naxçıvan Muxtar Respublikasında Ümum Daxili Məhsulun artım dinamikası.................................................52

2.3 Naxçıvan Muxtar Respublikasında regional inkişaf proqramlarının icrası dövründə hər bir nəfərə düşən ÜDM-nin həcminin təhlili...............................................................58

III FƏSİL

SƏNAYE POTENSİALI SƏNAYELƏŞMƏ SİYASƏTİNİN HƏRƏKƏTVERİCİ AMİLİ KİMİ...............64

3.1. Regional inkişaf proqramlarının icrası ərzində sənaye məhsulunun istehsal həcminin təhlili və qiymətləndirilməsi...............................................................64

3.2. Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun mülkiyyət növləri üzrə bölgüsü: özəl sektorun inkişafı və məşğulluq məsələləri........................................... 75

3.3. Sənaye səmərəli məşğulluq siyasətinin hərəkətverici qüvvəsi kimi.........................................................................85

IV FƏSİL

REGİONAL İNKİŞAF ÜZRƏ DÖVLƏT PROQRAMLARININ İCRASI: SƏNAYE PARKLARI VƏ PRİORİTETLƏR

4.1. Naxçıvan Muxtar Respublikasında sənayeləşmə siyasətinin səmərəli nəticələri: Sənaye Parkları və Məhəllələrinin yaradılması mərhələsi....................................91

4.2. Naxçıvan Muxtar Respublikasında şəhər və rayonlar üzrə sənayeləşmə siyasətinin səmərəli nəticələri: sosiallaşma və rifah.........................................................................100

4.3. Regional inkişaf proqramları muxtar respublikanın sənaye potensialının çoxşaxəlilik göstəricisidir....................111

4.4. Regional inkişaf proqramlarının icrası muxtar respublikanın şəhər və rayonlarda sənayenin və sosial müdafiənin güclü təsisatları kimi ......................................................118

V FƏSİL

DÖVLƏT PROQRAMLARININ İCRASI VƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TİKİNTİ SAHƏSİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ......................125

5.1. Naxçıvan Muxtar Respublikasında əsas kapitala yönəldilən vəsaitlər və məqsədyönlülük..............................125

5.2. Naxçıvan Muxtar Respublikasının səmərəli regional siyasəti: şəhər və rayonların inkişaf mənzərəsi....................139

5.3. Naxçıvan Muxtar Respublikasında sosiallaşma proseslərinin sürətlənməsində tikinti sektorunun rolu..........152

VI FƏSİL

REGİONAL İNKİŞAF PROQRAMLARI VƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATININ DAVAMLI İNKİŞAFI......................158

6.1. Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatında dövlət tənzimlənməsinin həyata keçirilməsi..158

6.2. 2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı........................170

6.3. Regional inkişaf proqramlarının icrası ərzində muxtar respublikanın şəhər və rayonlarında kənd təsərrüfatının təhlili: davamlı istehsal və iqtisadi artım.............................195

VII FƏSİL

İQTİSADİYYATIN SOSİALLAŞMASI: REGİONAL İNKİŞAF PROQRAMLARI VƏ MƏŞĞULLUQ SİYASƏTİNİN SƏMƏRƏLİLİYİ......................................210

7.1. Müasir dövrdə məşğulluq proseslərinin tənzimlənməsi məsələləri..................................................210

7.2. Regional inkişaf Dövlət Proqramları Naxçıvan Muxtar Respublikasında işsizliyin minimum səviyyəsinin qorunmasının və səmərəli məşğulluğun təmin olunmasının tənzimləyici mexanizmi kimi.............................................220

7.3. 2004-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında demoqrafik tarazlığın təmin olunması məsələləri.........................................................................235

VIII FƏSİL

REGİONAL İNKİŞAF PROQRAMLARI DÖVLƏTİN VƏTƏNDAŞLARA QAYĞISININ İFADƏSİ KİMİ..........249

8.1. Əhalinin sosial müdafiəsinin təmini makroiqtisadi hədəflər müstəvisində........................................................249
8.2. Naxçıvan Muxtar Respublikasında reallaşan tədbirlər sosial sahənin davamlı inkişafının əsas amili və perspektivləri kimi...........................................................254
8.3. Regional Dövlət Proqramlarının səmərəli icrası əhalinin sosial müdafiəsinə dövlət qayğısının əsas amili kimi....................271

IX FƏSİL

REGİONAL İNKİŞAF ÜZRƏ DÖVLƏT PROQRAMLARI VƏ MİLLİ İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ: MƏŞĞULLUQ SİYASƏTİ, İNFRASTRUKTUR, DAYANIQLILIQ VƏ YA DAVAMLILIQ..............................................................277

9.1. Regional Dövlət Proqramları və ölkədə məşğulluğun təmin olunması sahəsində keyfiyyətcə yeni mərhələnin başlanması......................................................277
9.2. Regional inkişaf üzrə IV Dövlət Proqramının icrası prosesi..................................................................................285
9.3. Pandemiya dövründə uzunmüddətli iqtisadi hədəflərə doğru..............................................................290

İ.ü.f.d. dos. Cavadxan Yusif oğlu Qasımov

**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFI REGİONAL DÖVLƏT PROQRAMLARININ İCRASI MÜSTƏVİSİNDƏ (2004-2018-Cİ İLLƏR)**

Dərs vəsaiti

Yığılmağa verilmiş 30.09.2020.
Çapa imzalanmış __.10.2020.
Formatı 70X100 1/16 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 12 ç.v.
Sifariş № ___ Tiraj 100 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 1